# RAFİQ TAĞI

## HEKAYƏLƏR

# "MEQAPOLİS QONAĞI"

Rübabə xala oğlugilə ildə iki dəfə - Novruzla Ramazanda gəlir. Ramazan hərlənib-fırlanıb Novruzla üst-üstə düşəndə, bu “iki” “bir” olacaq, deyir.

Çətini ölənəcəndi.

Panel doqquzmərtəbəmizdə onun gəlişi bizdən üstdə çöl qapının şaqqıltıyla açılıb, külək vururmuş kimi, zərblə örtülməsindən bilinir.

Onun törətdiyi şaquli zəlzələlərdən divarlarımızdakı qurumuş rənglər qopub tökülər.

Hər səhər yoldaşım döşəmədən ovuc-ovuc boz-yaşıl qırıntılar yığacaq.

Rübabə xalanın gəlişi həm də eyvanlarının qabağında əksəri ağ, nədənsə, biri göy olan, iplərdən sallanan gen darbalaqlardan bəlli.

Təzə yuyulanda, bu motala bənzər darbalaqlardan həyətə enli “yağışlar” yağar. Aşağıdakı, göydələnə oxşar binamıza heç cür yaraşmayan nazik, düzbucaqlı torpaq kəsiyində, darbalaq “yağış”larından tala-tala çəmənlər bitər. Çəmənləri qonşu gecəqondulardan gəlmiş sarı-sarı cücələr qırpar.

İndiyəcən mən Rübabə xalanın ikicə darbalağının şahidiyəm - göy və yaşıl.

Təzəliklərində tünd gördüyüm bu darbalaqlar getdikcə solur-ağarırdısa da, ayıb da danışıram, qabaqları yeyilib-nazilir, saralıb-tündləşir, sanki korroziyaya uğrayırdı.

Bazar ertəsi divarlarımızda seysmiklik yenə artdı: bu, dəqiqdi - Rübabə xala gəlib.

Sanki dəmir taxılı dabanların zərbindən tavanımız yüyürük kimi yellənir, uzun naqilli elektrik lampası sağa-sola atılmaqla, məzəli qövslər cızırdı. Lampa bir dəfə necə şahə qalxdısa, yalnız naqillə ilgək vurandan sonra aşağı endi.

Lampamız nadinclik edirdi.

Dava səsləri, hələ biz heç, onlardan yuxarıya da sirayət edir. Hamı bu tragikomediyanın tavan-döşəmə audiotranslyasiyasını dinləyəsi olur.

Darbalaqlarla üst-üstə düşdüyündən, mən bu boğuşmaları gəlin-qaynana darbalaq

savaşları adlandırıram.

Qəzənfərin kök, köklü bakılı qızı olan, insafən, pilləkənlərdə-liftdə həmişə başıaşağı, salam-kalamlı gördüyüm, arvadı, bir gəlin olaraq, ay bu trusu-darbalaqdı, uzunluqlar və alt tuman-köynəkdi, çöldəki iplərdən asılmağının qəti əleyhinədir.

Elə bir şey gördüsə, sanki ətini qopardırlar, cikkə çəkəcək. Elə bilir adam var gücü ilə qışqıranda, ədalət tez bərpa olur. “Bu nədü, ağəz! Mənim nənələrim alnı möhürlü arvadlar olub e!”

Onda Rübabə xala da hirsdən öskürür, əl-ayağı əsir. ...

Göyərtisatanlardan tutmuş, kişili-arvadlı min cür şəxs keçür qapumuzdan, ölümüzə-dirimizə söyməzlər? Bəgəm ürəklərində bu xərəbənin xoşqiryət sakinlərinə lənət yağdırmazlarmı?

Darbalaq-marbalaq namusa aid şey degül, ay şoğərib?

Heç ölüb-yerə girürsən? Yoxsa balkon sənünçün şmotka sərgisüdür?

Bizə çox gərəkdü ki, camaat sənün qaxac papışını zənn etsün? Ağəz, mən gündə beş-altı rəkət namaz qılan, az qala il boyu oruc tutan, ağzı dualı insanlar içində böyümüşəm e.

Görün, işdi bu? Yanıb-yanıb öz yağımda qovruluram! Ətağa cəddü, bir gün ya buna verən Allahdu, ya mənə!

Qulaqdan ağır Rübabə xala onsuz çox sözü eşitmir, eşitdiklərini də bu qulağından alıb, o birindən buraxır.

Gəlinin qaydası hürməkdir, qoy hürsün. Ancaq aradan pərdə götürüldümü, söz altda qalan da deyil. “Özüm pisəm, oğlum yaxşı?” - hərdən gəlinə buynuz göstərəcək. Bə niyə oruc tutub-namaz qılan ailələrin birində sənə yiyə durmadılar?

Qaramatın bizə qalmışdı? Gərək Allah səni bizim kor bəxtimizə yazaydı? Hökumətin buraxdığı darbalaq niyə ox olub gözünə girir? Özündən namus uydurma, qız! İnsandakı ayıb yerlər də gecə-gündüz ağzındadır.

Özünə-sözünə fikir ver. Əgər cinlisən, get cindara.

Alt geyimə təmiz hava dəyməli döyülmü? Əslikar elə aybaay “paltar olan”

qadınların pal-paltarı Günəşdə qurudulmalıdır.

Fazil Lənkəraninin yaşıl kitabından öz gözlərimlə oxumuşam: ayaqqabıya yapışmış nəcis belə yalnız Günəşdə quruyub pak olar, hətta rəngi-iyi qalarsa, eybi yox. Ayətüllahın qanı da şəriətdəndi, canı da, onun dırnağı biləni sənin başın bilməz.

Bəlkə trusu-maykanı aparıb sandığın içinə sərək? Sonra dərimizi yara-xora bassın?

...Özü də şoğərib özünsən!

Binamızdakı tualetlər səsgücləndirici effektlidir. Dava-şava səsləri orda sözbəsöz qulağıma çatır. Beşdən doqquza və həm aşağı - birəcən də, bütün mərtəbələrdəki dedi-qodunu istər-istəməz dinləməli olursan.

Dörddə Rusiya, üçdə Tehran televiziyalarına, altıda ən çox Türkiyə kanallarına baxırlar. Azərbaycanı dinləyən yoxdur. Yeddidən daim "Avara"lı, rac-kapurlu hind musiqisi sədaları eşidəcəksən.

İki və bir, səkkiz və doqquzdakı səslər qulağıma əks-səda şəklində çatır. Kəllədə bir narkomanımız var - onunku meyxanadı.

Hərdən üçdəki tualetdən qalxan azan səsləri bir-iki saniyə fərqlə uzaq vəhabi məscidindən gələn azanla üst-üstə düşür.

Gəlin-qaynana darbalaq savaşlarında Qəzənfər kişiləşib ananın təəssübünü çəkəcək: "Bax, elə etmə ki, səni boşayım".

Arvad: "Mənə xox gəlürsən? Özüm sənü boşayaram!"

Kişi: "Maman papanı boşadığı kimi".

Arvad: "Burda mamamla papamın adını tutmaginən!"

Qəzənfər: "Bə sənə tərbiyəni onlar verməyib?"

Arvad: "Bura meqapolisdü e, yollarında eşşəklər gəzən kəndüvüz degül".

Kişi: "Biləsən, Bakı meqapolislərə təşbehdir".

Arvad: "Xoşun degül, yol açıqdur".

Kişi: "...Dedim də, dədən verib sənə bu tərbiyəni".

Arvad: "Dədə yox, papa".

Kişi: "Yox bir, papa Benedikt".

Arvad: "Yox bir, Dədə Qorqud".

Ürək bulandıran, qulaq didən bu sözləri eşitməmək üçün gərəkdi həftələrlə ayaqyoluna girməyib, eləcə partlamaya düşəsən.

Qəbiz vaxtlarımda blokumuzda ülluzor sülh və əmin-amanlıq hökm sürür.

Çəkişmə yatan kimi Rübabə xala ağzını aşağı tutub, yoldaşımı səsləyəcək: həkim evdədi? Xahiş edir, bir ona dəyim. Dəfə-darağı götürüb qalxıram.
Onunku qan təzyiqidi.

Rübabə xala: "...Dığ-dığ evimizi yıxır".

Valı təzədən qoşmaması üçün, gülə-gülə barmağımı böyründəki burum-burum piy qatlarına toxundururam: "Hər şeyin kökü, bax, budur".

Rübabə xala: "...Dərdim min dastana sığmaz".

Mən (yalandan): "Dərddən təzyiq qalxmasını tibbi ədəbiyyat yazmır".

O: "Qurban olum sənə, bə camaat nədən qırılır?"

Mən: "...amma köklüyü, təzyiqin əsas səbəbi kimi, bütün müəlliflər göstərir".

Əslində Rübabə xala məni evə ürəyini yoxlatmağa yox, ürəyini boşaltmağa çağırır.

Mən özümü bilməməzliyə vurub yoxlayıram. Demək də olmur: ay xala, dərd-sər dinləmək həkimin vəzifəsi deyil. İnsanların dərd-səri həkim üçün vaxt itkisidir.

Qəzənfərgilin ikiotaqlısında əşya əlindən tərpənə bilməzsən. Gətirilən cer-cehizə hər maaşda təzə şeylər əlavə olunub. Mənzil anbar yerindədir. Hətta fəza da tutulub.

Təmiz hava almaq üçün gərək uzun burnun ola, onu tez-tez çölə çıxarasan. Paltaryuyanın da, soyuducunun da üstü qab-qacaqla dolu. Qaz plitəsi üzərində

haçansa kartof qızardılmış qara bir tavanın içində yağ donub.

Bunları mən mətbəxə əl yumağa keçəndə gördüm.

Çünki vanna otağında da ayaq basmağa yer yoxdu: çirkli camaşırla dolu taslar, “dəmir” hamam ayaqqabıları, dibdə qara bir daban daşı. Burda evin işığını udan yasəməni-yaslıca rəngli kauçuk vedrələr bir-birinə geydirilib.

Yasəməni-yaslıcalığın səbəbini ancaq gəlinin uşaqlıqdan yasəməni və yaslıca kəpənəyini sevməsinə yozmaq olar; bu həm də bufetin üstündəki vazada süni yasəmən güllərindən və soyuducunun yan səthinə yapışdırılmış yaslıca şəklindən bəlli.

Hə, qoşa-çarpayı tabut kimi yataq otağının tən ortasında.

Orda hərəkətlər yalnız divar dibiylə mümkünləşir. Divan-kreslo da qonaq otağının 5-6 kv-metrini zəbt edib. Burda yeganə funksional əşya televizordu.

Rübabə xala deyir, bir gün bu televizorda rayonlarını göstərirmişlər. Ötəri olsa da, öz qəbiristanlıqlarını görüb. Arvad uçunurmuş. Az qalırmış atılıb televizorun içinə girə: didərgin kəndçilərini qabaqlayıb, tezbazar qəbiristanlıqda özünə yer tutmaq könlündən keçib.

Dünyada nə çox möcüzə: bəlkə heç Zəngilan düşmən əlində deyil, bu rəngli qutunun içindədir.

Dərd dəyirmanıdı o: ciyər-böyrəyi yoxlananda da həkimə aman verməz - ürəyindəkiləri üyüdüb-tökəcək. Tələsgən sözləri fonendoskopdanca keçib mənə çatır.

Sözünün əvvəli də gəlindir, axırı da. Yanıqlıdır ondan. Kül onun “zavod kimyaçısı” başına, deyir.

Elə özü də üzvi kimya törəməsi kimi bir şeydir. Yassar oğlunun qeyrəti onu qane etmir: “Mən kişi olam ha, Azərbaycanımıza dodaq büzən bir qadınla dal-dala da yatmaram”.

Şəhərə də həmişə dolu gəlib, boş gedəcək. Gələndə əsas ət gətirər. Çantasından hinduşka qıçları, ət şaqqalarının ucları görsənər. Üstlərində də tənzif.
Rayonda heyvanat şəhərdəki kimi kağız yemir.

Qəzənfər anasının yanında özünü qurd kimi aparırsa, arvadla tək qalanda quzuya

dönür.

Qurdluğu artistlik, quzuluğu həqiqətdi. Onlar bir-birini necə istəyib, nə cür sevib, bir Allah bilir. Nə bunda, nə onda sevgi törədəsi əlamət sezilmirdi.

Əlbəttə, Sələmənin yumru dalı istisnadır. Yumru dal nəzəri cəhətcə sevgini stimullaşdıra bilər.

Sevgi təzahürü olaraq da bu, el adətiylə ancaq gecələr özünü büruzə verir. Saat 3-4 radələrində əvvəl divan-çarpayının nazik nərmədanları cırıldaşır, sonra nəleyinlər şappıltıyla vanna otağına səmtlənir. ...

Qısa sevgi "seans"ından sonra yuyunurlar.

Rübabə xala gələn bayramacan unudulur.

Həyatda Qəzənfərgillə bizi birləşdirən vacib dəyərlərdən biri zavodlarla korlanmış təbiət mənzərəsidir.

Qəlbinə neft hopmuş təbiət, yarpaqları ancaq yağışdan yaşıla boyanan, iki cüt bir tək xəstə ağacdan ibarətdir.

Payızda ağac qurdları çılpaq budaqlarda sanki turnikdə yellənir.

Zavodlar gecə-gündüz qəlyan kimi tüstülənəcək. Onların dam örtüklərinə düşən işıqlı yağışlar dərhal qonur şəlalələrə çevrilir.

Gözlərimiz önündə boz rəng hakimdir. Binamızın uşaqları elə bozluqla da estetik tərbiyələnir, gələcəyimizin lotularına çevrilirlər.

Təbiət bəlkə ancaq Günəş yağışlar üzərinə qövsi-qüzeh rəsmi çəkəndə şaqraq olur.

Novruzla Qurban olmasa Rübabə xala Bakı adı tutmaz da.

Onu "meqapolis"ə qovuşduran bağ özünü "Azərbaycan inqilabçısı" adlandıran babal oğludur.
Rübabə xala buranın ictimai birgəyaşayış qaydalarından baş çıxarammır.

Şəhər mənzili onun üçün "kubik Rubik" yerindədir. Burda qapısı olan hər yer kilidlənəcək. Kasalardakı top açarlar tavana xəncər-bıçağa oxşar işıqlar saçar.

Ağzı miniatür Çin kilidləriylə bağlı dolablar açılanda bəxt kimi açılır.

Meqapolisdə kranlarla gəmi kapıtanları kimi rəftar etməlisən.

Bakıya çatar-çatmaz gedəcəyi vaxtı Sələməyə bildirməsi Rübabə xalanın müqəddəs borcudur.

- Uzaq başı iki, ya üç gün sizdəyəm, - qorxa-qorxa deyəcək.

- Arvad, dilimin çüyü çıxıb deməkdən, mədəni ol. Konkret olginən - ya 2 de, ya 3.

- ...Gəldim balamı sevindirim.

- Balon uşaqdu? Bəlkəm yetimxanadadu o?

Rübabə xala bir gün çaşıb gəlinə "Səlimə" deyəsi. Gəlin az qaldı özünü cıra, qoşa barmağını soxub onun gözlərini yerindən çıxarda.

- Sizin kimi kəndçi-kündçülərdi "Səlimə"! "Sələmə"yəm mən!

Rübabə xala:

- Kəndçi-kündçü sənə neyləyib - başına daş salıb? Yoxsa "Sələmə" deyiləndə, ağlın artır?

- Diribaşıq biz!

- Gəlində diribaşlıq nə demək ola?

- ...Feministik!

- Bıy, başıma xeyir!

- Özü də burda "bıy-mıy" salmaginən.

Aradabir gəlinin də nədən ötrüsə bizə düşməyi var. Soğandan-kartofdan ötrü gələr, yoldaşımdan iki saat qopmaz.

- Gətirdiyi qozları göz gərəkdü görə: Ətağa cəddü, kəlbətinlə də sınmır.

- Vay-vay.

- Onda ət baltasını işə salıram. Bəlkəm də camaat elə bilür odun yarıram.

Yoldaşım:

- Neynəsin, müəllimdi, çalışır seçib ucuz şey alsın.

Sələmə:

- Ağəz, boş gəlsün. Ondan qoz istəyən var?

- Beyləqandan bura: atdana-atdana? Olmur, axı.

- ...Ət də nə ət - leş iyi verür. Onsuz özü çıxıb gedən kimi itə-pişiyə atıram.

- Denən, it-pişik kefdədi ki.

- Şor-pendirü də süzmələnə-süzmələnə qoyacaq üstə. Day qozda nə istahat qalar - şırımları-əyriləri şorla dolur.

- Nənəş, qanunnan gələn paya pis deməzlər.

- Nöyçün? Bəgəm mən pisə yaxçı deməlüyəm? Harda yazılıb bu? Yoxsam gicəm mən?

- Necə ola, pay bir sevincdir.

- Ağəz, gül ağzımı açma, eşşək boyda oğulu da ətlə sevindirərlər?

- Bə qoz?..

Bakı həkimi kimi Rübabə xala bir tək mənə inanır.

Hər gedəndə də özüylə rayona bir nataraz çanta dava-dərman aparacaq. Xəstəliklərinin ara adlarını bilər: bel ağrısı, ürək çırpıntısı. Bulud görən kimi dizləri topa dönür.

Haçan “kürəy”inə qulaq asmışam, ağrıyan yerlərdə tərli plastırlar görmüşəm. Yayqış ədyal belindən düşməz. Darbalağının düyünlənmiş rezini ətində çökəklər yaradır.

İlbəil canı düşür: ora-burasından dadsız piylər sallanır. Özü arıqlasa da, hələlik pudluq qalan döşlərini qaldırıb - əsl fəhlə işidi bu, fonendoskopu ürək nöqtələrinə təqribi qoyuram. Düz-əməlli bir şey eşitmirəmsə də, yalandan:

- Hm, - eləyirəm. Guya hər şey aydın oldu.

Ayaqlarına baxıram: görüm şişir?

- Dünən ayaqqabı alıram, bu gün ayağıma keçmir.

“Şişir”.

- Kökəlirsən.

- Bu sözü mənə başqaları da deyir. Onda mən onlara üzümün sallaq dərisini göstərirəm.

- Gözdü, üzdü - bunlar qəlbin aynasıdı, bədənin yox.

- Görün, insan eyni vaxtda həm kökələr, həm də arıqlayar?

- Bu dünyada hər şey olur.

- Avam canım.

- Müəllim tibb elmindən hər şeyi bilməli deyil ki.

Tavanımız damcılayanda, arxayınca çətiri açıb, miz arxasındaca başıma tuturam. Siyasi liderlərdən birinin qəzetdəki müsahibəsini oxuyub qurtarmalıyam. Ancaq liderin başı tezliklə islanıb ağırlaşır, qəzet burnunu aşağı dikir.

- Rübabə xala gəlib ha! - mən, gözüm yazıda, işdən qayıdan yoldaşıma sanki şad xəbər verirəm. Onda şərti refleks yaranıb: ayaqqabılı içəri sıçrayıb, çataçat tavana gözünü zilləyir.

- Muştuluq istəyirdin?

Susmuşam.

- İlahi, sənə asi deyiləm, haçanacan bayramlarımız qara gələcək!

- Sss. Nənəmizdi o.

- ...Yediyimiz-içdiyimiz zəhərə dönüb.

- Onsuz sənin də nənən yox, mənim də. Hazır nənədi.

Şam vaxtı, şirin-şirin çörək yediyimiz yerdə, başımız üstündəki elektrik lampası partlayıb söndü. Yoldaşım qorxub diksindi; getdi su içsin. Qayıdanda:
- Gözün aydın, lampa damır, - dedi.

- Sən də muştuluq istəyirsən?

Damcılar miz üzərinə düşən andaca parçalanıb qövslər cızır,

kiçicik fəvvarələr şəklində ətrafa səpələnirdi.

- Keçib daha. Qab gətir, altına qoyaq.

- Xalçalarımız çürüyəcək.

- Əntiqə. Təzələrini alarıq.

- Bu dünyada kaş sənin kimi arsız olaydım.

- Tərbiyənə bərəkallah.

- Ədə, üz gizlədirsən? Bir çıx, oğluyla danışsana!

- ...Sənə "beş", daha qarğış tökmürsən. Ürəyimə damıb ki, əvəzində Allah bizə oğul da verəcək, hələ qız da.

O, gözlərini gözəl göstərən ümidlərlə mənə baxdı.

Müharibələri insanlar, sülhü Allah törədir.

Allaha bir tək sülhü yaraşdırmaq olar.

Rübabə xala bir gün də mətbəxdə suyu açıq qoyası. Yıxılıb yatıb.

Divarlarımızdan şaquli sellər alt mərtəbəyə şığımadı bə.

Mətbəximizin bir divarındakı sel Günəşi inikas edib, qarşı sellər üzərinə narıncı-titrək "pəncərə" salırdı. Paralelopipedə bənzər bu dördbucaqlı əksin 1/3 hissəsi bitişik-perpendikulyar divara da düşdüyündən, $90^{o}$ qatlanmış kimiydi.

Sonralar bu nadir mənzərəyə görə minnətdarlığımı bildirəndə, Rübabə xala mat

qalmışdı.

“Meqapolis qonağı” hər gələndə, divarlarlarımızla döşəmə arasındakı düz bucaqlarda qarışqa meyidləri qara-qonur xətlər yaradır. Bu xətlərin üzərində, paraşütlə enibmiş kimi, hörümçəklər gözə dəyir.

Tavanda paslı sudan xəritə cızılar; bu xəritədə Afrika ölkələrinə bənzər mənzərələr görərsən. Rəngi qopub düşmüş yerlər ölkə paytaxtları yerindədir.

Dayan, bu kimdi belə? Kimdi qapımızı qıran?

Səsə necə atıldımsa, on barmağımın onu da qapıya çırpılıb, qoca bir fortepiano səsi çıxardı. Dörddəki Qorbaçov sifətli qonşumuz 20 Yanvarın sovet hərbçisi kimi savaş pozasında dayanıb, baxışlarıyla gözümü oyurdu.

Mimik əzələləri üzərində çabalayan nifrətində tarixilik sezilirdi.

Mən onun sərt-kəsici nəzərlərinə çənəmin əyri-köndələn hərəkətiylə cavab verdim: sel-su bizlik deyil. Nifrət onun gözlərində “kalaşnikov”a çevriləndəsə, vəhşət içində yuxarı cumub, Qəzənfərgilin də qapısına zərblə bir do-re-mi-fa həkk elədim. Rübabə xala - div yuxusunda. Keçdim yumruğa. Yumruq keçmədi. Açarla taqqıldatdım.

Şap-şup, şap-şup... Bu da Rübabə xala. Qırmızı lapar güllü qara yaylığını başında çalma eləyib.

- Bayaqdan qapını...

- ...Birtəhərəm dana. Dərd qurtarandı ki.

- Hm.

- Çöldə durma. Keç içəri.

- Sular bala-bala sizdən bizə şoruldayır, bizdən də dördə...

Karın könlündəki: mən “dörd” demişəm, bu “öldürən” başa düşüb.

- Bə nə, məni öldürən, bax, bu boynumdu, bir də iki kürəyimin arası.

Keçdim mətbəxə: ora göl durub. Konfet kağızları suda rəngli qayıqlar təki üzür.

Yan-yana düzülü, az qala əl-ələ tutmuş, zibil dolu sellofan torbalar yarıyacan sudaydılarsa da, yerindən tərpəşmirdilər.

Kranın altındakı çanaqdan sallanan, nazik buzlara oxşar zərif bir şəlalə görünüb-itən parıltılarla mətbəxi bəzəyirdi. Bu şəlalə üzərinə düşən şüaları soyuducuya yönəltmişdi. Ağ soyuducu zəfəranıya çalırdı. Tələsik kranı bağlayıb otağa qayıtdım. Rübabə xalanın Araz aşığındandı, Kür topuğundan.

- Ölümüm təzyiqdən olacaq.

Qulağına bağırıram:

- Allah eləməsin!

- Hay?..

Üzüldüm lap. Gölü özü görər. Getdim mən.

Aşağıda "Qorbaçov" üzümə donuz kimi baxırdı.

Əlimi əlimin üstə "kres" qoydum - bitdi bu iş.

- Məhkəməyə verərəm sizi!

- Əccəb edərsən! Mədəni adam bunsuz keçinməz.

Qabaqlar yoldaşım divarlarda nəm görəndə, vaveylası qulaq batırardı. Öyrəşib daha: başımıza əndərilən sulara sakit baxır. Onlara məzəli adlar qoyub - "payız yağışları", "miniyağışlar".

Hərdən "milçəkyağışı" deyir. Onun divarlarımızda bitən şibyələrlə öyünməyini görəsən. Suların divarlarımızı yumasını bir mənfəət sayır. Deyir, bununla həm də otaqlarda rütubət normada qalır.

Sel mənzərələri evimizdə canlı divar kağızı əvəzidir.

O:
- Allah üzümüzə baxıb ki, hələ uşağımız yoxdur, sətəlcəmdən öləcəkdi.

Mən:

- Allah gözləyir: qoy bunlar qazla-suyla rəftarı öyrənsin. Yoxsa uşaq onun əlində

nədi ki.

Yoldaşım ruhlanır, gedir xörək bişirsin.

Uzun divardakı xalçamız il boyu rütubət qoxuyur. Bütün yayı buxarlanırsa da, qurumur. Hərdən onun alt qıraqlarını sıxcalayıram: canından su tez rədd olub getsin. Xalçanın buxarından tavanda yaş bir qövs yaranıb.

Pəncərələri taybatay açmağın, otaqlarda yel vurub yengələr oynatmağın da xeyri yox. Ciyərlərimiz göbələk bağlamasa yaxşıdır. Revmatizm dabanbasdı bizi axtarır.

Əslində biz o xalçanı divardan "aboy"dakı keçəl yerləri ört-basdır etmək üçün asmışdıq.

Nəyimiz olmasa da, xalça-palazdan boluq. Toyumuzda hərə bir-ikisini pay verib. Biz də onları qır-qızıl kimi dar günə saxlamışıq.

Sirr açıram, həsirlərimiz də var: onları dürgələyib küncdə dikinə qoymuşuq.

İşə bax, biz ömrü boyu xalı-xalça almamışıq. İndən belə yəqin almarıq da. Alnımıza bu təcrübəni qazanmadan ölüb getmək yazılıb.

Gərək boynuma alım: xalça-palaz, hətta həsir almaq təcrübəsi də insanın həyatda yetkinlik şərtlərindəndir.

Amma çətini ölənəcəndir.

Həyat dramatikləşdikcə, yoldaşım hər sözümə Quran ayəsi kimi inanır.

Ən bədbin proqnozlarıma belə ümidlə baxır. Qara yola, qara saata bir gün ona - "Qurban bayramı haçansa gəlib qışa düşsə, otaqlarımız stalaktit və stalaqmitlərlə bəzənəcək", dedim. O: "Bu, yaxşıdır, ya pis?" - soruşur.

Dilimə birinci "yaxşı" kəlməsi gəlir. Görürəm, sevinən kimi olur. "Başımızı sellər yuyur, topuqlarımız da suda: biz dastan qəhrəmanları kimi bir şeyik, - bu sözümdən hətta gülən kimi olur. - ...yəni mən qəhrəmanam, sən də mənim yarım".

Gün gələcək, Rübabə xala evin texnikasıyla maşinist kimi sərrast davranacaq.

Biz Rübabə xalanın sayəsində şər üzərinə cırtqozcasına yeriməmək təcrübəsinə yiyələnirdik.

“Allah göydən hər şeyi görür”.

Mən övlad barəsində yoldaşımı ancaq Allahla aldada bilirəm.

Son macal altımızda rahatdılar, zarafat-zarafat, altıdakı qəzalar birəbeş azalıb.

Əvvəllər ana bir göl onların döşəməsində duranda, ona paralel bala bir göl bizdə durardı.

Ekologiya sanki getdikcə pozulur, göllər quruyub damcılar səviyyəsinə enirdi.

Mən evimizdəki göllərdə çömçəquyruqlar görmüşəm. Hətta böyüməkdə olan balıqlar gözümə dəyib. Bə hanı onlar? Gələcək övladımız indidən təbiətdən məhrum olur. Ona bu döşəmə göllərində balıq tutmaq öyrədəcəkdim. Mağıl uşağın yaddaşında ev gölləri xatirəsi qalardı.

Mən “əfsus”, deyəndə, yoldaşım “hayıf” dedi.

Mətbəximizdə, elə vanna otağında da, divarlar axıb qurumuş sulardan xət-xətdir. Xətlər dərdlərlə süslü sarı simlərə bənzəyir.

Bu “sarı sim”lər geosiyasi düşmənçilikləri lakmus kağızı kimi üzə çıxarırdı. Bir dəfə barmağımı qurumuş xətlərə sürtüb, pası yoxladım, hələ bir onu qoxladım da.

Beynimə qıyıq kimi sancılan lax yumurta, tüntümüş yağ və tünd çürüntü iyi çay yuxarı mal-heyvan ölüsünün, içalat və kolbasa sexlərinin tullantılarındandı.

Amma hərb səhnəsində düşmənçilik edən xalqlar mədəniyyətlərində bir-birinə dost olmalı idi.

Müharibələrdə bəşəriyyətin sığınacağı vahid sülh məkanı mədəniyyətlərdir.

Bəzən vanna otağının divarlarını yaşılımtıl-gümüşü kif göbələkləri bürüyür. Orda-burda cumbulu qurbağalara bənzər tünd yaşıl şibyələr gözə dəyir. Sevinməyib, neyləyəsən, vanna otağımızın naxışları təbiətdəndi.

Bu kif göbələkləri bəlkə də təbiətin bizə ehtiramıdır.

Yoldaşım şibyələri də, kif göbələklərini də silməz; böyüyür-artırlarsa, canları-ruhları var, qoy yaşasınlar.

Qoy evdə uşaq əvəzi canlılar çox olsun.

Biz artıq həkimdən-dərmandan üz döndərib, insaniyyət-mənəviyyat məsələlərindən övlad umurduq.

Boş çanaqdı, vururduq dolu çanağa. Tutar qatıq, tutmaz ayran.

Düzdü, bunu ən axmaq, başıboş adam da bilər ki, şibyələrin xətrinə dəyməməklə ata-ana olmaq istəyi səhrada balıq sevdasıdır. Lakin hərdən özüm də xurafata qapılır, yoldaşımın ümidlərində həqiqətə bənzər şeylər axtarırdım.

Rübabə xala da içində, Qurban bayramı zaman boyu gəmi kimi irəliləyir.

İbrahim peyğəmbər oğlu İsmayılı gah qışda qurban kəsmək istəyib, gah yayda. Axır bu bayram gəzib-gəlib yaya düşəndə, otaqlarımızdakı yağış mənzərələri göydəndüşmə oldu.

Yumurta bişirən istilərdə, göydən od ələnən avqustda divarlar yapon kondisionerləri kimi evə sərinlik yayırdı. Yağışın özündən səmərəli olan "sürüşkən" yağış mənzərəsi məni çətir tutmağa vadar etdi.

Əl atıb təsadüfən götürdüyüm "Səfillər"dən bir fəsli elə çətir altındaca oxudum. İşə bax, orda da yağış təsviri verilirdi.

***

Qəzənfər icarəyə götürdüyü "Tofaş"da "taksovat"lıq eləyirsə də, kim hansı işdə çalışdığını soruşsa, "azadlıq hərəkatındayam", deyəcək.

Mitinqlərdə iştirakın təhlükəsiz üsulunu tapıb: sancılıb ağac kimi bir yerdə durmamaq. Polislər küt-sarsaq şeylərdi - ziqzaq şəklində çaşdırıcı hərəkətlər etmək, bacardıqca onları aldatmaq. "Paqon"ları tovlamaq fəzilətdir.

Mitinqlərdə hərəkətlərin xaotikliyi istənilən azadlıq mucahidinin həyatında harmoniya şərtidir.

Zənn edirdimsə də ki, səfehdi bu, bir qonşu kimi, onu ağıllı saymaq borcumdu.

Kütləvi tədbirlərdə kimin qol-qıçı sınsa, Qəzənfər gedib ona baş çəkəcək.

Öz liderindən yerdən göyəcən razıdır. Düzdü, göygöz və keçəl lideri hələ onu üzdən tanımır. Tanıyar, inşallah. Ümidini kəsməyib. Xoşbəxt bir gündə - icazəsiz piket, ya mitinqdə, şikəst olarsa, bəlkə gəlib ona dəydi.

Liderlərin sıravi yoldaşlara baş çəkməsi faktı az deyil.

Mitinqlər ərəfəsində, ya sonra, həyətdə-dükanda rastlaşdıqmı, azadlıq məsələlərindən ayaqüstü söhbətlər edərik. Bu həm də bir ziyalılıq dəbidir. Gündəlik normamız beş-on dəqiqədir.

“Demokratiya pis şey deyil”, - bunu o deyir.

“Azadlığa itirilən vaxt itmir”, - bunu da mən.

Bu cür əndrabadi-hikmətli sözlərdən sonra ayrılırıq.

Qəzənfərin azadlıq mücadiləsi əsasən xəlvəti söhbətlərdən ibarətdir. Gözə dəydisə paqon, dərhal söhbətə son, i otsyuda von.

Mitinqlərdə yediyi kötəklər blokumuzda onu hörmətə mindirib.

Deyir, elə bir il olmaz ki, Milli Dirçəliş günündə “ANS” telekanalı onun gah peysərini, gah da bədəninin sağ yarısını göstərməsin. Sağ qulağı iri planda ekrana çıxır. Mir Şahin onun tüklü peysərini və sağ qulağını populyar edib.

Guya bilsəymiş onu çəkəcəklər, başını qırxdırıb mitinqə gedərdi.

Bir dəfə çaşıb ondan soruşanda ki, qardaş, bəlkə heç o sənin qulağın deyil, bərk xətrinə dəydi. Əlbəttə, belə çıxırdı ki, mən onun azadlıq hərəkatında xidmətlərinə şəkk edirəm.

“Səncə, mən öz qulağımı tanımıram?” - o, sualımın qarşısına sual diyirlətdi. Deməmişkən, qulaq seyvanının yuxarısında qara bir xal var, üstəgəl, o vaxt o, qulağına sarı dərmanlı pambıq tıxayıbmış.

Qəzənfər telekanalın arxivindən həmin kadrların surətini almaq niyyətindədir.

Hərdən də “Tofaş”dan düşüb, qabağından gündə yüz yol vızzadan keçdiyi, bir gün vəzifədə oturacağı Hökumət Evinin divarlarına əlini sürtər.

***

Odey, Rübabə xala gəlir! Qaz yerişi balkondanca tanınır. Sabah toyumuzdur. Həmişəki kimi də, hədiyyəsi - ət. Çantasından üstü tənziflə örtülü qoyun şaqqasının dizi çölə çıxırdı.

Qurban ətinin effekti bir gündən artıq sürmədi.

Qurbanın müharibə yatırma gücü az imiş.

Gəlinin "qiryət"i bu dəfə də qaynanasının darbalağını həzm etmədi.

...İnsan didişmələri hardasa pişik boğuşmalarını xatırladır.

Savaş bayrağı kimi də Rübabə xalanın göy darbalağı teldən asılıb.

Gilavar hərdən onu yelləadir, axşam Günəşində kölgəsi eyvana düşüb tez də keçir.

Səhəri, hamı çəkilib işə gedəndə, Rübabə xala eyvandan yoldaşımı harayladı: həkim evdədi?

Həməncə onlara qalxıram. Bir dayan, sağ yanaqdakı bu göy ləkə nədi? Nə olacaq, dünən gəlini ona oğlan kimi kəllə atıb. Birdən uşaq kimi ağlamağa başladı.

"Mənə deyən gərək, burda nə itin azıb. Bir də qələt edərəm..."

"Başa düşmədim".

"...Səndən çox yaxşılıqlar görmüşəm".

"Nə? Hansı?"

"Halal elə".

"Əşi, yaxşı görək".

Günortadan keçmiş Rübabə xalanın, yan basa-basa, avtobus ayağına getdiyini gördüm. Söykənəcəkdən bədənimi az qala yarıyacan çıxarıb, ona əl edə-edə qaldım. Arvad dönüb geri baxmağı fərz etmədi də.

Çətini ölənəcəndi.

- Vay səni, arvad darbalağını unudub, - fikir verməmişdim, bunu dalı qatdan yoldaşım dedi.

Göy ipdən asılı yaşıl darbalaq "Xəbərçi" proqramınacan yoxa çıxdı.

Ertəsi gün mən Rübabə xalanın bu "yadigar"ını binamızın böyründəki zibil

çənində bir qıçından sallanan gördüm.

**7.I.-23.IV.2010-cu il**

## "EVİ MÜHARİBƏDƏN SONRA TİKƏNLƏR"

Yadulla tələbəlik şəklini mənimkiylə bir saxlayır. Şəkildən ona baxan qaraqaş-qaragöz oğlan elə bil özü yox, başqasıdır.

Artıq o, şəkildəkindən daha çox mənim uşaqlıqdan yaddaşımda hifz olan atasına bənzəyir. Ata ölüb gedəndən sonra, iraq olsun, sanki təzədən dirilib.

Kəndçi həyata atılan kimi, bir neçə iş var, çalışır tələsik onları görsün ki, bir növ, canı qurtarsın: biri evlənməkdi, biri də hardasa binə salmaq, olan-olmazına baş soxmağa yer qaraltmaq.

Səfər evlənməyinə evləndi, amma bu ikincisinə çatmadı.

Çiy kərpicdən alt mərtəbəni götürər-götürməz, dünya qarışdı, aləm dəydi bir-birinə.

Zəmanənin iri-iri dalğaları onu qamarlayıb, ən yaxını Taqanroq olan, uzaq-uzaq yerlərə tulladı.

Yadulla da sanki atasının onu düşməndən qoruyacağına arxayın olub, ya bəlkə qoy evdə adamın sayı düz gəlsin, kişi gedib hələ döyüş səsi eşitməmiş dünyaya gəlmişdi.

Müharibəni də elə müharibə qaydasınca – atasız başa vurdu.

Axırda tale birinə babaya oxşar ata, o birinə nəvəyə bənzər oğul bağışladı.

Oğul atanın cavanlığını görmədi, ata oğulun uşaqlığını.

Səfər qayıdıb nə gördü: ala-yarımçıq qoyub getdiyi evin kərpicləri qar-yağışdan ovulub-tökülür, yerdən üç-beş qarış hündürlükdə divarların üzərində dərin-dayaz

caynaq izləri var. Gecələri orda it-pişik mırıldaşır.

Otaqların kvadraturasında hündür qanqallar şax dayanıb.

Palçıq kərpiclərdə çayır bitmişdi. Qıraqdakı, Nikolaydan qalma küskün ata evinin də, Allaha şükür, qabırğaları sananır. "Ata evi" deyəndə, bir az lovğa çıxır - amanabənd quş yuvası, itələsən, aşardı.
Qəhər onu boğdu.

Qeyrət güc gəldi. Gözləməyi vicdanına sığışdırmadı. Günü sabahdan qol çırmayıb işə girişməli!

Deyən, plan baş tuturdu. İməcilik iməcilik üstündən. Evin materialı yox yerdən yarandı. Kərpic işi su asanı – çöl-bayırda torpaq nə çox. Pəncərə-qapının da - kəndçilərdən hərə birini verdi.

Məncə, Göydəki kişi özü işə qoşulmuşdu.

...Təzə ev qoxusu çiçək rayihəsi kimi yavaş-yavaş həyətə dolur, ailəyə sanki bahar gəlirdi.

Ancaq Səfərin qollarındakı güc bircə evə güclə çatdı. "Tez ölmək üçün" müharibədən bir düjün xəstəlik gətiribmiş.

Qapı-pəncərəsi başqa evlərin olan bu daxmanın içində düz-əməlli beş gün ayağını uzadıb dincəlmədi.

"Səfər ölmək üçün ev tikdi", dedilər.

İllər sıralandıqca, rəhmətlik Səfərin bu "yadigar"ı get-gedə ölgünləşir, yağışdan sonra göbələk kimi artan imarətlərin yanında kölgədə qalırdı. Qapısına da on yerdən kilid vur, nadinc küləklər girib içində gəşt edəcək.

Artıq bu evin bir mismar vuranı tapılmaz.

Yadullanın ipini çəkən yox: atası, guya o dünyada evi var, köçüb gedən kimi, o da bu dünyada qaranəfəs özünü Rusyətə vurdu.

Rusyətdə də adamı gül-çiçəklə qarşılamırlar - çox gəzib-dolandı, başı daşdan-daşa dəydi, axır babat maaşı olan, özü demiş, "marallı Sever"də bənd aldı.

Onunla yazışırdıq, bilirdim ki, buzlu Şimalda özünü oda-közə vurur, namxuda, əli

də yaxşı gətirir.

Guya həm də orda görmədiyi günləri görür: qızlar leş kimi – az qala adamın başına dırmaşırlar.

Ancaq didərgin adamın qazancı nə olacaq – burdan gəlir, ordan gedir.

Çörəyinin bərəkəti yoxdur – bunu hamıdan əvvəl özü deyir.

Rusyətə təzəlikcə getmədi bə; bir də görürdün qayıdıb. Noolub, nə xəbərdi? Gələn kimi də pulunun düşməninə çevrilir. Yadulla gəldisə, hüzürlər bayrama dönəcək: yasın bütün xərci onluqdur.

Toylarda onluqları qələt edib haçansa ona salam vermiş hər kəsin, əsas da onu "tərbiyələndirib adam eləmiş" müəllimlərin başına xəzəl kimi səpələr. Nədi, bala, talandı?

- Kapitalistsən?

- Necə bəyəm?

- Özünə bir gün ağlasana. Bu düşük vərdişləri də yığışdır.

Mən onun başına ağıl qoymaq istəyəndə, o, tapança kimi açılır:

- "Bağla söz körüyünün ağzını"!

- Rayonu su yoluna döndəribsən!

- Vətənimdi – gəlirəm. Sənə isti-soyuğu var? Yoxsa buna da norma qoyublar?

- Ay başına xeyir, fikirləş, gör bir hardan gəlirsən! Bura deyil, ora deyil.

- Keçmiş sinif yoldaşı kimi mənə ürəyin yanır, hə?

- ...İnsan balası Azərbaycana ildə neçə yol gələr!

- Haçan istəsə!

- Səninki söz güləşdirməkdi. Hər şeyə qulp qoyursan.

- Qoca-qoca danışma.

- Qazan, kim sənə deyir qazanma. Ancaq gəl ata yurdunda təsərrüfat da qur.

- Hələlik elə niyyətim yoxdur.

- Hampa ol, hampalara qoşul.

- Yox bir, “pompa” ol!

- Xəbərin var – divarlarınız əyilib?

- Evi müharibədən sonra tikərlər.

“Oddan kül törəyər – düz deyiblər,” – kənddən çıxan kimi məclislərdə Yadullanın qarasına min cür söz danışırdılar. İkilikdə özüylə savaşıb-didişsəm də, özgələr yanında onu ayağa verməzdim.
- Qorxur ev götürə, müharibə başlaya, ona görə də...

- Bə camaat tikir, heç nə olmur?

- ...Özü gecikdirir ki, qoy bir dənə də müharibə olub qurtarsın.

- Bəlkə olmadı?

- Bəlkə oldu? Bu da var.

- Qocalarımızın yadındadı: atası o vaxt ev başlayan kimi müharibə qoparağını götürmüşdü...
- Vallah, bunlar bəhanədir.

- Sarsaqdır, vəssalam.

- Deyir, evi müharibə qurtarcaq tikərlər ki, barı içində otuz-qırx il baş-qulağı dinc yaşayasan.

- ...Təmiz söhbət!

- Ay balam, indi biz ona müharibəni hardan tapaq?

- Yox, ağlı çaşıb onun.

- Başı qaçıb.

“Bəlkə daha heç vaxt müharibə olmadı?” – görüşəndə camaatın sözünü öz adımdan ona çatdırıram. “Müharibəsiz dünya olar?” – o, dodaqucu gülümsəməklə sözümün qabağına söz diyirlədir.

- Axı, nə yapışıbsan bu müharibənin quyruğundan?

- Müharibənin quyruğu olmur.

- Hər şeyi də zarafata salırsan.

- Ağlaşma qurmalıyam ki?

- Axı, bir anlığa təsəvvür elə ki, qocalıbsan...

- Eləmirəm!
- ...Bax, onda vaysınacaqsan. Görəcəksən it də gedib, ip də.

- Tik evi, qaç müharibəyə. Qoy xarabanda bayquşlar ulasın!

Hər dəfə mənim bir Quranlıq sözüm onun bu qulağından girib, o birindən çıxır. Ay budu ha, yenə üz qoyur öz Şimalına. Sanki göbəyi ora atılıb. Ay da tamam olmamış, bay, eşidirsən, qayıdıb.
Ora gedir, orda darıxır, bura gəlir – burda.

Yollar onun pullarını hortultuyla içirdi.

Mən birlikdə bir ton çörək kəsdiyimiz bu tərs keçini pişim-pişimlə qurdalayıram:

- Vaxtdır, gəl köməkləşib sənə bir ev qaldıraq.

- Sonra da müharibə başlasın?..

- Allahu-əkbər, ə, sən nə sarsaq şeysən, - camaatın sözünü öz dilimdən ona deyirəm.

- ...Onda it də getsin, ip də? – o da mənim sözümü özümə qaytarır.

Onun ata evi get-gedə arxaya qacıyırdı. Keçmişdə tualet yeri olub, deyirdilər, özülü boşalıb. Özü burda olmayanda, qonum-qonşu yığışıb, beş yerdən ona dayaq atmışdıq.

- Day bu evin hay-hayı gedib, vay-vayı qalıb, - artıq camaat da dil olub dillənir, təzə ev barəsində ona eyham vururdu.

- Fəxr edərdik. Tiksən – adımızdı...

- Hələ bir görüm. Müharibə tez olub qurtarsaydı, işimi bilərdim.

Qozbeli qəbir düzəldər. Yadulla eləcə marallı-pullu Şimalın yollarını ağardır. Gəlir, gedir, gedir, gəlir. Elə bil bu kənddə yaşayır, qonşu kənddə işləyirdi.

**5 oktyabr 1986 – 5 avqust 1987-ci il**
**(yenidən işlənib: 1-6 yanvar 2011)**

## "OT TAYASI İLİ”

Uşaqlıqda çox əziyyət çəkənlər görmüşəm ki, ölməyib qalanı indi də çəkir. Əziyyəti əvvəl görən elə axıracan görür.

Ot yığımı vaxtı Bilal kişiylə qonşu düşəndə, atam onu, ya o, atamı, səkçədə gətirdikləri bumbuz suya, ya nanəli ayrana qonaq edərdilər.

Ətrafda qadın xeylağı gözə dəymədisə, qurşağacan soyunan bu kişinin qıvrım əzələlər oynaşan bədəni suyu, ya ayranı torpaq çatı kimi sümürərək özünə çəkərdi. Ayıb olmasın, bu bədənin sayəsində beş-altı uşaq dünyaya gəlmişdi.

Həyətindəki sayagəlməz mal-davar da onun gücünə hamınınkından “uzunömürlü”ydü.

Dünyasında o nə bir inək, nə camış satar, öldürəsən, nə dana, nə bir qoç kəsərdi. Hətta Qurban bayramlarında da.

Bəzi qarayaxalar daldada adını “kafir” çağırırdısa da, o, fəxrlə deyərdi: hər il bu bayramda bir dana, ya bir qoç xilas edir. Çünki onların heç birindən ayrılmaq istəmir.

Onun var-dövləti çoxalıb-çoxalıb, heyvanlar yalnız özü brüsellozdan-dabaqdan, ya

xəfənəkdən tələf olduqca azalardı.

O, tanqahın bu cür çoxalıb-azalmasına gülə-gülə tamaşa edərdi.

Uşaqları sarıdansa arın-arxayındı: həyatları hələ qabaqda. Öz həyatı arxada qalmışdısa da, buna heyfsilənmirdi, əsas – uşaqlardı.

Bilal kişidə alın yazısıydı bu: hər il qırmızı bir yay ayında, tövlədən yol tərəfə, qızıl inəkləri rəngində ot tayası qoymaq.

Ot tayası qum saatı kimi ot tayası ili idi.

Görən, onun ömründən neçə ot tayası ili qalır…

Uşaqlarsız, mal-qarasız Bilal kişi neylərdi – onu uzaq səyahətlərə çıxan, kurortlar gəzən fərz etmək çətin peşədir.

Kişi gecə-gündüz qocalır, amma nə yaxşı, dəmir əzələləri də işindən qalmır. Dişləri atma, əzələləri – əvvəlkilər. Elə bil onları yaxşı zavod buraxıb; köhnəlmək bilmirdilər.

Ta çalışır da ot tayası illərinin özülünü Həmidlə bir qoysun; onu oğulla öyünmək ehtiyacı duyduğundan köməyə çağırardı.

Həmid gedib, getməyə bilmədiyi, əsgərliyini çəkib gələndən sonra, artıq dəliqanlılıq borcunu da ödəmişdi: beş-üç toyda dava saldı, milislə üzləşdi. Milislə üzləşmək bizim adamların gənclikdən ən şirin xatirəsidir.

Evlənməklə hər şey bitdi. Toy – hər şeyə nöqtədir. Sonra eynilə atası kimi ömür sürməyə başladı.

Onun üçün də ot tayası illəri sarı muncuqlar kimi yan-yana düzüldü.

Beşcə dəqiqəyə yumurta bişirən qızmar günlərdə onun bədəninin çəkdiyi zülümlər də atasınınkına bənzəyər, parıldayan dərisində tər puçurlayardı.

Atası onun qabaqdakı qocalığı, o, atasının arxadakı cavanlığı idi.

Savadı necə qıcqırmışdısa, Həmid "Lenin" sözündəki iki "n"dən birini "l" bilirdi – "Lelin". Bir vaxt şüarı buydu: biz Lelin yoluyla gedirik.

Elə ki uşaqları dal-dala düzüldü, belə sözləri tərgitdi. "Ardbaard gələn balalarıma

eşq olsun!” – parad qəbul edirmiş kimi doğulan uşaqlarını həyətdəcə salamlayardı.

Nəçisən, soruşana da – “texnika sahəsindəyəm”, deyərdi. Atası dəmirçiydi (mən ona uzun nizələrə oxşar otçəkənlər düzəltdirmişəm), özü isə elektromontyor oldu.

Onun diliylə desək – tokçu. “Tokçu”luğundan çox razıydı. Naşükürlük nə lazım, cibxərcliyi də olur. Bir tək toyxananın işığını çəkməklə iki-üç ayın “paprızpulu”su birdən çıxır.

Həmid “şotçik”in işini kinolent qırığı, ya nazik tel keçirməklə dayandıranların “atalarını yandırmaq üçün” evlərindəki bütün işıq “toçka”larını qeydə alırdı.

Qıraqları əzik, vacib vərəqləri gah yuxarı, gah aşağı küncdən qatlanmış, bloknotunda yazırdı: Əşrəf – 7, mötərizədə – (yeddi) labuçqa, 2 (iki) elektrəplitə.

Bəzən rəqəmləri ixtisara salıb keçirdi sözə: Qulam – bir ədəd televizor, bir – xolodinnik…

Bu əsnada heç kəs də ondan qorxub-çəkinməzdi.

Onu təkcə sevə bilirdilər deyə, eləcə sevərək də, şəfəqlənən “labuçqa”lar kimi işıqlı üzlərini ona sarı çevirər, guya acıqlı hərəkətlərini təbəssümlə seyr edərdilər.

- Ay Həmid, sən elə “bir qurulu ev” yaz, qurtarsın getsin də-ə, xörək soyudu, axı.

- Biz xörək yemirik. Özü də “ev” işığa dair termin deyil.

- Niyə? Bə “ev” elə bir televizor, bir soyuducu demək deyil?

- Elə şey yoxdu, siz evlər görməmisiz ki, içində iki-üç televizor, üç-dörd soyuducu olur. Gör neçə rozetka elə burda getdi.

- Di yaxşı, gəl otur əvvəl bir çaylayaq, eynin açılsın… A-az, əlli tərpənin, nəyiniz var orda?!.

Cərimə bozbaşla, əksərən də balıq-plovla bitirdi. Hamı əzbər bilirdi ki, Həmidin ölümü balıq-plovdur. Düzdü, boranılı-mərcili plova da yox deməzdi.

Qazancı əsasən yay-payızda, toy mövsümündədir.

Yay-payızın bircə məhərrəmliyi olmaya.

Atası kimi indi onun da beş-altı züryəti var; bəbək qalmalı işdi, qızlı-oğlanlı hamısına "davamçım" deyir. Həmid Bilal kişinin təkrarıydısa, uşaqları – onun öz təkrarı. Oxşar göz-qaş, burun-qulaqlar sirri-xuda şeylərdi.

Yəqin Bilalla Həmid müxtəlif əyyamları görmək üçün bir-birindən aralı doğulmuşdular.

***

Göylərdən növbəti bəla enəndə, o, səhv-düz, gəlib Həmidi tutdu. Sinəsində ağrı-yanğı necə oturdusa, o, evin alt gözündəki həsir döşəli palçıq döşəməyəcə xıxdı. Feldşer gəlib atasına pıçıldadı ki, ola bilsin, infarktdı və nədənsə, vitamin vurmağa başladı.

Həmid gözgörəsi gedər-gəlməzin qıraqları qırlanmış məşum qayığına mindirildi.

Bilal kişi – "yuxarıda Allah, aşağıda sən", deyə-deyə, fırfıra kimi feldşerin başına fırlanır, xəstədən çox onun qadasını alırdı. O, feldşerin iynə qaynatmağında, pambıqda və spirt iyində ümidverici bir əlamət görürdü.

Həmid də səsi çıxandan-çıxana, indidən feldşerə öz razılığını bildirir, səsi çıxmağını bu faydalı işə sərf edirdi.

Builki ot tayası ili bir neçə gün əvvəl girmişdi.

Sabahı hamı ayılıb gördü Həmid yoxdur: cismi-cəsədi var, özü yox. Vəsiyyət ölənin yaraşığıdır, onusa da eləmədi.

Cəsədə baxanların matı-qutu qurumuşdu: bu, Həmiddisə, niyə heç nə deməsin, yox, Həmid deyilsə, bə niyə həmişə onu Həmid tanıyıblar?

"Bəs mən?" – Bilal üzündəki bu sualla, tez-tez ağır yumruqlarını başına vurur, iri addımlarla da ortalıqda iti-iti gəzirdi. "Başına vurma, qan sızar," ona nəsihət edirdilər, di gəl, bu, bir az da üstünə qoyurdu.

Axı, Həmid niyə fərli oğul çıxmasın: qabağa keçdi, onun yerinə öldü. Qoca qalır, cavan ölür.

Bu işdə Allahın məqsədi ona çatmırdı. Bilal adlı adam Həmid adlı oğlundan əvvəl doğulubsa, canı çıxmalı, ondan əvvəl də ölməlidir. Yoxsa bu nədi belə?

Bilal öz məntiqini Allahınkından düzgün sayırdı.

Axı, bu uzunluqda ömrü neynir o? Çaşıb heç ölməz.

“Bəs mən?..”

***

Bilal kişinin ot yığımı vaxtı çəkdiyi əziyyətləri göz gərəkdi görə: tər bədənində ağ milçək kimi gəzər, milçək bədənində qara tər kimi görsənərdi.

Qəfil oğul ölümünü hər kəs görmür.

Fələk xam adam tapmışdı; yəqin bilirmiş də ki, Bilal o dərdi lal-dinməz çəkəcək. Onsuz bütün ömrü boyu hər dərdi o, heykəllər kimi səssiz çəkib.

Bir başqasının az-maz qanı qalxar, vay, bundan külli-aləm xəbər tutar. Onun iç-içalatı lap çürüyərsə də, bunu bir insan oğlu bilməzdi. İndi əlinə lap girəvə düşdü.

Daha o, azar-bezara ancaq sevinəcək.

Xəstəliklərin tezöldürənini arzulayar.

…Gələn ot tayası ili gəlməz daha. Qaranlıqlardı qarşı…

**27.VII – 10.X.1990,**
**işlənib – 28 aprel 2005-ci il,**
**yenidən işlənib – 6 mart 2009-da**

## "MAGİSTRAL XƏTLƏR KEÇƏ O TORPAĞIN ÜSTÜNDƏN..."

Professor Rəşidin dilinə söz düşüb - Yer kürəsinin bir parçası onundur. Kvadrat formalı torpağın yan xətlərindən

Yerin mərkəzinəcən xəyali punktirlər çəksən, dörd yanı sanki tüldən olan, konus yaranar ki, deməmişkən, bu da onundur.

Ta konusun içində nələr var, nələr yox, orda hansı faydalı qazıntılar yatır, bunu bir Allah bilir.

Konusu, təqribən bir-birinə paralel, yeraltı çaylar kəsib keçmiş olar.

Daha dərin qatlarda gizlin mənalara bənzər qədim şəhər qalıqları taparsan.

Ancaq professor hələ o torpağın üzünü görməyib. Təkcə yuxuda - Ayla işıqlanan ayaz bir gecədə, sağ ayağının baş barmağı ora toxunub. Qaratorpaqdı, sarıtorpaqdı - bundan xəbəri yox.

Ömrü boyu torpaqla maraqlanmağı ayıb bildi. İşlədiyi universitet çevrəsində torpaq həmişə kiçik maraqlar sırasında olub. Xüsusiyyətçilik təzədən gələndə, "mexaniki" adına yazılmış bu yeri, yatağa düşdüyü günəcən də, lüzumsuz sandı: təsadüfi coğrafi genişlənmə, "qrıja" kimi bir şey.

Öz dilindən çıxalı, bu saat onda iki "qrıja" var: biri bu təzə torpaq, biri də - sol qasığından sallanan beşkiloluq köhnə torba.

Torpaq işlərinə daim həqarətlə baxdı. Torpaqda əlləşənləri asanca təhqir edə bilərsən - ona həmişə elə gəlib. Onları yerdə qurcuxan soxulcanlara bənzətsən belə, sənə olan hörmət-izzətindən əl çəkməz, üzünə gülümsərlər.

Düz beş aydı ki, maqnit bənzərli yataq onu balaca mismar kimi özünə çəkib.

Gün boyu da gözü hansı dördbucaq cismə - divarlardı, televizor, ya kitablar - sataşdısa, torpağı yadına düşəcək. "Pay torpağ"ı haqqında yeganə xatirəsi onun kvadrat formalı həndəsi fiqur olması idi.

Mürgü döyən vaxtlarında həmin kvadrat xəyalında yumrulaşır, səthinin ümumi sahəsi bir hektar olan kiçicik "Yer kürəsi"nə çevrilir.

Paybəlli torpağı haqqında barı başqa bir xatirəsi də ola... Əlacsızlıqdan, gəzib-dolaşdığı kurort yerlərindəki Azərbaycan torpaqlarının, bir də qatar-maşın pəncərəsindən gördüyü təsadüfi çöllərin ümumiləşmiş bədii obrazını ona tətbiq edir.

Rəşid Azərbaycanı ancaq mənzərəli kurort rayonlarından tanıyır.

Yayda od tutub yanan Ağsu və Kürdəmiri də Şuşa kimi görür.

O, Vətən təəssüratını gözəlliyi olmayan torpaqlarla formalaşdırmayıb.

...Təzə torpağı da, güman, il boyu rəngdən-rəngə düşür. Yaşılı - çəməndən: üstündə xal-xal inək-camışı, sarısı - zəmidən: uçub-qaçan alabaxta və sərçələriylə. Humanitar sahənin professoru kimi Rəşid bunları “kənd təsərrüfatı”na dair bilikləri çərçivəsində xəyal edir.

O, kənddəki dövlət idarələrini, hətta məktəb və tibb məntəqəsini də, “kənd təsərrüfatı obyektləri” adlandırır.

Şirxan bu saat oraları əkib-biçir: xəlvət yerdəcə onun göyçək torpağını yorub əldən salır. Demişdilər gözü üstündə olsun, deməmişdilər ki... - Rəşid uzaqdanca Şirxanın hərəkətlərində seksual xarakterli cinayətlər görməyə başlayıb.

Əcəb gözəgörünməz bir qüvvə onu qanadlarına alıb göyə qaldıra (bədəninə yapışıq döşək də buludlarda yellənir), aparıb öz yeri üstünə qoya... Onsuz bu yenə tanımaz oraları, bilməz onundur. Guya bilsə, neyləyəcəkmiş - əlini ağdan-qaraya vurası deyil. Torpaq üstə şikəst kimi qalar.

Ora sağlam gedib, xəstə qayıdar.

Torpaq işləri ona riyaziyyatdan çətin gəlirdi.

Bu fikir beynində möhkəm yer edib: torpaq soyuqdəymələr və revmatizm mənbəyidir. “Torpaqda lalələr də bitir, lalələr kimi al-qırmızı isitmələr də,” - hərdən professor Rəşidin ağlından rəngli-bədii cümlələr ötüb keçir.

Xəstəliyinin adı şəhərdə “insult”, kənddə “iflic”di.

Palıd kimi qəflətən yerə gəlmişdi. Kaş magistral xətlər keçə o torpağın üstündən, deyir, mən də yerə sancılıb onlara dayaq olam. “Allah mənə şalban olmaq xöşbəxtliyi nəsib edə”.

Bir gün də işdən ona dəyməyə gəlmiş, ağızdan pərtöv, çox da arası olmadığı “tupoy” dosent onu görər-görməz nə desə yaxşıdır - “Həzərat, bu kişi vot-votdadı ki. ...Tədarük görübsüz?”

O gün-bu gün, Rəşid xoflanır, perspektivsizlikdən sıxılırdı. Denən, gələcək qurtarıb ki. Həyatını əvvəldən düz qurmadığını düşündükcə də, onu tər basırdı.

Nədənsə, tər ona əsasən dizlərindən gəlir.

Gənclikdə daddığı romantik duyğular təzədən onu qapsamağa başlayıb.

Qılıncının dalı da, qabağı da kəsən çağlarda vız atmadığı, əfəllik və yetimlik əlaməti saydığı, həyatın əvvəlində olmuş, budur, bir də sonunda üzə çıxan, romantika ona yaman şirin gəlirdi.

Daim çalışıb hamıdan fərqlənsin, işə bax, indi hamı kimi olmaqda idi. Fərqlənmək yox, sən demə, elə hamı kimi olmaq daha maraqlı və sərfəli imiş.

Hamı kimi olanda, insanlarla dərdləşmək imkanın artır.

Əcəb qolundan tutmayalar, özü yataqdan durub yeriyə-yeriyə eyvana çıxa, ordan da uçub kəndə gedə.

Azərbaycanda sənin göydəki parlaq sevinclərini uçan naməlum obyektə bənzədələr.

Şirxan onun yadına tutmalar şəklində düşür. Bəlkə də o, bir xəstəlik növü, xəstəliklərin klassifikasiyasında nozoloji vahiddir. Dünənki uşaq olasan: yerin altını da bilir, üstünü də. Boyu bir qarış, saqqalı iki qarışdı.

Çənənin-əngin biri - şirin dillə ilanı yuvasından çıxardar. Kənddə də evləri - Rəşidgillə dal-qabaq. Altdan-altdan incə siyasət yürüdürmüş: üzünə taxdığı təbəssümlərlə onu qəflət yuxusuna verib.

Amma professorun özündən əvvəl öləcəyi diaqnozunu düz qoyub.

Doxsanlarda Rəşidin ağzı gen yerdəydi. Göylə gedərdi. 1 metr 85 sm hündürlükdə günəbaxan kimi hərlənən başının haçansa torpaq altında yumruca bir daşa dönəcəyini güman etməzdi.

“Torpaqdakı bərəkət insan və heyvan möhtəviyyatındandı”, “Feodal atributudu torpaq, daim kiminsə mülkiyyəti olur”, “Torpaqda əlləşənlər gec-tez meymun sifəti alır” - onun ən ağıllı sözləri bunlardı. Guya kəndçilər uzaqdan pis qoxu saçır.

Kəndçi ər-arvadın bir tək gənclikdə öpüşdükləri olur. Zifaf gecəsində onlar təcrübəsizcəsinə, burunlarını bir-birinin ağzına soxa-soxa, beş-üç kərə öpüşür, bununla da hər şey bitir.

Kəndçinin gəncliyi tez qurtarır.

Maldarlıq-əkinçilik sevginin düşmənidir.

İl on iki ay Moskvaya-Kiyevə uçan birisi kimi professor torpaqda əlləşənləri dağ başından diyirlənib dərə dibində qərar tutan bədbəxtlər sayıb. O - “Kənd təsərrüfatı uğursuzların fəaliyyət sahəsidir,” deyərdi.

Rəşid ölüm yatağında özü üçün əyləncə quraşdırıb: qütblərin çöllərə tətbiqi zamanı kəndi çarx kimi dövrələyən çöldə sanki bir nizam yaranır - sağ-sol bilinir, məkan tənzimlənir.

Lakin çöllərdə keçmiş-gələcək, an və əbədiyyət anlayışları itmiş olur.

Çöllər fəlsəfi bulmacalar yeridir.

Şirxan - bir ömür hesabdarı: özü dünyanı tutub gedəcəkmiş kimi, ürəyində vurdu-böldü, topladı-çıxdı, əllisinə hələ yetməmiş Rəşidin ömürdən qalan illərini rəqəm şəklində ortaya qoydu.

İndi bacardıqca vaxtı uzatmaq, şəhərsevər bu insanda torpaq qeyrəti yaranmasının qarşısını almaq.

Rəşid hər kəndə gələndə də Şirxan üyüdüb-tökərdi: “ana torpaq atamızı yandırır”, “axşamacan mancanaq kimi qalxıb-yatırıq”, “biz doğulandan radikulitik, bələkdəkilərimizdə də yel xəstəliyi var,” - bu cür-bu sayaq sözlərlə onu torpaqdan çiyrindirərdi.

Onda professor da ona dəm tuturdu: “Brüselloz xalqı şil edib”, “Lənət soxulcanlar məskəni torpağa”, “Şəhər cənnətdir, kənd - cəhənnəm”.

Rəşidin əsas düşməni soxulcanlaradı: cənnətə gedənlər belə onlardan qaça bilməz. Onda daşları qaldırıb, altında qıvrılan qurdları dabanıyla əzmək mərəzi vardı.

Keçən dəfə ayaqqabısının altından qurdun çəhrayı bir tikəsi sıçrayıb divara yapışmışdı.

Rəşidi artıq öz üzunömürlüyü yox, meyidinin uzunömürlüyü düşündürür.

Şirxan uşaqlıqdan aşıq atıb, kart tutandı. Qırx dili var. Düz sözdən başqa nə desən danışar. Bunlar sonradan daşınmaz əmlakın gələcəyini proqnozlaşdırmaq, öz taleyini bu əmlakla uzlaşdırmaq qabiliyyətinə çevrildi.

Onun fikrincə, daşınmaz əmlakın gələcəyi insanınkından daha işıqlı, daha uzun olur.

İnsanda uzun gələcək bəxtəbəxtdir.

İstənilən torpaq sahəsinin, vətən olmaq cəhəti bir yana, getdikcə artan pul dəyəri var.

Torpağın vətən olmaq cəhəti nisyə söhbətdir.

Şirxan həm də yumurtadan yun qırxan kimi tanınır. İtin ağzına sümük atmaz ki, ziyana düşməsin. Arvada sümükləri saatlarca qaynatdırar: hayıfdır, qoy ilik suya çıxsın. Qoyunu kəsib-soyub, nə dərisini, nə də bağırsağını tullayar.

Baş-dırnaq - xaşlıqdı. Dəri - motallıqdı. Evlənəndən bəri onlarda Qurban bayramlarının sayı qədər motal vardı.

Bəzən dərini gündə qurudar, "qışda nalça edib, altımıza atarıq," deyərdi.

Bazarda ucuz gedəsi içalatı Prişib həyətlərində "babuşka"lara "yenə ucuz, ancaq bir az baha" xırıd edərdi; çətin zəmanədir, ölməmək üçün alıb yeyəcəklər. Qoyun bağırsaqlarınısa ət tədarükçüləri göydə qapır; bağırsaq kababı həmişə dəbdədir.

Bu, Şirxandan başqa heç kəsin ağlına gəlməz: qoç buynuzlarını yeri deşib kvadrat yuva üsulu ilə sarımsaq əkməyə saxlayır.

Hələ ardı var. Külək içinə toz qatmış duzu niyə atasan, deyir, heyvanatın yeminə səpərlər. Qazanan yox, qənaətcil varlı olar.

Ovcunu açıb da - "belə yox", sonra yumub - "bax, belə olmalı," - uşaqlarına verdiyi tərbiyə bu. Yatıb günorta duranlara inflyasiya təsir etmir.

Bir öynə az yeyib, yeyəcəyindən bir qab sabaha saxlasan, xeyli qabağasan. Ona - "Həmişə toyda!" - deyənlərə - "Allah eləməsin!" cavabı verər.

Əlacsız qalıb da, toyda yediyi xörəklərin dəyərini yazdırdığı puldan çıxar; onda dəymiş ziyan az-maz ödənmiş kimi olur. Onun ailə ideologiyası budur: çolpanın bədənini bu axşam qarnına qaçırtdınsa, qanadlarını sabaha uçurt.

Balaca qızına tapşırıb: atanın xətrinə, sabaha uçan bədənsiz toyuq qanadları şəkli çəksin.

Gələcəyə uçan bu qanadlar bəşəriyyət üçün qənaət rəmzi ola bilər. Söhbət hələ qurtarmayıb. Şirxan dişlərini yumaz ki, dibində qalan yeməklər çıxdaş olmasın,

sorulub bədəninəcə getsin.

Hər qramın öz kalorisi var. Diş dibində yellənən ət liflərinin enerjisi bir-iki adamla əngə verməyə çatar.

Bax, belə. Şirxan hətta Novruz və Qurban bayramlarını da qənaət mənbəyinə çevirib. Axır çərşənbədə evinə qurşaq atanlara qapı açmamaqla gör nə qədər irəli düşürsən. Mal kəsən camaatla atışmaq əvəzinə, Qurban “fəlakət”ini bazardan aldığı bir kilo ətlə ötüşdürər. Arvadın illərcə sapa düzdüyü: pirlərə, ziyarətgahlara boyun olduğu, qurbanları da ixtisara salıb.

Bu cür “qurban”ların hesabı çoxdan itib; əvəzində qurbanlardan qat-qat artıq davaları düşüb.

Şirxan Rəşidin torpağını tezliklə özününkünə qatmaq niyyətindədir. Qanuni tərzdə, rüşvətlə.

Tez-tez ürəyində “inşallah” deyir.

Əcəl atını çapmada - ox kimi düz Rəşidin üstünə gəlirdi.

...Professor eyvanda uzanıb. Gündən qorunacağı qəzetə baxır. Xidmətçi mətbəxdən dolu qabları gətirib, boşları aparır.

Hərdən onun, tuluğu boş olanda zəhləsi getdiyi, amma toxqarına təzədən gözü düşdüyü, bu totuq-motuq qadını “dörd saatlıq arvadım” adlandırmağı var.

“24 saatlıq arvad”ı üç ildi ölüb.

Rəşid “kənd xəstəlikləri”ndən ölməyəcək, “bu, tamam biabırçılıq olardı,” deyir.

O, kənd xəstəliklərinə vərəmi, qoturluğu, hətta dizenteriyanı, qanqusmanı da, aid edir. Ona ancaq və ancaq urbanistik “Bakı xəstəlikləri” yaraşar. “İnsult” - sən bir sözə bax! “İnfarkt” - ah, nə gözəl! Şahları-prezidentləri də aparan bu xəstəliklər güzgü kimi insandakı nəcibliyi göstərir.

Ölüm şəhadətnaməsində padşahların-kralların diaqnozundan yazılacaq.

Soxulcanların da gələcəyi olurmuş; onların yaxın gələcəyi Rəşidin nəşidir.

Sağlığında vecinə almazdı, ölüb getmiş arvadını indi gör kimə qısqanır: qonşu qəbirlərdəki naməhrəmlərə. Tərslikdən, sağında da biri uzanıb, solunda da. Sağdakı

bığlıdır.

Professor rəhmətliyi hətta soxulcanlara qısqanırdı. Arvadın papışına soxulası atom əsrinin yarım metrlik soxulcanlarını təsəvvürə gətirəndə, az qalır havalansın.

Keçən yay yaxşı plan qurmuşdu: gecələr gedib qəbri açmaq, onun dibini-divarlarını soxulcanlardan təmizləmək. Bu işin hüquqi cəhəti əlini soyutdu. Özünün bu müqəddəs ideyasını qanmaz müstəntiqlərə anlada bilməyəcəkdi.

Boğazacan nifrətlə dolu xidmətçi gündəlik gəlib ona, bütün atributları ilə məhəbbətə oxşar, işlər görər.

Qurdalasan, nifrətə köklü bir səbəb yoxdu da. Həm də onu burda qolubağlı saxlamayıblar. Kişinin qara qaşına, qara gözünə aşıq deyil ki - bura çörək dalınca gəlib.

Adama deyərlər, sənin iş yerin zavod-fabrik yox, xəstə evidir, dözməlisən. Hıçqırığı qalıb içində.

Guya Rəşid ölsə, o, ağ günə çıxacaq. Başqa belə xəstəni bir də hardan tapasıdır? Çölə tökülüb? Üz-gözü ona öyrəşib. Üstəlik, nəfəsi də gedib-gəlir, sayğac kimi pul yazır.

Balalarının çörəyi onun çirkli pal-paltarından, evində taxtabitilərlə mübarizədən, hətta ifrazatından çıxır.

“Sən mənim köndələn yıxılmış çörək ağacımsan,” - kefi saz olanda, zarafatla onu sancır.

Kənddə Şirxan torpaqdan ötrü marıqda, Moskvada oğlu - muzeyə bənzər Bakı mənzilindən ötrü.

At ölür, qarşıdan itlərin bayramı gəlir.

Öldür, oğlu kənddəki torpağı istəməz. Qaranlığa bənzətdiyi torpaq ona qorxunc gəlirdi. Guya bəzən torpaq gündüzə zülmət saçır.

Yuxularında da onu, üstündə cin-şəyatin gəzən, bir məkan kimi görür. Fantasmaqorik dini hadisələr də torpaq üzərində baş verir. ...

Torpaqdan ibarətdi deyə, Vətəndən zəhləsi gedir. Gedən yerlərimizin artan faizinə o, Moskvada sevinirmiş. “Qorxunc yerlərimiz azalır,” söyləyib. “Rayonlar

çiynimizdən ağır yük kimi götürülür", "Vətən unuduldduqca, məsuliyyətdən qurtuluruq", - onun ağlı-düşüncəsi, fikri-ideyası bu.

Guya Vətən həm də yaşayışa təhlükə törədir - orda səni "bomj" gününə salarlar. Məhkəmə çəkişmələri və əsəb gücünə belə nəyəsə çatmayacağın yerdə səndən şəhidlik tələb edirlər.

Bircəcik quru canın var, onu da əlindən alıb qəbrə soxmaq istəyirlər. Sən öləcəksən, bunlara xoş olacaq.

Mən şəhid olub Vətəni yaşadınca, qoy Vətən getsin, mən yaşayım. Niyə Vətən yaşamalıdır, mən yox? Torpaq haçansa geri qayıda da bilər, mən getdimsə getdim.

Moskvadan Vətənə dönmək təyyarə qəzasına uğramaq kimi bir şey olardı.

"Dünyada sülh yalnız razılaşdırılmış işğallarla mümkündür".

Bircə Bakıdakı kvadratmetrləri "ata yurdu" adlandırır. Uca mərtəbədə yer almış, sanki fəzada duran, torpağın bədiiləşmiş forması kimi üzə çıxan bu mənzildə - balkonunda əlin buludlara çatası bu mifik vətəndə yaşamaq istər.

"Vətəndənsə sülhə sədaqətli olmalı".

Landşaftını görmədiyindən, professor hələ də öz torpağını yaxşı təsəvvür etmir. Kimə şəklini çəkdirib gətirdəsən. Hara və nəyə yaxındır? Kəndin arxasındakı çayın sağındadır, ya solunda?

Şirxan vaxtında ona heç nə demədi, bu da yarasa kimi kor qaldı.

Ordakı istənilən torpaq parçası onun ola bilərdi.

Rəşid bir gün yuxuda görəsi ki, çaydan balıqlar lağım atıb onun həyətindəki quyudan fontan şəklində çıxır. Balıq fontanı ətrafa lüminissent lampaları təki şəfəq saçırdı. Kimlərsə yuxuda ona deyirmiş də ki, çayın qıraqları lağımlardan deşik-deşikdir.

Bunun yozumunu kim tapar?

Xidmətçiyə desən, it kimi qapacaq. O, yuxuyozmalara vaxt itirməz. Bekar deyil, deyər. Guya o, qəpiyi qəpiyə calamaqla yaşayır.

Bəlkə də Şirxan ot tayasına iynə kimi düşüb itib. Yer üzündə sanki bu adda adam

yox imiş.

Professor Rəşid hələ ayağı dəymədiyi torpağını ölüm ayağındasa görmək istər. Yatağa bərk yapışdıqca da, xəyalları iti uçurdu.

Əynində pampers, arzuları geniş.

Bir gün oralara gedər olsa, gərəkdi özüylə ilan zəhərinə qarşı polivalent zərdab götürə. Torpaq üstə, ordakı zəmilərdə ilanlar yatmış olar.
Gözlənilən ölümünün bircə saniyəliyində belə ilan sancmasından ölmək istəmir.

Nə ola, dolablardakı “humanitariya” kitablarının yerinə həmin zərdabları düzəsən.

Kəlləni yerə atan saatdaca vəhşətli yuxular onu altına alır. ...Günlərin bir günü yenə görəsi ki, kənddə təpə formasında qəbri var. Hər il də üstündə bir şey əkirlər. Orda yetişdirilən pomidorlar uşaq topu kimidir: yarısı qırmızı, yarısı göy.

Sarımsaqlar - oraq kimi. Xiyarlar - yaşıl gəmiciklər sayağı. Ordan, çırtma vursan qanı daman, qarpızlar yığırdılar.

Elə yuxudaca söhbət gəzirdi ki, beş parça kənddə professorun qəbri ən gübrəli yerdi.

Bu yuxusu da yozulmamış qaldı. Xidmətçi qızıl vaxtını öz dərdlərini çalxalamağa sərf edir. Açığı, yataq xəstələri, ağızlarından dürr tökülsə belə, ona maraq vermir. Ələkləri ələnib, xəlbirləri göydə fırlanır. Onların bütün danışığı havaya üfürülən havayı sözlərdir.

Yataq xəstələrinin arzularından da boş şey yoxdu dünyada...

Torpaqda ümümi Nyuton cazibə qüvvəsindən savayı, sahibini özünə çəkmək gücü də varmış. Razıdır, onu çarpayısındaca, lap kuzovlu maşında, aparıb öz torpağı üstünə atsınlar. Orda dava-dərmanı küləklər altında udardı.

Xəstə küləklərə də bəh-bəhlə dərman atdırar.

Dünənki yuxusunda isə öz torpağı üzərindəki otluqda ayaqyalın-başıaçıq, dəli-divanə gəzdiyini görüb. Gələnə yoldaş idi, gedənə qardaş. Göz yaşları - qoşa navalçadan şoruldayan su kimi. Axırda dənəvər torpaq əriyib palçığa döndü; oradaca sarımtıl-mavi ləpəli, şor bir göl yarandı.

Professor Rəşid həmin göldə böğulub ölməyini də öz gözləriylə gördü və ölən kimi

yuxudan hövlnak ayıldı.

Xidmətçi ya ona qulaq asmır, ya da eşitdiklərini bu qulağından alıb, o birindən buraxır. Hərdən altı-üstü təmiz professor birtərəfli qaydada, sanki öz-özünə, onunla "şirin söhbətlər" edər.

Daimi mövzusu ölüm-itimdi.

Bədənini ataş yaxandasa, öz qəbrini güllü-bəzəkli sandıq kimi təsvir edəcək.

Dərdli danışqan olar; Rəşidin sözü tükənmir ki. Pir mənimdi, kəramətinə bələdəm, deyir, israfçılıq olmasın deyə, onu sal daşlı, qayalıq bir yerdə, ən ucuz qəbrə soxacaqlar.

Belə qəbirlərdə iti bucaqlı daşlar ölünün böyrünü deşir. "Neynək, buna da dözərəm, təki yerim Bakı olsun". Əlində tikiş, hərdən xidmətçini tərs gülüş tutur: "Bakıdan cənnətə birbaşa yol var ki?" - ona cavabını gözləmədiyi bir sual verir.

Bəzən də təsəlliyə oxşar sözlər işlədər: "Daş qəbirlərdə soxulcan olmur ha..."

Onda professorun gözləri gülür: "Yəqin ona görə də Bakıdan əbədiyyətə sürü kimi gedirlər". Xidmətçi: "Ta orası sənlikdi".
Kənddə dəfn olunmaq professorun ayıbına gəlir.

Bu, şöhrətinə xələl gətirərdi. İnşallah, Bakıda basdırılmağı onun kəndçilərdən üstünlüyü olacaq. Onun alimliyinə yalnız şəhər qəbiristanlığı yaraşar.

Ağılları ola, kəndçiləri onun şəhər qəbiristanlığında yatmasını qüdrət rəmzi sayar, vəsait toplayıb başdaşı yerində büstünü qoydurarlar.

Yadlarına kim salsın?

Xidmətçi onun şöhrət haqqında sayıqlamalarını da qulaqardına vurur. Çünki şöhrəti başa düşmür. Şöhrət onun üçün anlaşılmazdı. Nədir bu? Nəmənə şeydi?

Yeməlidirmi?

Rəşid rayonda özü haqqında tez-tez yanıb-sönən, yaranıb-itən əfsanələrdən daim zövq alıb. Kəndçilərinin ona qibtəli baxışlarından dünyanın heç yerində görməyib. Ölüm ayağında da ümidi yenə ordakı şöhrətinədir.

Şəhər onu yatağa düşən kimi unutdu. Bakıda şöhrət dayanıqsız imiş.

Elmdəki “uğurlar”ı indi ancaq siçanlara bəllidir. Siçan quyruqları onun elmi işlərini sətirbəsətir gəzir.

Göyəmi siçanların dərisi onun çeynədikləri “uğur”larından parlaqdı.
...Kənddə şöhrət təbii, romantik, hətta poetik olur.

Professor Rəşid getdikcə də ənənəvi hikmətlər tutuquşusuna çevrilir. Guya Şirxan gələcəyi-gedəcəyi düşünmür; dünyadan beşəlli yapışıb. Adına keçirmək istədiyi torpaq Rəşiddən vur-tut 10-15 il artıq onun ola bilər.

Yer kürəsi də - bəşəriyyətin deyil.

İnsanlıq Yer kürəsini müvəqqəti icarəyə götürüb.

Rəşidin özününkü saydığı torpaq Şirxanındı da, qarışqaların, ordakı adıbilinməz cücülərin də. Hətta qonduğu sim naziklikdə budaqları belə əyməyən yüpyüngül kəpənəklərin də. Lakin torpaq elə ən az kəpənəklərindi: bir neçə saatdan 3-4 günəcən.

Kəpənəklər torpaqda insanın varlığına təəccüblənir də.

Quşlar, cırcıramalar işğalları anlamır, müharibələrin ən qızğın çağında da xoşbəxt olurlar. Onlar üçün yadelli və yerli yabı birdi.

Fatehlərin qələbələri havaya sovrulmuş əmək, tarix yaradıcılığının boş yerləridir.

Qəfil böyürdən çıxmış, bir növ, “siyasətdən doğulmuş torpaq”la adam bilmir neyləsin. Rəşiddə ona dair heç bir vərdiş yoxdu.

İnsan torpağa dövlətin xüsusi təbliğat və təşviqatından sonra alışır, xoş həyat səsləri çıxaran traktor və kombaynlarla isnişir.

Masallını kəsib keçən marşrutlarla o yan-bu yana çapdığı illərdə atüstü kəndə dəyməyi vardı. Gəlib nə görərdi: evin dirəklərində incə bığlı qurdlar gəzişir.

Döşəmə taxtaları üzərində barxanlara bənzər topa-topa ağac kəpəkləri durur. Otaqların boğanaq fəzasında, yolları kəsişsə də, qanadları bir-birinə toxunmayan, ley kimi həşəratlar uçuşur. Divar künclərində əsiri qara milçəklər olan hörümçəklər tor qurub.

Tez-tez ora-burasını dişləyib qanadan, ayaqlarında saf-islahat yer qoymayan

ağcaqanadlar anofeles cinsindən olmaya; “malyariyadan it kimi qorxuram,” deyirdi.

Rəşid qurğuşun kimi tökmə bədənini təbiətdən qorumaq ustası idi. Sataşqan gilavardan da çəkinər. Ayaqları şeh, başı çisək görməyib. Ekskursiyalara bənzər beynəlxalq simpoziumlara tez-tez getdiyindəndi ki, dünyanın bütün iqlim qurşaqları üçün geyimi var.

Tropik xəstəlikləri olan ölkələrə qəti getməz. Afrikada Bokassonun biri tutub onu yeməzmi?

Amma bəzəkli-naxışlı kəpənəklər həyatlərini gümrah və qəşəng göstərərdi.

Professor Rəşid ata yurdunu qurd-quş basmasında da, pay torpağının ondan gizlədilməsində də cinayət izləri görməyə başlayıb.

Bütün bəd əməllər bığı at qaşovuna bənzər Şirxandan keçir.

Əfsus, seytnotdadır. Onda Şirxanın cinayətlərini açdırmağa nə vaxt, nə həvəs qalıb. Bunu da romantik xəyalları sırasına qoşdu.

Əcəb Şirxanın əlindəki torpaq öz reallığından çıxıb, incə bir poemaya çevrilə, bu da köndələninə onu kitab rəfində yerləşdirə. Rəşid öz gözlərinin şahidididir: bazar günü səhər yorğanı üstündəki iki lapar gül bir cüt əlvan misraya çevrilib, çərpələng kimi havaya qalxdı.

**Torpaq üstə səni, qartal,**
**Görə bilsəm, ömrüm artar...**

Ancaq heç orasını fikirləşməyib ki, düzəngahda qartal olmaz. Bu iki misra metodoloji səhvlərlə dolu idi. Orada qartala praqmatik yanaşılır, ondan terapevtik effekt güdülürdü.

Onda hər şey tərsə-məzhəbdi; gecə-gündüzün də yeri dəyişik düşüb.

Güllə kimi keçən günləri çatdırıb saya bilmir. Ayın tarixləri hər səhər bir az da qabağa qaçmış olur. Ağzına bir qurtum su ala, yarısı mədəyə, yarısı ciyərlərinə gedəcək. Ağ ciyərləri də sanki mədə olmaq istəyirdi. Sol yarısı adamdı, sağ yarısı ağac. Sağına həkim iynə batıra, eyninə almaz.

Bir dəfə biz boyda iynəsini az qaldı yarıyacan onun ətinə soxa, bu heç qıypınmadı. Di gəl, sol ayağına iynənin ucunu göstərən kimi, “ay, neynirsən,” qışqırdı.

Belə çıxırdı ki, o, soltərəfli qorxaq, sağtərəfli qorxmazdı. Yeyib doyub qarnı xaşallananda: “Lazım gəlsə, mən cəbhədə sağtərəfli qəhrəman ola bilərəm,” deməyi var.

Əfsus, qəhrəmanlığa gedəndə, sol tərəfini də özüylə aparmalı olar. Onda qorxaq qorxmazın boynunda yükə çevrilər.

Sağında dərisi sarı-sarı, sim-sim tüklər gətirib. Tüklərin də dibində - alça-gavalı boyda ziyillər.

Professor get-gedə özü-özündən hürkür.

“Allahım, səndə bu dərd-ələm yaratmaq həvəsi hardandı! Bu qabiliyyət adına layiq deyil, sənə yaraşmır da, axı!”

Axır sağ yarısındakı tüklər meşə kimi elə artıb-çoxaldı ki, orda quşlar civildəşməyə başladı. Sağ çiyni üzərində bir qaranquş yuva qurmuşdu; onun ətcəbalaları başını üstündə güclə saxlayırdı.

Keçən həftə sağ budu üstündən dirsəyinə bir dovşan balası hoppananda, mat qalmışdı. Dovşan balası gördü bu təhlükəli dirsəkdə çox duruş gətirməyəcək, atılıb onun boynu arxasında gizləndi.

Rəşid əvvəllər üşənərdi; artıq belə şeylərə vərdiş eləyib.

Hətta bir sabah sağ qolunu agacdələn taqqıldadanda, təəccüblənmədi. Əksinə, ağacdələnin dimdikləməyi ona xoş gəlirdi. Sanki onu nöqtəvi masaj edirdilər.

Həmişə o, təbiətdən qaçıb; indi ot-ələfi, uçarı-qaçarıyla təbiət özü ona yaxınlaşırdı. Ehtiram şəklində də qəlbinə girib.

Ömrü boyu təbiətə qalib gəlmək yönündə industrial işlər, qlobal texnoloji uğurlar ona ləzzət edib. “Təbiət olmasa yaxşıdır,” düşünüb. İnsanlığın gələcək xoşbəxtliyini təbiətin yoxa çıxmasında, vəhşi heyvanların qırılmasında görərdi.

Sözə bax: “Dünyadakı zorakılıqların mövcudluğu vəhşi heyvanların varlığındadır”. İncəvara, qorxunc heyvanların yeri daralır, onlar get-gedə azalırdı.

O, qırılan ilanların sayını təbiətdən dayanıqlı qorunmağın ölçüsü kimi götürmüşdü.

Təbiət sağ tərəfini zəbt edib, deməк, yarıbayarı ona qalib gəlib. Güman, üstündəki cəngəllikdə sürünənlər gizlənir. Tez-tez də başını qovzayıb gözucu sağ qoluyla sağ qıçını süzəcək. Uşaqlıqda atasıyla birgə başını əzdikləri qızıl ilanın yeddiqardaş olduğunu unutmayıb.

Anbaan gözləyir onları. Hətta Akademiyada, universitetdə də. Mühazirə oxuyan zaman bir-bir ayaqlarını götürüb-qoyur; sanki ilanları ayağına dolaşmağa qoymur.

Təbiət cinayət ərəfəsində - ondan intiqam almada...

Təsəllisi yenə sol yarısıdır. Solda əmin-amanlıqdı. Bədəbəddə ora qısılıb, sağ qalar. Yeri gəlmişkən, üzüyumşaq xidmətçilərlə erotik oyunlarını da soltərəfli icra edir. Erotikanın insulta-infarkta xeyri var - bir tibb aliminin radioda eşitdiyi sözündən sonra qocalıqda yorğa yeriməyə başlayıb.

Hə, ürək tərəfdə - kişidi bu!

Öpüşlər üçün də tük gətirməmiş, şümal dərili sol şaqqasını ayırıb. Onsuz soldan öpüşlər bütün bədənini ehtizaza gətirəsidir. Açığı, "təbiət tərəfi" çoxdan bu cür işlərə yaramır.

Sağda hər hansı xanımın qaynar dodaqları tükdən dəriyə yapışmaz da; onun gəmirtlənəsi şirin burnu "ot-ələf" içində görünməz olar. Tüklər incə burnuna soxulub onu asqırdar.

Neçə vaxtdı həkimdən soruşmağa üz gizlədir: sağdakı digər üzvləri kimi, bu nigaran qaldığı sağ yumurtasını da iflic vurubmu? Ümumiyyətlə, xayalar da iflic olurmu?

Hər əyilib baxanda, özünü vahimə basır - günbəgün kiçilən sağ yumurta get-gedə saqqal bağlayırdı. Bu saat sağdakının ağ saqqalı az qalır dizinə çata.

O, saqqalsızlıqda sol xayasını avropalıya, saqqalından sağdakını şərqliyə bənzədir. Onlar dinc yanaşı yaşamağa məhkumdular.

Bu da təzə növraq: sağındakı "bitki örtüyü" altında yerdombalanına bənzər ziyillər görünməyə başlayıb.

Həkim hər dəfə "alça-gavalı"lardan sonra çıxmış "yerdombalanı"lara baxıb başını bulayır, onlara tamaşa etməklə işini bitmiş sayır. "Ziyildi də, kimdi səni bununla tanıyan," - son sözü bu. "Ziyil insanın təbii yaraşığıdır," - bəzən tərifə keçir.

Professor Rəşid həkimi qınamır: bir ayağı gorda olan, həyat barəsində gündə-günaşırı zəhləsini tökən, üstəlik, hər gəlişində onu sancan birisinə necə ürəklə baxsın.

Xəstələr öldükcə, dövlətin humanizmə sürüklədiyi həkimlər asudə nəfəs alır.

Sol yanı üstə uzandımı, sağdan tüklər sola sallanacaq. Bu sarı saçaqlar bədəninin sol yarısının yarıdan çoxunu örtər, örtmədiyi yerlərə isə tor şəklində kölgə salar. İndi o, gün altında da kölgədə uzanmış kimidir.

Kölgə sarıdan arxayındır; ömrünün axırınacan bəsidir. Hərdənbir özüylə məzələnir də: iridiş daraqla tükləri gah o səmtə yığır, gah bu səmtə.

Bəzən onları saç kimi hörür, gülə-gülə də xidmətçisinə göstərir: “Gör necədir?” “Hörüklər sənə çox yaraşır,” - o da nə desin.

Çimizdiriləndən sonra tüklərindən çətirdəki kimi su damcılar; onda altına sərilmiş müşəmbədə su xətləri cızılır. Bu su xətləri - sətirlər “çimmək” sözünün tərcüməsidir.

Ağrıları şədd eləyəndə, Rəşid bir alimə yaraşmayacaq tərzdə xurafata qapılır: o, yataqdaca çürüyəcək. Nəticədən səbəbə sarı getməli - çəkdiyi bu cəzaya görə günahlarını araşdırmalı.

Doğrudan, çürüyürdü də: sağrılarında göz-göz xoralar çıxıb. Sarğıları açılanda onlar vəhşi qırmızı güllərə bənzəyir. Xoralardan nazik irin çayları axır. Şən yaşamaq şansı ağrı olmayan vaxtlarla məhdudlaşıb.

Qadınlar haqqında xülyalarını da, onları divara dirəyirmiş kimi, bu vaxta pərçimləyib.

Ağrı-acısı olmaya, qartımış Rəşid yeniyetmə oğlan kimi, ona göz vuracaq, söz atacaq. Hərdən boş böyürlərindən sallanan piy qatlarından tutub, rezin kimi dartır da.
Havayı yaşamaq qabiliyyətini tamam itirib. Mal-heyvanlardakı kimi altının təmizlənmə dərəcəsi də artıq ödənişin məbləğindən asılıdır. Altına yığdıqları - qurtarmaq üzrə.

Tezliklə o, burun deşən qoxular içində, dalğasız-ləpəsiz qəhvəyi bir möhtəviyyat qoynunda gəmi kimi üzməli olacaq.

Rəşid göyümtül irin çeşmələrinin rəngli fotosunu aldırıb, hökumətə göndərmək

istəyir. Donuzdan bir tük də qənimətdir.

Bundan sonra həyatda o, fotolarda göyçək düşən irinlərlə irəli getmək ümidindəydi.

“Sənə bu da azdır, humanizmin varlığından yazdın-yazdın, axır gəlib onun yoxluğuna dirəndin,” - hərdən özü özünü danlayır.

Humanizm mövzusundakı doktorluq dissertasiyası üzərində indi parovoz şəkilli qurdlar, rəngbərəng cücü və həşəratlar gəzişir. Qovluqları deşik-deşikdir. İnsafsız kağız qurdları onun “humanizm”inin tən ortasınaca yeriməkdədir.

Qurdlar humanizmin əsas postulatlarını çoxdan gəmirib toza çevirib. Gahdan xəzri həmin tozu qaldırıb Rəşidin ciyərlərinə doldurmaqla nadinclik edirdi.

Bəlkə də o qovluqlardan qurdlara humanizm sirayət edib: insanı dişləməzlər. Qol-qıçı üzərində də sanki gəzintiyə çıxırlar.

Bir gün o, “humanizm” qovluqlarını qurdlardan təmizləməyi tapşıranda, xidmətçi səsini başına atıb, bomba kimi partlamadı bə: “Məni eşşək yerinə qoyubsan, nədi? Makulaturaya baxmaq vəzifəmə daxildi ki?!”

Axır bir ulaq yükü olan, vərəqləri bir-birinə yapışmış dissertasiyanın ortası deşildi: bu yandan baxanda, çarx kimi o yanı görsənirdi. Ancaq sonradan bu deşik Rəşid üçün etibarlı bir yerə çevrildi: ora qol saatını, “zaponka”ları və üzüyünü, xırda pulları qoyurdu.

Dünyada humanizm yox, yalnız bu nəzəri şeyə oxşarlıqlar mövcuddur.

Təzəlikcə oğlu Moskvadan zəngləri artırıb. Mobil telefon şəbəkəsi onun ataya “sevgilər”inin qəpiklərini yazırdı. Ancaq orda onu öldürsən də, ata ölməyincə Bakıya gəlməz. Gəlib, ölmək bilməyən atanın yanında vaxtını öldürməz. Oğlan atasıyla üzbəsurət oturub danışmaq fikrindən vaz keçib. Diz-dizə, göz-gözə - bu patriarxallıq ona ölümcül darıxdırıcı gəlirdi.

Xəstə ata təpədən-dırnağa problemdir.

O, atasını bir daha diri görməməkdə ümidli idi.

***

Nəfs davaları həmişə qaydasız olur.

Torpaqlar bölüşdürüləndə, kəndçilər bir-birinə əl qaldırır, hətta yaba-dəryazı, balta-dəhrəni işə salırdılar. Biri dərə istəmirdi, biri təpə. "Dərələr - nəğmələr bəzəyi, təpə - dağın kiçik qardaşı," - ağsaqqallar incik tərəfə guya tutarlı arqumentlər gətirir. ...

Biri çayın dar yerini istəmir, biri - ğölə bənzər gen yerini. Lal-dinməz bir ailəyə qanqallıq düşmüşdü. Bay, onların da dili qarnında imiş; ailə başçısı aləmi bir-birinə qatdı.

İlan-qurbağa xətti ilə yazdığı şikayət məktubunu idarə və təşkilatların başı üzərindən kağız təyyarə kimi düz Prezident Aparatına uçurtdu.

Ordakılara məktubun sonundakı bircəcik cümlə bərk yer eləmişdi - "Mən fəxr edirəm ki, "mən" azərbaycanlıyam", eşşək deyiləm. Ümidvaram ki, ailəmiz qanqallıq barəsində sizdən müsbət cavab alacaq".

Elə məktub oxunan günü, şər vaxtı olsa da, Aparatdan rayona "molniya" teleqram uçurtdular: şikayətə təcili baxılsın, təmin edilsin.

İnsanlar o kənddə ancaq şikayətdən doğan ədalətlə yaşayırdılar.

Taqqanaq torpaqlar, bataqlıq yerlər insanlığı-kəndçiliyi tapdayıb keçməyənlərə düşdü.

Rəşid Şirxana tapşırmışdı: ək, biç, axırda məhsul sənin, torpaq mənim. Hanı bə? Şirxan dilinə əziyyət verib, onu soruşmur da. Oğlunun qeyrətinə də yaxşı bələddi: Moskvadan qaçaraq gəlib, ondan torpaq istəyəsi deyil.

Bütöv Azərbaycan olsun, ya eni-uzunu beş qarış kiçicik bir yer - onun üçün bir gözdəydi. Gözünü ancaq Bakının mərkəzindəki 120 kv.metrlik at min çap mənzilə dikib.

Miras kimi bir onu tanıyır: torpaqdan azı on metr hündürlükdəki, pəncərəsi dəniz mənzərəli, fəlsəfi anlamda qətiyyən Azərbaycan torpağı sayılmayası hava məkanı.

Torpaq ona tarix kitablarında rastlaşdığı kəndçi üsyanlarını xatırladırdı.

Atom müharibələri kəndçi üsyanları qədər qorxmc deyil.

Professorun "Birja" qəzetindən tapdığı "gözəlçələr" işin bismillahını eləməmiş dabanqırdı ordan qaçırdılar. "Verəcəyi pul görüm onun gözünə girsin!" "Ölməlidə şorgözlüyə bax!" Bir qaçqın az qalmışdı onu tutdura da.

Ondan cilov gəmirirdi: “Namusu itə atıblar, it yeməyib!” İntəhası, onda gərək bu kişini türməyə xərəkdə aparaydılar. “Bə müsəlmançılığımız hardı qaldı,” - müstəntiq professoru yağlı müştəri bilib, özü şikayətçini ram etdi.

Gör neçə vaxtdı qoca şirlər kimi dişinə bir şey keçmir.

Ev qulluqçuları, bu “həyasızka”lar yaman qeyrətli olurmuş. Ələlxüsus qaçqın tayfası namus-qeyrəti çox qabardır. Əndamlarında ələgəlimli şeyləri ola, yenə dərd yarıdır. Eh, qadının “qaval” dediyi dalı şişək quyruğu kimi yırğalanmadısa, at getsin.

Hamısı da ucdantutma arıq-turuq, avitaminozlu. Dəriləri - digir-digir, xəritə kimi ala-bəzək. Üst-başlarından soğan-tər iyi gələr. Rəşidin lap əvvəldən “məkri-zənən” sayılası qeyrətli arvadlarla arası yoxdu; onlar şər-xata olur.

Güman, sevgi oyunlarını da bacarmazlar.

Üç-dörd həftə əvvəl elə birisi, bunun dilindən mazaqlaşma təklifi üzülməmiş, çataçat alnına bir “oğraş” sözü nalladı. Rəşid də ”pozğun” deyib, onu evdən qovdu.

“Onsuz ərim ölüb”, ya “burda məni kimdi görən”, “hazır çörəkdən niyə qaçasan” - bu cür düşünüb, ona “hə” deyənlər də az deyildi. Onların fikrincə, namus heç də sərfəli şey deyil. İctimaiyyətin duyuq düşmədiyi gizlin işlər namusa xələl gətirməz.

Hə, öpüşün bir qiyməti var, qalxıb onun üstündə oturmağın bir başqa qiyməti. 10 dəqiqə, 15, ya 20 - vaxt bitdisə, həzz də bitir.

Onsuz bunun şoğəribi ördək kimi dimdiyini əbədən aşağı dikib - eşqdən yanğılı bu yarımadamın üstündə deyə-gülə, həvəslə otururdular.

Belədə həm namus əldən getmir, həm də əvəzində pul gəlir. Kim daş-başdan qaçar? Arada çax-çux olmalıdır. Məvacibin başına daş düşsün, onunla dolanmaq olur ki.

Zırrama barı əynindəki trusunusa özü aşağı çəkə. Barmaqlarını ilişdirib bir tərəfini dartmaq istəyəndə, hökmən rezini qaçırdır.

Bununku başqa şey yox ki - gözünün qurdunu öldürməkdi.

Nədənsə, əsas da göbəkdən xoşu gəlir: barmağını hey onun içinə soxur. Dinməsən, qıncanmasan, inan, deşə də bilər.

Amma göbək can rahatlığıdır, bir növ, namusdan yan keçirsən.

***

Elə-belə də iş deyil bu: Yer kürəsinin bir parçası onundur.

Xidmətçi hər səhər onun çarpayısını tabut kimi dartıb eyvana çıxaracaq.

Gəzərgi, çarxlı bir çarpayıdı bu. Kölgə kiçildikcə də, onu divarın dibinə çəkir.

Professor yuxuya getdimi, binanın fasadı onun xorultusunu reproduktor kimi qarşı həyətlərə ötürəcək. Xidmətçi hərdən onun qoluna toxunmaqla, xorultunu idarə edir. Xorultu deyil bu - əcəlin addım səsləridir.

Üzdən göyçək xidmətçi qulağının dibindəki bu əcaib səsləri hərdən özünə təhqir sayır.

Əvvəllər gözəlliyinə qarşı bu cür etinasızlıqlara dözməzdi: zaman sıxdı, həyat suyunu çıxardı, indi dözür.

"Sənin çöhrəndən dəftərçəmə neçə şeir köçürmüşəm," - qız vaxtı irigöz bir oğlanın ona dediyi söz hələ də qulaqlarından getmir.
"Bircə kölgə çəkilsəydi, bunun mitilini sürüyüb salardım içəri..."

Bay, Rəşid xorultusunu kəsdi: dayan, bəlkə də oyanır.

- Gördün sərçəni?! - birdən kişi gözüyumulu halda qışqırdı. Alnında tər puçurlanırdı.

- Nə sərçə?! Hanı?

- Bədənimdəki cəngəllikdən uçub getmədimi?

- Elə şey yoxdu! Sən yuxu görürsən.

- ...Sərçə özü mənə dedi: təzə yerimin üstündən uçub gəlmişdi.

- Sərçə söz deyə bilər ki?

Professor, üzü tavana, yaxın günlərdə sərçələrdən birini tutub, qarnını yırtmaq fikrində olduğunu söylədi. Quşun çinədanındakı buğda dənələrini seyr etmək istəyir. Guya dənələrdən öz torpağının ətrini alacaq.

Burda xidmətçi dözə bilməyib, əl atdı üzünə, cırıb qoydu yerə.

- Öllsənə öldüyün yerdəə!..

Qonşular onun üstünə həkim çağırası oldu.

**3 may - 29 oktyabr 2010-cu il**

## "MÜHARİBƏLƏR VƏ ANA"

Yazıçı Qədir Mustafa müharibə görməyib: gah yaşı çatmayb, getsin, gah da yaşı ötüb. Dünyanın ən yaxın müharibəsi qapısı ağzından 200 km uzaqda baş verib.

Neylədiyindi, qızıl-qırmızı hamıya "müharibə iştirakçısıyam", deyir. İnsan müharibənin bir tək ortasında yox ki - həndəvərində də ölə bilər: məsələn, qorxudan ürəyi partlar.
Şəhidlikdən it kimi qorxurdu.

Hə, iki ordu Bakının 200 km-liyində iki gün kəllələşib aralandılar. Bu vaxt aralıdakı qaya başında bir cüt keçi, döyüşçüləri yamsılayaraq, kəllə-kəlləyə dayanmışdı.

Yeri gəlmişkən, görən, dava vaxtı keçilərdə beyin silkələnməsi olur? Ya keçilərdə, insanlardakı kimi, kütləvi savaşlar baş verirmi?

Yox, bəlkə də keçilərin insanlardan fərqi absurda yuvarlanmamalarıdır.

Döyüşdə kimlərin əcəli çatmışdısa, hamısı öldü. Plan doldu. Bu sanki heç döyüş də yox, əcəlin icraatı mərasimi idi. Əcəli çatanlar qurtarmasaydı, inan, orda müharibə hələ yenə sürəcəkdi.

Azərbaycan tərəfdən adına qurban deyilənlər sağ qaldı.

Qədirin ürəyinə damıb ki, Bakıda müharibə məhz onun əcəli çatanda başlayacaq.

O, od-alovunda qrildəki kimi bişəcəyi müharibənin əcəliylə bağlılığına bərk inanırdı. Həmişə çalışar canı polad təki möhkəm qalsın: bəlkə bu yolla da Əzrayıldan yayına.
Düzgün yuxu və qidalanma rejimini, bir də şaqqaşaq səhər idmanını müharibəni geri qaytarmağın vacib ünsürləri sayır.

“Mən paytaxtı müharibələrdən öz sağlamlığımla qoruyuram”.

Tez-tez də sərhədlərdə düşmən tanklarının, ya elə özümüzünkülərin, üzü Bakıya, yoxsa Yerevana durmağıyla maraqlanar; əcəli bu “müharibə nəqliyyat vasitələri”nə yüklənmiş kimidir.

Amma kilim üstə, ya stulda oturub, qabağında da çay, televizorda uzaq-qərib müharibələri izləməyin hüsnü özgədir.

Müharibələri həm informasiya, həm də bədii filmlər variantında seyr edir. Müharibə haqqında bədii filmləri mifoloji təfəkkürə malik insanlar düzüb-qoşur - olmuşlara bir az da olmamışlar qatılanda, adamın başında tüklər biz-biz durur.

O, içində olacağı müharibənin tez bitməsini arzulayarsa da, dışında olacağının davamiyyətini istər.

Qədir həyatda insanlardan əzab gördükcə, müharibədə də Allahdan onların əzablarını diləyər. İnsanların əziyyəti - təmiz ləzzətdi... Qoy qanlar şəlalələr kimi axsın - bu, ekranda qızıl bayraqlar təki dalğalanar.

Qoy hamı travmatik şoka düşsün, həkimlər naşı olub da bununla bacarmasın.

Bəşəriyyət bu gen dünyada ona “kommunalka”da baş soxmağa bir otağısa çox gördü. O, ömrü boyu “ucuz padvallar kirayənişini” kimi yaşadı. Haqq olur, bəşəriyyət qoy elə qırılsın.

Dünyada insanlar azalsa, mənzillər çoxalar. İnsanlar tamam olmasa, evlər bütün boş qalar.

O, müharibələri özünün bəşəriyyətdən göydəndüşmə intiqamı sayır. Humanizm - mifologiyadır. Bəşəriyyət sevgiyə layiq deyil, deyir. Hətta gənclikdə qaraşirin bir qıza vurğunluğunu belə indi özünə bağışlamır.

Gecdən-gec bu sevgini “səhv addım” adlandırır. Halbuki Qədir barı bircə nəfəri, sevdiyi qızısa bəşəriyyət sırasına qatmaya bilərdi. Sən demə, qız buna eşq əzabları veribmiş. Nədi-nədi, bir-iki dəfə naz edib. Naz nədi, ə, hətta dinimiz də belə şeyi rədd edir.

Biləsiniz, dinimiz naza qarşıdır.

“Ölübsə, heç, durursa, keşkə onun da həyatdakı zülümlərini görəydim...”

Müharibələrdə Qədiri hansı münaqişə tərəfininsə qələbəsi yox, qırılanların sayı maraqlandırır.

Burada qələbə ancaq lüzumsuz xəbər rolu oynaya bilər. Səriştəsiz müharibələr ürəyindən tikan çıxardır: insanlar dağda-düzdə baş bir yana, leş bir yana qalır.

Onda siyasətçilər camaatın başını piyləməyə səfərbər olur, içalatı çölə tökülüb torpağa bulaşmış, çör-çöp yığmış bağırsaqları boğazına dolaşmış, odlu havada get-gedə iylənən ölüləri tələm-tələsik “şəhid” adlandırırlar.

Şəhid adıyla cinayətlər ört-basdır edilir.

...Əlini qaşının üstünə qoy, odey, şəhidlər qan gölündə qırmızı-qırmızı qayıqlar şəklində birbaşa cənnətə yollandılar.

İnsanlar bilsə ki, qırılıb-çatılanlar “şəhid” sayılmayıb, ölkəni qiyam bürüyər.

Cənnət morq timsalındadır; müqəddəs ölüləri orda axtarmaq gərək.

Əslində şəhidlik təsadüfi hadisə, ictimai bir aldanışdır.

Şəhidlər də, ölmüş heyvanat da Günəş altda eyni cür qoxu saçır.

Günəş şəhidlərə heç də müqəddəs kimi yanaşmır.

Bəşəriyyət müqəddəslik seçimində həmişə yanılıb.

Müqəddəslik insanların subyektiv mülahizələrindən savayı bir şey deyil.

Amma ölənlər hirs-hikkəsini də özüylə aparır. İnsanlar qırıldıqca, şər azalır. Dünyada bəşər olmasa, Şeytan özünə tərəfdaş tapmaz.

...Tələfatsız döyüşlər darıxdırıcıdır...

Tamaşaçı qismində Qədir Mustafanın müharibələrdən yazmağa vaxtı da olur. Hərbçilər müharibələri təkmilləşdirdikcə, bu, romanlarını təkmilləşdirir. Yazıçılıq boynuna düşüb. Sonuncu romanında I Dünya müharibəsini II-nin, II Dünya müharibəsini gələcək III-nün içərisində yerləşdirib. Onda III Dünya müharibəsi fantastik janrda alındı: I-nin süvariləri, II-ninsə "qırıcı"ları görünər-görünməz III-n hərbçiləri onları yerdən-göydən oyuncaqlar kimi yığışdırıb, muzeylərə təpdi.

Bəşəriyyət III Dünya müharibəsində muzey qayğısına da qalacaq.

O, roman yaza-yaza bir dənə də pritça ortaya qoydu. Burada onu bütöv verməyin adı yox. Eləcə qısa məzmunla kifayətlənək.

***

**(pritça başladı)**

**Millətinin dərisində Günəş sönən uzaq Afrasiya məmləkətlərinin birində həm də Ali Baş Komandan olan padşah, sən demə, heç yefreytor da deyilmiş.**

**Padşah olacağını güman etməyib, ona görə bir vaxt nə fırıldaqlasa əsgərlikdən yayınıb. Tərslikdən, ya bədbəxtlikdən, indi məmləkətin birinci adamıdı, di gəl, əlində tüfəngi tərsinə tutur. Padşahlığı onun qarşısına bir dilemma çıxarıb: ya olan-qalan torpaqları əldən verməli, ya da yad torpaqlara özün soxulmalı.**

**Bu ikisindən biridir. Hərdən onu vahimə basır, qara sifəti bir az da qaralırdı. Hərçənd bu, uzaqdan sezilmirdi.**

**Özü taxtda, taxtısa - torpaqda. Torpaq getdisə, taxt-tacı düşmən ölkənin muzeylərində bənd alasıdır. Sanki iynə üstə oturub. Ağzına xörək aparanda da onu qeyrət basır. Barı əsir götürüləcəyi anlardasa sağa-sola atəş aça bilə.**

**Silahları - par-par, onları işlətməyə baş gərək. Həm də o, atəş aça bilməlidi ki, sahibi olduğu torpaq ölkə təəssüratı oyatsın. Padşah sülhdən çox müharibə işlərini bacarmalıdır.**

**Günlərin bir günü o, kefinin saz vaxtında "zorakılıq nazirləri" deyə çağırdığı generallarını məsləhət-məşvərət üçün yanına yığdı və onlar əyləşməyə macal tapmamış qarnının sancısını ortaya qoydu:**

**- Əsgərlikdə olmamışam,**

**Ağla-kamala dolmamışam.**

**Üç nazir variantında təəccüb: "Bu nədi, ə!"**

**- Əlahəzrət, bu nə sözdü?**

**- Atəş aça bilmirəmsə,**

**Nəyə gərək taxt-tacım.**

**Döyüş-savaş yerlərinə**

**Əsgər getmək...dir əlacım.**

**O, ağlamsınan kimi oldu.**

**- Cənab Padşah, sizin gözəlliyiniz elə atəş aça bilməməyinizdədir. Padşahın silah tuta bilməməsi humanizmin zirvəsidir. Millət gözünü sizə dikib, belədə o sizə daha çox bağlanır. Zorakılıqlar sizə yox ki - adımıza uyğun, bizə dair işlərdir, - bülbül kimi bu dil-dil ötən Milli Təhlükəsizlik naziri idi.**

**- Beli. Bəli, - bu da Müdafiə naziri. Nitqi yoxdu deyə, bir kəlməni, hansı düz ola-ola, iki cür səsləndirib dayandı.**

**- Məncə də, əsgərlik deyilən şeyi dilə gətirmək... Bunu bizə nöqsan tutarlar, - onsuz burda Daxili İşlər naziri də bir söz deməli idi və dedi də. - Biz əlahəzrətə silahla rəftarı daxildə də öyrədə bilərdik.**
**Nazirlər kök olduqlarından, padşahın qarşısında elə bil üç çəllək oturmuşdu.**

**- Axı, sizin huma...**

**- ...nizm. Bəli. Beli.**

**- Məncə də...**

**Burda padşah qəfil qalxıb, taxtı önündə uzun və şivərək bir ağac kimi bitdi. Bir anda nazirlərin üçü də oturduqları yerdəcə ayaqlarını hərbi qaydada döşəməyə çırpıb, dik durdular.**

**- Peşəmizdi ölüm bizim,**

**Qoy rədd olsun humanizm!**

**Yox, get-gedə padşahın ya ağlı qaçır, ya da o, doğrudan-doğruya ağıllanır. Aliməqam bir insanın atəş açmaq xatirinə birdən-birə əsgər getmək istəməsi bunların hər ikisinə dəlalət edirdi. Ancaq bir iş var, iki əməl, mağıl indiyəcən onu istənilən vaxt uzun bir çöp kimi götürüb kənara tullamağa güman vardı. İndən belə ona yaxın dur, görüm necə durursan, silahlı müqavimət göstərər.**

**Əlbəttə, padşah işin birini bilir, birini bilmir. Bir tapançayla hərbi çevrilişin qabağı alınmaz, üstəlik də, dişinəcən silahlanmış yadellinin qabağında duruş gətirmək heç mümkün deyil. Görün, padşah da ölkəni başlı-başına buraxıb, səngər qazmağa, blindaj quraşdırmağa gedər? Yox, humanizmdən kənarda onu qaçılmaz ölüm gözləyir: alnına bir güllə çaxacaqlar, qurtarıb gedəcək.**

**Humanizm hamıdan da çox onun özünə münasibətdə işlək olardı.**

**Qarı düşmən nə qədər qəddar ola, görsə bu, humanistdir, yəni şikəst bir məxluq, boşlayar getsin.**

**Bax, bu saat onun həyatı Allahın yox, "zorakılıq nazirləri"nin əlindədir. Özü də bu gör əsas nədən qorxur: gələcək məhkəməsindən.**

**Orda ondan soruşa bilərdilər: sən çaxmağın-tətiyin yerini öyrənmədən padşahlığa necə razı oldun? Deyir, hakimlərə heç cür sübut edəmmərəm ki, padşahlıq adamöldürmə sənəti deyil.**

**Nazirlər nitqlərində ardıcıllığı səlis gözləyirdilər. Buna avropasayağı "subordinasiya" demək olmazdı da.**

**Bu ardıcıllıqda kimin kimdənsə vəzifəcə böyüklüyü yox, milli cəhətcə həm yaş, həm də buna əlavə kimi, kəsdikləri tonlarla çörək rol oynayırdı. Onlar mədəni rəftarı öz borcları bilirdi. Onsuz tutduğu "zorakı" vəzifələr də mədəniyyət tələb edir.**

**Sən vəzifədə uzunqulaq olmuş olsan da, əsasən klassik musiqiyə-zada, ya tutalım, cazla muğamın sintezinə qulaq asmaqla bunu kompensasiya etməli, canın çıxıb mədəni rəftarı bacarmalısan.**

**Sən bir dövlət təmsilçisi kimi etdiyin zorakılıqlarda belə mədəni rəftara məhkumsan.**
**Düzdü, onlar bu mərhələni çoxdan aşıb: ünsiyyət mədəniyyətinin mexanizmi artıq onlara tanışdı. Burda üçü də bir-birinə dost kimi. Hətta bəzən qardaşa oxşayırdılar.**

**Öz aramızdı, onsuz “zorakılıq” nazirlərinin dostluq-qardaşlıqdan başqa da əlacı yoxdu. Ölkədəki gözlənilən çaxnaşmalarda onların bir-birinə qahmar durmağa özlərindən savayı kimi var.**

**Məmləkətdə təbəələrdən çox, “zorakılıq” nazirlərinin öz həyatı təhlükədə idi. Padşah əvvəllər belə deyildi, dərd-sərin çoxluğundandı ya, onlara nəzmlə müraciət edir. Məclis yubatmadan dövlət əhəmiyyətli qərar çıxarmağa məcbur oldu: onsuz bu, padşahın öz istəyidir, neynək, qoy gedib hərbi çəkmələrin də dadını görsün. Lakin bir şərtlə: amanın günüdü, özünü soyuqdəymələrdən gözləsin. İnsana nə gəlir, soyuqdan gəlir. Səngər prostatın qənimidir.**

**Dəftərxanadan onun anket məlumatları tələb edildi: hə, ali məktəb qurtarıb, xidməti birillik olsun.**

**- Əlahəzrət, sən arxayın get, biz məmləkəti birtəhər yola verərik, - artıq ona tək halda, “siz” yox, “sən”lə vəd verdilər. - Haçan da gördün bezibsən, bizə bildir, dərhal xəstəlik kağızı düzəldib ordudan tərxis edək.**

**Padşah üzünü Müdafiə nazirinə tutub son kupletini söylədi:**

**- Bir şeyi dərk etdim mən həqiqətən,**

**Silahla yarayar padşah Vətənə.**

**Bu gündən, bu saat, bu dəqiqədən,**

**Mən sənə tabeyəm, sən də ki mənə.**

**Qalan iki nazir Müdafiə nazirinə paxıllıqca baxdı: yox, bu yenə qalxacaq, padşah əsgərlikdən qayıdan kimi... onu... Bir yandan da təsəlli tapdılar ki, onsuz daha bunun qalxmağa bir yeri yox. Elə özləri də o gündə: daha perspektiv qalmayıb. Zirvəyə dirəniblər.**

**Padşah-zad olan deyillər ki. Bu da bir işdi, gəlib buracan çıxıblar. İşğal torpaqlarını geri qaytarmaq isə şəxsi uğur sayıla bilməz. Torpaqların geri alınması administrativ bir işdir; yüksəlmək deyil. Üstəlik, müharibə də, elə qələbə özü - başağrısı şeylərdir.**

**Ailə-məişət işləri başdan aşır - qələbəyə vaxt hardandı?**

**İndən belə Müdafiə naziri padşahın, padşah da Müdafiə nazirinin əmr və sərəncamları üzrə hərəkət edəcək.**

**(Son)**

***

Qoy müharibədəki streslər insanların bədənində adrenalin ehtiyatını tükətsin, onlar yorulub yorğun düşsünlər.

Qoy bir qoduğun belə yamanlığa-pisliyə taqəti qalmasın. Bəlkə onda Allaha yaxın görsənələr. Hələlik insan Allahdan çox Şeytana simsar kimidir. Allah insan üçün darıxdırıcı, Şeytan cazibədardır. Şeytan həyat vəd edir, həyatda da - uğurlar. Şeytan ətaləti rədd edir, dinamizm yaradır.

Əyri oturaq, düz danışaq, axı, Şeytanın dedikləri Allahın insana bəxş etdiyi xislətlərə heç də zidd deyil. Şeytan Allahın insana əta etdiyi instinktləri təsdiqləyir, onlardan vaz keçməməyə çağırır.

Qədir Mustafa insanı heç cür sülh içrə görmək istəmir: axı, onda çəkdiyi əzablar az olar, bir maraq kəsb etməz. Hayıf deyil müharibələr - əzab-əziyyəti başdan aşır. Yazıçı kimi də bir az üstünə qoyanda , gör nə baş verir. “Mənim poetikam incə məqamlara yox, sərt reallıqlara köklənib,” - sən onda sözə bax. Əsl yazıçı yalnız müharibədən yazmalıdır, deyir. Yer üzündə ancaq müharibələr mövcuddur. Sülhün təsviri həyatın təhrifi demək olardı. Sülh müvəqqəti və saxta, illüzor zaman kəsiyinin obrazlı adıdır. Sülh - təşbeh növüdür. İnsanlar arasında mövcud olmayan yeganə şey bəlkə də sülhdür.

İncəlik və zərifliklər artıq muzey materialıdır.

Müharibələr arasında Qədir Mustafanı vahimə basır: vay, ədəbi-bədii materialları tükəndi...

Zarafatsız, qəddarlıq əntiqəfüruş mövzudur. Həm oxucu ondan zövq alır, həm də sən yazıçı şöhrəti tapırsan. Şöhrət qəddarlıqla düz mütənasibdir. Qəddarlıqlardan doğulan şöhrət dayanıqlı olur.

***

Qədir haçandı da anasına dəymir. Ondakı məntiqə bax: ölür kənddə, ona görə. Xəstə, ya ölən-can verən anaya baş çəkərlər, gedib başına dönər, qadasını alarlar, bunda əksinəydi.

Ana ölürsə, belə çıxır, lənət ona!

Gəlsənə, Qədir Mustafanın yazmayacağı bu hekayəti özüm yazım. Onun başı qlobal mövzulara qarışıb. Qoy böyük mövzular onun olsun, ona dair kiçik mövzularsa mənim.

***
**(hekayət başladı)**

**Artıq dedik: xəstədi anası. Üzümüzə gələn ayların birində başını yerə qoyacaq. Qonum-qonşu gündə bir neçə dəfə üzünü qibləyə çevirir. Qədir - "Yataqda görər-görməz, adam onu boğub öldürmək istəyir", deyir.**

**Tutulmağı olmaya, Şeytanın bu diktəsindən vaz keçməz.**

**Azərbaycan Cinayət Məcəlləsi Şeytanla onun arasına sədd çəkir.**

**"Xəstə" və "düşmən" təxminən eyni mənalı sözlərdir.**

**O, anasının ölümünü əsas da qışda gözləyir. Qış ölüm üçün ən məqbul vaxtdır. Oğul-uşaq valideyn ölümündə günahları qışın üstünə yıxır, qurtarıb gedir. O, qışlara sevinir - anası öləcək deyə. Düzü, yaza da sevinir - bir tək novruzgülülərinə görə.**

**Novruzgülüləri olmaya, yazı rədd edərdi. Yazlar anasının yaşama ehtimalını artırır, onun həyatda geriləmələrini şərtləndirir.**

**Novruzgülülərə sevgisini Qədir Mustafa heç cür özünə bağışlamır. Bu xasiyyətində hətta qız kimidir. Qəlbindəki novruzgülü sevgisini atavizm sayır. Bəzən hətta özündən bədgüman olur: bəlkə mən həqiqətən qızam? Çaşıb hermofrodit olaram.**

**Bu saat həyat yolunda anasından böyük əngəl tanımır. Unutmaq onu! Unutmaq nədi, anaya sevgilərin başına daş salmalı! Sevgilərə ilişib qaldınsa, batdın. Hər yaz da deyinəcək - "bu arvad yenə qışdan çıxdı". Bəzi tanışları ona "yaz deyingəni" adı verib.**
**Hə, yazlarda "novruzgülülər" sevincinə "ana dərdləri" qarışar. Odur ki, novruzgülü sevincləri get-gedə onu qorxuzur.**

**O, Bakıda novruzgülüləri, bir qəbiristanlıq var, orda axtarıb tapır.**

**Basa-basa dur burdan get rayona, orda dərdlərin artsın, qayıt geri. Ana içindəki harmoniyanı dağıdır, qabağına min cür problem diyirlədir. Analara "övladçürüdən" adı verilsə, daha düzgün olar.**

**Onunku çoxdan vərdişkar olduğu hipotetik dərdlərdi. Nəzəri dərdlərdən çəkdikcə çəkər, yoruldum deməz.**

**Nəyi və necə etməli ki, ananın öldüsüylə qaldısı bir təsirdə olsun. Sağdısa da, əla, ölübsə də.**

**Onu inişil gördüyüdü. Arvad hələ onda təpədən-dırnağa azar-bezardı. Kök cəmdəyi şiş gətirmişdi. Əmcəklərinin altı - qızartılı və qoxulu.**

**Başı bədəninin üstündə durmur. Yeriyəndələngər vurur, dizləri şaqqıldaşır. Harasına da toxunsan, zoqquldayacaq. Əlbəttə, özü də bir az üstünə qoyar.**

**Aqqravasiyaya meyllidir. Noolub, ay arvad? Canından qorxursan? "Allah, mənə ölüm göndər", - bə bunu deyən sən deyildin? Buyur da, göndərib. Yoxsa bizi barmağına dolayırdın! Əzrayıl uzaqda duranda, deyirsən gəl, gəlib çıxanda, deyirsən get. Adamda üz olar. İnsanın bir üzü olar.**

**Görür yaşamağına lüzum yox, yenə yaşayır.**

**Açığı, artıq ona əl vurmağa da çimçəşirsən.**

**Bir dəfə yağlı-qaramtıl paltarlarını əyninə keçirəndə, siçanquyruğu hörüklərini jaketdən dartıb çıxarası olmuşdu: ürəyi böyüdü, az qaldı ödü ağzına gəlsin. Gedib əlini üç dəfə sabunladı, qayıdıb spirtlədi. Hələm sonra bir-iki gün də əlini burnuna tuta-tuta, qoxlaya-qoxlaya gəzdi.**

**"Bu saat onu unutmağa şanslıyam", Qədir deyir. Görmədiyi illər çoxaldıqca, deyən, yadına da gec-gec düşür.**

**Təcrübə göstərir ki, xatirələr ziyanlıdır. Xatirələr onu həmişə istəmədiyi humanist əməllərə sürükləyir. Humanist oldun da, evin yıxıldı. Hamı balaquş kimi ağzını sənə açacaq.**

**Anaya qulluq böyük bir zavodu idarə etməkdən çətindir. Düzəliş edək: fabriki. ("Fabrik" ana məfhumuna "zavod"dan daha yaxındır).**

**Anaya məsrəf olunan enerji havaya üfürülmüş kimidir.**

**Hamı irəli gedir, bir növ, sən geri. Statik durumun özü əslində geriyə hərəkətdir. Ana həqiqi anadırsa, özü öz balasına dərd-səri rəva görməz. “Mənnən işin yoxdu, sən get qabağa”, ona deyər. Amma barmağını qatla, hansı ana indiyəcən bu sözü dilə gətirib?**

**Gətirməzlər də. Ümumiyyətcə, analar inkişaf düşüncəsinə malik deyil. Kaş analarda iynə ucu boyda ağıl ola: şan-şöhrəti anlayalar.**

**Qoyalar oğul-uşaq ucala; özləri də dallarınca baxıb fərəh duyalar. Fərəh həkimdən-loğmandan, dava-dərmandan min qat müalicəvidir.**

**Qədirə görə, anası öz funksiyasını çoxdan yerinə yetirib. Övlad böyüdüsə, ananın yaşamağı artıq deyilmi?**

**Anaların vaxtında ölümü övladlara münasibətdə xeyirxah addım olardı.**

**Həyatdan ləzzət almaq üçün yaşayan ana ən azı tərbiyəsizlik edir.**

**Bu üzübərk arvad elektriki Günəş olan dağ kəndində tək yaşayır. Dünyadan xəbəri yox; üstündə yaşadığı dağın adınısa bilmir. Müharibələri “böyük qonşudavaları” adlandırır.**

**Orda göylər qarlı günlərdə lüminessent lampaları kimi işıqlaşır.**

**Qədir Mustafa anaya nifrətinin səbəblərini aramaqda.**

**...Hətta dünya müharibələri də bu arvadın nəzərində bir milçək vızıltısı kimi səslənər. İnsanların salamat qalması vecinə deyil, barı onların qırılmasıyla maraqlana!**

**Həyətdəki inək-qoyunu, toyuq-cücəsi, göy-göyərtisi onu arxayın salıb.**

**Eləsi gəlini də qiyabi istər.**

**Arvad həm də ona arxayındı ki, dağ kəlləsi müharibələrdə elə bir əhəmiyyət kəsb etməz. Yüz il köndələn yat, səni dindirən olmaz. Axı, oraya bomba yağdırmaq özü bir axmaqlıqdır. İzafi xərc olardı bu. Yeganə təhlükə qaçaq-quldurun, terroristlərin ora burun soxması ehtimalındaydı.**

**Oğlunun qlobal maraqları anaya mücərrəd görsənir.**

**Kəndistan yeri hər cəhətdən yaxşıdır: burda bəşəriyyətin fikrini çəkmirsən.**

**Ümumən, bəşəriyyətin fikrini çəkmək böyük anlaşılmazlıqdır.**

**Oğlu burda qalıb inək-camış saxlasaydı, çoxdan hampa olub hampalara qoşulmuşdu. Döşəməsi dağ başı, tavanı göylər olan bir məkanı da gedib 20-ci Sahədəki quşdamına dəyişməzdi. Oranın aylıq kirayəsi kötməcə bir dananın puludur. Bakının 20-ci Sahəsinə bütövlükdə mən heç beş hinduşka vermərəm, arvad deyir.**

**19 kvadratlıq bir yerdə də bəşəriyyət dərdi çəkərlər?**

**Ölmədikcə, ana balasını yalnız onun qanını sormaq üçün axtara bilər.**

**Analar qanını soracağı balalarını instinktiv yada salır.**

**Onsuz Qədiri də anasına sevgi-zad yox ki - göbək ciyəsinə bənzər görünməz bağlar birləşdirir. Bu saat anasını infarkt arxası üstə, ya iflic böyrü üstə yıxa, inan, ruhu inciməz. Anaları şişirtməyin, Qədir deyir, onlar həyasızka şeydilər. Analar gec-tez oğullara qarşı məhkəmə iddiasında bulunası varlıqlardı, qoy rədd olsunlar.**

**"Mən ona niyə palto almalıyam?"**

**"Niyə də almayasan!"**

**Arqumenti bu olacaq ki, onsuz dağ yerində ictimai rəy yox dərəcəsindədir, orda nə geysən, keçərlidir. Həm də orda köhnə paltarda gəzmək bir namus göstəricisidir. Ana indiyəcən köhnə libaslarda öz təmiz adını necə qoruyubsa, qoy axıracan da elə qorusun. Təzə palto hökmən təzə də söz-söhbət doğurar.**

**Yetmişinci illərədək payızı-qışı atasının müharibədən gətirdiyi kitellə yola verib. Sonra əmisi öldü, onun sovxalarını, atmayacaqdılar ki - verdilər buna. Palto əyninə bir qədər uzun gəlirmişsə də, yaraşırmış ona.**

**Yox, insafən, kişi paltarları anasına yaxşı oturur. Hətta həmin palto dağ kəndində yeni qadın modasına çevrilibmiş. Hə, yetmişincilərəcən o kəndin zənənləri arasında kitelə oxşar gödəkcələr dəbdə olubsa, Brejnev dövründə uzun paltolar dəbə mindi. Bəxtəvər başıma, anam kənddə dəbi diktə edib. Arvad bugünün özündə də həmin uzun nimdaş paltodadır.**

**Dağ yerində belə şey man deyil. Əksinə, durub orda təzə paltoda-plaşda gəzsən, sənə şəbədə qoşarlar.**

Orda belə şeylər lağ mövzusudur. Ən azı "lotuşka" sözünə ürcah olarsan. Evinin qabağında qaralan torpaq yola "bulvar" deyə bilərlər. Torpaq yola da "bulvar" demək ismətli qıza durduğu yerdəcə "pozğun" ayaması yapışdırmağın eynidir. Ya da - "bu, üst-başını təzələməkdə, özünə kişi gəzir", deyərlər. Bir sözlə, onların kəndində əyin-başı təzələmək qadına utanc gətirən ayıb bir şeydi. Bir dəfə Bakıdakı kimi təzə don geyib dükanda görünmüş qıza pıçı-pıçı "gəzəyən" adı verdilər, bununla da aktı bağlandı. Adını tutan olmadı.

Guya anası canını elə istəyir, paltosunu çıxaranda belə, yay-qış belində ədyal görərsən. Dağ təmiz yeldi və bel üçün ziyanlıdır.

Ziyanlı da yox, dağ belin başına daşdı, Qədir deyir. Arvad ədyalla əsas da ginekoloji soyuqdəymələrdən qorunar. Bax, anasının bu xasiyyəti Qədiri ondan soyudur.

Ay ölməli, bəyəm sən qızsan? Bu yaşda nəyinə lazımdı ginekoloji orqanlar? Kimçün saxlayırsan onları? Adamdan sual edərlər: "qadın üzvləri"ni göz bəbəyi kimi qorumaqda məqsədin nədir?

Qədir Mustafa anasının ətli-canlı qalmasından da xoflanırdı. Ətli-canlı arvadları kaftarlaşanacan da seksual zənn edir.

İrəliyə sıçrayışlar baxımından, o özünü daim haqlı sayır. "Beşdə-üçdə gedib anana dəysənə", deyənlərin dərhal ağzından vurar: sizə inkişaf maraqlıdı, yoxsa adət-ənənələr? Qoysanız inkişaf da milli adət-ənənəmizə çevrilsin!

"Nə deyirik, çevrilsin..."

Qapısında bir inəyi var. Qədir bir fakt kimi bunu gözə soxur: anasına inəyi özü alıb. Sən demə, inək arvad üçün hətta supermarket yerindədir. Onun hər il bir cöngə, ya düyə satmağı var. Qədir ağartıları bir-bir sadalayacaq: süd, qatıq, şor-pendir. Hələ bahalı qida sayılan yağı demir. Yağdan satıb qənd-çay alacaq. Kibrit, neft, odun. Pendiri şəkər tozuna dəyişir. Bir dəfə inəyin dabağını bir kilo yağa sağaltdırmışdı.

"Arvadın əlini çörəyə çatdırmışam, nə istəyir. Tutub özümü də yeməyəcək ki. Axı, həftə səkkiz, mən doqquz onun yanına niyə getməliyəm!"

Ömrünün çoxu gedib, azı qalmış insanlar elə bir məna kəsb etmir.

**...Odunu saraydan qucağında içəri daşıyanacan qolları buz parçasına dönər...**

**Qədir Mustafa anasının nədən öləcəyini hərdən özlüyündə çək-çevir edər.**

**Kimin nədən öləcəyini araşdırmaq dünyanın ən maraqlı işləri sırasındadır.**

**O, məzmunca eyni, formaca müxtəlif olan insan əzablarını kolleksiya edir. Özü üçün "Əzablar dəftəri" də açıb; gördüklərini düzür ora. Onkoloji xəstələrin ağrıları ona xüsusi zövq verir. Bunlar bəşəriyyətin əzabları sırasında ən mühümüdür: olmağına həmişə olur, həmişə də get-gedə şiddətlənir.**

**Bəşəriyyət ömrü boyu ona hətta bir qarın çörəyi də əsirgəyib. Zirəklik edib öz başını saxlaya bilməsəydi, çoxdan sümükləri çürümüşdü.**

**Şiş xəstələri bağıran olur, astmalılar - boğulan. (Astma heyvanlardakı xəfənək xəstəliyinin analoqudur).**

**Məntiq üzrə, soyuq əvvəl anasının böyrəklərini çürütməlidir. Böyrək də çürüdüsə, gözlərinin altı torbalanar, üzü - axşam düşürmüş kimi, get-gedə qaralar. Təkcə fatihəsi əskik olacaq.**

**Rayona niyə getmir: onun gələcək ölümünü yüngül keçirsin. Göz görməz, könül bulanmaz. Qoy ana əzablarıyla yüklənməsin. Tezliklə ana yoxluğuna vərdiş eləməlidi o.**
**İndi istəmir, hələ ölməsin. Ana gərəksiz bir əşyaya çevrilənəcən yaşamalıdır.**

**Hayıf deyil beynəlxalq dərdlər... Beynəlxalq dərdlər heç vaxt qəlb ağrısına çevrilmir.**
**"Mən anamı uzaq başı basdırmağa gedərəm, onu da vaxtında bilsəm," - bu o.**
**"Onda birgə gedərik," - mən.**

**"Gedən baş da, qayıdanda da, meşəqırağı restoranlarda əyləşərik," - bu o.**
**"Gedəndə də yox, gələndə də".**

**"Gedəndə də, hə, gələndə də," - o mənimlə məzələnməyinə, söz oynatmağına gülür.**
**Deyir, darıxma, onacan anasını unudar, inşallah, yası şən keçər.**

**...Qədir bu təcrübəni mənə də tövsiyə etdi.**

**(Son)**

***

Qədir Mustafa təzə romanında tərsinə hərəkətləri planlaşdırır: III Dünya müharibəsini II-nin, II-ni də I-nin içərisində yerləşdirmək. I Dünya müharibəsində insanlar III-nün vurularaq göydən yerə dəmir-dümür şəklində tökülən hava hücumu silahlarını əşyayi-dəlil kimi muzeylərə dolduracaq.

Muzey ehtirasları bütün dövrlər üçün səciyyəvidir.

Dönə-dönə dedi-tapşırdı, axır ona bir yaxşılıq etdim: yanında ana sohbətlərini təmiz kəsdim. Onun üçün ana üstü qaysaq bağlamaqda olan yara kimi idi. Artıq xeylaq vaxt keçib. Onunla gündə-günaşırı görüşürüksə də, heç cür bilə bilmirəm: o, anasını unudub, yoxsa yox? Anası ölübmü ya? Hə-yox bəlli deyil.

Özü ölənəcən anasının ölüm xəbərini eşitməsə, bu ona böyük qazanc olacaq, Qədir bir vaxt deyərdi. Bu qazanc bəlkə artıq ona nəsib olub da. Onda maşallah, bərəkallah...

**2009, 13 fevral - 3 aprel**

## "QOCA MƏCNUN"

Onu öz adıyla yox, Məcnun kimi tanıyırlar. “Tanıyırlar” demək bəlkə düz çıxmaz da; millət Məcnunu tanıyır, bir vaxt onu səhnədə təcəssüm etdirmiş birisi kimi də bunu.

Hüsnü həyatda qocaldıqca, teleekranlarda da qocalır, yaxşı kontrastlı televizorlarda üzü və boynundakı durğun venoz kapillyarlar aydınca görsənirdi.

Elə bir vaxt gəlib çatdı ki, daha onun qoca simasını Məcnundakı cavan çöhrəsiylə heç cür uzlaşdıra bilmədilər. Getdikcə də subtitrlərdə ismini oxuyub Hüsnü bildikləri adamın keçmiş Məcnun olduğunun fərqinə varmırdılar.

Ondan sonrakı məcnunlarla onun Məcnunu qarışıb surroqata çevrilmişdi.

Deyən, get-gedə Hüsnünün Məcnunu ancaq beş-üç opera mütəxəssisinə tanış gələcək.
İnsanlarda məcnunların analizinə vaxt hardandı.

Respublika miqyaslı şöhrəti həmin beş-üç mütəxəssis səviyyəsinəcən balacalaşacaq.

Yaşlaşdıqca da Hüsnünün burnu Gədəbəy kartofu şəklini alırdı. Uşaqlıqdan böyrü üstə yatmağı xoşladığından, uzun qulaqları nazilib qartımış, şəklənib gicgahlarına paralel durmuşdular. Cavanlıqda şəkil kimi bir oğlan - yetmişində bu günə qalıbsa, gör hələ gənclikdə meymuna oxşamış Qeys qocalardısa, nə sifət alacaqmış. Vallah, adam meymundan o yanasını təsəvvür etmir.

Hüsnünün ekranlarda görünməsi artıq ayıb bir şeyə çevrilirdi. "Bizim keçmiş Məcnun it sifəti almağa başlayır", teatr əməkdaşları onu barmaqla göstərib gülüşürmüşlər. Bəzi TV rəhbərləri radikal addımlar atmağa başladı:

Füzuli və Üzeyirin Məcnununa xələl gəlməsin deyə, həm də respublikada bu obraza nifrət oyatmamaq naminə, bu kişini ekranlardan rədd etmək qərara alındı. Həvəsdi-bəsdi.

Bunun nazıyla nə qədər oynamaq olar. Həftə səkkiz, mən doqquz ondan müsahibə götürməyə nə lüzum var.

Dediklərini otuz il qabaq deyb. Məcnunu yaratmaqla qəhrəmanlıqmı edib? Həm də axı, o yaratmayıb Məcnunu. Sağlığını görüm, Məcnun ona qədər var idi; olsa-olsa bu, rola girib. Elə san palçığı qəlibə tökübsən. Bir də ki, oynayıb, təşəkkürlər. Ancaq heç kəsə minnət qoymasın.

Dövlət qulluğunda işini görüb: maaşı maaş olub, qonorarı da qonorar. Rolu filmoteka rəflərində, adı arxiv sənədlərində, daha nə istəyir. Bəlkə dalımıza da mindirək? Bəlkə heykəl keçir könlündən? İnşallah, ölsün, onu da edərik. Al gəldi, göyərçin zılından heykəl necədi səninçün?

Teleşirkətlərin praqmatik rəhbərləri bir az da uzağa gedib, onu müəllim, həkim, hətta çobanla müqayisə etdilər. Niyə onlar abrına qısılıb, pensiya ilə kifayətlənməli, bu həpənd isə daim ortada yeyib, ucda gəzməlidir? Axı, niyə?

Bu kişi ömrü boyu Məcnundan sui-istifadə etdi. Qara yola, qara saata yaxşı zəngulə vuraydı. Gənclikdə vurduğu şirin zəngulələr respublika ictimaiyyətini işə salmış oldu. Ölkəyə baha oturdu bu. Bir dəfə ekrandaca öz diliylə istədi, ona Prezident təqaüdü də kəsdilər. Beləsinə üz versən, astar istəyəcək. Barmaq

göstərəcəksən, biləyindən yapışacaq. Zənguləyə qalsa, cəh-cəh vuran sərçələrin də hər biri Prezident təqaüdünə düşməlidir.

Stop! Dur! Ekranlardan dilənçilik yığışdırılsın!

Prezident köməkçisinin bircə həftə sonrakı amiranə tövsiyələri yerinə düşdü.

...Məcnun özü tez ölməyə can atırdısa, onu oynayan Hüsnü gec ölməyə çalışır. Hüsnü Məcnunun məhəbbətini şöhrətə çevirə-çevirə yaşayırdı. Bu adam məhəbbəti şöhrətə çevirən iksiri tanıyırmış.

Məcnunda məhəbbət vardı, şöhrət yoxdu, bundasa şöhrət var, məhəbbət yox. Məcnun şöhrəti dərk etməyib, Hüsnü məhəbbəti anlamır.

Ata-anası Hüsnünü Opera və Balet Teatrında Məcnunu təzə-təzə oynadığı çağlarda evləndirmişdi. Gəlin, onu çidarlayaq, deyib də, çidarlamışdılar. Öz kənd qızları olan bir müəllimə ilə. Qeys Leylini məktəbdə görüb sevmişdi, bu da gedib Rəbiyyəti məktəbdə gördü... və sevmədi. Ancaq iri döşlərindən keçə bilməyib, ona evləndi.

Leyli ağlağan, Rəbiyyət - güləyən. Rəbiyyət Leylidən dilli, həm də ətli-canlı idi. Hüsnü səhnədə nərmə-nazik Leylinin məcnunuydusa, həyatda əksinə, bu cür əndamlı xanımların ölüsüydü. Rəbiyyət kök-kötməcə olmasaydı, inan, bu onu bəyənməyəcəkdi. Məcnun həqiqətən səfeh imiş; axı, Leylidə nə can vardı ki, hələ onun dərdindən də divanə olaydın. Hazır “silotka”, ikilik taxta. Leylidə məmə deyilən şey olmayıb.
Sevgi idealı axtarışlarında yalanlar məqbul bilinir.

Hüsnü özlüyündə ideal axtarmırdı; düşdüyü dairə onu bu işə avtomatik sövq edirdi.
Teatrlarda ideal kor-koranə, sxematik tərzdə yaradılır.

Hüsnü özü, elə Rəbiyyət də, bir qram sevgi əziyyəti çəkmədilər. El adətləri sevgi əzablarını istisna etdi.

Rəbiyyət televizorda ”Leyli-Məcnun”u hər görəndə, Leylinin dalısınca deyinər: ay köpək qızı, səni İbni-Səlama verirdilər, niyə getmədin! Sənnən mən, elə san arvad arvadnan, danışıram - gərək elə pak adını bədnam edəydin? Yoxsa eşq aləmə faş ediləndə, daha dadlı olur? Bu Qeysin əzəldən vinti çatmayıb. Qəlbində sevgi mehi əsən kimi beyninin qurdları tərpənib. Bəyəm bu yaxşı hərəkətdi ki, XX əsr boyu sənin adından matişgələrə bənzər arvadlar peyda oldu, camaatın gözü qarşısında yad-yad kişilərə eşq oxudular? Günü bu gün də oxuyurlar, Yer kürəsi dağılıb toz,

ya qəlpələr halında kainata səpələnməsə, gələcəkdə də oxuyacaqlar. Əslinə qalsa, qadının məhəbbətini bir eşşək oğlu, bir eşşək qızı bilməsin gərək. Eşq simsiz teleqraf kimi yayılan olur.

Eşq əfsanələri dedi-qodudan başqa bir şey deyil.

Məhəbbəti opera-balet alverinə çevirməzlər.

Rəbiyyətin bu xasiyyəti Hüsnüyə xoş gəlirdi. Hələ bir Hüsnünün sözünə bax, "sərfəli xasiyyətdi", deyir. Eşitdiyinə görə, bu cəmiyyətdə əsas şey namusdur. Qız balasının erkəklər qarşısında hansı qoduğasa "yandım-yandım" deyib də, ağlayıb-sıtqamasını heç bir ata götürməz. Nəsə, hörmətli klassiklər burasını düşünməyib.

"Qızlarım Leyli kimi olsa, mən onları güllələyərəm" (yalandan), gör bunu kim deyir - səhnədə Leyliyə mütəmadi eşq oxumuş Hüsnü. Yaxşıdı ki, Rəbiyyət uşaqlara bir müəllimə kimi, pedaqoji üsullarla, tərbiyə verdi. Həm də bunların ailəsi Hüsnünün dilindən teatr həyatını izləyə bilmiş, qiyabi surətdə ordakı naqis cəhətləri görmüşdülər.
Fundamental tərbiyə iyrənclikləri görəndən sonra başlayır.

Rəbiyyətin fikrincə, təlim-tərbiyə işində atalar nəzərə alınmamalıdı. Bu atalar ki var, onlara hər cür avaraçılıq yaraşır. Hətta gəzəyənlik, arvadbazlıq da. Düzdü, arvadbazlıq hardasa kişiyə şərafət də gətirir. Arvadbaza ərə gedən qız heç olmasa buna arxayın olur ki, o, xonsa deyil. Hüsnü evdə gicbəsər adlandırdığı Məcnunu səhnədə az qala müqəddəs kimi təbliğ edir, qoy etsin, öz işidir. Evdə bəzən dili dolaşıb adına nalayiq sözlər işlətdiyi Leylini səhnədə az qala mələk adlandırır, yenə özü bilər. Təki o, oğul-qız tərbiyəsinə burun soxmasın.

Rəbiyyət:

"Qızlarım, qızıllarım, teatrda oğlan və qızın sevişməsi uydurmadır. Belə şeylər həyati deyil. Teatr biznes və şöhrət mənbələrindən biridir. Orda məram bic-bic şeylərdir ki, bunu da gic-gic şeylərlə həyata keçirirlər. Ancaq hələ dinməyin (onsuz qızlar dinmirdi), bizim çörəyimiz də indilikdə atanızın teatrdakı bambılı hərəkətlərindən çıxır. Bə bu məhəbbət dastanından buxaq bağlamamıışıqmı?"

Rəbiyyət qızlarının döşlü-başlı olmalarından qürur duyurdu. Əmin-arxayındı da ki, onlar onun özü kimi yurdda qalmayacaq. Evlənmək işində məhəbbətə nisbətdə bədən quruluşunun rolu daha böyükdür. Əndam qabarıq şeydir və məhəbbətdən həmişə üstündür. Kişiyə titrək budlar, fincanabənzər göbək lazımdır, lirika yox. Lirika aldadıb məqsədə çatmaq üçün bir vasitədir. Elə Hüsnü də onunla erotik illüziyalar əsasında ailə qurmuşdu.

Rəbiyyət:

- Hə, ay evimin çiçəkləri, indi bildinizmi ki, Leyli-Məcnun nağılına uymadan həyat qurmaq daha vacibdir? Nağıllara inanan tez uduzar.

- Bəlkə daha nağıl kitabları oxumayaq? - balaca qızı bunu soruşanda, ana susdu. Deyəsən, söylədiklərinin heç də hamısı həzm olunmurdu.

Rəbiyyət bu minvalla bir cüt qızını namuslu böyütdü. Ta ər evində nə olacaq, nə olmayacaq, onluq deyil.

Hüsnü namus işlərinə qarışmırdı. Bundan həm bir o qədər başı çıxmır, həm də namus ona darıxdırıcı gəlirdi.

Rəbiyyət bir gün xəyalına gətirəsi ki, bəlkə də kişisi qastrollarda leylilərlə çimdikləşib-mazaqlaşır. Olsun ki, hansı leylidənsə dölbeçəsi də var. Şeytan bu fikri beyninə salalı, o, ər deyilən məxluqa yanaşmadı. Bir o qalıb ki, leylilərin zöhrəvi xəstəliklərinə yoluxum, deyirdi. Rəbiyyət məhz ərinin leylilərlə ünsiyyətinə görə ondan çimçəşirdi. Çimçəşməyə başqa səbəb Hüsnünün daim tər qarışıq ətir qoxusu saçması idi.
Rəbiyyət ərinə möhkəm dərs verməyi qocalığa saxlamışdı.

Hüsnü səhnə həyatı boyu neçə-neçə leylilər gördü. Tərəf-müqabillərinin hamısı da əvvəl çöp kimi, sonra at Balaxanım. Birisi vardı, zalın gözü qarşısındaca ona eşq oxuyur, pərdə arxasına keçən kimi rejissorun qucağına atılırdı. Çariçə Yekaterinaya bənzər “beşenaya matka” idi. Rejissor da onu görər-görməz, kresloda tez özünü aşağı sürüşdürür, müvafiq bir seks pozası alırdı. Əməkdaşlar hörmət mənasında dinməzdi. Həm də burda milli əxlaqı yada salmaq yersizdi. Yada salarsan, qalarsan havada. Bu saat qardaş qardaşa bir qəpik vermir. Çörək qabaqlarını kəsirdi. Ölkədə cəmi bir Opera-Balet teatrı var, ordan çıxdınsa, sənətin də itəcək. Tısbağanı ya öldürdün, ya arxası üstə çevirdin, eyni şeydi.

Əslində bu teatrda heç kəs milli xüsusiyyətlərin keşiyində durmağa özünü məsul saymırdı. Kim ağrımayan başına yaş dəsmal sarıyar: dilləndinsə, dərhal mədəniyyətsiz, kəndçi, “çuşka” ləqəbləriylə təltif olunacaqsan.

Hüsnü rejissorla alqışa oxşar incə zarafatlar edərdi.

- Aqşin Quseynoviç, siz Leylini əlimdən aldız ki.

- Məcnun maymaqdı, mən neynim.

- Mən bir o qədər maymaq deyiləm.

- Qeysi deyirəm.

- ... Bir arvaddan ötrü mən durub ayıb-ayıb sizə irad tutmalıyam ki? Bəlkə duelə çağırmalıyam sizi?

- Leyli yalnız “za kulisom” mənim ola bilər. Səhnədə - polnı sənindir.

- Maşallah, səhnə də nə - monastır kimi bir yer, - Leyli bunu deyib, Aqşin Quseynoviçin sol yanağından bir maç götürdü.

- Bu əsəri mən yazmamışam. Tak şto... Yazmazdım da.

- Əsəri tamaşaya qoymaq elə yazmağın tayı deyil? - bu yenə Leyli.

- “Leyli-Məcnun” az qala himn kimi dövlət atributu sayılır. Biz bu tamaşaya məhkumuq. Ağzımız nədi, cəzə-fəzə edək.

- ...Ədə, ayaqlarında psoriaz var, səhnədə nəbada mənə yaxın durasan, - birdən Leyli Hüsnünü yadına salıb, ona sarı çöndü.

- Psoriaz keçici deyil, - bunu deyən rejissordu.

- Yox, mən çimçəşirəm.

- Qorxma, sənnən beş metr aralıdan ulaşarıq.

Rejissor:

- Sən zəngulələrə ulaşma deyirsən, eləmi? Yaşca da məndən böyüksən, başqa sözüm
yox: prosto, ayıb olsun.

Leyli:

- “Leyli-Məcnun” bir cəhətcə yaxşıdı ki, öpüşmə-qucaqlaşma səhnələri yoxdur.
Rejissor:

- Həri, “Leyli-Məcnun” gigiyenikdir, - rejissor sağ əlini qucağındakı Leylinin sağ, sol əlini də sol döşü üzərinə qoydu.

Hüsnü:

- Buranın rejissoru mən olsaydım, hətta psoriazlı yerlərimi də öpüşə qərq edəcəkdin.

Leyli:

- Yenə xəbisliyi tutdu. Bunun buynuzları qarnındadır.

Rejissor:

- Kinli olmayın. Bunlar bir zarafatdı. Davay, tərpənin, orkestr ikinci pərdəni başlayıb.

- Yaxşı.

- Oldu.

Barışdılar.

“Bunlar gedib əsəb gərginliyi içində bir-birinə necə eşq oxuyacaq?”

Başqalarıyla eşq yapmağı ərli leylilər belə həmişə özünə borc bilib. Bu onlarda müasirlik və mədənilik əlaməti sayılır. Onlar avropalılığı bunda görür. Guya İtaliyada da belədir, Moskvada da.

Kostyolu xatırladan bu Bakı teatrında məşuqu olmayan aktrisanı hamı xorla “siniy çulok” adlandırır.

Hüsnü tərbiyəsiz leyliləri qınamır da. Qız xeylağı Leyli olana qədər saf və təmiz qala bilməz. Bir-ikisi hətta sonra şortuya çevrildi. İçən kimi istənilən kişinin altına yıxılırdılar. Leylini bomjun altında təsəvvür edərsinizmi? Bax, elə.

Hüsnü səhnədə məcnunu olduğu leylilərə həyatda nifrət edirdi. Səhnədə onlara məhəbbəti nifrətlər içindən sızdırmaqla çatdırırdı. Məhz ona görə də illər keçdikcə, onun Məcnun rolu zəif alınırdı. Formal-patetik bir şey. Quru bağırtı. Həzin musiqi və yuxudan durğuzsan belə əzbər deyəcəyi sözlər onu Məcnuna oxşadırdısa da, qəlbi şam kimi sönməyə başlamışdı. Axı, doğrudan da, nəyə lazımdı bu oyunbazlıq...

Hüsnü özünün səhnə məcnunluğunu mütrüblüyə tay tuturdu.

Burası qaranlıq qalır, necə olub ki, Üzeyir bəy də bu şeylərə getməyi özünə rəva görüb.
Hə, səsinin tembrinə görə onu bir az da səhnədə saxlayıb, mədəni şəkildə dalından dəydilər. Amma leylilərə inanan vaxtlarında onun məcnunluğundan olmazdı.

Onda hər şey ürəkdən gəlirdi. İnam itdikcə, rol quru alınır, getdikcə də hamı bunu görürdü. Əslində onu teatrdan yox, Məcnunluq "iş"indən çıxardılar. Bəhanə bu oldu ki, qarın bağlayıb. Məcnunla qarın tutmur. Guya tamaşaçı Məcnunda qarını anlamaz. Onsuz elə leylilər də kökəldikcə çıxdaş olurdular. Səhnədə gonbul Leyli kimə lazımdı? Bir balaca uğurdan leylilərin də başı gicəllənir, havayı məclislərdə basıb yeyir, şişib şara dönürdülər. O, leylilərin hamısını acgöz gördü. Qarınları doyurdusa da, gözləri doymurdu.

Opera-balet səhnəsində sənətkarlıqdan çox, bədən fiqurası vacib bilinir.

Qarını bəlkə də düz deyirmişlər. Hüsnü gecdən-gec bütün günahları özündə görür: bir göbəkləsə bacarammadı. Göbək onun teatr karyerasına nöqtə oldu. Bəli, nəfsi ona güc gəldi. Həyat fəlsəfəsini siftədən düz qurmadı, dünya beş gündür, beşi də qara, dedi. Guya insana yemək-içmək qalacaq. Bir də yatdığı-gəzdiyi qadınlar; onların Leyli ifaçıları olmaması şərtiylə.

Teatrdan tamam atmadılar ki: hərdən ona padşah, ya xan obrazı verirdilər. Kütləvi səhnələrdəsə həmişə vardı. Bəzən kütlənin içindən tamaşaçılara qandırıcı təbəssümlər səyirdir: ha tapın, görüm tanıycaqsız məni? Bu mənəm, Məcnun. İnsafən, tanıyanlar olurdu. Tamaşaların birində dodaqları qıpqırmızı boyalı bir qadın kəpənək uçururmuş kimi ona öpücüklər yollamışdı. O bu öpücüklər həvəsinə artıq kütləvi səhnələri xoşlayırdı da.

Kütləvi səhnələrdən zala, sanki o dünyadan bu dünyaya, baxırdı.

Rejissordan da çoxdankı tanış kimi ərkyana elə rollar istəyərdi ki, onun tərəf-müqabillərində iyrənclik görməsin. Aktrisalar nəcib ailələrdən çıxmış olsun. Rejissor bir dəfə ona qabarası: sənə aristokrat ailəni hardan tapaq? Bə elə bu "suçkalar" da özlərini aristokrat ailədən saymırmı?

Hüsnü: yox da, hörmətli rejissor, bu məndən asılı deyil, tərəf-müqabilimdə bir iyrənclik görən kimi rolum zəif alınır. Rejissor: artist hər iyrəncliyə öyrəşməli və buna dözməlidir. Hüsnü: mən opera artisti kimi güclü ola-ola, get-gedə zəifləyirəm.

Gərək bu sizi də maraqlandırsın, narahat etsin. Rejissor: mənə dərs verməyə

ehtiyac yoxdur. Ancaq sabahı gün də o, tərif məqsədilə Hüsnünün bu ağıryana sözlərini ümumi iclasda səsləndirdi. Yox, dilində daim kobud sözlər bitirsə də, kollektivdə hamıdan həssas və mədəni, həm də arif adam elə yenə o idi. İclasda dedi, ay millət, onsuz biz hamımız az, ya çox dərəcədə iyrəncik. Bizim bir-birimizdən fərqimiz iyrəncliyimizin az-çoxluğundadır. Bilirəm, insan cəmiyyətində başqa cür olmaq mümkünsüzdür. Onda barı gəlin bunu gizlətməyi bacaraq. Mədəniyyət iyrənclikləri gizlətmək dərəcəsində üzə çıxır. Baxın ha, yoxsa rollar get-gedə hamıda zəif alınacaq (bay, rejissor Hüsnünün sözünü birbaşa işlətdi).

Rolların ideal alınması üçün mən bütün əməkdaşlarımızı əxlaqa dəvət edirəm. Leylilərə də məsləhətim budu ki, publiçni qucağımda oturmasınlar. Bura teatrdı. Priton deyil. Teatr məbəd sayılır. İş işdi, istirahət - istirahət. İstirahət vaxtı... lap...
İndi demişdim.
Leyli:

- De, qurban olum.

- ...lap get minet elə. Kimin buna nə sözü olar. Şəxsi həyat toxunulmazdır.

Dədənin evi yıxılmasın, bu, qaş düzəltdiyi yerdə vurub gözü çıxartdı ki.

- Kaneşno, mənim bu axırıncı sözüm hamıya aid deyil.

Leyli:

- Aid olanda nə olar! Xəncərimizin qaşı düşəcək? Biz burda bir ailəyik.

İnsaf dinin yarısıdır, bütün sənətşünaslar, opera rejissorları Hüsnünün ilk Məcnun rolunu müsbət dəyərləndirirdilər. Hətta o rolu “klassika” adlandıranlar vardı. Onun iştirak etdiyi tamaşa qızıl fonda salınmışdı. Xahiş-minnətə ehtiyac yox, ən çox Üzeyir Hacıbəyovla Füzulinin yubileylərində, bir də müharibələrarası bayramlarda, o lenti ekranlarda fırladırdılar. Deməmişdən.

O lentdə Leyli rolunu oynayan aktrisa da elə obraza uyğun ülvi görsənirdi. Paxırı sonra açıldı.

Hüsnünün şöhrəti qızıl fonddakı tilsim sındıqca genişlənirdi.

O, ilk Leyliyə tam bir il inanmışdı. Ərli olmasaydı, özü də ona vurulacaqmış. “Biz azərbaycanlıyıq”, deyib də, içində ona dair sevgilərə yasaq qoymuşdu. Bir gün xəbər yayılası ki, o, ərini atıb, yarıcuhud birisiylə qaçıb. Qaçıb deyəndə, hara qaçır, yenə teatrda idi.

Bakıdaca pis evdən yaxşı evə köçmüş, yatdığı pulsuz kişini pulluya dəyişmişdi. Kişinin kişidən fərqi pulunun az-çoxluğundadır. (O belə sözlərlə rejissorunu yamsılayardı). "Çlen" barədə kişilərdə köklü fərq görməzsən.

"Pullu" deyilən şəxs varlı-karlı bir tamaşaçı imiş.

Leylinin keçmiş əri də müasir insan: qeyrəti yox dərəcəsində. O, müasirliyi qeyrətin yoxluğunda görürdü. Qeyrət hardasa insana mane olan şeydir. Burdan gedib Moskvada, bir az da İstanbulda alababat oxuyub gələnəcən bu şey onda qeybə çəkilmişdi. Gedib arvadı tapıb, qarnına bıçaq soxası deyildi ki.

Bu, təmiz vəhşilik olardı. Arkadaşlar, sevgi azaddır. Üstəlik də, bakın, bəyəm o, Məcnuna oxşayır, bəyəm onun üz-gözündə səfehlik-zad yazılıb?

Bayan azlığımıdır bu məmləkətdə? Gedib, "nu, podumayeş". Zatən, kadın kedi kimi bir şey. Həm də kişinin kişini anlaması gərəkir. Tamam. Nəyə lazımdı onunla "jit, kak koşka s sobakoy"? Hələ orasını demir ki, sevgilisi Leylini oynayan birisi, gün axşamacan eşq məşqləri keçərdi. Məşğələləri hər zaman başdan aşıb. Yani onda eşq vərdişləri güclü olub.

İllər boyu fonddakı lent ekranlarda fırlandıqca, hər dəfə o həm tamaşaya təzədən baxıb, həm də nəzəri cəhətcə artan şöhrətini duyub. Axırda da, çay qabağında soyuya-soyuya, düşünəsi olub: vallah, arada-bərədə bir şey yox. Bu şöhrət ona yalandan gəlir. Ondan veriliş hazırlayan jurnalistlər də elə bilir burda nəsə var.

Şöhrətli insan - heç nə...

Getdikcə xəstəlik siqnalları ona hazırlaşmağı diktə edirdi. Artıq böyük bir infarktı qeydiyyatından keçmişdi də. Yeriyəndə ləhləyir. ...Arvad da onun kimi. Onun bədəni iki-üç cərrahi əməliyyatla bəzənib. Öd kisəsiylə soxulcanabənzər çıxıntısı götürülüb. Axırda qadın üzvlərini də köklü-köməcli rədd elədilər: bir az həyasız olsa da, adamın ona yazığı gəlirdi, manekenmiş kimi əli-üzü bumbuz idi. Hankı böyrü üstə də uzanır, qarnı su dolu tuluq kimi o səmtə əyilir.

Oturanda köhnə kosaraya bənzəyir.

Rəbiyyət tək bir övladları sarıdan arxayındı. Qızları Leyliyə bənzəməmişdi, əsas budur. Çətinlik ailə quranacandı; namusun sonrakı mərhələsi ərin boynunda qalır.

Nədənsə, o, qızlarının həyatında sədaqətsizlik, murdarçılıq ehtimalından da nigarandı. Ataları artistdi deyə, bu barədə şübhələri əskilmirdi.

Oğlanları, daim subay yaşayacaqmışlar kimi, Rusyətdə. Biz iki qardaş, onlar deyirmiş, Rusiyanın iki paytaxtını da zəbt eləmişik, Onları ailədən də, Azərbaycandan da atalarının məcnunluğu çiyrindirdi. Onsuz da Qeysi kişi saymırdılar, bu heç. Görün, kişi də qızdan ötrü dəli olar? Amma ataları da utanmır, bu "petux"un surətini yaradır.

Kişi atağan-vurağan, vurub-yıxan, basıb-kəsən olmalıdır; durub zar-zar ağlamalı, göz yaşlarını seylan etməli deyil. Özü də sən hansı həqiqəti və kiminlə üzə çıxarmaq fikrindəsən: qəlbi çirkin, üzü göyçək leylilərləmi?

Onlar "Leyli-Məcnun"u vur-tut bir dəfə, uşaqlıqda əl-ələ tutuzdurub, gələcəkdə mədəni olmaları üçün məcburi "Opera"ya aparılanda, görmüşdülər. Odu-budu, bu tamaşaya "kres" qoydular. Atalarını Məcnun qiyafəsində görəndə, az qalmışdı bunlar özü dəli ola, ölüb yerə girələr.

Alə, ac ol, kişi ol. Zəhərə dönsün o yolla qazanılan çörək.

Böyük Moskvada metallurq idi, kiçik - Sankt-Peterburqda dəmiryolçu. İşləri düz gətirməsə, ikisi də "taksovatlığ"ı gözaltı eləmişdi.

Bir gün Bakıdan gedən birisi böyüyə deyəndə ki, malades, atan xalq artistidir, bu deyib, nə olsun.

...Artıq jurnalistlər də Hüsnünü yada salmır. Demək, nanay-nanay qurtarıb. Sən demə, şöhrəti artmaq əvəzinə, azalırmış. Get-gedə də Hüsnü özündən sonrakı leyli və məcnunlara biganə olurdu. Kimlərdi onlar? Kim "tapş"la Məcnun, kim "papış"la Leyli olub? Orda kim kimi altına basır, kim kimə sifilis yoluxdurur, bəlli deyil. Kim ərini, kim arvadını, özü də neçə dəfə, dəyişib? Bu cür yerdəyişmələr teatrda daimidir.
Daha evdə oturur. Amma işləyən vaxtları maraqlı imiş. Orda hərdən hamının boşandığı dövrlər olurdu: o boyda teatrda nə bir arvadın - rəsmi kişisi, nə də bir kişinin - rəsmi arvadı.

Orda belə hadisələr "Leyli və Məcnun"dan daha maraqlı idi.

İndi olanlar, qarşıdakı, hətta gələn əsrlərdəki yalanlar da ona indidən bəlli.

Yalanın keçmişi və gələcəyi bir almanın iki üzü kimi oxşar olur.

"Leyli və Məcnun" dünyanın ən uğurlu yalanlarındandı.

***
“Gerçəyə oxşar bu yalanlardan birini də bəlkə mən toqquşdurum...”

Qəfil beyninə dolan bu ideyanı arvadla bölüşdü.

- Bəri əyləş, onsuz sən də ölməkdə, mən də...

- Deməyin nədi?

Nağıl dili gödək olar, söhbət-məsləhət bundan ibarət oldu ki, ay arvad, birinci sən ölsən, özümü balkondan mən atıram, mən ölsəm - sən. Necədir? Bəlkə kimlərsə bunu eşqin gücünə yoza. “Leyli və Məcnun” bir də gördün “Hüsnü və Rəbiyyət” şəklində ortaya çıxdı.

Neynək, təki bu dünyada məhəbbət dastanları yamsılansın. Hamı bu işə qurşansa, müharibələr də unudular.

Əfsus, səhnədə təsirli alınası “Hüsnü və Rəbiyyət”in də məğzi yalan olacaq: qurama ölümlər.

Ortada həm həqiqi, həm də süni sayılası ölümlər olacaq.

Qəribədir, bəşəriyyəti aldatmadan əbədiyyətə getmək mümkün olmur.

...İnsan əbədiyyətə layiq deyil.

Onu bədbəxtlik basıb: çaşıb gələcək teatr effektində əbədiyyətə gedə bilməz. İnsanlıq onu yadda saxlamaz. Əksinə, bəşəriyyət bu fırıldağı tutsa, onlara nifrət edər.

Qınamalı deyil, bir ər-arvad arasında ki, dəlicəsinə məhəbbət olmaya, bəşəriyyət bunu niyə də yadda saxlamalıdır?

Ancaq boş çanağı dolu çanağa vurmaq da pis olmaz. Tutar qatıq, tutmaz ayran. Tarixə düşmək gərək: hətta kriminalcasına belə.

Arvad onu başa düşmədi. “Sənin ağlına dua yazdırmaq lazımdır”, deyib də, durub getdi mətbəxə. Orda burnunun altında deyinirdi.

Yox, arvaddan gözü su içmədi. Hüsnü ölsə, öldür, o özünü öldürməz. Onda gərək arvad birinci ölə ki, məhəbbətə bənzəmək üçün bu özünü balkondan gurlu-guppaz yerə buraxa. Bəlkə onda ona təzə şöhrət gələ. İnşallah, bəşəriyyət bu planı başa

düşməz. Bəşəriyyət dərin fırıldaqları çox da anlamır. Axı, bəşəriyyət həm də bir az küt varlıqdı: kökünə varmadan istənilən parıltılı faktı əfsanəyə çevirər. Hüsnü bəşəriyyətin zəif damarını tutub. O, tək bir adama kələk gəlməyi bacarmırsa da, bəşəriyyəti tovlayacağı gümanındaydı. Saf-çillə bir adam intihar etmiş arvadın dalısınca, faktiki, özünə qəsd edirsə, buna niyə də heyran olmayasan. Bəşəriyyət fırıldağı tutsa belə, bunu nəzərə almaz. Artıq burda fırıldaq arxa plana keçər.

Ortadakı düz meyit bütün fırıldaqların üstündən xətt çəkəcək.

Əbədiyyətə getmək asandır. Təki getməyə niyyət olsun. Çoxu əbədiyyətə vız atmır, öləndən sonra öz oğul-uşağının yaddaşında qalmaqla kifayətlənir. Bunlar heykəlləşməyin, nəğmələrdə yaşamağın dadını bilməyənlərdir.

Arvad birinci, özü ikinci ölmüş olsa, onlar üçün əbədiyyət hazırdır. Həyatın özündə, göydə qrafik üslubda cızılmış bu sevgi mənzərəsi bir örnəyə çevrilər.

Həyatdakı real intiharı onun səhnədə yaratdığı irreal Məcnunun tərəqqi etmiş forması sayılar.

Qazanacağı şöhrət itirəcəyi canına dəyər.

Yalan rollar bitib, həqiqi hərəkətlər gərək.

Çaşıb özü birinci ölərsə, planlar batdı.

Əvvəl onu öldürməliyəm, sonra özümü!

Tərəddüdlər böyük dərddi.

Hüsnü uca balkondan atılmaqla intiharı daha üstün tuturdu. Çünki onda ölüm quş kimi uçuşdan sonra baş verir. Quş kimi uçmağın dadını görəndən sonra ölməyin də bir özgə ləzzəti var. Üstəlik, həm tramplindən tullanan idmançılara, həm də kinolarda özünü qayadan-zaddan atanlara bənzəyərsən. Gör Hüsnü haralaracan fikirləşə bilir: gələcəkdə onun kino obrazı yaradılanda, kaskadyorlar lazım gələcək. Onun kino obrazı Azərbaycanda kaskadyorluq sənətinin təşəkkülünə bir təkan ola bilər.

Hündürlükdən tullanmaqda yeganə çətinlik şok etapını keçməkdədir. Sonra əbədiyyət qarşına palaz kimi səriləcək.

Cənnətə düşməyəcəksə də, əbədiyyətə düşəsidir. Hökmən.

Əbədiyyətə insanlarla ötürülürsən. Əfsus, insanlarla bağlı olduğundan, əbədiyyət müvəqqətidir.

Xəstəlikləri get-gedə itiləşir. Çaşıb birinci özü ölər.

Arvad pota kimi bir şeydi: onu öldürmək olar? Lap onu öldürsə belə, birdən özünü öldürə bilməz...

Can şirin, şöhrət cəlbedici.

Qarşıda təptəzə şöhrət ilğım kimi bərq vururdu.

Balkonundan uçacağı doqquzuncu mərtəbə bir şöhrət şansı idi.

...Bir gecə o, xorultuyla yatan arvadının ağzına ağır balışlar yükləyib, özü də cəld balışların üstünə çıxdı. Arvad gözlənilmədən 7-8 bal gücündə zəlzələ kimi necə silkələndisə, balışlar bu yana səpələndi, Hüsnü də daş kimi o yana düşdü. Hər ikisi azar-bezarı unutmuşdu. Süpürləşmə başladı. Bu dəfə Rəbiyyət pəhləvan kimi ərini döşəməyə sinib, üstünə qalxdı - nə yemisən, turşulu aş. Başına-başına, qarnına-qarnına. Ərinin yumşaq yerləri onu qane etmirdi. Yumruq, təpik - o, bütün savaş arsenalını işə salmışdı. Hətta bədahətən təzə bir üsul da işlətdi: qucağa sığmayan enli dalıyla onun ağzı üstündə oturub-qalxmağa başladı, bu zaman kişisinin kartof burnu onun yanbızları arasına girib-çıxırdı. Hüsnü canını götürüb balkona cumdu. Divara-dəmirə necə zərblə çırpıldısa, kvadrat gözlüklü söykənəcək yerindən qopub çərpələng kimi göydə uçmağa başladı. Bunlar da onun dalınca. Hərdən baş-başa, ya birinin başı o birinin dabanına dəyə-dəyə, bir-birini ötə-ötə, hərdən dəmir çərpələng başlarına danqadan toxanmaqla uçurdular. Onlar ölüm ayağında bir tək gözlərini qoruyurdu. Yerə yaxınlaşdıqca da sürət artırdı.

Təzə şöhrətə metrlərcə məsafə qalmışdı.

Doqquzdan yerə gələnəcən düşünməyə vaxt da vardı. Görən, bəşəriyyət onları unutmayacaq ki... Hüsnünün vaxtı yalnız buna çatdı.

Rəbiyyətin nə düşünməsi qaranlıq qaldı.

**11 - 17 aprel 2009-cu il**

## "VAHİD ƏSƏDOVUN ÖLÜMÜ"

Vahid Əsədov öldü. Ömrünün qırxıncı ilində gözlərini yummaqla da sanki bütün qalan işlərini ixtisara saldı.

Yəqin görüb onlar bir əfsanə, baş girlətməkdir.

Nekroloquna gözüm sataşanda, qəzeti qatlayıb hələlik bir qırağa qoydum: sonra oxuyaram. Ləzzəti uzatmaq istəyirdim.

Keçib rəfdəki baş-ayaq kitabları yerbəyer elədim, cildləri ard-arda düzdüm - guya bu saat-bu dəqiqə bu işlər onun ölüm xəbərindən elə vacibdi.

Mətbəxə qayıdıb çay qoydum. Özümə şam tədarükü görməyə başladım. Arada qanrılıb "Vahid Əsədov" yazısının üstündəki şəkildə keçmiş dostumun gülümsər çöhrəsinə baxırdım.

Deyirdin, o, üzündəki təbəssümlə mənə deyirdi: gördün ki - zarafat-zarafat, axır öldüm.

Şəkil enlikdə nekroloq onun əyninə taxılmış qara dirijor frakı kimi aşağı sallanmışdı.

Belə-belə işlər, Vahid Əsədov. Cəmi iki ay bundan əvvəl mən Bakıda etibarla, inamla sənin yanına gəldim, bə sən neylədin: lağ-loğazla "moskviç" dediyin bir qəribin ağzını boza verdin.

Sözümü yerə salmağın cəhənnəm, belimə yalan vədlər yüklədin. Özü də bir var vədin yalanı sonra bilinə, səninkilər söz ağzından üzülməmiş faş oldu. Şit-şit də qızıl dişlərini ağardırdın.

...Orda, oralarda dişlərini qəbir qurdlarına da ağardarsan!

Axı, biz də çörəyi qulağımıza yox, ağzımıza yeyirik: sənin yalan vədlərinə bir yavan "sağol" fırıldadıb, kabinetdən çıxdım.

Amma ay zalım, ürəkdən "sağol" desəydim, uzun yaşayacaqdın, özündən küs.

Onca dəqiqə sonra da, sağ-solu, Allah işığının həbs olunduğu, sandıqçalar kimi qapıları kip bağlı, kabinetlərlə dolu, alaqaranlıq dəhlizdə qarşı-qarşıya gəldik -

baxar kor kimi yan keçdin.

Düzdür, idarə idarədir, ora hərzə danışmaq yeri deyil, ancaq bir vaxt "qeyri-idarəvi" yerlərdəki kimi göz vurmağa nə gəlmişdi.

Tutacaqdılar, ya asacaqdılar səni? Bəlkə "şəxsi işinə yazılmaqla" töhmət verəcəkdilər?

Yoxsa insan özünü müdir kimi aparanda, mərtəbəsi yüksəlir, şöhrətə çatır?

Gəl əyri oturub, düz danışaq: mənə verdiyin vədlər ağ yalan idi. Sən məni barmağına doladın, xoruzumu qoltuğuma verdin, sən mənə yağlıca bir "şiş" göstərdin!

Onda, avqustda görüşməsəydik, indi, noyabrda, hətta öldüyünü də bilib, ürəyim bulanmaz, oturub səndən ötrü hönkür-hönkür ağlayardım.

Bir yandan da səndə nə günah - özüm sırtıqlıq elədim. Hədərə şeylərdən ötrü hörmətini tutduğun insana ağız açmayasan gərək.

Hələ ağlamaq nədi, qəzeti gözümdən iraq tutmuram ki, nekroloqun dadını qaçırmayım.

Açığı, şam tədarükünün əvvəlində bir istədim əl atıb onu tezbazar oxuyam, tanışlığımız-dostluğumuz xatirinə, ləzzəti yarıda kəsəm.

Ancaq Şeytan dedi, ə, nağayrırsan: o sənə elə, sən ona belə? Fikir ağlıma batdı.

Vahid Əsədov elə bil basılmış düşməndi, mən onun sinəsinə çökmüşdüm.

Xörək bişənəcən vanna otağına keçdim; vaxt itirmədən ordakı işləri də qaydaya salmaq istəyirdim.

Dəsmalı-corablarımı yumalıyam. Dostumun ölümü məni işgüzar eləmişdi. Birdən vannada, kömürlə rənglənibmiş kimi, qara bir böcək gördüm.

Ayaqcıqları tərpəşdikcə tank kimi irəliləyirdi. Məndə onun həyatı ilə oynamaq həvəsi oyandı.

Bu saat mən onun başına nə istəsəm gətirərdim: öldürsəm öldürərəm, öldürməsəm - yox. Əvvəl şırnağı açıb onu suyun axar yerinə sürüşdürdüm.

Böcək bu qəfil fəlakətdən dəhşətə gəldi: boğula-boğula gah bu, gah digər səmtə - onun zənnincə, ölüm olmayan yerlərə şütüməyə başladı.

Onun tərzi-hərəkətlərinə baxan belə qənaətə gələrdi ki, hər tərəfdə həm ölüm var, həm də heç yerdə ölüm yoxdur.

Böcək yalnız axacaqdan keçərsə, ölüb gedəcəkdi. O dünyanın milyonlarca qapıcıqlarından biri də vannadakı bu axacaqdı.

Əyilib mikroskopa baxan təki ora baxdım; yəqin o dünya yerinə düzgün qoyulmayıb, heç nə sezəmmədim.

Dikələndəsə, gördüm böcək vannanın divarı boyu, aşağı sürüşə-sürüşə, becid yuxarı dırmanır.

Onsuz əcəl onun başı üzərində qanad çalır - qaçmaq-gizlənmək əbəsdi. Hirs gəldi, iman qaç, mən onu iti su ilə bir az da aşağı axıtdım; bütün zəhmətləri hədər getdi.

Yox, öldürməyə ürəyim gəlmir: onu o dünyanın qapısı ağzındaca əylədim, hətta yavaşca ordan araladım da.

Böcək gördü onu ölümə sürükləyən qüvvə həyata sarı da itələyə bilir. O məndəki bu qüdrətə bərk sevindi, hətta sevincin gücündən dalı üstə aşıb, ayaqcıqları göyə - məncə, Allaha dua etməyə başladı.

Lakin mən elə bir qüdrət sahibi idim ki, dua-zad qəti kar etmədi, nazik şırnağı altdan salmaqla, onu təzədən üzü üstə çevirdim.

Dualar xırp kəsildi. Ayaqcıqlar dua rolunu itirib, vannanın dibində böcəyin çəlləyə oxşar tənini dayaq kimi saxlayası oldu.

Qaraböcək çaş-baş qalmışdı, bilmirdi də neyləsin - o ya yaşaya bilərdi, ya ölə, başqa şey əlindən gəlmirdi.

Mən də ki, onu nə yaşamağa qoyuram, nə də ölməyə. Səbəbsiz qəsdinə durmuşdum.

Həm də böcək bu yox, tamam başqası da ola bilərdi. Mənim üçün onların ucdantutma hamısı birdi. Hamısının da taleyi - əhəmiyyətsiz.

Qəfildən onu tezcənə öldürmək fikrinə düşdüm. Yox, bu böcəyin həyatı vaxtımı alır.

Axı, onun həyatı nədir ki - açığı, bu həyatla oynamağa belə dəyməz. Darıxdım lap. Bircə onu öldürsəydim, asanlıqla keçərdim başqa işlərimə.

Əl atdım suya. Dayan, hələlik onu öldürməyə əsaslı səbəb görmürəm.

Öldürməyə əsaslı səbəb yoxdusa da, axı, hələlik yaşatmağa da elə bir əsas yoxdu.

Birdən ağlıma gəldi ki, mən yaşatmaqla da ondan üzülüşə bilərəm. Yaşat, qoy cəhənnəm olsun.

Hər halda, yaşatmaqla ondan qurtulmaq daha bəyənilən olar. Üstəlik, bu saat böcək özü də yaşamaq istəyir.

Guya böcəklərin ölmək istəyəni olur ki...

Görən, böcəklər də insan kimi intihar fikrinə düşürmü?

Ey, qaraböcək, bu acı dünyaya nə şirnikirsən belə? Yaşamaq istəyirsən - buyur. Şəxsən mən qarabala sənin həyatına göz yumuram!

Suyu bağlayıb keçdim mətbəxə. Vay, xörək daşıb, mətbəxi duman alıb. Göz-gözü görmürdü. İnstinktiv qazı söndürüb, pəncərəni açdım.

Böcəyi yaşatmağımı həsr edirəm V.Əsədovun ölümünə. Onun ölümünü həyatla qeyd edirəm.

Mənə yalan vəd verməsəydi, ondan ötrü nələr etməzdim! Böcəyin biri nədir, xatirəsini əziz tutub, mininə birdən həyat bəxş edərdim.

V. Əsədov, vətəndaş V., yoldaş Əsədov, əlvida!

Bu məqamda əvvəl ona hörmət qoyub, cəld nekroloqu oxudum. Oxuyan kimi də qəzeti sərdim şam yeməyinin altına.

Yox, deyən, burası hörmətsizlik çıxdı: nimçənin dalı Vahidin ağzını qapamışdı. Qəzeti, islanıb xarab olmamış, qabların altından çıxarası oldum.

Yoldaş V., sənin şəklini kəsib saxlamaq niyyətindəyəm, buna necə baxırsan?

Pah, hələ ondan icazə alacağam! İzn verdi-vermədi, dörd yandan qatlamaqla şəkli kəsib götürdüm.

Qoyaram qalın bir kitabın arasına, şax qalar. Onsuz Vahid özü də kitab qurdu idi; qoy orda qurdalansın. ...

Mən onu yadıma salıb şəkli axtarmayacaqdım; kitabı təsadüfən açanda, Vahid Əsədov yadıma düşəcəkdi.

Şəkli əvvəl stolun üstündəki qəndqabına söykədim.

Elə bil V.Əsədov pişik kimi stolun üstünə dırmanıb, ordan mənə, mənim süfrəmə baxırdı. Gözü-könlü tox imiş, heç nəyə əl uzatmırdı.

Vahid Əsədov, gəl bugünkü günü sənin yasın hesab edək! Mən öz şam yeməklərimi sənin adına ehsan deyirəm!

Ancaq bağışlayasan ki, bu ehsanı bir tək özüm həzmi-rabedən keçirirəm. Həm də neyləyim, süfrəmdə paket supudu, bir də kolbasayla sarımsaq.

İnan, bu gün sarımsaq yeməsəm, ölərəm!

Ehsan bitdi. Əfsus, dəfn ehsandan sonraya düşdü.

Kaşan-kaşanla mən onu hələ qatı açılmamış, küncləri sərt 90$^o$ bucaqlı bir kitabın içində basdırdım.

Sonra da bu sərt kitabı aparıb qatma-qarışıq dəftər-kağızın arasına dürtdüm ki, unudum getsin. Qayıdıb dostumun xətrinə yaşatdığım böcəyə baş çəkdim.

Böcək bayaqkından da iti - gah dala, gah qabağa millənir, gahdan divar boyu yuxarı dırmanır, gahdan dığırlanıb kəllə-mayallaq vannanın tən ortasına gəlirdi.

V.Əsədovun böcəyi heç cür həyatın yolunu tapa bilmirdi.

Həyat ölümlə ləbələb vannadan kənardaydı.

Böcək bir də yuxarı dartınanda, ovcumu yanakı onun dalınca sürütdürdüm. Ayaqcıqları divardan qopub, aşağı düşdükcə, yumşaq ovcumdakı istilikdən çimçəşib-üşənir, təzədən yuxarı atılırdı.

Belə-belə mən onu vannadan həyata aşırdım.

Böcək həyatda daş kimi tappıltı səsi verdi.

Əlvida, Vahid Əsədov!

**1988, noyabr-dekabr**
**(yenidən işlənib: 2011, 5-27 fevral)**

## "QARDAŞIMIN SEVGİLƏRİ"

Qardaşım atağız bir kişi olub, belə deyək, gəncliyi modifikasiyaya uğrayıb.

Ay budu ha, deyirsən, indicə durub aləmi qatar bir-birinə, uşağı-böyüyü kəllə-kəlləyə vurar.

Di gəl, işi-peşəsi onun-bunun möhübünü düzməkdir.

Xasiyyətini ipəkqurduları toxuyub: yaxşılıq etdiyi, işinə yaradığı adamların firavan həyatını öz uğuru sanar.

Başını soxub yaşayacağı (özü "öləcəyi"deyir) yerə də yalnız "əlli"sində qovuşa bildi: şəhərin qıraq yerində, içinə hələ də qaz çəkilməmiş bir binada.

Deyir, tək Allah onun yarım əsrlik yubileyini dörd divardan ibarət bu təkgöz mənzillə qeyd etdi.

Vicdan haqqı, ömrünü onillərə dilimləyb yemiş, təpəgözə oxşar bu mənzilə qaneçiliyi ürəkağrıdan şeydi.

Ömrü boyu iynəylə gor eş, Rusyətdə belinin donqarı çıxsın, üstəlik, böyrəklərin büzüşüb yumağa dönsün, axır gəl bu yerüstü qəbirə yiyə dur.

Ayıb-ayıb da bacıların başına yığışıb, beşdən-üçdən atışmaqla, sənin azar-bezarına çarə qılsınlar.

Oğlan feldşer tapıb venasına "sistem" köçürtdürməyini, bunu başarmağını da öz uğurları sırasına qoşub.

Guya zəhmət çəkərsən, bar görərsən. Bal tutan barmaq yalar.

Qardaşımda sovetdən qalma cəhətlər bol-boldur: indinin indisinəcən zəhmətə bərk inanır. Bu barədə fəlsəfəyə qapılmağını görəsən.

Deyir, qullar da zəhmətkeş olub və zəhmətləri heç də itməyib - onların sayəsində bəşəriyyət irəli gedib. Dünyanın ən kamil arxitektura ansamblları qul əməyinin məhsuludur.

Qullar bəşəriyyətə aristokratlardan daha çox xeyir verib.

Qul əməyi quldarlara əxlaq və ədaləti anladıb. Quldarlığı da elə qul əməyindən estetik tərbiyələnmiş insanlar ləğv edib. ...Baxırsan ki, düz deyir.
Eləməyib tənbəllik, onun sevgililərini hesablamışam: 3.

Atası Fəttah müəllimə oxşayan qız birincisiydi.

Adı - Rəna, elə özü də. Qardaşımın qəlbindəki sevgi prosesləriylə işim yox - bunların təsviri həm uydurma çıxar, həm də belə şey bir qardaş kimi mənə yaraşmaz. Gündə-günaşırı ona gül bağlatdırmasını xatırlatmaqla kifayətlənirəm.

Rayon mərkəzindəki gül dükanı az qala bir tək ona işləyər, yalan olmasın, aylıq qazancı gülə gedərdi.

Oğul kimi də öz sevgisində güldən sözə keçmədi. Bir kişinin ki, ruscadan öz tərcüməsində dediyi kimi, yağışdan-qardan qorunmağa "başı üstündə krışası" olmadı, onun sevgisinə bir qoz. Evsiz adamın sevgi sözləri boşboğazlıqdır.

Bir gün nə görsək yaxşıdır: Rusyətə yəhərlənir. Niyə, balam, hara? Çörək dalınca. Ev üçün gedir.

Bu minvalla düz üç il cəlayi-vətən oldu. Orda nə yeyib-nə içdiyini də bilmədik. Qayıdanda, gördü oba köçüb, yurdu qalıb. İnsafən, qızı çığırda-çığırda ərə veriblər: getməzsən, qıçlarını qırıb yola salarıq, deyiblər.

Adam görəndə dişlərini ağartmağına baxma, Fəttah müəllim qəddar imiş.

Qardaşımdan bir-iki sinif aşağı oxumuş həmin qız, namxuda, indi yekə arvaddı. Döşləri sinəsindən pudluq daşlar kimi sallanır. Körpələrinə süni qida verməz. Heç nədən də utanıb-çəkinməz. Qızıl-qırmızı sözü üzə deyər. Söz atarsan, qıypınmaz.

Keçmiş sevgisini xatırlayıb da tez-tez bizə oturmağa gələr. Gülə-gülə də deyir, ömrü boyu bir tək bu kişi ona gül bağışlayıb. Bunun üstündən ətli-yumşaq əliylə

qardaşımın sinəsinə toxunacaq.

“Canın yanmasın,” - bu, böyük bacımdır.

Rəna onlardan sirr saxlamaz. Danışır ki, əri “vergi”də işləsə də, onunla müəllim kimi danışar. Hər 8 Martda ona gül almamaqla da ailənin ilbəil nə qədər irəli düşdüyünü ona başa salar. Guya islam israfı sevmir.

Anbaan ölüşgəyəsi bir şeyə verəcəyini verər dua-zikr kitablarına. Bayramlarda bir dəstə gül Quran kitabından baha çıxır.

Əsas da ərinin çənəsindəki keçi quyruğundan zəhləsi gedir. Tamam iyrənçidir. Saqqalında rayon mərkəzindəki qoxuları evə gətirəcək. Evdə otura-otura “stolovı”larda gündəlik nə verildiyini əzbər bilir: piti, küftə, kabab. Hətta dovğanı da tanıyır.

“Ölməyəsən səni,” - bu da kiçik bacım.

Rəna deyir, bu dünyada insanın insana gül bağışlamasından da gözəl bir şey tanımır.

- Ədə, sən genə mənə gül bağlatdıra bilməzsən?

Qardaşım ruscadan tərcümədə deyəsi:

- “Daha qatar getdi”.

Qız gözlərini döyə-döyə qaldı.

- ...Ərin günün günorta çağı səni də, məni də daşqalaq elətdirər.

Böyük bacım:

- Düz söz, nanay-nanay qurtarıb.

Rənadan çıxmayan iş, ah çəkdi:

- ...Daha gül bağlanmaz. Çünki bəxtim bağlanıb.

Kiçik bacım:

- Qoy səni istəməyənlərin bəxti bağlansın.

Qardaşımın ilk sevgisi iki qız bir oğlandan sonra soyuyub, beləcə bədihə mövzusuna çevrilmişdi.

İkinci sevgilisi birincidən 7-8 yaş kiçikdi. Böyük bacımız qardaşıma bu dəfə onu tapıb nişan verib.

Üzük aparmağa, nişan verməyə də tələsirdi. Hazır su sonası. Təmiz - mələk.

Ən əsası, dili - qarnında. Ev işlərində - tapança. Taxça-boxçasından gül ətri gələr. Özü kimi adı da - Yaxşı.

Qardaşımınsa ağzından çıxan sözə bax: eləsinə evlənmək ayıb olar. "Niyə?" "Mələklə ailə qurmazlar".

Bacım şaqqanaq çəkib, gözləri yaşaranacan güləsi - "Ədə, biz timsalən elə deyirik. Ay saqqalı ağarmış, bə sən bilmirsən ki, əvvəl mələk olurlar, sonra zır arvad?"

"Onda necə məsləhətdi. Mən uçdum Rusyətə".

"Sən gələnəcən qızı rədd eləyərlər".

"Bə evsiz də ailə qurarlar?"

"Vacibdi şəhərdə yaşayasan?"

"Vacibdi kənddə yaşayım?"

"Sənə söz çatdırmaq olmur. Di yaxşı, get, ad eləyərik, qalar".

Bacım onun gedib-qayıtmağına bircə il vaxt qoydu. Keçən dəfəkinin işini çıxarma, bax, sənə qəti tapşırıram, tez qayıt. Neynək, onacan qız bir az da böyüyər.

İl nədi ki - papağını fırlat, gəlib keçsin.

Qardaşım hələ də bir şey yaradıb ortalığa qoymamışdı. Qazanc cəhənnəm, özündənsə bir xəbər-ətər yoxdu. Dünya müharibəsinə gedənlər bundan tez-tez məktub yazardı. Bu Rusya nə gedər-gəlməz yer imiş.

Ürəyindən sevgilisinə nə duyğular keçirdiyi də sirri-xuda bir şeydi. Hərçənd bunu bilsəydik belə, açıb-ağardası deyildik ki.

Bizdə qardaşla qardaş, ya bacı-qardaş arasında pərdə var.

Mənim onun sevgisini Leyli-Məcnun əhvalatı kimi faş eləməyimin yeri yoxdu. Bacımın təbliğat-təşviqatı əlbət öz işini görüb. Güman ki, şaxtalı bir şəhərdə hələlik üzünü görmədiyi qaraca azərbaycanlı qızına qəlbində qaynarca bir məhəbbət gəzdirir.

Təkcə bunu deməklə kifayətlənirəm ki, son aylaracan Komidən evə pul göndərərdi - qoy bacımız sıxıntı çəkmədən, pay-parçayla onlara getsin.

Qoşalaşan bacılarım da bircə bayramı belə buraxmaz, həmişə əlidolu onlara gedərdilər.

Bəd gündə, bəd rüzgarda qızın anası bacıma dirsək göstərəsi.

“Niyə, bacı? Aradan qara pişik keçdi?”

Qısa və konkret cavab: “Qızı çox yerdən istəyirlər”.

“Axı, birinci biz istəmişik. Kim pəl vurdu?”

“Qızı yüzü istər, biri alar. Burda kim qabağa düşdü-düşdü”.

“Bə qabağa düşən biz deyilikmi?”

“Gördüz ki, sizdən qabağa düşən tapıldı”.

“Onlara denən...”

“Yox”.

Zəhrimar-ox - “Qızın könlü qardaşımadı. Özün də görmüşdün: mən ona ətir bağışlayanda... dodaqlarındakı təbəssümü...”

“Qız qələt edir. Qız kimdi ki. Bir də xahiş edirəm, qapımızda sevgi-məhəbbət kimi tərbiyəsiz şeylərdən danışmayasan”.

“Sənin qırx dilin varmış”.

“Bilməmişik, yetmiş olar”.

Bəhanəyə bax: guya qardaşımız Rusyətdə matişgələrlə gəzəcək, bunlar da durub

onu gözləyəcək? Camaat artıq-urtuğa qalıb? Mənim qızım..., mənim qızıma...

Burula-burula yeriyən bu arvad yerin altını da bilirmiş, üstünü də.

Pozuluşmanın sabahısı böyük bacım Rusyətə bir namə uçurtdu. "Mənim iki gözüm, igid qardaşım, amanın günüdü, orda ləngi bir az. Ürəyindəkini də qopart, at".

...Mələklə ailə qurulmaz.

Qardaşım bir üç il də üstünə qoyub, orda qaldı ki, soyusun. Nədənsə, onun sevgidən dəmir kimi soymağı üç il çəkirdi.

Gözləməkdən gözümüzün kökü saralmışdı: necə getmişdisə, dekabrda eləcə də qayıtdı.

Əli ətəyindən uzun. Ev almaq nədi, borcları da üstünə yığıb. Təsəlli sarıdansa korluğu yoxdu: guya ordakılar öz uşaqlarıdı, onu tələsdirmirlər. İnşallah, gələn səfər onlarla bir-bir üzülüşəcək. Rayon balalarıdı, hamısının da toyuna gedəcək.

Qardaşımız kor-kor, gör-gör qocalır.

Gözümüzün qabağındaca çapıq kimi üzünə qırışlar düşdü. Gicgahlar ağappaq, saçının üstü - çallaşıb, elə bil başına ağ ingilis papağı qoyub. Düzdü, belə də yaraşıqlı görsənir.

Hələ deməsinə görə, bir-iki dişi də laxlayır.

Üstəlik, qocafəndi bədənə xeyirli və ziyanlı şeylərdən danışmağa başlayıb. İnsanın heyvandan fərqləndirən cəhət nədir, qardaşımız əng olub, qidalanma rejimini gözləməyi.

Qulağımız dəng olub: can ələ düşməz.

Həyatda nədən qırtsan da, orqanizmin payını əskiltmə. Sən demə, Sıktıvkarda yod çatmır. Komi qalxanvari vəzinin düşmənidir. Bir dəfə mənə dedi uzaqda dur, udqunum, baxsın görsün, almacığım şişməyib ki? Baxdı və diaqnoz qoydu: yox.

Dedim, qoy onda mən də sənə baxım.

Bir-birimizin üstündə həkimlik öyrənirdik. Allaha şükür, elə də qorxulu bir şey yoxdur. Yoda görə bir balaca böyümə nəzərə çarpır, o da keçib gedəsidir.

Qardaşım bizə məsləhət gördü ki, həmişə bir az savadlı və gözüaçıq olaq - duz alanda da, hökmən yazısına baxaq: yodlaşdırılıbmı?

- Ədə, sən ağzımızı şumluğa salma, de görək haçan evlənirsən?

- Ona baxarıq. Bu, asan işdir.

Deyəsən, böyük bacımız özünü bu işdən kənarlaşdırmaq istəyirdi. Ağbirçəkliyi baş tutmamışdı.

- Bir toy elə, biz də gəlib atdanıb-düşək.

Bunu qanmağa ağıl lazım deyil ki: deyir yəni bu işlə özün məşğul ol.

Qardaşım da boş sözləri sapa düzür: "təki sağlıq olsun", "Allahın köməkliyi ilə", "qismətdən artıq yemək olmaz", "inşallah". Darıxdım lap.

Çörək haqqı, bu qocalıb.

Rusyət onu arıqladıb da; oğlan dəqiqəbaşı şalvarını yuxarı dartır.

Ortada ona ad elənmiş sevgilinin adı çəkilmədi də. Onsuz onu altına təzə maşın almış birisinə vermişdilər, yox kimiydi. Artıq balalama prosesi gedirdi: deyilənə görə, bir cılbağası qucağındadır, biri də qarnında.

Beləliklə qardaşımın birinci və ikinci sevgilisindən "uşaqlarının" birgə sayı dörddü, beşinciyə namizəddi. Ardı da gəlir.

Buludsuz-işıqlı bir gündə artıq uşaq doğmağı yığışdırmış birinci sevgili yenə bizə, oturmağa gəldi. Cırtdan oğlu onun kölgəsində, qayığa minibmiş kimi, atılıb-düşür, meymunluq edirdi.

Rəna çəkinmədən qardaşımın o üzündən-bu üzündən maç elədi. "Bax, Nikolaydan bəri bir tək bu oğlan mənə gül bağışlayıb,"- o, qardaşımın kürəyini şappıldatdı. "Üzünün suyu tökülməsin," - böyük bacım gülməkdən az qaldı qəşş eləyə.

"Məni lap utandırdın," - qardaşım Rənaya dedi. Həqiqətən də, qız kimi yanaqları qızarmışdı. Sevgili, qırmızı yerlərə toxundurduğu barmaqlarının, rəng keçəcəkmiş kimi, uclarına baxdı.

Üçüncü sevgi ərəfəsi idi. Bu dəfə artıq kiçik bacım sinəsini irəli vermişdi. Bir gün

qardaşımın Bakıda kirələdiyi evə gedənlərdən bir toy kaseti yolladı.

Üstündə də məktub - “Qonşu kənddə bir qız var. Aydan arı, sudan duru. Anasını tanıyıram. Özün bax, bəyən. Qırmızı donda uca bir qızdır. Uca deyəndə, çiyinləriniz bərabər olar. Oynayanda adam həvəslənir.

Qardaş canı, toyda hamıdan seçilirdi. Kəndlərində bir dənədir. Ata-anası da elə san, bir cüt quzu, sanki bu dünyanın adamı deyillər...”

Qardaşım kaseti qoşub gözlərini ekrana zillədi. Bəli, bu bir kənd toyudur. Mağarda ancaq qızlardı. “Görən, xalxın qızlarına baxmaqda ayıb bir iş görmürəm?..” O, hamıya bacı gözüylə baxmaq üçün özünü toparladı.

Maşallah, bu qızlar elə bil rəqs dərnəyini bitirib - ə, necə gözəl oynayırlar. Rəqslər adama öz millətini sevdirir. Ancaq axı, orda qırmızı donlu qız çoxdu. Bu yazıb boyca onunla birdi.

Hanı bə? Axı, eləsi yoxdu. Onu tapanacan ayrı bir qırmızı donluya vurulmasa yaxşıdır. Bay, kaset qurtarhaqurtarda kök bir gəlin, qarşısında oynaya-oynaya, bir qızı rəqsə çağırır. Qız durub, utana-utana qollarını qaldırır. Onun alnında kasetdəcə xəcalət təri puçurlanır.

“Bacım dediyi bu olacaq”.

Axır ki, təzə sevginin obyekti tapıldı. Doğrudan da, qızın baxışlarından həya-ismət yağırdı. Elə bu həya-ismətdən də bərk yapışdı.
Adına da uyğun - sənəm.

Sabahı telefonda bacısına, bir söz demirəm, dedi, ancaq qoy əvvəl Rusyətə baş vurum.

“Ədə, sən nə təhər adamsan! Qız tapılan kimi Rusyətə qaçırsan!”

“Mənə nə var, bir də görəcəksən cin kimi gəldim”.

“Bəlkə indidən nişan aparaq?”

Bu da onun atalar sözü:

“Kirayədə ailə saxlamazlar”.

Oğlan evlənmək üçün Komiyə tələsdi. Gedənə yaxşı yol, qalanlara can sağlığı.

İmam haqqı, bunun taleyi Allaha qalıb.

Kiçik bacımız xeyir işi özü bildiyi qaydada düzüb-qoşmağa başlamışdı. Qız evində, adətə uyğun, əvvəl naz-qoz elədilər: ay nə bilim, oğlan bir az yaşlıdır, qız bir az uşaqdır. Bacım: di yaxşı, bildik.

Zarafat-zarafat, aradakı yaş fərqi 15-16-dır. Guya 10-12 olsaydı, yenə dərd yarı idi. Bacımız: ay sizə qurban, kişinin nə yaşlısı, nə cavanı! Səhv edirəmsə, deyin, Peyğəmbər səlləllahu və səlləm özü arvadlarından gah 20-30 yaş böyük olub, gah da kiçik.

Əksinə, ailənin xoşbəxt olması üçün kişinin yaşı və həyat təcrübəsi çox vacibdir. Axır, o, ananın başını yeyib, onu üççə günə bu izdivaca razı saldı. Qızın atası da oğlanı insan adam kimi tanıdığını deyəsi. Salam-kalamları varmış.

Stansiya çayxanasında bir oturduqları olub: Avropadan-İrandan danışırlarmış. Qardaşım, ona çatdırılan bu sözlərindəncə, qızdan əvvəl, gələcək qaynatasına vurulub. Özünə söz verir: onunla dost olacaq.

Düz sözə nə deyəsən, qardaşım yaşlaşdıqca, sevgililəri balacalaşırdı.

Kaseti də özüylə Sıktıvkara apardı. Ekrandan qızın şəkillərini fotoya götürüb.

Pasportunun arasında gəzdirir. Qəlbindəki sevgi proseslərinin təfərrüatına varmıram.

Buna lüzum yox. Həm də bu cür təsvirlər milli xüsusiyyətimiz deyil. Bir şeyi xatırlatmaqla kifayətlənirəm: ucundan-qulağından eşitmişdim ki, məhəbbəti get-gedə alovlanır. Yəqin o, soyuq bir şəhərdə isti kənd toyunu hər gün fırladır.

Atası oğlanı arvadına öyəsi, ana bunu qızına pıçıldayası.

Qız da "qiyabi olaraq" oğlana vurulub. (O, atası aqronomluğu qiyabi qurtardığından, bu sözü bilir).
Bir gün bəd xəbər kəndi çənginə aldı. Çelyabinskidən öz kəndçiləri olan qumarbaz-nəşəxorun birisi evlənməyə gəlib, tərslikdən allaheviniyıxmışlar onun ağzını bu qıza tuşlayıb.

Bunlar da deyib yox, söz vermişik, qız artıq başqasınındır. Qısası, oğlan, dünbülündə tapança, gecəynən gəlib, Amerika kinolarındakı kimi ona part bir güllə, çart, buna bir güllə. Qız yerindəcə keçinib, ana ölümcül yaralanıb.

Qatil ilim-ilim itib. Ancaq hara qaçacaq, kənddə uşaq da bilir ki, onun axır duracağı Rusyətdir. Orda da onu yerin deşiyindən eşib çıxaracaqlar.

Sıktıvkara bu xəbəri təhrif olunmuş şəkildə çatdırdılar. Guya bu dram tamam yad bir ailədə baş verib.

Qız kasetdə yaşamaqdaydı.

Hərdən qardaşımın dalağı sancır, şübhələrini tanışlarla bölüşürdüsə də, hər vəchlə onlar bunu yayındırır, ağzını boza verirdi. Bacısı da müəmmalı məktublar yazırdı - "Görərsən, hər şey yaxşı olacaq..."

Qardaşım artıq Rusyətin cikinə-bikinə bələddir. Maşallah, bu dəfə sorağı da yaxşı gəlir. Deyən, əli gətirirdi. Birotaqlı da yox, istəsə, Bakının orta göbəyində ikiotaqlı mənzil ala biləcək.

Oğlan şübhələrinə son qoymaq üçün vaxtından tez rayona gəldi: heç iki il deyildi getdiyi.

Səhih xəbər ona çatdırılanda, sanki hardansa qopan qızıl bir güllə uçub-uçub onun qəlbinə sancıldı. Nitqi batdı. Bir gecə-gündüz rəngi gah ağardı, gah bozardı.

Sifəti bəzən qaralıb torpaq rəngi alırdı. Allah bilir, nə düşünür: hərdən yumruğunu düyünləyib mizə çırpırdı. Bir dəfə də çörək bıçağını dəstəkləyib divara sancdı.

Ürəklərinə nə gəlmişdisə, bacılarım sağında-solunda ondan bir nalça aralı oturmuşdular.

Cümə axşamı qardaşım qəbir üstə gedəndə, qızgildə də, bizdə də ağlaşma qopdu.

Qardaşımın birinci sevgilisi bizə gəlib bacılarıma ürək-dirək verirdi. Günortaüstü özü tanımadığı ikinci sevgilisi də gəlib çıxdı. Yaşmaqlanmışdı.

Qardaşım qəbir üstündən qayıdanda, sevgililərin ikisi də, yalandan ortada fırlanır, həyətdə ora-bura gedib-gəlir, özlərini ona göstərməyə çalışırdı.
Qardaşımın sevgililərindən birlikdə "beş uşağı vardı".

...Üstündən üç il keçibsə də, qardaşım hələ soyumayıb. Axşamları mənzilində kaseti qoşur, üçüncü sevgilisinin tamaşasına durur.

Həmişə də məqamı-dəqiqəsi çatanda qızın alnında tər puçurlanır. O, bir vaxt

Sənəmin kasetdəncə bu evə gəlin gələcəyinə əmindi. Onsuz bu ev-eşik onundu, gəlsin...

**23 mart - 29 dekabr 2009-cu il**

## "FƏRQANƏ"

Hər yerdən küləyin səsi eşidilir. Qulaqlarımıza qum dolur. Hərdən külək Fərqanənin paltarını yuxarı qaldırır və onda qarabuğdayı, dolu qıçları görünür. Çimərliyin qumu bəzi yerlərdə nəmdir. Dalğalar güclü olduğundan, sahilə iri balıqlar kimi atılır və xeyli vaxt diri qalır.
- Külək də bizi gördü… - deyə Fərqanə üzünü turşudur.

Mən də buludlu göydə günəbaxan kimi saralan Günəşə acıqlanıram:
- Ona bax, meyit rəngi çəkilib üzünə…
Ayaqqabılarımızı çıxarıb əlimizdə tutmuşduq. Mən şalvarımı dizəcən çırmamışdım. Müşahidəçilər adamlara xəbərdarlıq edirdilər.
- Bu gün suya girmək qadağandır! Dəniz bu gün qorxuludur!..

Fərqanə paltarlarını dəyişmək üçün qumluqdakı arakəsməyə girdi. Onda yalnız ayaqları və başı görsəndi. Mən köynəyimi çıxırıb skamyanın üstünə qoyan saat külək onu uzağa fırıldatdı. Şalvarımı səliqəylə bükdüm. Kənddən təzəcə gəlmişdim və şəhərdə də elə bu şalvarda gəzəcəkdim deyə, azacıq belə əzilməsini, çirklənməsini istəmirdim. Fərqanə çimərlik kostyumunda qayıtdı. Gülümsəyirdi. Bədəni o qədər gözəldi, üzümü ona tutub açıq-açığına baxmağasa utanırdım.

Paltarları qatlayıb, yemək şeylərilə dolu çantanı da üstünə qoyduq.
- Yaman arıqlamısan, – Fərqanə dilləndi.
Mən birinci dəfə görürmüş kimi öz bədənimə baxdım.
- Eh, elə əvvəldən beləyəm – quru çubuq… Tələbəlikdən.
Sahildə adam azdı. Fərqanə qorxa-qorxa suya girmək istədi. Dərhal müşahidəçi cavan bizə tərəf yüyürdü:
- Axı, sizə deyildi - küləkdə çimmək oll-maz!..
Fərqanə dayanıb:
- Üstümüzə qışqırma, - dedi. – Niyə olmur?.. Şəhərdən bura ölçə-ölçə yol gəlmişik!

Təzədən üzünü dənizə çevirdi:
- Belə dayaz yerdə heç körpə də boğulmaz.
Oğlan ovurdlarını şişirdib bərkdən fit çaldı.
- Qayıdın geri! Sizə söz batmır, ya nədi?!

Sonra barmağı ilə uzağı göstərdi:
- İstəyirsiniz, ba-ax, gedin o yana, qayalıqlar səmtə. Oralarda kim batsa, bizlik deyil.
- Özünüz batın, eyy… - Fərqanə acıqlandı. - İnsan başqa yerdə qoy ölsün, təki bu igidin yanında ölməsin… Əcəb özünə peşə seçib! Yaxşısı budu, gedib əsgərliyini çəkəsən!
Oğlan yumşaldı:
- Sizə ürəyim yanır, axı! Burda boğulma hadisələri olub…
Dənizi uzaqda köpüklü dalğalar örtmüşdü və onlar təkər kimi diyirlənə-diyirlənə sahilə qədər gəlib çıxırdı.

Qumluqla sarı yemiş qabığı gördükdə, ayaq barmaqlarımla onu xeyli qabağa tulladım.
- Quma bax, sovrulur lap. Səhradayıq elə bil.
Fərqanə boynunu əyib saçlarını çırpdı.
Sahil restoranının yanından ötdük. Külək döyən restoranda üç stolun ətrafında adamlar oturmuşdu. Oğlanın göstərdiyi qayalığa çatdıq.
- Bura yaxşıdı, adam yoxdu, - dedim.

Fərqanənin üzünü narın təbəssüm örtdü:
- Düz deyirsən, adamlardan nə qədər gen gəzsən, yaxşıdı.
- Mən o mənada demirəm. Bayquşam bəyəm?
- Onda qarğasan; indicə nəsə qarıldadın.

Fərqanə bunu deyib, qəhqəhə çəkdi və birdən də gülüşlərini kəsib soruşdu:
- Bayquş və qarğa – hansı yaxşıdı bunların?
- Əlbəttə, qarğa… Özü elə yaxşı quş olmasa da, bayquşdan xeyirxahdı.
- Bə nə, çöldə heyvan ölsə, gözlərini dimdikləyər! Amma tənhalıq heç də pis şey deyil. Yazıq bayquşun bütün günahı ondadı ki, tənhalığı sevir.

Bizə baxıb cavan bir oğlanla qız da müşahidəçilərdən uzaqlaşmışdı. Gəlib qayaların o biri üzündə yer seçmək üçün durdular və ora-bura xeyli boylanandan sonra oturdular.
Hava yavaş-yavaş qızırdı.
- Amma adam suya heç girmək istəmir, - deyə dilləndim.
- Adam bə nə istəyir? – Fərqanə şeytancasına mənə baxıb güldü.

Günbatan tərəfdən kimsə valay vura-vura bizə yaxınlaşırdı. Gözlərimizi qıyıb ona baxırdıq. Gəlib çatanda, bu adamın beli urlu, alçaqboy bir oğlan olduğunu gördük. Çənəsində və bığ yerində seyrək tüklər vardı. Yanımızdan saymazyana - fitlə cürbəcür havalar çala-çala ötdü.

Arxadan onu süzən Fərqanə dilləndi:
- Əhlikef adamdı, deyəsən.

O, xeyli aralıda, qum təpəsi üstə oturub, bizə baxmağa başladı. Dərhal üzümüzü yana çevirdik.
- Səni təzədən sevmək istəyirəm, - Fərqanəyə tərəf dönüb, təmtəraqla sözə başladım. - Baltalanmış ilk sevgimdən budaq kimi göyərən məhəbbətlə…
- Planlı şəkildəmi?
- Tələbəlikdə səni lap uşaq kimi sevirdim. Tez-tez ağlayardım da. Yataqxana yoldaşım bir dəfə bunun üstündə mənə möhkəm qapazlar yedirtdi.

Fərqanənin gözlərində təəssüf və həsrət sezildi; sonra üzünü getdikcə aydınlaşan təbəssüm bürüdü. Qüssəli baxışlarını uzaqlara dikib, elə bil oradaca keçmiş günləri axtardı.
- Ayrılıqlara dözmürdüm, sənsə bilə-bilə hey uzağa qaçırdın – əylənirdin mənimlə. Mən də şübhələnir, qısqanırdım. Nəhayət, ilk məhəbbətim təhqir olundu, öldü…

Fərqanə xəyal içində güldü, çiyinləri qalxıb-endi. Onun yumşaq boynunda qum vardı; əlimlə astaca qumu sildim.
Artıq üzü üstə uzanmışdıq. Dirsəyimi qum deşir və göynədirdi. Dənizin şırıltısı nəğmə kimi səslənirdi. Tez-tez dikəlib qayanın o üzündəki qonşularımıza baxırdım. Ancaq istəmirdim onlar bunu görsün. Ona görə tez də aşağı yatır və Fərqanəyə gördüklərimdən danışırdım:
- Oturublar. Qız şəhərliyə oxşayır, özü də kökdü – bir növ, yaxşıdı.
Fərqanə məni əyri-əyri süzdü. Sonra qumda əllərini qoşalayıb, başını əlləri üstə qoydu. Baxışlarını üzümə zillədi.
- Deyən, məni tanımırsan?.. – soruşdum.
- Tanıyıram, lakin səndə qətiyyən sədaqət-zad yoxdu…
- İndi ağlaşma quracaq ha!..

- Özünü öymə! Bundan sonra bəlkə heç sənə ərə getmərəm də.
- Şəxsən mən lovğalığın düşməniyəm. Səhv qiymətləndirirsən adamı. Axı, nə dedim, nə oldu burda?
- Yaxşı ailəmiz olardı. Mənim qızlar içində şən-şən gəzməyimə baxdın? Biləsən, yüngül qızlardan zəhləm gedir.
- Ərə gedənəcən qız pak olmalıdı, deyim necə?.. Güldən-çiçəkdən təmiz!

- Yaman eyhamlı danışırsan, - Fərqanə küsdü. – Səninlə heç gəlməzdim də. Bu nədi… Hörmət naminə gəldim.

Dedim neynək, gəlib məni tapıb.
- Bağışla, Fərqanə, yaxşı daa.
Çənəsini özümə sarı çəkdim. Gözlərinin bulaqları yaşdı. Zarafata keçdim. Burnunun ucuna barmağımla yüngülcə toxundum:
- Əyəm ağladın… Bubb…
- Bəsdi, avara.

Qalxıb üstünün qumunu təmizləyə-təmizləyə, qonşularımıza baxmadan dənizə sarı getdi.
Donqar oğlanın gündən qaralmış sifəti aydınca görünürdü. Əlində hansı ağacdansa qırdığı balaca budağı yellədir, ucunda bircə yaşıl yarpaq olan həmin budaq tez-tez də əlindən yerə düşürdü.
Qaçıb Fərqanəyə çatdım.
- Saçlarını islatma ha, - dedim. – Al, bu da sənə dimdikli papaq.
- Kişi papağıdı ki bu! Dayan bir.

Başına taxıb, heç nə olmayıbmış kimi ucadan güldü. Mən bundan uşaq təki sevindim; atılıb-düşdüm də və ovuclayıb onun üz-gözünə su atdım.
- U-u-u, nə soyuqdu!..
- Papaq alman qızlarına oxşadır səni.
- Oxşayıram, qoy oxşayım.

Dayaz yerdə əyildi və bədənini astaca suya saldı. Qalxanda, üstündən parıltılı damcılar tökülürdü.
- Paltarlara sən bax ha, Fərqanə, mənim gözlərim zəiflədi.
- Deyirsən, oğurlayarlar... şalvarını? – Fərqanə şaqqanaq çəkdi.
- Niyə də oğurlansın. Həm də ciblərimdə lazımlı kağızlar var.

Sonra üzü sahilə dayanıb, utana-utana dedim:
- Bu oğlan, vallah, düz adama oxşamır.
- Qorxma, baxaram, qorxma. Puff!..
O, suyu sıçrada-sıçrada dalğaları bir-bir qarşılayır və hər yaxınlaşdıqca, atılırdı. Dərinə getməyəsə qorxurdu.
- Uzağa gedək. Bura nədi ki. Bir mənə bax.

O baxdı və mən əlimlə dərinləri göstərdim:
- Çəkilək oralara!
- Niyə? – Fərqanə bayaqkından da şən-şən dilləndi.
- Elə-belə. Uşağıq dayazda çimək?

- Mən uşağam – qızam…
- Danışdı çıxdı başa. Su burada dizdəndi, dizdən. Adama gülərlər.

Əllərindən yapışıb, onu dərinə dartdım.
- Ay… ayy, ay, boğuldum!..
- Haray salma!
Su qurşaqdan yuxarı çıxanda, cəld Fərqanənin qıçlarını yerdən üzdüm. Bədənimi gözləmədiyim xoş bir gizilti bürüdü.
- Vay, boğuldum, ana-a!..
- Elə bilirsən arığam, gücüm çatmaz?! Qadına ən ölü kişinin də gücü çatar, bunu bil!
- Çat-maz!

O, iri, sürüşkən balıq sayağı çabalayır, çiyinlərimdən dişləməklə əlimdən qurtulmaq istəyirdi.
Onu elə yerdə buraxdım ki, ayaqları yerə dəymədi.
- Vay, mən boğulacam, boğuluram! Heç kəs də yox! Ana-a!
Təzədən onun bədənini möhkəm qucaqladım. Döşlərini sıxır, ağzıma şor su dolsa da, onu hey öpürdüm.

Sahilə çox mehriban qayıtdıq. Qonşu oğlanla qız, onların yanından keçəndə, bizə pıçıldadılar.
- Bu şeylərə də baxın, gedib çimək.

Qozbel kənarda gəzinirdi. Külək köynəyini yellədir, onu yelkən kimi şişirdir, hərdən də oğlanın tüklü qarnını açırdı. Qara alt tumanı şalvarından düz bir qarış yuxarıya çıxmışdı. Gah ayaq baş barmağıyla qumda şırım açır, orda adam başı şəkli çəkir, gah da çıxıb uca bir təpənin kəlləsində oturur, ətrafa balıqqulağılar və şüşə parçaları tullayırdı.

Qurulandıq. Qumu hamarlayıb, süfrə sərdik. Künclərinə də, külək atmasın deyə, nisbətən ağır daşlardan qoyduq. Xışıldada-xışıldada çantadakıları ortalığa düzdük. Kolbasa, pendir, çörək. Hələ mer-meyvəmiz. Qarpızı qaldıranda, yalandan hıqqıldadım:
- Gərək su gətirəydik, bu heç.
- Oğlanı yollayaq, restorandan alsın. Uşaq kimi şeydi, inciməz.

Fərqanə özü onu çağırdı.
- Ədə, hey! Heeyy!..
Qozbel ona baxdı.
- Yaxşı oğlansan, bir bura gəl!

Oğlan asta-asta gəldi. Gözlərinin ətrafındakı qırışlar onun bizim düşündüyümüzdən yaşlı olduğunu göstərirdi. Ya da yox, tez qocalmışdı.
- Susamışıq… ancaq soyunmuşuq. Geyinmək də əzabdı.
O, dərhal başa düşdü.
- Alaram, - deyib getmək istədi.
- Hara, hara? Dayansana, pul götür!

Fərqanə paltarları qaldıranda, hansımızınsa cibindən xırda pullar cingiltiylə yerə töküldü. Utandım.
- Suya qonağım olmazsız?
Bunu deyib, məğrur-məğrur dönüb, aralandı.

Bizdə ona xoş münasibət yarandı. Mən onu tərifədim:
- Səxavətlidi. Balam, səxavət bizim millətin qanındadı daa.
- Amma qorxurdun şalvarını oğurlayar…
- Oğurlayar demirdim, düz danış. Deyirdim, baxmaq lazımdı.
- Elə bu yazıqlar da şübhələniblər, - Fərqanə qonşularımızın paltarlarını göstərdi; özləri hələ də dənizdəydilər.
- Səxavətlidi, amma ola da bilər, alçaqdı.
- Hə, boyca alçaqdı.
- Boyca nədi - əclaf, pis.
- Dünyada bir tək sən yaxşısan!
- Gəl, özünü mənə bəbə kimi göstərmə! – hirsləndim. – Guya uşaqcığaz heç nə bilmir! Safürəkli çıxıb bu.

Fərqanə tez də yumşaldı:
- Ədə, çörəyini ye, tıxcandın! Gör necə də bozarır, ay aman!
Böyük bir qarpız dilimini aparıb pay kimi qonşularımızın paltarları yanına qoydum.
Qozbel təpənin böyründə peyda oldu. Hər əlində də iki butulka. Düzü, onun barəsində naqis fikrə düşməyimdən xəcalət çəkdim.

Fərqanə armuddan dişləyə-dişləyə oğlanı süfrəmizə çağırdı.
- Bu yana keç, bax, bura. Gəl otur, – şüşələri də göstərib zarafatla: - Amma qarnımızı sel aparacaq, - dedi.
- Lülədən-tikədən yesəniz, heç qorxusu yoxdu, – çənəsini irəli uzatdı. - Restoran odu ey – qulağınızın dibində.
Onun belə yekə-yekə danışmağından, dil-dil ötməyindən heç xoşum gəlmədi. Üstəlik də, mənə deyəsi:
- Lütə oxşayırsan.

Onun bu “lüt” kəlməsindən Fərqanə uğunub getdi. Mənsə hirsimi boğa bildim.

Hətta gülümsədim də:
- Nə başlı adamsan! Axtarsan, burda hamı lütdü.
- Başlı adama sən oxşayırsan, eynəyindən bilinir.

Onun xasiyyətinə uyğunlaşmaq üçün, hələ səbrimi basırdım.
- Yəqin ilk dəfədi eynəkli adam görürsən.
- ...Adama oxuduqlarının cüzvisi gərək ola, ya olmaya. Ona görə də biliklə lovğalanmazlar.
- Kim lovğalanır?

Fərqanə hey gülür, bu sözlərdən əylənirdi.
- Ay Allah, nə məzəli oğlandı bu.
- Savad qəpik-qəpik yığılan dövlət kimidi; nəticədə ömür qarət olur. Qanında-iliyində istedad yoxdusa, gedib adi bir işin qulpundan yapışsan,
daha yaxşı olar. Get uşaq böyüt, nəsil artır. Savad - ədabazlıqdır.

Qəflətən belə fikirlər eşidəcəyimi gözləməzdim.
- Eləsi var, onillərcə çoxlu dil öyrənir. Nə var-nə var, haçansa bir, ya iki günlüyə ona gərək olacaq. Vallah, mal-qoyun otarmaq bundan sərfəli işdi.
- Sözünün canını de, - mən guya laqeydcəsinə dilləndim. Bu, oğlanı cin atına mindirdi.
- Bax, elə ona görə də lütüşqulusan, - dedi. – Qıza ucuzdu bir üzüksə də almamısan.

Fərqanə:
- Axı, özüm istəmirəm... – dedi.
- Yox, əşi!.. İstəmir bu! İnandıq.
Fərqanə pərt oldu.
Dəniz üzərində qağayılar çığırışırdı. Elə bil kimsə kimisə qırıq-qırıq fitlə çağırırdı. Durub ətrafda boş-boşuna gəzinməyə başladım. Ürəyim sıxılır, darıxırdım. İstəyirdim də oğlan durub getsin. Fərqanəsə hey ona suallar yağdırır.
- Harda işləyirsən?

Donqar günbatanı göstərib dedi:
- Bostanınız var. Oralarda.
Sonra da qürurla sinəsini döyəclədi:
- Xüsusi təsərrüfatdı! Eşidibsən belə şey?
- Dövlət icazə verirmi?
O güldü:
- Qəşəng qızsan, - dedi və heyfsilənirmiş kimi əllərini dizlərinə çırpdı. – Ancaq neynim, avamsan!
Fərqanə bu sözdən sonra dinmədi.

- Gəl, sən də əyləş, quru bəy! – oğlan məni çağırdı. Elə bil mənimlə qəsd-qərəzliyi, davası vardı. Sonra da inamla
Fərqanəyə sarı döndü. – Deyirəm, bu adam səni aldadır.
- O məni sevir, mən də onu… Sən öz işinə bax.
Bu kəlmələr, deyən, oğlanı geri oturtdu. Elə bil irəli dürtülən adamın döşündən basdılar. Deməyə söz tapmadı. Adama elə gəlirdi ki, o öz şikəstliyinin hayıfını bax elə indi, bu saatcana kimdənsə çıxmaq istəyir.
- Axı, pulunuz yoxdu…

Buna ikimiz də qəhqəhə çəkib güldük. Fərqanə özünü elə göstərirdi, guya gülməkdən qəşş eləyir və qarnını tuta-tuta deyirdi:
- Vay, öləcəm eyy…

O bununla özünün də yox, sanki mənim acığımı çıxdı. Necə deyərlər, artıq oğlanın kürəyini yerə vurmuşduq. Lakin mən qəti hücuma keçmək istəmir, şikəstliyinə görə hələ özümü saxlayırdım.
- Çox pulu neynirsən? – deyə yavaşca soruşdum.
Təzədən onun eyni açıldı. Sevdiyi mövzudan dirçəldi və istehzayla:
- It hürəndə ağzına atıram, - dedi.

Daha mübahisəyə həvəsim qalmadı, Fərqanəyə başımın hərəkətilə dənizi işarə verdim. Haydı, getdik ora. Ikimiz də oğlandan incimişdik. Qızın etirazı olmadı. Qozbel boş butulkalardan birini götürüb kənardakı daşa zərblə çırpdı. Şüşə çiliklәndi və cingiltiylə ətrafa səpələndi.
- Çimilən yerdə şüşə sındırmazlar. Axı, əl-ayağa batar, - mən sakit dedim.
O, sırtıqcasına düz gözlərimin içinə baxdı:
- Mən belə istəyirəmsə, olar!

Fərqanəylə dənizə cumduq.
Aralıda, bayaq gəldiyimiz yerdə bir dəstə təzə adam görsənirdi. Çoxu da paltarda. Səmada qara bulud topaları gözə dəyirdi. Təkəmseyrək yağış atırdı. Arxaya çönəndə, oğlanın dizəcən sallanan iri trusikdə bizə tərəf gəldiyini gördük.
- Çox nəzakətsiz adamdı. Vəhşidi lap…
- Onu da Allah elə yaradıb. Sən axı, qanını niyə qaraldırsan? Özün də görürsən ki, bədbəxtdi. Xəstə və şikəst.
- Yox, o, keçmiş Bakı qoçularının törəmələrindəndi… - deyib gülümsündüm.

Fərqanənin mənə məhəbbətlə baxdığını sezdim. Su artıq çiynimizə çıxırdısa da, o daha qorxub-hürkmürdü.
Bir dəstə qağayı yanımızdaca suya toxunub ötdü.
- Delfinlər haqqında eşidibsən? – Fərqanədən soruşdum.
- Mən elə delfin hayındayam, - Fərqanənin səsində şikayət əlamətləri duydum. –

Tutaq eşitmişəm, bu, mənim həyatımı dəyişdirəcək?

Onun nə dediyini anlayırdım; açığı, belə sözlərindən ürəyim ağrıyırdı.
- Deyirəm yəni onlarda da ağıl var.
- ...Delfinlərin məskəni gözəldi – dənizlər, okeanlar… Hər halda, torpaqdan yaxşıdı.

Qozbel həndəvərimizdə suya gah batır, gah çıxırdı:
- Düzdü, torpaq qəbirlər, ayaqyolularla deşik-deşikdi - nəyi yaxşı olacaq, -bunu deyib hoppadan suya batdı. Uzun saçı siçan quyruğu kimi dalğalanıb gözdən itdi. O, xeyli sonra lap böyrümüzdəcə zühur etdi. Ovuclayıb kömür kimi qapqara saçlarını sıxdı. Bir neçə dəfə də üzüylə axan suyu sorub, dişlərinin arasından qabağa fışqırtdı. –

Dənizsə sakit havalarda Günəş nuruna elə boyanır ki, elə bil dibinəcən ona rəng qatırsan…
- Amma torpaqda insan doğulur, insan böyüyür! – mən təntənəylə dedim.
- Gözlərimiz aydın! Insan nə qədər çalışa-əlləşə, böyük bir iş görə bilməyəcək. Səksən-doxsan, bir gün yoxsan. Qabaqda ölüm varsa, atılıb-düşməyinə dəyməz.

O, təzədən suya batdı, sanki ölüb getdi. Belə cavan adamın dindarlar sayağı danışması çox qəribəydi. Sudan çıxanda, elə bil xortdadı:
- Bizi həyatda gözləyən ən böyük hadisələr yalnız ölümlərdir – dost ölümü, qohum ölümü…
Burda mənim səbrim tükəndi:
- Yasda deyilsən ki, ay evin tikilsin! Qoymazsan rahat dincəlib, rədd olub gedək?
Nədənsə, o, səsini xırp kəsdi.

Fərqanə üşüməyə başlamışdı; çənəsi şaqqıldayırdı.
- Sən titrəyirsən, - elə sudaca qızışdırmaq üçün, onu kənara çəkdim. Oğlan yenə düşdü dalımıza. Mənim bu avaraya həm də yazığım gəlirdi. Beli çox eybəcər tərzdə dala çıxmış, boynu döş qəfəsinə batmışdı. Nazik dərili donqarının üstündə əyri-üyrü göyümtül damarlar gözə çarpırdı.
Fərqanə əsə-əsə dedi:
- Mən…n ççıx-xıram…
- Çıxma. Hələ yox. Bir az da qalaq. Axı, nə tez üşüdün?
- Yox, donuram, yox!

Qayanın böyründə uzanan qonşularımız gendən bizi görüb, əllərini yellətməklə, qarpıza görə “sağ ol” dedilər. Yağış güclənmədi. Üfüqə diyirlənməkdə olan Günəş soyuq-soyuq parıldayırdı.

Fərqanə oturub belini qayanın isti yerinə söykədi. Mən də yanındaca aşağı çökdüm. Onun gözlərində itməyən-çəkilməyən bir kədər sezilirdi. Isinəndən sonra mənə baxmadan soruşdu:
- Neçə ildi görüşmürdük?
- Dörd il tamamdı.
- Bir də ayrılsaq, əlli yaşda görüşərik, inşallah, sonra da kaftarlaşanda. Niyə gəlmirdin? – sınayıcı nəzərlərlə üzümə baxdı. – Yəqin evlənibsən…
- Nə tapdın? – deyib güldüm.
- Elə ürəyimə dammışdı ki, mənimlə vaxt keçirirsən.

Yüngülcə onun üzünə şillə vurdum.
- Əcəb qızsan! – dedim. O, kirpiklərini tez-tez qırpırdı. – Yox bir, külfət basıb məni!
Fərqanə ailə qurmadığıma arxayın olanda, şənləndi:
- Sən axı qabaqlar qız kimi həyalıydın. Indi yaman sərbəstləşibsən. Əlin uzanayıb.
- Qısqanmağından görürəm ki, sən də məni sevirsən, - dedim.
- Bah… İşə bax! – Fərqanə nazlandı.

Qəflətən onun başını özümə sarı çəkib, dodaqlarından bərk-bərk öpməyə başladım. Dünyanı unutdum.
…Oğlan dənizdən çıxmışdı. Ətrafa göz gəzdirəndə, onu tapmadım. Boynumu uzadıb qonşularımızdan soruşdum:
- Bu məşədi çıxıb getdi?
- Paltarlarını götürüb valayladı. Üzü o yana, - qaraşirin qız əliylə havada elə çevrə cızdı ki, bilmədim gədə sağa gedib, ya sola. Dala, ya qabağa.

Əllərimi göyə qaldırıb, guya Allaha şükür elədim. Onların üzündə təbəssüm gəzişdi.
- Yaman qırsaqqızdı ha! Qəmişdi lap, - bədəni kağız kimi ağ olan bığsız qonşum dedi.
Arxayınca, şad-xürrəm quma uzandım.
- Görürsən, o qız nə potalıqdadı. Dəvədəlləyidi, - Fərqanə ağız büzdü.
- Amma bədəni yupyumşaqdı, - mən dedim.
- Hardan bilirsən?
- Yəqin elə olar.
- Şorgöz!
- Yox bir, şitgöz.
- Nəyə lazımdı... Mən oğlan olsaydım… - o, dilini sürüdü. – Həm də piyli qadınlar çətin doğurlar.
- Doğmaq sonrakı işdi.
- Eləsiylə doludu şəhər, get al, niyə qalıbsan? Boynuna al, köklər – zövqüncədi.
- Yox, mənə incəbel, nazikbilək Vaqif gözəlləri xoş gəlir! Onların da içindən səni

ovlamışam!
- Yavaş ye, boğazında qalar.

Qalxıb idmana başladım. Ləzzətlə sümüklərimi şaqqıldadırdım. Bir yol azca qaldı ayağım Fərqanənin başına dəysin. Uzaqdan həmin batmışın təzədən salxa-salxa gəldiyini görəndəsə, sustaldım, qollarım yanıma düşdü.
Təəssüflə bildirdim:
- Budey, yastı-yapalaq dostumuz gəlir.
- Qoy gəlsin, barı əylənərik. Yaman qart-qart danışmağı var. Xoşum gəlir.
- Sənin elə hamıdan xoşun gəlir. Təki cinsi kişi olsun! – mən sərtləşdim.
- Təmiz danış, ey! Heç vaxt kobudluğundan əl çəkməzsən!
- Belə-belə hərəkətlərinə görə də o vaxt qəlbim səndən sındı.
- Böyük fəlakət olub! Dünya qopub. Bunun qəlbi sınıb!..

Oğlanın saçı yaxşı qurumadığından, tükləri zol-zol alnına sallanırdı. Qoltuqlarındakı iri qovunları gətirib ortalığa qoydu.
- Bu, yemişlər! Bu da dilimləməyə bıçaq.
- Ev bıçağıdı? – soruşdum.
O, uşaq üstə çımxırırmış kimi:
- Bə nə bıçağıdı, alə?! – dedi. - Yox bir, xuliqan bıçağıdı!

Ancaq özüciyəz yemişləri doğradı. Dadına baxmaq üçün də dilimin birini dişinə çəkdi.
- Yaman dəlisovsan ha… - dedim. - Dəlisov da yox, dəli.
- Öz aramızdı, sən də çox yüngül adama oxşayırsan. Bir növ, bambılıya.
Nə deyəcəyimi bilmirdim. Yox, bununla kəskin danışmaq lazımdı. Ya da birdəfəlik ağzını cırmaq, qurtardı getdi.
- Yemişlərə görə sağ ol, - dedim. – Ancaq tez əkil burdan!

Elə bil gücüm çatmayan yükü çiynimdən yerə qoydum. Pörtmüşdüm. Oğlan cəhəngləri şirəli üzünü mənə tutdu.
- Başa düşmədim. Bir də de!
Dilimin altından, sanki kəlbətinlə, bir-iki söz də dartıb çıxartdım:
- Bir yox, lap beş deyərəm. Qulaqdan - o söz?
- Sən danışmırsan, ağzından ayran süzülür.

O, soyulmuş bir yemiş tikəsini də bıçağın ucuyla ağzına atdı. Yemiş ağzında fırçıldadı.
- Dəniz bizimdi – burada yaşayanların.
- Ay soxulursan ha, buynuzuna döyəcləsələr də.
Oğlan özünü yalnız indi təhqir olunmuş sandı və qüvvəsindən kənar bir şey dedi:
- Sənin onurğanı bu qumluqda sındıracam!

Fərqanə məndən küsmüşdüsə də, tərəfimi saxladı:
- Ey, eyy, biz səni yaxşı oğlan bilirdik.
Bu səfər mən onu bərk sancdım.
- Sənin onurğanı sındırmaqsa çətin olar.
Dərhal da bunu deməyimə peşmanladım. Amma oğlanı sanasan ilan vurdu. Yerindən hoppanıb qışqırdı:
- Dur ayağa!

Mən heç qımıldanmadım da.
- Qalx, deyirlər sənə! Altını bulayıbsan?!
- Böyürmə, dana!
- Qızın yanında yox, səninlə təklikdə danışacam. Gedək başqa yerə!
- Deyəsən, pulun kimi qanacağın da var?!
- Qalx-x!

Onun dişləri xırçıldayır, çənəsinin əzələləri şişirdi.
- Di getdik.
Fərqanə məni qaytarmaq istəyəndə, dirsəyimlə onu itələdim.
- Sən qal, nə yapışıbsan!
Qonşularımız çimişməkdəydilər.

Əsəbdən ayaqlarımız quma dərin batır; Fərqanə də sandıqtulası kimi dalıma düşüb.
- Arvadsan, arvad! Həri, matişgəsən.
Artıq özümü cilovlaya bilməyib, sağ əlimlə qozbelin sol üzünə yağlı bir şillə yapışdırdım. O, yıxılmaqdan özünü güclə saxladı və qumu ovuclayıb düz sifətimə çırpdı. Qum gözlərimə doldu. Qarnıma ilişən təpikdənsə sancılanıb yerə çökdüm.

Fərqanə:
- Ey, eyy…itil burdan! Qoçağa bir bax! Meymun! – deyə-deyə oğlanı qovmaq istəyirdi.
Ağrılara baxmayıb, ayağa dura bildim. Ancaq səsim çıxmırdı.

Oğlan özünü qalib sanaraq, mənə barmaq silkələyir, sanki uşaq hədələyirdi:
- Bax, hələ sənə o qıza görə dinmirəm. Get qurban ol ona.
- Günahməndədi, səndə yox… Hər qoduqla əngə verəndə, axırı belə də olar.
- Kəs səsini, alə, sənin kimilərini mən satın alaram.
- Maşallah!
- Özüylə dənizə qız gətirənimə bax! Hayıf o qızdan!
Fərqanə hey qolumdan dartır:
- Bəsdi, uşaq olma. Ona baş qoşma.

Paltarları eşələyib cibimdən kağız pullar tapdım və havaya – oğlan səmtə vıyıldatdım:
- Al, gətirdiklərinin puludu.
Sonra da bıçağı, dəstəyindən yapışıb, ona sarı tulladım:
- Bu da xəncərin!
Bıçaq uzaqda yaş quma batıb silkələndi.

Oğlanın üzünü duman kimi peşmançılıq bürüməkdəydi.
- Gör nə verir – hoqqa çıxarır…
Yerdən pulları götürüb Fərqanəyə uzatdı.
- Şahidsən ki - birinci özü şillə çəkdi. Mən elə-belə, qorxudurdum.
Fərqanə ona heç vız atmırdı da.
- Bu pul söyüşdü, özüm ölüm, ən ağır söyüş. Kişini belə söyməzlər.

Fərqanəylə mən geyinə-geyinə susurduq.
O gördü alan-götürən yoxdu, pulları əlindən buraxdı. Külək də onları yarapaqlar təki dənizə səpələdi.
Gün əyilmişdi. Adam üşüyürdü. Biz dinib-danışmadan sahillə xeyli yol getdik.
Avtobus ayağında arxaya boylandıq. Oğlan uzaqda heykəl kimi dayanmışdı. Ancaq arabir boğumtul səsi eşidilirdi:
- Gördünüz… özünüz gör-dünüz… necə-yəm mən. Sarsağam. Həri.
Elə bil ağlayırdı. Hərdən külək onun səsini götürüb başqa səmtə aparanda, heç nə eşidilmirdi.

1976

## "MONQOL"

Sadıq Mustafayev il on iki ay anasının ölümünü gözləyir, di gəl, o, pasport üzrə, ya elə-belə üzdən qocalıb-həpriyibsə də, hələ bir yeri ağrımırdı. Ay camaat, görün kaftarda xəstəlik olmaz?! Yox, ancaq hərdən "az danış, başım ağrıdı", deməyi var. Oğlu deyinəndə guya başının ağrıması onun yeganə xəstəliyi idi. İlahi, başqa cür xəstələnməməkdə bu heç insana oxşamır! Barı hərdən sancılana, ya köpü ola, deyəsən, hə. Ölkəni bürüyən qrip epidemiyaları onda burnunun ucundakı qızartı ilə təzahür edəcək, vəssalam.

Zarafatsız, qocalanacan saz qalmaq heç bir məntiqə sığmır. Çaşıb ölməz - evi yıxılar. Bir dəfə sanki ölüm payı göndərirmiş kimi, göz-başı qaynaya-qaynaya, çaynik qapağını ona sarı necə tolazladısa, zərif dəri ola - sol qaşının üstü köndələninə çapıldı. Hərçənd bu zaman gördü ki, onda arvad elə bil ona göz vurdu. Hər halda, çapılma da xəstəlik sayıldığından, onda bir az insana oxşarlıq alındı. İndi onun ölümünü qaşın üstündəki bapbalaca yaradan gözləmək mümkündü.

Sadıq anasının xəstələnməməsində həm də bir əxlaqsızlıq görür: axı, bu arvad niyə dərd çəkməsin? Ayıb deyilmi? Uşaqlıqda gördüyü min bir azar-bezarın bircəciyi bunda iz qoymamışdı. Barı əsəbi pozula, ayda bir-iki qorxunc yuxu görə. Yox, bu, div kimi yatacaq! Daş ondan narahat yatır. Yumru gözlərinin çevrəsindəki yelpinc qırışlar ingilissayağı məsud idi. Sadıq get-gedə anasının varlığından utanır, həm də artıq ondan çimçəşirdi. Yadına gəlir, rəhmətlik atasındakı xəstəliklər anasında ər adlı məxluqa nifrət törətmişdi. Hərçənd nifrət özlüyündə onun qarşıdakı ölümündən doğan sevinclə neytrallaşırdı. Ona görə də ər ölümü onda atılıb ərə getməsindəki kimi xoşbəxt duyğular oyatdı: yasa kim gəlirdi, ya orda bir az əvvəl gördüyünü təzədən görürdüsə, onunla yenə marçamarç öpüşürdü.

Ata ölümü bir macəra idi ki, bu əsnada anasını yaxşı tanıya bilmişdi. Ata ölümü ona əvvəlki səbəbsiz nifrəti söndürüb, məhəbbəti yandırmış, anaya nifrətisə yandırıb, ona əvvəlki məhəbbəti söndürmüşdü. Bu yanıb-sönən məhəbbət və nifrətlər onun həyatındakı zülmətdə reklam lampaları kimi közərirdilər. Anasının acığına atasındakı xəstəlikləri hətta sevmişdi də: istərdi özü də həmin xəstəliklərdən ölsün - dodaqları göyərsin, üzü qaralsın. İstər ki ölümü sönük rənglərlə başa varsın.

Sadıq sonralar anasına nifrətə vərdiş elədi və bu nifrət adi bir şeyə çevrildi. Nifrət daha qanını qaraltmırdı. Nifrətlər içində hətta arvada salam da verib keçirdi. Anadı də-ə, neyləyəsən. Ancaq daha onun sapsağlam canında şərin yuva qurmasına şəkk-şübhəsi yoxdu. Hərçənd düzü, o, şəri öz gözləriylə görmək iqtidarında deyildi. Qaç, qurtar - qadının bu cürəsindən hər şey gözləmək mümkündü. Qanunla müqəddəs analar da məkri-zənən ola bilər. Spartalıların etiqad səviyyəsinəcən şişirtdikləri sağlamlıq insanda natəmiz əməllərlə nəticələnir.

Ana və bala - onlar ailədə ikicə nəfərdi və Sadıq görürdü ki, bu kiçik ailənin bir it oğlu itin yanında hörmət-izzəti yoxdur. Yasa da xalaxətrinə gəlmişdilər. Adi bir başsağlığı zəngi arvad üçün toy-bayrama çevrilirdi. Yəqin ailəni bihörmət eləyən səbəblərdən biri elə onun öz qıyıq gözləri idi. Axı, onların nəsli-cəddabasında belə şey görünməyib. Doğrudan da, durduğu yerdəcə insanın gözləri niyə qıyıq, yanaqları niyə çıxıq olmalı imiş? Hər halda, bu, nəcib əməlin nəticəsi deyildi.

"Yəqin bunun anası bir vaxt Tatarıstanda qonaq olub", - hələ uşaqlıqdan yekə-yekə kişilər onun qıyıq gözlərinə sataşardılar.

"Mən Tatarıstan yox, Monqolustan deyərdim. Çünki Sadıqbala tatardan daha çox monqola oxşayır".

"Ə, sənin o qəşəng anan necədi?" - bir dəfə də tənəffüs vaxtı məktəbin cavan müəllimi ondan soruşmuşdu.

"Yox, bunun anası əntiqə şeydi! Əsas da buraları," - başqa müəllim də ona züy tutmuşdu. Ancaq "buraları" deyəndə, Sadıq bu müəllimin haraları nəzərdə tutduğunu bilməmişdi.

Anasının göyçəkliyi Sadığın başına qaxınc idi və get-gedə də onda qeyrət alovlandırırdı.

Ona uşaqlıqdan "monqol" demişdilər. Deyəsən, rəsmi ata-ana yox, qeyri-rəsmi bambaşqa bir xətt üzrə kökü, həqiqətən də, gedib monqol-tatar istilasına çıxırdı. O, qədim bir zorlanmanın əlaməti kimi, həm də uzun illər atasının uşağı olmayandan sonra dünyaya gəlmişdi. Hər halda, bu, anadakı əxlaq saflığından xəbər vermirdi. Əlbəttə, ata əvvəl çox burcuxdu, çox atılıb-düşdü, axır dərddən xəstəlik tapdı və sonra da xəstəlik bir daha onu atılıb-düşməyə qoymadı.

"De görüm, bu bədbəxtin gözləri niyə qıyıqdı?!" - atası qışqıra-qışqıra anasından milyon kərə soruşdusa da, onu qane edən bir cavab eşitmədi.

"Mən neynim, get onu öz ulu babalarından soruş".

Yox, kişi bu dünyadan köçməyi üstün tutdu.

İşə bax, buranın da yox, Rusiyanın monqol-tatar istilasından ötüb keçən neçə yüz illərdən sonra camaat bu istilaya qarşı çıxır, Sadığa qız vermirdilər. Zaman gizli, ya aşkar - hər hansı zorlama faktını neytrallaşdıra bilməmişdi. O, ömrün xeyli hissəsini çürüdən sarsaq əsgərliyini də çəkdi, şanlı bir institutu da qurtardı, ancaq “monqol” ləkəsi üzdə eybəcər qara xal kimi ondan heç cür çəkilib getmədi. Sadıq özlüyündə monqollarla qohumluğunu həm də atlara sevgisindən bilirdi. Atlar qanad taxıb respublikadan qeybə çəkiləndə, Sadıq onları qiyabi sevəsi oldu. Mənzilində divarlardan at boyda at şəkilləri asmışdı. İncəvara, divarları atdan hündür, atdan uzundular.

* * *

Sadıq Mustafayevin bəxti onda gətirdi ki, Şövqi Həsənova rast düşdü. Tale onun üzünə zavodlarının akt zalında güldü. O hələ taleyi üzə gülən görməmişdi; sanki Mark Şaqalın fırçasından çıxmış uzunsov bir təbəssüm tapança kimi ona tuşlanmışdı.

- Siz monqolsunuz? - hesabat-seçki yığıncağının axırında Şövqi müəllim onu yanına çağırtdırıb birbaşa soruşdu.

- Xeyr. Monqol deyiləm, - bu incik cavabdan görsənirdi ki, deyən, sual bir qədər kobud səslənib.

- Fikrinizə özgə şey gəlməsin. Mənim monqollara qanım qaynayır. Divarlarımı görəsiniz - büsbütün monqol üzlərilə bəzəmişəm. Monqolsunuzsa, deyin. Zərər tapmazsınız.

- Monqol deyəndə - bir balaca...

- Baxma, insan zahiri əlamətlə də ucala bilər. Mən Monqolustanda Brejnev-Sedenbal vaxtlarında işləmişəm. Orda bir qız sevmişdim - ildırım vurub öldürdü. İndi onun xatirinə sizi ucaltmaq istəyərdim. Evimi görəsiniz, monqola oxşar pişiklər əlindən yer yoxdur - qızın xatirinə saxlayıb, onlara qulluq göstərirəm.

- Düzü, pasportda adım azərbaycanlı gedir, amma əslində monqol kimi bir şeyəm. Üstəlik, gözümü açandan hamı mənə monqol deyib.

- Monqol deyiblərsə, demək, elə monqolsunuz da-a, - kişi bu yerdə sevindi. - Camaat dəli deyil ki! Həm də monqolun buynuzu-zadı olmur ki. Üzünüzə deyəcəyəm, siz monqol xaqanlarının törəmələrindənsiniz. Bu necə və nə cür olub - işə dəxli yoxdur. Özü də monqolluğunuzla fəxr etməlisiniz.

- Bilirsiniz, adam qalır iki daş arasında: monqol adını üstümə götürsəm, Avropadan avtomatik uzaq düşmüş oluram. Halbuki mən Avropanı sevirəm, istərəm həmişə avropalı sayılam.

- Onsuz Azərbaycan - Avropa deyil. Nə olsun ki, iki qitə arasından çəkilən və heç də mövcud olmayan xəyali xətt, mən ona həqarətlə “cız” deyirəm, Azərbaycanı təsadüfən Avropaya qatıb. Özü də monqollar dünyaya şəfəq saçanda, avropalılar hələ fil qulağında yatmışdılar. Avropa Asiya ilə müqayisədə dünən əmələ gəlib.

Şövqi müəllim söhbət əsnasında "tatar" adını dilinə də gətirmədi, eləcə "monqol" deyib durdu. Sadıq doşab almışdı, bal çıxdı: onu bircə həftəyə irəli çəkdilər. Amma vərdiş eləyənəcən, bu təsadüfi "hündürlük"də başı xeyli gicəlləndi. Sonralar bir də görüşmədilərsə də, Şövqi Həsənovun nəzərləri onun üzərindən əskik olmadı. İldırım vurmuş monqol qızının ruhu ona dirək oldu. İndi respublika qəzetlərində say-seçmə insanlar sırasında bir monqoloid şəkli peyda olmuşdu.

* * *

Sadıq Mustafayev Şövqi Həsənovun tamam əksi olan bir adamdı. Şövqi müəllim məhəbbətini reallaşdırırdısa, o, bütün qadınlara, həmçinin anasına nifrətini real formalarda üzə çıxarmağa tələsirdi. Vəzifəyə çatan kimi Allah var-dövləti başından tökdü; bir növ, onda nifrət üçün "maddi baza" yarandı. Əvvəlki həyata dair xatirələri indi ona gülünc görünürdü. Hə, uşaqlıqda velosipedə, təzə məktəb formasına necə

sevinmişdisə, gənclikdə də zavodda işə düzəlib cındır bir yataqxanada yer almağına elə sevinərdi. İşə bax, Şövqi müəllim akt zalında təsadüfən onu görməsəydi, tale uzunsov təbəssümlə onun üzünə baxmasaydı, elə bu xırda sevinclərlə də ömrü yelə verəcəkdi.

Çox dedilər, az dedilər, axır Sadıq Mustafayevdəki zahiri monqolluq daxili monqol duyğularıyla nəticələndi. O artıq monqolcasına düşünür, qədim istilalar tarixi onu sevindirirdi. Onda monqol tarixi gec çiçəklər açmışdı. Yuxudaca Rusiya çöllərində at çapır, hətta nə qədər bərk yata, ayaqlarında at çaparkən törənən ağrılardan oyanırdı. Bir dəfə Çingizxan haqqındakı bilikləri yuxuda fantastik tarixi süjetlərdə düzümlənmişdi.

Onun qorxusundan evdə kölgə kimi dolanırdısa da, Sadıq gülən gözlərindən görərdi ki, anası xoşbəxtdir. Ancaq hər hansı qurbağaya bəxş edəcəyi xoşbəxtlik bəlkə onu sevindirərdi də, di gəl, *ana* adlı bu adamcığın xoşbəxtliyinə biganə idi. Axı, necə olub ki, onun uşaqlıqdan çəkdiyi ağrı-acılar bu arvadın birçəyində bircəcik ağ tükləsə əks olunmayıb. O nə bunu, nə də onun sevgisinə məhəl qoymayanları unudub. Nə oldu, indi ocağının başında şöngüyən tapıldı?

Get-gedə artan varidatı monqol-tatar zorlamaları faktını zərərsizləşdirmiş, ondakı bütün "tarixi" eyiblərin üstünü örtmüşdü. Var-dövlət namussuzluqları heçə endirən, lotuluqlara müqəddəslik namı qazandıran şey imiş. Ona ərə gəlmək istəyənlər arasında artıq hər gün dava qopurdu. Axır birinə "hə" dedi. Amma qəribədir, o, gərdəyə girərkən, qızı uçub şirəyə qonmuş milçək yerində gördü. Qaraca da bir qızdı; burnunu tutsan canı çıxardı. Elə həmin gecədəcə ona "milçək" dedi.

"Bu gündən, - dedi, - sənin adın *milçək* qalır". Qız dinmədi. Həmin gecədən yadda saxlamağa bir öpüş nədi - o da olmadı. Tfu! Əşyaların tığ vurulduğu, təzəlikcə topdağıtmaz olmuş evi bu *milçək* üçün onun özündən qiymətli imiş. Qəhərdən boğulurdu. Arvad ona yox, əşyalara gəlmişdi (doğanda da qorxasan əşya doğa). Ancaq bir gün bəhanə tapıb artıq arvad olmuş dünənki qızın qulağının dibinəcə ürəkdən tikan çıxardan bir yumruq ilişdirdi. İnsafən, daşdan səs çıxdı, ondan yox. Əksinə, sonra bu hadisəni gülməyə saldı. Təzə qohumlardan da ona güldən ağır söz deyən tapılmadı; hələ bəlkə günahı öz qızlarında gördülər. Amma əvvəlki vaxtlar olsaydı, ona hökmən qulaqburması verdirərdilər.

Monqol təzə peşə tapıb: işdən tez-tez gəlir, evdə mərəkə qoparır və təzədən rədd olub gedir. Əlbəttə, özü də bilir ki, bu mərəkələr tutduğu yüksək vəzifə ilə heç cür uyuşmur. Bir gün də qışqıra-qışqıra:

- Bax, qoy bu rumın mebeli sənin ərin olsun! Mən getdim! - dedi.

Dedi və həqiqətən, çıxıb getdi. Gəlin gözlərini döyə-döyə qaldı. Bəlkə də kişi xeylağı belə olmalı idi. Sadıq harda batdısa, düz bir həftə evə dönmədi. Axır gəlib çıxanda, qızı yenə mebellə yan-yanaşı gördü. Deyəsən, zənni düz çıxır. Arvadı güllü

əsgiylə mebelin üzünü elə silir, deyirsən, onunla sevişir. Yox, məhz elə bu fakt intiqam üçün kifayətdi. Qadınlardan, hətta anadan alınası intiqam get-gedə onun qayəsinə çevrilirdi. Yoxsa əsas da bu arvadın sağlamlığı axır onu dəli edəcək. Barı anası oğlunun onu öldürməsini gözləməyə, özüciyəz ölüb gedə. Düzü, Sadıq qadın tayfasından kimlərin ölümünü dumanlı şəkildə planlaşdırırdısa da, anası barəsində elə fikri yoxdu: qoy özü öz əcəli ilə ölsün.

Evdən kənar yerlərdə bir-iki saatlığa, bəzən bir gecəliyə satın aldığı qadınların ona bəxş etdiyi bol-bol gülüşlərdən də artıq çiyrinmişdi. İnsandakı ən saxta cəhətlərdən biri gülüşdür. Ümumiyyətlə, insanda gülüş yasaq olunmalıdır. Axı, bu nəyə lazımdır! O, gözəl qadın əndamlarını yataqda gah bu, gah digər səmtə çöndərdikcə, keçmişdə olsaydı, onların ona ərə gəlməyəcəklərini düşünürdü. Təbəssümlərini görməsin deyə, üzlərinə baxmadığı gözəlçələr ona canlı ət çappalarını andırırdı.

Ətdə gülüşə nə lüzum! Ətdə gülüş çəhrayı yarlığa bənzəyir. Kasıb çağlarında qadınlarda gördüyü məğrurluq tamam boş bir şey imiş. Qadınlarda məğrurluq illüziyadır. Hayana dönə, yenə kişilər! Heç kəs qısnamadı - Şövqi Həsənov özü onu gənclikdə sevdiyi, ildırım vurmuş adi bir monqol qızının xatirinə göylərə ucaltdı. Bir təmənna güdmədən.

Amma bircə qadınınsa boğazını quş boğazı kimi üzə bilsə, bəlkə onda ürəyi soyuyar, həm də bu ləzzət ona ömrü boyu bəs edərdi. Onu yandıran əsas şey bu qara qarğanın ona ölçü-biçi və hesabla ərə gəlməsi idi. Üstəlik, daim onu silib-əzizlədiyi rumın mebeli ilə bir tutur. Yox, bəlkə bunun uşağı mebeldən olacaq; uşaq elə mebelə oxşayacaq.

Sadıq Mustafayev şər təcəssümü bildiyi qadınların ikicəciyini evində saxladıqca, qan təzyiqi, hər gün ölçdürür, dəmbədəm yüksəlməkdə idi. Mahnılardakı kimi də, deyir, evində ilanlar bəsləyir. Lakin artıq nə ananı ana bilir, nə arvadı - arvad. İkisi bir sifətdə - cizgilər yumaq olub bir-birinə qarışmışdı. Daha onlarla bir mənzildə nəfəs çəkmək də dözülməzdi - astmalılar kimi boğulurdu.

***

Bir gecə Sadıq Mustafayevgilin pəncərələri səhərəcən, az qala tavana çatan işıq sütunları ilə bəzəklənmişdi. Elə bilirdin içəridə dirəkləri qızıldan olan qəsr ucaldılıb. Nəhayət, qızıl dirəklər sübhün qıpqırmızı şəfəqlərindən solub görünməz olanda, sürücüsü mənzilinə qalxıb onu kişilər haqqında həmişə oxuduğu kitab üstündə tutdu. Bir-birindən seçilməyən, qapqara yanmış iki məxluq döşəmənin tən ortasında yan-yana uzadılmışdı.

- Bu kömür insanları gördünmü? Həminkilərdi: anamla arvadım. Di get, lazımi orqanlara xəbər elə. Qorxma, şərəfsizliklərini tərtəmiz yumuş insanın hamı qarşısında alnı açıq, üzü ağdır, - o, bu sözləri qeyrətli monqolların şanlı tarixi içindən çıxmış namuslu bir monqol kimi söylədi.

Sadıq Mustafayev pasportunda "azərbaycanlı" yazılmış monqol kimi tutuldu.

***1997, may-iyun***

## "KURORT ZONASINDA MÜHARİBƏ"

Rusiya qoşunları Gürcüstana girər-girməz, qoşunlardan azca uzun, bir az da enli torpaqlarda şəhərlər yanmağa başladı. Sanki qoşunlar kibritdilər, şəhərlər də - neft və neft məhsulları. Artıq rəngli televizorlarda dan yeri və qürubun qatı-qırmızı günəşlərini yanğınlardan seçmək çətindi. Günəşi yalnız üfüqə qərq olmağından tanıyardın. Yanğınsöndürənlər bir dəfə çaşıb Günəşi söndürmək istəmişdilər.

Doktor Osmanov Cəfər iki gündü uçunur; yuxusu ərşə çəkilib. İşdə ona “hazır ol” deyiblər: işdi, birdən müharibə zonasına getdin. Bu müharibələr cərrahların başının daşıdır daa. Ancaq əslində cərrah - elə müharibəlikdi. Bə qaçatbasdı ora kimi yollasınlar – dermatoloqumu? Yoxsa həkim-kosmetoloqu?

O gün-bu gün o, son xəbərlərə dörd gözlə baxır. Baş sındırır, beyin çatladır: görən, televiziyaların dabanqırdı-qaranəfəs göstərdikləri şəhərlərdən hansına düşəcək? Qoşunlar şəhərləri bir-bir tutur, o da oraları atüstü ekskursiya edir. Fikrini əsasən qədim binaların arxitekturasına yönəldib. Əfsus, telereportyorlar kameralarını arxitektur cizgilər üzərində çox saxlamir. Bir şey qanırlar ki. Eşşək nə bilir zəfəran nədir? Bəyəm onlar anlayır ki, hansı arxitektur şedevrin, möcüzəli ornamentlərin üstündən keçirlər? Filhəqiqə, eşşək cüməaxşamı qanmaz. Cansız telekameralar hər şeyi görürsə də, canlı və hətta canlı-cüssəli reportyorlar sanki baxar kordular. Onlarınkı od-alovdu, dağılan tifaqlardı; müasirliyi də bunda görürlər. Deməliyəm ki, elə teletamaşaçılar da onlarla bir bezin qırağıdı: dünyəvi sənət nümunələri göstəriləndə, bunu fasilə kimi başa düşür, durub özlərinə çay süzürlər. Bə hamı Cəfər kimi olacaq? O, müharibə gəzən şəhərlərin qədim küçələrini İçərişəhərdəki küçələrlə tutuşdurur. Mat qalmalı işdi, ulu babaların təfəkkür tərzi hər yerdə təxminən eyni cür olub. Hamısı Adəm və Həvvanın debil törəmələrindən törənənlərin törəmişləri, yəni tör-töküntüləridi. Ağıl-dərrakələri buracan çatıb: orda da, burda da dar və əyri küçələr icad ediblər. İçərişəhərdəki küçələrdən kök və qarnıyoğun, xüsusən də nehrəqarın adamlar yanpörtü keçir. Koppuş və toppuşlar

İçərişəhəri diaqonalda aşa bilməzlər, onlar gərək çevrə cızalar. Ölkənin yoğun adamları İçərişəhərə ekskursiyalardan məhrumdur. Həmin yoğunlar bundan nəticə çıxarıb, öz övladlarını nazik-şüvərək çağlarında oraya göndərir. Qayıdandasa, soruşurlar: nə gördün? Onlar qocalanacan da elə bilir, kim İçərişəhəri gəzsə, mədəni və tərbiyəli olar.

Hə, doktor Cəfər bir-birinə ağız atan iki qonşu dövlət hesabına havayı ekskursiya ləzzəti içindəydi. İstənilən müharibənin mənfilikləri başdan aşırsa da, bax, belə müsbət cəhətləri də qədərincədir. Müharibələr tamaşaçıya göydəndüşmə poetik-estetik sürprizlər əta edir.

İki gündüz bir gecəyə, sonra da iki gecə üç gündüzə o, müharibə gedən əksər gürcü şəhərlərini ekranda görə bildi.

Amma bu müharibə həm də o şəhərlərin qlobal miqyaslı reklamı oldu. Bütün dünya Gürcüstan kurortlarını qiyabi tanıdı. Turizm həvəskarları “1” yazıb, “1” yadda saxladılar. Müharibə gedib, sülh gələn kimi də oraya axışacaqlar. Təbiət gözəlliklərinə bəşəriyyətin törətdiyi təptəzə xarabalıqlar da əlavə olundu, beləliklə turizm obyektləri zənginləşdi. İndən belə hansı binada güllə yeri tapsalar, onu eksponata döndərəcəklər. Halbuki sayın nə əhəmiyyəti; min güllə yerinin bir mənası var – deşik, sinonimi də -.dəlik.

Küləklər deşiklərdən məşum müharibə səsləri çıxaracaq.

Qafqazda sülh iki-üç bambılının düz kağızlar üzərində əyri qoluyla bərqərar olasıdır.
Bircə - müharibə kurort zonasına sağ-salamat gedib çıxa bilsəydi, Cəfər düşünür. Orda tezliklə hər şeyi əyani görəcək. Hamının sülh dövründə başa çatdırdığı ekskursiyalar bunda müharibənin ortasında baş tutacaq. Gələcəyin dəhşətli turizm obyektləri də, təbiətə əlavə kimi, onun gözləri qarşısında - canlı-canlı, qanlı-qanlı yaranacaq. İnsan şaqqaları təzə ət şəklində görsənəcək.

Hərbçilər çıxılarsa, o, tarixi xarabalıqlar quruluşunun nadir iştirakçılarından sayılacaq.

Birdən yadına düşəndə ki, heç kəs onun qara qaşına, qara gözünə aşiq deyil, orda onu işlətməyə aparırlar, qanı it qanına döndü. Qorxasan, televizorda rahatca seyr etdiyi mənzərələrə başını qaldırıb baxa bilməyə də. Baxmağa vaxt tapmaya. Ya əmək haqqının tərkibində seyrəngahlara dair qeydlər yoxdu, deyib də, təbiət mənzərələrini ona yasaq edələr. Yəqin nə ekskursiya etdisə, teleekranda etdi. Neynək, onda sülh vaxtı rastlaşmadığı, gələcəkdə də rastlaşmayacağı, qorxunc baş-bədən, qol-qıç yaraları mənzərələrinə səyahət qurar. Uçmuş şəhərlərə baxdın, ya

cırıq qarınlara, sınıq-salxaq “Zapı”lara oxşar döş qəfəslərinə - mahiyyət eynidir. Könlü istəyən ekskursiya ləzzətini, üzr istəyirəm, ayaqyolundan da çıxarar. Mişar daşı da, palçıq kərpic də, ac-yalavacların tərz-hərəkətləri, sancı çəkən inək, duz yalayan camış – bunlar hamısı ekskursiya materialıdır. 0,5-1,0 qram ağırlığı olmayan kəpənəklər də və sair. Allaha hamımız qurban olaq, kim mandaloşka birəsini mikroskopda görsə, hayıl-mayıl olar. Rəng çalarlarının incəliyinə görə, mandaloşka birəsinin mikroskopdakı mənzərəsi impressionist rəssamların tablolarından üstündür.

Gürcüstan kurortlarını hamamı sərin, özü isti Bakımızda bir yaşıl ağac budaqları arasına baş soxub da təsəvvür edə bilərsən.

Həyat itkilərin kompensasiyasında cilvəlidir.

Gürcüstanda müharibə dünyanın başqa yerlərindəkindən yer-göy qədər fərqlənir: orda qıpqırmızı alovlar gah yamyaşıl ağaclar, gah da gömgöy dəniz fonunda görsənir.

Cəfər həkim oturub-durub fəxr edir: Azərbaycanın atacağı humanist addımın tərkib hissəsi olacaq. Bir dəfə sevincini özüylə bölüşmək üçün bədənnüma güzgü qabağında qoşa şıllaq atdı. Fikir verib, ruh düşkünlüyü çağlarında heç vaxt şıllaq ata bilmir. Ancaq Gürcüstanda insanlar artıq partapart qırılırdısa da, yuxarılarda planlaşdırılmış addım hələ atılmırdı. Addımı atmaq üçün part buraxacaqmış kimi bir ayağını qaldıransa gözə dəymirdi. Bir atımlıq barıtlarını atıb dayanıblar. Humanizm aktı üçün hamı bir-birindən sərəncam gözləyirdi. Bu mərtəbəli-mərhələli sərəncamlar bir əmr formasında da gəlib Cəfərin adında bənd alacaq. Dövlətin hər adama qismət olmayası bir firma blankı şəxsən ona həsr ediləcək. Bu münasibətlə də qalxıb açıq döşək üstə dombalaq aşdı.

Istənilən dövlətdə belədir - ümumbəşəri humanist hərəkətlər yalnız riyazi dəqiq bürokratik proseduraların icraatıyla hasilə gəlir. Bürokratiya humanizmin dosdoğma anasıdır.

Doktor Cəfər üçün müharibəyə bu ezamiyyə təklifi əsasən kurorta getmək şansı kimi qiymətliydi. Artıq o, Gürcüstan “müharibə zonası”na “kurort zonası” deyir. Ömründə kurortda olmayıb - Allah bunu götürər? Tərslikdən, xəstələnməyib də ki, müalicə bitəndə, sanatoriyalara yollayaydılar. Sanatoriya və kurort – bunlar cüt bacı kimi şeydilər. İndisə gəlhagəlidir, gedib orda yaralanarsa, Gürcüstanın kurort effekti bir yana, sanatoriyalara düşmək ehtimalı birə-yüz artacaq. Heç kim də yox, dövlət özü ona deyəcək: ə, davay, gəl bura, get ora.
İnsan yaralanan kimi hörmətə minir - bir növ, heç nədən.

Ura, indən belə dəfən-dəfən gedəcəyi sülh kurort mərkəzlərində gəlmə qızların qarnına uşaq qoyub yollayacaq vətənlərinə. Nədənsə, uşaq əkmək ona bir qurtum su içmək qədər asan gəlir.

İnsan ömrü ən azından bir-iki müharibəylə kəsişir və elə müharibəylə də mənalanır. Belə götürəndə, xoş yaşayışın rəhni sülh yox, müharibələrdir. Sülh vaxtı ağzı ətə çatmayanlar müharibədə, ölüsü, əlillik qazanır. Əlillik müavinəti ömürlük maaş növüdür. Üstəlik, müharibənin təkqıçlı insanı sülhün cütqıçlı insanından nüfuzlu olur. Sülh iştirakçısı müharibə iştirakçısı yanında diligödək, üzükölgəlidir. Ümumiyyətcə, sülh müharibəylə müqayisədə ikincili dəyərdir. Müharibə görən müharibə görməyənə şillə də vurar, insafı olmaya, onu təpik altına salar da. Övladsız qalan müharibəgörmüş az qalır sülhgörmüşün balasınaca şərik çıxa. Elə görsətmələr olub. Bir gün qoşaçəlik bir müharibə əlili öz həyət sakinlərindən olan başıaşağı bir sülh sağlamına qarşı məhkəmə iddiası qaldırası. Guya o, səngərdə böyrəklərini çürüdəndə, bu, nazlı-duzlu arvadıyla keflər çəkib. Başıaşağı sağlam and-aman eləyəsi: əşi, atan yaxşı, anan yaxşı, Allaha bax, Qurana bax, o heç vaxt müharibə gedə-gedə kef niyyəti güdməyib. Güdə də bilməz. Elə şey olar? Hələ mənəviyyatı itməyib onun! Yaxşı tanımırsız onu – itə də bilməz. Həm də zənənlər gedib baxsınlar, onun arvadı nazlı-duzlu da deyil. Laqqa-taraqqa şeydi, özü də təzəlikcə onda döş vəzisinin xərçəngi tapılıb.

“Bə onda uşaqların hardandı?”
“Allah verib”.
“Get özünü dola”.
“Dolayan sənin gününə düşsün!”- axır başıaşağı sağlam onun üzünə qayıdası.
“Qurana əl bas ki, arvadla yatmamısan”.
“Ay balam, arvadla yatmağın kef çəkməyə nə dəxli var?”
“Var!”

“Arvadla kefdən yox, dərddən yatırlar”.
“Qurtaraq boş söhbətləri, evindəki üç uşaqdan kiçiyi mənimdir!”
“Başqa heç nə istəmirsən?” – sağlam əliylə ona “şiş” göstərib gedəsi.

Proses hələ bitməyib. Bir neçə qəzet bu işin yekununu işıqlandırmağa söz verib.

Əlil əsalarında mifik qorxu şiddəti var.

D-r Osmanov Cəfərin əlinə fürsət düşüb. Ömrü kirayələrdə keçmiş insan üçün qonşu dövlətə səfərdən maraqlı nə ola bilər. Doğulduğu rayona getməyəsə bayramların birində imkan eləyib, birində yox. Xeyir-şərdən məhrum, novruzlarda – peşimandı. Qulaqları qızaran kimi də dalağı sancar: orda kimlərsə sözünü danışır, dalıyca da lombaynan tüpürcək atırlar. Əslində onun üzünə tüpürürlər, sadəcə,

tüpürcək gəlib dalına düşür. Artıq dalı Salvador Dalinin rəsmləri səviyyəsində sürrealistik bir üzdü.

Uzun işdir.
...Müharibədən xeyir güdür. Yumurtadan yun qırxır. Keçi can hayında, qəssab piy axtarır. Axı, niyə belə oldu, o niyə belə edir? Çaşıb müharibədə qarətçiyə çevrilər.

Allah üzünə baxıb: indiyəcənki müharibələri tamaşaçı qismində yola verib.

Müharibədə tüklənməyin əsas yolu çapovulluqdur. Göyə bir güllə uçurt, kəndlər qaçsın. Lapdan-lapa hazıra nazir olursan. Gərək ömrü boyu başa elm-bilik yığmaq əvəzinə, əzələ "kaçat"dayaydı. İdman - mahir qarətçilik institutudur. Əzələ varsa, baş nəyə gərək, güc də varsa – ağıl. Çapovulluq müharibədə qəbahət yox, fəzilətdir. Bir başqası da zənn edir: qıtlıq yaranar, o, varlanar, hallanar-dullanar. Qıtlıqda özünün də kasıblaşacağını, bir həsir, bir Məmmədnəsir qalacağını fərz edən yoxdur. Sanki müharibə olan kimi un-ərzaq anbarlarını ölkə dılğırlarına tapşıracaqlar. ...İndi müharibənin şən cəhətlərinə keçək. Sülh dövründə qız-gəlin üzünə baxmağa belə həya etmiş kəslər müharibənin bismillahını zorlamalarla etmək istəyir. Özü də subyekt qoca olsun, ya cavan, belə deyək, qartımış, ya sütül, böyük, ya uşaq – xəyalplovun reallaşması üçün bu cəhətlər rol oynamır. Düşməninki, ya özünkü, diri, ya ölü - harda tutdun, bas altına. Milli əxlaqlı insanlar seksin yalnız alta basmaq üsulunu bilir. Təkbirlikdə vətən arvadı olsun, ya düşmən qızı, Maşa, ya Daşa, Səringül, ya Siranuş – hamısı birkeyfiyyətli mala çevrilir. Həm də axı, orda elə şeyi dəqiqləşdirməyə nə vaxt var, nə həvəs. Qaranlıqda qocanı cavandan bərk sıxmalayırsan. Qocanı cavandan qabırğalarının çartaçart sınmağıyla ayird edərsən. Çal-çapdısa, sən də çal-çap, gördün basırlar, sən də bas. Müharibədə qanunsuzluqlar özü bir qanundu. Yeri gəlmişkən, zorlamalar gələcəkdə el qaydasıyca evlənəsi subaylar üçün yaxşı bir məktəb ola bilər. Sağdış məsləhətinə ehtiyac qalmaz, soldışa da özün dərs deyərsən.

Əxlaqlı adamlar əxlaqsızlıq, möminlərsə lotuluq dərsini vacibən keçməlidir.

Sən bir işə bax, öz arvadıyla bacı-qardaş kimi yatan və elə bu səbəbdən arvad qabağına qatılıb həkimə aparılanlar da müharibədə qırğıya dönür, "yubka" görən kimi dəli olurlar. Yubka aşağı sallanmış yox, sanki yuxarı qalxmış olmalıdır – çataçat başa keçirilir. Qadın yatıbdısa əgər, gözlərini ovuşdurub oyananacan iş-işdən keçir. Faktı bilən kimi də, birdən görən olmuş olar, qısa bir namus cikkəsi vurur. Uzun zənguləyə lüzüm yox. Bacılı, neyləyəsən, müharibədi bu. Bu, yüzillər boyu arvadların başına gətirilən fəlakətlərdən hələ ən yüngülüdü. Dərindən fikirləşsən, bəlkə heç fəlakət deyil də bu.

Müharibələrin istənilən zorlama aktı sevgiyə bənzər mənzərələrlə zəngindir.

Müharibədə bircə can sağ olsun.

Doktor Cəfər vərdişkardı, Gürcüstan müharibəsinin ilk günlərində də seyrçi rolunu boynuna götürmüşdü. Fors-major situasiyalarda həmişə kiçik adam olması üzə çıxır. Müharibələrdə, sanki yerin təkindən, başı göylərə dirənən azman adamlar qalxır və onda o, dərhal cırtdana çevrilir. Qloballar onluq deyil, barı bu Qafqaz əyriliyindəki çaxnaşmadasa bir səlahiyyəti ola. Səfərbər edilə ya. Yox, heç nə olmur. Heç kimdi o. Ona çırt atmırlar da. Uzaq başı, cəmiyyətdə hipotetik vahiddir. Müharibəyə getmiş olarsa, statistik rəqəmlərin üstünə "1" gələcəklər, qurtarıb gedəcək. Ya gedib orda ölüb qayıdarsa, ümumu rəqəmlərdən "1" çıxılacaq, xoş getdin. Onun bütün mənası "1"-dəydi. Haçansa da onu "2"-mi, "3", ya "4" yox, məhz "0"(sıfır) gözləyirdi. "1" onun müvəqqəti, "0" - əbədi halıydı.

Onun üçün müasir həyat materialının incəsənəti televiziyaların xəbər proqramlarındakı rəngli təsvirlərdi.
Qoyasan, teleekran qarşısında dövlət başçılarına lağ eləyə, onlara ağız büzə. Hərəsinə bir ayama qoşub – heyvan adlarından - "ayı", "öküz", əsas da – "uzunqulaq", qanadlılardan - "hinduşka", "xoruz". Necə də tapır bu adları. "Yekəbaş", "sarsaqqulu" da onlara aid sözlərdəndi. Guya nədi, müharibəni düz aparmırlar. O, qalib tərəfi həmişə müharibəni düz aparan sayıb. Amma qalib dövlət başçılarına da müharibədəki naşı hərəkətlərini bağışlaya bilmir. Bu naşılıqların əsaslı səbəbləri olsa belə. Qəti nəzərə almaz ki, hər dövlət başçısı üçün müharibə ilk həyat təcrübəsidir. Müharibədə insanların qırılmasına Cəfər naşılıq kimi baxırdısa da, əslində bu, hər hansı dövlət başçısı üçün adi haldır. Nədə-nədə, insanların qırılması və qırdırılmasında bir qəbahət görmür onlar. Qırılanların başına daş düşmür ki – onlar qəşəngcə şəhidlik zirvəsinə yüksəlir, şəhərin də bu ada uyğun yüksəkliklərində basdırılırlar. Onları polis qoruyur. Dövlət rəhbərləri uşaqlıqdan "qalibiyyət insanlardan vacibdir" tərbiyəsi alanlardı. Bəşəriyyət dövlət başçılarının qalibiyyəti üçün mövcuddur, lazım gəlsə, qırılmalıdır da.
İnsanların qırılmamağa ixtiyarı çatmır. Onların qırılmasına Konstitusiya icazə verir.
Miskin bəşərin gələcək xoşbəxtlik planları əbəsdir.

Arvadı Cəfərə tez-tez danlaq vurar:
- Ədə, axı, onlarla sənin nə işin... Başını sal aşağı,
balalarını dolandır.
- Səninki də elə dolanmaqdı.
- Hökumətlə hökumətlik edəcəksən?
- ...Hökumət dovşanı arabayla tutur!
- İndi yerin də qulağı var.
- Burnu yoxdur?

- Otur yerində.
- Bə kor gözlərin görmür ki, insanlar milçək kimi qırılır?
- Milçək qırılmalıdı daa.
- Elə sən də milçək növüsən!

Doktor Ensiklopediyada Gürcüstanın siyasi xəritəsini tapıb, nöqtə boyda kurort zonalarını bir-bir araşdırmağa başladı. Borjomi, Batumi, Qaqra... – hamısı Ümumittifaq yerlər. Teleekranda Poti də kurorta oxşayırdı, Suxumi də. Bəh, Sxinvali, Sxaltubi, Pitsunda. Hələ ardı var - Kobuleti, Zuqdidi. Adlardanca kurortluq yağır, eşidən mum kimi əriyir. Sovet sülh dövründə oralara gedə bilmədi, eləcə sonaladı-sonraya saldı. Bu “sonra” da bəduğur gəldi - kurort zonalarında gah bataqlıq rəngində vətəndaş qarğaşalığı qopdu, gah da yamyaşıl təbiət üzərində tozanağa oxşar narıncı inqilab. İndi də - qıpqırmızı vətən müharibəsidi. Getməyinə gedir, di gəl, hər saat da boyu bərabəri suallarla rastlaşır: bu kurortların hansına düşəcək? Axı, niyə o, bunların heç birində olmayıb? Gərək vaxtında buzqıran gəmi kimi inqilabları, vətəndaş müharibələrini yarıb keçəydi. Amma təhlükələr içrə dincəlməyin də bir özgə ləzzəti olardı. Həndəvərdə ölüb-itən, itib-batan, şıllaq atan, qaymaq tutan, ağ quşum, ağarçınım, göy quşum, göyərçinim - bunlar istirahətə xüsusi rəng qatacaqdı.

Şeytani ləzzətlər bu dünyadakı ləzzətlərin ən dadlısıdır.

Getməyinə gedir, ancaq o, bu kurort yerlərinin ancaq birində, ay özünü öldürə, ikisində ola biləcək. Hər şey də müharibənin dövriyyəsindən, bombaların hara yağdırılmasından asılı olacaq. Harda insan tələfatı, yaralı çoxdusa, qismətinə də o kurort düşəcək. Onu kurortlara yeyib-yatmağa aparmırlar ki. Əlbəttə, cərrahların yaxşı kurortlara düşməsi, qospitala çevrilmiş beşulduz mehmanxanalarda qalması ehtimalı başqalarından çoxdur. Düşmən istər ki, vurduğu ziyan güclü olsun, kurortlar içində də ən yaxşılarını partlatsın.

Bəxt üzünə gülməz, xeyir ola, bu dəfə dodaq qaçırmağı ondan əsirgəməyib. Yenə bayaqkı söhbət: adam hüzürlərəsə vaxtında gedə bilmir. Seçib-seçməliyə düşürsən - kimin hüzürü əsasdır? Hansına tez getsin, hansına gec. Ya getməli deyilsə, hansına getməsin. Maddi imkansızlıq üzündən, qohum-əqrəbanı dərəcələrə bölür. Hüzürlərə getməməyə bəhanə kimi də keçmiş umu-küsüləri yada salırsan. Lakin budur - yas nədi, o, kurorta gedir. Nabrana-İstisuya da yox, birbaşa beynəlxalq Gürcüstan kurortlarına! Tək problem nədədir – görən, istədiyi yerə düşmək üçün dualar etsinmi? Bəlkə Allahdan Borjomidə kütləvi qırğın diləsin? Yoxsa Pitsunda yaxşıdı? Ancaq daha keçib, qoy bu, lotereya uduşu kimi bir şey olsun. Onsuz orda kurortlar bir-birindən gözəldi: birində oldunsa, o biri əldən çıxacaq, o birində oldun – bu biri.

Gör ha, bu saat işğalçılar kurortlardadı. Zalım uşağı ləzzətin dadını çıxarır, bəlkə kimisə iştahla zorlayırlar da. İşğalçı üçün zorlamalar idillik həyat atributlarındandır. Onlar onun kimi kurortda olduqlarını qocafəndi düşünmürlər də. Kurort estetikasından xəbərsizdilər. Onsuz bulaq suyundan hortuldadan kimi, avtomatik surətdə kurort stixiyasına düşmüş olurlar. İki daşın arasındaca müalicə effekti baş verir. Rusiyada hərbi təlimlər zamanı mədə-bağırsağı pozulanlar burda sağalıb gedəcək. Yanaqları pomidor kimi qızaracaq. Qayıdanda, onlara vurulan qızlar çoxalacaq. Gördünüz, müharibə gec-tez sevgilər də törədir; bunsuz olmur. Yəqin anaları əsgər balalarına yazacaq da ki, müalicəvi kurort sularından maksimum çox içsinlər. Lap qarınları şişənəcən. Qoy beş-on ilin planı birdən dolsun. Bə nə, ana məsləhətləri əsasən sağlamlığa-kurortlara dair olacaq. Bəlkə analar içində eləsi tapılar da ki, üzü çivzəli hərbçi balasını dünyanın düz vaxtı bu kurortların birində qazanıb. Bir zaman bəzi matişgələr Gürcüstan kurortlarını lotuşkalıq məkanı bilib, ərlərinin qızıl ürəyini qafqazlıların dəmir "şey"lərinə həvəslə dəyişiblər.

Ən hörmətli kurortlardan da incə eyakulyat qoxusu əskik olmaz.

Hə, üstünə bomba düşməmiş yerlər kurort olaraq qalacaq. Onsuz müharibələrdə həkimlər strateji əhəmiyyətsiz, bağ-bağatlı, bombasız yerlərdə oturdulur ki, bir iş görə bilsinlər. Yoxsa bombardman yerlərində lazaret qurmazlar ki. Üstəlik, yaralılara da kurort havası gərək, bəlkə hamıdan da çox. Bədəni dəlik-deşik olmuşlara yaşıllıqlar vacib. Bədbəxtlikləri üzündən yaralanmışların xoşbəxtliyindəndi ki, məhz Gürcüstan kurortlarında müalicə alacaqlar. Gürcüstanın türmələrində də güllər bitir. Ölkəni dibçək bürüyüb. Cərimə batalyonlarının dislokasiya yerləri - hətta oralar da istirahət guşəsinə bənzəyir. Hərdən o, leş-leşə qalaqlanan yaralılardan vaxt oğurlayıb həyətə düşəcək və onda elə düşünəcək ki, beşcə addım atıb da kurorta gəldi. Ordakı ağaclar arasında nadinc mehlər əsəcək. Bəlkə xəyalında o, gəncliyinə də burdan kurort calaq etdi. Amma evə qayıdanda, ay onu tanımayacaqlar ha; siması-rəngi açılmış olacaq. Arvad üzünə baxıb şaqqanaq çəkəcək – "Ölü gələcəkdi, diri gəldi". Doğrudan da, qorxu vardı tabutu gələr, bu, kök qayıtdı. Çataçat da onu tərəziyə cumuzduracaqlar. Əcəb utanmayasan, uşaqlarını da müharibə kurortlarına aparmağa icazə istəyəsən. Oğlu da, qızı da - bir haçadılar, bir paça. Onlardan yaxşı quşvuran düzəltmək olar. Qız xeylağının sifətində gərək bir çimdik ət ola ki, gələcəkdə onu sevələr də. Sevgi təkcə tale məsələsi deyil, onun mexanizmi mürəkkəbdir.

"Tale" boşboğazlar uydurmasıdır.

Çimərlik kostyumunu götürüb çantaya basdı: oralarda dənizə gedəcək. İndi Gürcüstanda "Makarov" qabağında belə kimisə dənizə aparmaq mümkün olmazsa da, o, atdana-atdana gedəcək. Gedib çimərlikdə tək ağac kimi dikələr, hündür

dalğalara süngü kimi sancılar. Sahildə bu başdan o başa dəli kimi tək qaçacaq. Pişik - quyruğuyla oldugu kimi, öz-özüylə futbol da oynayar. Yaxşı yadına düşdü, müharibəyə top da aparmalı. Hələlik oğlunun bir üzü qırmızı, bir üzü göy topunu götürər. Mühafizə alayının uzaqdan durbinlə baxan əsgərləri ona “əhlikef doktor” deyəcək. Daha bilməyəcəklər ki, camaat dənizə həmişə kefdən gedib, bu isə dərddən gəlib: əldən uçurulmuş gəncliyinin əyər-əskiyini düzəltməyə. Hamı kurort dənizlərinə illərcə gedib; bu isə onun ilk və bəlkə də son dəfəsidir. Dünyanın kurort çimərliklərində hamı olub – dəlisi də, keçəli də, aşqa-aşqa, ondan başqa. Dövran tərsinə fırlanır – indi də oralarda bir o olacaq, onlar yox. O, tez-tez dənizə girib boy göstərməklə, hamıya əli çatmasa da, öz başları hayında olan yerli insanlardanca hayıf alacaq. Onlar kurortlarda səfalar sürəndə, Cəfər zorakı təyinatla malyariya zonasında cəfalar çəkib. Yaşıllıqlarda onların parlaq dərisinə yarpaq şəkilləri düşəndə, bunun çatlaq dərisini “anofeles”lər bəzəyib.

Həmişə ağlamayacaq ki - qışlarda demir, yaylarda onun həyatına ləzzət qatan şeylər də olub. Nəymiş o - quyuya sallanmış qarpızlar. Bakıdakı təkmilləşmə kurslarındasa Saxalindən-Kamçatkadan gələnlər önündə nar qabığını məharətlə soyması, dənələri incə şəkildə, zədələmədən ağzına atması ilə öyünərdi. Qarpız və narlar bütöv bir ömrü aldatmağa bəs edib.

Humanizmi - sadəlövhlüyündənmiş. Təzə bir deviz: insan əzablarından bacardıqca həzz al. Onsuz həzz üçün başqa güman yeri də yox. Kurort zonasındakı müharibədə buçağacan ona heç nə verməmiş, gələcəkdə də heç nə verməyəsi insanlarla haqq-hesabı hökmən çürütməli.

Günbəgün yadına nə düşürsə, götürüb atır çantaya. Öz işini asanlaşdırır. Artıq üzqırxan, odekolon, hətta dezodorant götürüb. Arvad ona dəyişək alt paltarları qoydu. Cəfər ilk cinayət səfərinə çıxırdı. İşğalçıların tayı olacaq; onların balaca qardaşı. Bəlkə hərbi uyduranlar da əvvəl onun kimi humanist olub, sonradan valı dəyişiblər. Hərbi müdaxilələr bəşəriyyətdən dəyərli və haqlı intiqam aktıdır. Ədalət bəşəriyyətin ancaq dilindədir. Onun əməllərini ləğv etmək gərək: bəlkə onda dilindəkilər reallaşa. Əlindəkiləri zorla tut al ki, həyat onun dilindəki məcraya düşsün.

...Tez-tələsik çantadakı əşyaların altına iti bir balta itələdi. Gömrükdə deyər, ağac yonmağa aparır. Həkim olduğundan, bəlkə onu yoxlamadılar da. Ancaq hələ onu çağırmırdılar, bə niyə? Cəmi bir yol deyiblər, qurtarıb gedib. O, cinayətə tələsir, bunlarınsa vecinə deyil. Nə formal humanizmə tələsirlər, nə də bunun gələcək real cinayətləri fərz edilir.

Ürəyində özünə söz verir: xəstələrin qarnına kərpic doldurub tikəcək.
Baltadan keçdi bıçaqlara... Yox, bıçaqları qaytarıb yerinə qoydu. Ağ olar bu.

Onsuz lansetlər də bıçaqdılar. Yeri gəlmişkən, pinsetlərin ucunu itiləsən, onlar da lansetə çevrilər.
Bir vaxt ona bağışlanmış dekorativ xəncəri də götürdü -qarına soxmağa yararlıdır.

Müəllif əlavələri

Burda yazını kəsməyə məcburam.
Bu mənim elə nadir hekayələrimdəndir ki, həyat hadisələri gedə-gedə, onlar da, elə hekayə özü də qurtarmadan yazıldı. Üstəlik, görürəm ki, onda bədii bir əsər üçün nöqsan sayılası jurnalistika effekti qabarıqdır. Lakin bu həm də mənim əsərimin dəyəri sayılmalıdır. Jurnalistika effekti əslində hekayəni həyata mismarlamaq istəyimdəndi. Həyat həqiqətləri naminə bədii keyfiyyətləri jurnalistika effektinə qurban vermək məqbuldur. Sözün düzü, arada fantaziyamı boş buraxdım, nəzarəti az elədim, ədəbi obraz Osmanov Cəfər tamam qudurdu. Onun psixolojisi göz qabağındaca dəyişdi, patoloji xarakter aldı. Bax, mən də bu dəyişməni burada faş eləmiş oluram.

Nə yaxşı, prototipə şərti ad qoymuşam, yoxsa öz ədəbi obrazına görə məni məhkəmələrə sürütləyəcəkdi.
Hekayənin ortasıydı, ya axırı, ondakı hərəkətləri durdurmağım mənə can rahatlığı gətirib. Olmasın bir hekayəm. Ya onun siçanquyruğu sonluğu. Bəşəriyyətin varolumu yolunda müəllifin öz hekayəsini qurban verməsi dünyanın ən xoş hadisələrindəndi. Qəhrəmanlıqdı bu. Onsuz mən, bir müəllif olaraq, hekayə istehsalçısıyam: başqa şeylər yazaram.

Əlbəttə, öz əsərlərinə müəlliflərin nəzarəti gücləndirilməlidir. Əsərlərdə dəmir intizam vacibdir. Hekayələrdə də cinayətlər, həyatda olduğu kimi, kriminal hadisədir və onların qarşısı hökmən alınmalıdır. Bədii əsərdə cinayətlər müəllif səhlənkarlığı, hətta məsuliyyətsizliyi kimi yozular, hətta müəllif cinayətlərdə "iştirakçı" kimi də tövsif oluna bilər. Uzun sözün qısası, bədii əsər üçün bir tək fantaziya kifayət deyil.

Fantaziya başlı-başına buraxıldısa, müəllifə fatihə.

Mənim bu hekayəmin şikəstliyi müharibə mövzusuna bağlılığındandı.

Adam durub-durub havalanır: axı, niyə bəxtimə kurort görməmişi bir doktor düşməli idi. Mənim hər işim daşdan çıxır. Bu cındır yox, diribaş birisi olsaydı, dünya dağılardı? Onda süjet gəlib-gəlib də bu cür dalana dirənməzdi. Hekayəmdə gül gülü, bülbül bülbülü çağırar, harmoniklik göz oxşayardı. Görünür, bədii əsərin taleyi müəllifdən çox, ədəbi qəhrəmandan asılıdır. Yaxamı kənara çəkmirəm, bir yandan da, səhlənkarlıq özümdə oldu; ciddi səy göstərmədim. Boynuma alıram ki,

mamığam - azan-tazan həmişə gəlib hekayələrimə doluşur, hətta “naxalnı” soxulurlar. Hekayələrim həsənsoxdu dəyirmanına dönüb. Küçə prototipləri məni xam tapıb. Üz də verirsən, astar istəyirlər. Deməlҙrinə görə, xeyriyyə pansionlarına bənzətdikləri hekayələrimdə onlara xoşdur. Ancaq nə olsun, mənə ki xoş deyil. Tək adam - mən hamının möhübünü düzə bilmərəm. Haçan da baxsan, harasına baxsan, hekayələrim al-əlvan zibillikdir; bunun altını sonra bir tək özüm çəkirəm. Onlar arvadlı-kişili hekayələrimin harası gəldi, otururlar. Oxucu burnunu tutub qaçır. Sizə bir şey deyim, bu prototiplərlə heç cür bacarmaq olmur. Prototip hekayəyə soxuldusa, ölən gününü sal yada, elə orada da qal oğlu qaldır. İstəsən hekayədən çıxarasan, buynuz göstərəcək. Məcbur qalıb onu da ədəbi obraza çevirirsən. Neyləyəsən, hamı instinktiv olaraq əbədiyyət istəyir. Elə prototip də olur, söz deyirsən, şitənir, dişlərini ağardır, ya sənə dil uzadır, az qalır müəllifin təpəsinə çıxa. Hətta bəzi xanım prototiplər, ədəbi obraza çevrilmişləri belə, müəllifi seksual cinayətlərə sürükləyir. Az-çox başıma elə hadisələrdən gəlib, inan, hər dəfə də qaçıb canımı güclə qurtarmışam. Özüm öz əlimlə hekayəmi ümumxanaya döndərə bilmərəm ki. Cəmi bir dəfə bir ədəbi həyasızkanın sol məməsinə əlim toxunub, o da təsadüfən. İncəvara, ədəbi xanımlarla koitus baş versə belə, Cinayət Məcəlləsində ədəbi obrazlarla seksual cinayətlərə dair maddə yoxdur. Yəni hər hansı müəllif öz xanım obrazlarını istənilən vaxt süpürləyib altına basarsa da, ona bir şey olası deyil - sudan quru çıxacaq.

Yenə deyirəm, mən doktor obrazına görə peşmanam. İndən belə prototiplər siyahısı tutub, hərdən ona göz atacağam. Sırtıq və cinayətlərdə şübhəli bilinənlərin adlarını qırmızıyla xətləyəcəyəm. Dəli şeytan deyir, götür bu hekayəni təzədən yaz, gələcək canini hekayədən sil, at. Hekayəm də hərbi-səhra qospitalı deyil ki, doktorun orda olması vacib bilinə. Hekayəmə ədəbi obraz kimi müəllim də, dülgər, ya dəmiryolçu da seçə bilərəm. Onlar həkimlərlə müqayisədə idarəolunandılar. Həkim obrazından gördüyümü gördüm, çəkdiyimi çəkdim.
Burda cəncəl bir iş hələ qalır: axı, Cəfər planlarını qurub, deyirəm, bəlkə şərait yaradaq, qoy o, cinayətlərini həyatdansa, hekayədəcə törətsin. Hərçənd bunu da ürəkdən istəmirəm. Həyatda baş verəsi cinayətlər hekayəyə sıxışdırılıb, orda uğurla yerləşdirilərsə, artıq neytrallaşdırılmış sayılar. Hekayədə istənilən yara, sınıq, şok qorxusuzdur və orda qan yalnız təsvirdən ibarət olar. Həyatdasa qan doğru-doğruya şoruldayar, küçəni-səkini, ya qospitalda çarpayıları, palata döşəmələrini həlməşik-qırmızıya boyayar. Taxtalar arasındakı laxtaları sonra təmizləyə bilərsən? Hekayədə cinayət olsa-olsa detektiv çalar doğurar, əksinə, bu da müəllifə ictimai marağı artırar. Həyatda bir, bədii əsərdəsə başqa cür – mən Cəfərin cılfırlığını iş əsnasında tutdum. Kəşf etdim də ki, başının bir-iki vinti çatmır. Çatsaydı, bir hekayədəcə bu cür transformasiyalara uğramaz, bir kurort küskünlüyünə görə bəşəriyyəti bada verməyə amadə durmazdı.

Boyunu yerə soxum, ay belə ədəbi obraz!

Bəxtim əvvəldən gətirməyib: haçan şəkər əkmişəm, duz bitib. Can demişəm, çor eşitmişəm. Mən adam bilib onu müsbət ədəbi obrazlar sırasına qatmaq istədim, o, şadlığına şitlik elədi. Eşşəyə deyərsən qanacaq göstər, ağnayar. Gərək bir gün onu yaratdığıma görə insanlıq qarşısında üzr istəyəm. Bu üzr - planımdadır.

Onsuz hələlik yazını kəsməklə hekayədə də gözlənilən cinayətlərin qabağını almışam. Cəfər Osmanovun hekayədə də cinayət törətməsinə, gələcək nəsillərin bunları təkrar-təkrar oxumasına bir hacət görmürəm.

Cinayətlər ədəbiyyatdan-sənətdən kənarlaşdırılmalı, bütün radioaktiv xassəli şeylər qapadılmalıdır. Həyatda azmış kimi qoy hekayədəsə cinayətlər müharibədəkilərə əlavə olunmasın. Qoy onun cinyətləri virtual məkanda baş tutsun; ora genişdir. Gözə soxmuram, onun virtuallığa qısnanması mənim hünərim, bəşəriyyət qarşısında xidmətimdir.

Ədəbi qəhrəmanlarımdan bir kəs ziyan görməz, inşallah.
Bəlkə qıçımızı qıçımızın üstə aşırıb, Gürcüstanın kurort zonalarından müharibə xəbərlərini, bəlkə onların arasında Cəfər Osmanovun hekayədən kənar, müharibəyə uyğun ətürpədən cinayətlərini də gözləyək, izləyək. Amma qabaqlar oralardan gələn xəbərlər dünya standartlarına uyğun müalicə-istirahət yenilikləri olardı.

Avqust - 12 sentyabr, 2008

## "GƏNC QRAF KENTERBERİYSKİ"

Drezden Rəsm qalereyasının Bakıdakı daimi ekspozisiyası estetik effektlə yanaşı, cinayətlərə də səbəb olurdu. İncəsənət muzeyində qətllər ard-arda düzülüb. Qətllərin bu ekspozisiya ilə bağlılığı şübhəsizdi.

Çünki başqa muzeylərdə sülh az qalır adamın gözünə girə, qulağını deşə. Muzeydə bir qətl də ekstremal hadisə sayılardısa, burada artıq üçü baş verib. "3" muzey miqyasında çox böyük rəqəmdi. Bura Olster məhəlləsi deyil ki.

Qətl sarıdan muzeydə "3"dən böyük rəqəmi təsəvvür etmək çətindi. Hər sonrakı

qətl şok effektini qat-qat artırırdı.

Müəmmalar get-gedə çoxalırdı. Labirintdə də azdınsa, ordan çıxmaq müşkülə dönür. Birdən qəzetləri oxumaz deyə, bu barədə prezident də ayrıca məlumatlandırılmışdı. Kiçik dövlətdə bu vacibdi. Kiçik dövlət kənd kimidir; orada hamı hər şeyi bilməlidir. Üstəlik də, muzey prezidentin burnunun ucunda, onun sarayının beş addımlığında.

Fikir verməyib, muzeydəki qətl səsləri bəlkə qapı-pəncərələrini silkələyirmiş də. Prezident sarayının təhlükəsizlik tədbirləri elektronikayla gücləndirilmişdi. Quş quşluğuyla o əraziyə keçə bilməzdi. Nə qədər hündürdən uça, altdan vurub qanadlarını sındırardılar. Hər bir quş özlüyündə prezidentin həyatına təhlükə idi. Hətta sərçələr də.

Hər qətldən sonra ümid yaranırdı ki, inşallah, bəlkə də bununla ölüm-itim qurtardı. Hər qətl axırıncı güman edilirdi. Hərçənd ölənlərin təsadüfiliyi xof törədirdi. Belə çıxırdı da ki, muzeyə gələn istənilən adam fələyin badına gedə bilər. Bu qətllərin üstü açılana oxşamırdı. Kriminalistikada sirri-xudalıq biabırçılıqdı.

Soruşan gərək, muzeydə xidmətçi qadın niyə öldürülməlidir? Təmizliyə baxdığına görəmi? Onsuz onun üçün ən qiymətli rəsm də heç bir əhəmiyyət kəsb etmirdi. O, bir milyon dollarlıq rəsm əsərini asanlıqla çardağa tullayar da. Onun ölümü kimə gərək olub? Bəlkə də çaşaraq işini bitiriblər. Nağdı, onu kiminləsə qarışıq salıblar.

Düzdü, dünyanın hər hansı muzeyində səlahiyyətli adamın qətli gözləniləndi. Burda azman bir məntiq də var: qüdrətli rəsm əsərlərinin oğurlanması yalnız səlahiyyətli şəxslərin istək və iştirakı, onların katalizatorluğu ilə başa varır.

Di gəl, Bakı İncəsənət muzeyində rəhbərlik cağbacağ yerində durur. Hamının başı sağ, canı salamatdı. Bircəciyinin burnu da qanamayıb. Başlarından bir tük əskik deyil. Muzey direktoru qoz kimi, onun katibəsi fındıq kimi gəzir.

Amma gəl əyri oturub, düz danışaq, bu iş təsadüf olmaya da bilərdi. Əslində bu serial ölümlərin də öz məntiqi var. Sadəcə, həmin məntiq görünmür, əllə tutulmur. Bu təsadüf hökmən zərurətdən doğmuşdu. Fərziyyə dialektika qanunlarına uyğun qurularsa, cinayət daha tez və asan tapılar. Sonrakı qətllər bu əvvəlki ilə qətiyyən uyuşmurdu. Aralarında yüngül oxşarlıq ola, yenə dərd yarıdır. İkinci qurban tamaşaçı idi.

Özü də kim-kim - məsum bir qız, tələbə. Muzeydə tamaşaçının öldürülməsi dünyanın ən absurd işlərindən biridir. Rəsmin başındakı qovğaların tamaşaçıya nə dəxli var? Qızın atası cilov gəmirirdi.

Qabaqcadan deyirəm, deyir, qatil tapılmasa, burda daşı daş üstə qoymayacaq, hamını qırıb-çatacağam. İlk növbədə direktorun mitilini yerə sərəcəyinə söz verib. Müavinlər kəlmeyi-şəhadətlərini indidən oxusunlar. Onu başa salmaq olmur da ki, qatili tapmaq halva məsələ deyil, özü də bu, hüquq-mühafizə orqanlarının işidir. Qətldə sirr açılmırsa, deyir, deməli, onu açmağa qoymayanlar var.

Muzey direktoru niyə də göz bəbəyi kimi qorunmalıdır? Muzeyindəki rəsmlərin qiyməti ala buluddadırsa da, öz dərisi beş qəpiyə dəyməz. Hə, direktor qəbuluna gələn hər kəsi artıq potensial qatil sayır. Bu sarıdan doğmaca arvadı da istisna deyil. Ən çox şübhələndiyi də əslində elə odur. Evdəki hər mübahisədən sonra işdə onu öz qəbulunda gözləyir.

Əlində də tapança. Gələr və babax, təpəsinə bir güllə. İncəvara, hələlik gəlmirdi. Direktor son macal evdəki dığdığlara özü son qoyub. Bir növ, muzeydəki qətllər evdə sakitliyə, əmin-amanlığa səbəb olub. Cangüdənini katibəsinin yanında oturdur və cangüdən elə katibəni də, onun hesabına qoruyur. Cangüdənsə yerdə bir tək özünün, göydəsə, ola bilsin, bir Allahın hesabına sağ və salamatdır.

Qətlə yetirilən üçüncü şəxs muzeyin elmi işçisidir. Əlbəttə, bu ölümdə ziqiymət rəsmlərlə bağlılıq aramaq mümkündü və lazımdı. Özü də təpəsində saçı bir topa pambıq kimi ağarmış bu kişinin işi-peşəsi dəmşəkcəsinə özünü həmişəcavan sayması idi. Guya cavan olub kərəni kürə edəcək, ya alçaq dağları o yaradacaqdı. Yoxsa gözəl-göyçək arvadları, happ eləyib, diri-diri udacaq?

Ay inanan daşa dönsün. "İnsanda əsas ürək cavan olsun", - həmişə deyərdi. "Ürək cavan, başqa yerlər qoca?" - gülə-gülə ondan soruşardılar. "Ürək cavandısa, qalan yerlərdən qocalığı çıx!" - irişə-irişə onun da cavabı bu. Budur, indi həmin "həmişəcavan" bu dünyada yoxdu.

Onu sanki pişik aparmışdı. İş yoldaşlarından ailəsinə quru təsəllilər balalarının əlini çörəyə çatdırması idi. Guya balaların əli çörəyə çatdısa, artıq ölüb gedə də bilərsən. İlk növbədə onun qonum-qonşularından şübhələnmişdilər. Bəlkə onun yüksəlişinə paxıllıqları tutub? Prezident sarayı həndəvərində muzey direktorluğu ölkədə cəmi bir şəxsə qismət ola bilər. O da odur.

Hərçənd bu versiya düzgün qurulmamışdı. Yaxşı, tutalım, onu qonşuları öldürdü, bə əvvəlkiləri kim öldürüb? Bəlkə dədəmin dərdi öldürüb onları? Son versiyada qəti fantaziya yoxdu və hiss olunurdu ki, küt başlardan şədd eləyib. Axı, qonşuların muzey işindən nə başı çıxacaq?

Aralarında sorğu keçirsən, bəlkə "incəsənət" sözünün mənasını dəqiq bilməzlər də.

Muzey onlar üçün qapalı-məchul bir dünyadır. Həm də cansız və darıxdırıcı, lüzumsuz bir yer. Məəttəl qalmalı işdi, muzeyə niyə gedirlər? Hansı tələbatla? Həm də qonşuları gəlib onun kabinetini yüz adamdan soruşub tapardılar.

Təkcə xadimənin adamları işin gedişiylə maraqlanmır, fəal müdaxiləni yersiz sayırdılar. Hara gəldi burun soxmaq yaramaz! Onunku buracanmış, deyir, qətlin günahını alın yazısının üstünə yıxırdılar. Alın yazısı tənbəl və məsuliyyətsiz adamların özünü təmizə çıxarmaq vasitəsidir. Açığı, onlar ölümlə barışmışdılar. Onsuz həyatda qalıb neyləyəcəkdi? Gic-gic yaşayırdı özü üçün.

Yaşamaqda nə məna var ki? Bəlkə onun ölümü kiməsə də lazım olub? Bu ölümlə dünyada bircə nəfərin işi düzəlibsə, buna da şükür. Həyatıyla bir kəsə yaxşılıq edə bilmirdisə, mağıl onu ölümüylə etdi. Ölümüyləcə kimisə irəli atdı. Bunu hətta şəhidlik kimi dəyərləndirmək də olar.

Qohumlar hər şeydə dövlətə arxayındılar. Vətəndaşın canı da dövlətindi, qanı da, hələ istəsən meyiti də. Qətlin araşdırılması dövlətin səlahiyyətindədir. Özfəaliyyət nəyə gərək? Ancaq maraqlıdır, qanunlar bu cinayətlərin yozumuna kifayət edəcəkdimi? Qatillər tapılarsa, istintaqçılarımızın fəaliyyəti beynəlxalq standartlara uyğun görsənəcək.

Tələbə qızın ailəsindəsə hələ də ovunmaq söhbəti yoxdu. Yas hədsiz təntənəli keçir, qəlbləri coşdurur, bu da dövlət əleyhinə işləmiş olurdu. Tabutu qırmızı örtüklü bu yas istintaqa əməllicə maneçilik törədirdi.

Valideynlər, həmçinin qohumlar müstəntiqlərlə olduqca sərt rəftar edir, qatillərə nifrətlərini onların üstünə tökürdülər. Arıqlarına - "ayaq üstə ölür", - deyirdilər, köklərinəsə - "yeyib şişib". "Kimdən şübhələnirsiniz?" - it uşağının sualına bax. "Sizdən!" Onlar qızın nişanlısını qaralamışdılar. Kriminalistikanın qanunlarını mexaniki surətdə ona tətbiq edirdilər.

Cinayətin axtarışını ən yaxın adamdan başlamalı. Narkoman deyildi? Qısqancdımı o? Görün, muzeydə qızı kimə qısqanarmışlar? Tablolaramı? Bəlkə o, "Gənc qraf Kenterberiyski" rəsminə çox baxıb?

Qrafda gözü olub? Bu fərziyyədə həqiqətə nisbi yaxınlıq vardı. Zərbə qızın boynundan (sol və yan səth) kəsici alətlə vurulub. Ancaq o gün və ondan əvvəl, ümumiyyətcə, muzeydə heç vaxt olmamış bir adam Drezden zalında qətli necə yerinə yetirə bilərdi? Eksponatlara nəzarət birəbeş artırılmışdı.

Üç qətlin üçü də ikicə rəsmin qarşı-qarşıya asıldığı xudmani bir zalda baş vermişdi. Suallar çoxdu. Əvvəla, bir zalda niyə cəmi iki eksponat olsun? Onları asanca

aradan çıxarmaq, başlarını tez əkmək üçünmü? İkinci də, yoxsa zalda neofaşistlər gizlənib? II Dünya müharibəsində qənimət götürülmüş tabloları elə həmin müharibənin köhnəlmiş metodlarıyla geri qaytarmaq istəyirlər?

Mədəniyyət naziri şokdan təzə-təzə çıxırdı. Axı, qatil kim olsun? Gecə-gündüz baş sındırır, bir nəticəyə gəlib çıxa bilmir, get-gedə də dərddən arıqlayırdı. Karyerası təhlükədəydi. O, muzeyin direktoruna telefondaca qəzəblə əmr verdi: Drezden ekspozisiyasındakı, o cümlədən həmin kiçik zaldakı, rəsmlərin adbaad siyahısı ona göndərilsin! Baş üstə. Siyahını ondan da dövlət başçısı tələb edib.

Göz üstə. Gör ha, hamı istintaq işinə qurşanıb. Prezident də müstəntiqə çevrilib. Yaxşı, siyahıyla yara sağalacaqmı? Vay-vay, aylar becid ötür, ortadasa hələ heç bir şey yox. Caninin tapılması şansı get-gedə sıfıra enirdi. Düzdü, beş-altı adamı şübhəli şəxs qismində "Bayıl"a basmışdılar. Lakin ictimaiyyət bu işi aparanlara gülürdü. Açığı, bu gülüşdən prezidentə də pay düşür.

Günahsızları hədə-qorxu gücünə caniyə "döndərmək" insandan elə də böyük ağıl tələb etmir. Canilərin tapılmasına ayrılan vaxt işin mahiyyətiylə tutuşmurdu. İş çox, vaxt az. Proses tələm-tələsik qapadılarsa, ehtimal olunan təzə qətldən sonra müstəntiqin pişiyini ağaca dırmaşdırmazdılarmı? Dədəsini belinə sarıyar, onu ayaqlarından asardılar. Lakin onların özünə də əsl qatili tapmaq hava-su kimi vacibdi.

Bu, peşə hazırlığı baxımından da yaxşı bir təcrübə olardı. Kim bilir, bəlkə elə bu, erməni-daşnak terrorudur? Bunu terror adı ilə işıqlandırmaq üçün prezidentdən izn istəyənlər də oldu. Yaxşı fürsətdi. Ermənilərin boynuna nə qədər günah yıxsan, bir o qədər yaxşıdır. İncəsənət muzeyindəki qətllər informasiya müharibəsində əməllicə rol oynayardı.

Açılmamış bütün cinayətləri terror adıyla qapamaq da olar. Cinayətlər bu yolla "açılmış" sayılar. İctimaiyyət sakitləşər. Burda yeganə məqsəd cəmiyyətə bihuşdarı içirdib yatırtmaqdı. Kütlə dişlərini qıcayanda, adamın canına vəhşət oturur. Prezident az-maz müdrik olduğundan, "Tələsməyin, hələ ona baxarıq, - dedi. - İş açılmasa, hə, elə şeyə gedərik".

"İş açılmasa", - sözə bax! Sən demə, iş açılmaya da bilər. Ali kürsü sahibi də belə şeyi xəyalına və dilinə gətirirsə, müstəntiqə nə gəlib? Kefdi, heç də özünü həlak etməyə dəyməz. Ancaq prezidenti dərd içdən yeyir, qeyrət onu boğurdu. Prezidentdə qeyrət maraqlı faktdı. Axı, onun ölkəsində, pəncərəsindən qapısı görsənən muzeydə at oynadan kim ola? Hansı lotudu o? Qatil lotudusa da, prezidentin ehtimalına görə, mədəni bir insandı da. İncəsənətə yaxındır. Qətlləri sənət naminə, sənət əsəri uğrunda törədib. Bank yarmayıb ki?

Ən azı sənəti dəyərləndirmək qabiliyyətinə görə hələlik sağ olsun. Başqa sahədə bəlkə də ən islah adamdı. Onun məqsəd və məramı başadüşüləndi. Hər halda, "zülmət" insanlardan deyil.

Cani ilk növbədə Mədəniyyət Nazirliyi çərçivəsində axtarılmalıdır. Prezidentin son qərarı bu oldu. Deyən, dairə daralır, qapanırdı. İlğım yaxınlıqdaydı. Ancaq kaş nazirin bu işdə öz əli olmaya, prezident fikirləşirdi. Çünki o, hörmətini tutduğu, içindən SSRİ xalq artistləri çıxan bir nəsildəndi. Ona cəza verdirmək doğrudan-doğruya qəbahət olardı.

Yox, kim nə deyir desin, prezident insan adamdı. Ancaq mədəniyyət sahəsi də tək bir nazirdən ibarət deyil, axı. Bu strukturda nazirdən aşağı min cür vəzifə var. Həmin böyük vəzifə sahibləri dərhal göz altına alındılar. Hamısını bükəcəklər! Ot kimi biçəcəklər. Onlar bu əməlləriylə heç kimə də yox, prezidentin özünə sataşıblar. Özü də bərk.

Hə, ilkin araşdırmalar nə göstərir? Zalda iki rəsmdən biri "Gülən zəmi" adlanır, digərisə - "Gənc qraf Kenterberiyski". Müəllif hər ikisində naməlumdu. Güman, hər iki naməlum - elə bir rəssamdı. Bu, dərhal nəzərə çarpan talantın gücündən də bəlli olurdu. Zalda diqqəti daha çox cəlb edən cəhət üç qətlin üçünün də gənc qrafın portreti altında baş verməsi idi.

Bəlkə də dünya boslarından kimsə məhz həmin portretin oğurlanmasını sifariş verib. İşə bax, qətllərlə bağlı ancaq oğurluq yada düşür. Burda qətlin başqa motivləri yaramırdı. Məntiq nə söyləyir: kimsə rəsmi güdür və ona yaxınlaşan istənilən adamı oğru zənn edib, çataçat qətlə yetirir. Bu tablo ancaq onun öz sifarişçisinə çatmalıdır, di vəssalam. Qətllər mexaniki surətdə, robotcasına icra olunurdu.

Nədənsə, rəsmin oğurlanması məqamı da heç cür gəlib çatmırdı. Əksinə, qətllər həmin məqamı uzaqlaşdırırdı.

Oğurluğun taktikası bərbad qurulmuşdu. Tərtibdə zırramalıq vardı. Mahir saydığımız oğru əslində naşı, hətta naşı da yox, gicbəsər imiş. Bu qətllərdən sonra da bir iş görmək, ordan əsər çıxarmaq mümkün olardımı?

Muzey istintaqa bağlanmışdı. Rəsmlərin taleyi II Dünya müharibəsinin davamı kimi görsənirdi. Qətllər sanki alman ruhundan doğulmuşdu. İngilis familiyalı bu şüvərək gənc qraf xaraktercə göygöz bir prussiyalı idi.

Üzündən intiqam yağırdı. XVIII əsrdə yapılmış bu insanın Hitler zamanında faşist

olduğu şəksizdi. XVIII əsrdə (lap XVI- XVII olsun) yaşayıbsa da, ruhən artıq faşistə çevrilmişdi. Lazım gəlsə, xalqın taleyi ilə bağlı terrorçu da olar. Ya bəlkə haçansa olub da. Bakının İncəsənət muzeyində qənimət kimi saxlanmasına - Drezdendən qız kimi qaçırılmasına dözmürdü. Təhqirdi bu! Qrafın gözlərindəki bu təhqir nişanələri II Dünya müharibəsindən sonra ortaya çıxmışdı.

Bu nadir eksponatda çöhrə zamanla bağlı dəyişilirdi. Belə bir rəsm əsəri heç vaxt heç yerdə görünməyib. Qraf bu bir neçə əsrdə dipdiri qalmışdı. Realist adamlar "eh" deyib, əllərini yellədir, "Nə qədər diri görsənərsə də, rəsmdə insan dirilə bilməz", - deyirdilər.

Qraf Kenterberiyski qorxunc bir məxluqa çevrilmişdi. Almaniyada iki əsr boyu bu əsər haqqında saysız-hesabsız məqalələr dərc olunub. Mübahisə və müzakirələr indi də gedir. Əsər Bakıdadırsa da. "Gənc qraf Kenterberiyski" Azərbaycanın halal malıdırsa da.

Getdikcə canlanan qraf haçansa bir vətəndaş kimi cəmiyyət içinə çıxmaq da istəyəcək. Bu barədə hələ XX əsrin 60-cı illərində yazmışdılar. Onda həmin sənətşünasları dəli hesab eləyib, "psixuşka"lara basdılar. Əvəzində Azərbaycana turist axını gücləndi. Azərbaycan bundan xeyli fayda götürdü. Almaniya həmin rəsm əsərinin geri alınması üçün SSRİ-yə dəfələrlə müraciət edibmiş. Qəti "yox" cavabı alıblar. Yəqin indi üsul və metodları dəyişilib.

Qraf Kenterberiyski Bakı İncəsənət muzeyində dustaq idi.

Təsvirdəki obrazı diri olan bu nadir eksponatın qiyməti ildırım sürətiylə artırdı. Beynəlxalq dəllallar qaraqışqırıq salmışdılar. Bəlkə elə qətllərdə məqsəd də rəsmin qiymətini göylərə qaldırmaqdı. Burada qətlə yetirilənin kimliyi əhəmiyyət kəsb etmir.

Əli, Vəli, ya Pirvəli olsun. Ölənlərin bir pişik qədər də dəyəri yoxdu. Qraf Kenterberiyski tarixi bir şəxsiyyət idi. Almaniyada onun həyatını tarixçilər öyrənirdilər. Bioqrafiyasının əsas nöqtələri artıq çoxdan bəllidir.

Onun nəsil şəcərəsinin bir ucu İngiltərəyə gedib çıxırdı. Həm də bu şəcərədə elə adamlar peyda olmuşdu ki, heç bir hüquqi əsas olmadan - II Dünya müharibəsinin faktiki nəticələri nəzərə alınmadan, rəsmə sahib çıxmaq istəyirdilər. Onu satın almaqdan tutmuş, digər bütün kriminal üsullara əl atırdılar. Amma budu- ey, alarsınız!

Qətlin üçü də məhz bu rəsmin altında baş vermişdi. Bu fakt hamının diqqətini özünə çəkirdi. Əhvalat ancaq qraf Kenterberiyskinin başında vaqe olurdu. Dövlət

mühafizəsinə əlavə kimi rəsmi əlahiddə qoruyanlar onun gələcək oğrularıdır.

Hələlik muzeydə gizlin məskunlaşıblar. Həm də belə görsənirdi ki, bu qətlləri törədən adamdan savayı rəsmi heç kopoyoğlu oğurlaya bilməz. Gənc qraf kimi artıq qatil də müdhiş bir insan idi. Elə-belə qatillər nə çox.

Onlar müdhiş yox, bəzən hətta sevimli olur. Hə, bütün dünya ondan danışır. Min cür versiya irəli sürülürdü. Axı, o, muzeyin harasında gizlənmiş olar? Siçan deşiyi olsaydı, az qala oranı da axtaracaqdılar. Azərbaycanın hüquq-mühafizə işçilərinin də nüfuzu günbəgün aşağı düşməkdə. Xalq onların maaşını kəsməyi tələb edirdi. Xalqınkı da maaşdı; bir şey oldumu - cəza kimi ona əl atır.

Deməli, hər üç qətl kəsici alətlə törədilib. Gülllədən istifadə olunmayıb. Hər dəfə rəsmin altında qan gölü görürdülərsə də, orada adicə bir qəmə də tapmırdılar. Zaldakı yeganə kəsici alət isə qrafın sağ əlindəki qılıncdı.

İntəhası, bu qılınc rəsmdəydi; cinayət faktı kimi yararsızdı. Onu maddi sübut saymaq sərsəmlik olardı. Qılınc tamaşaçının üzü bərabərində olan çəkmələrin yanındaca parıldayırdı. Qılıncın surəti par-par yanan çəkmələrə düşürdü. Qrafın qapqara çəkmələri hər şeyi güzgü kimi əks etdiyindən, ona baxıb saç daramaq da mümkündü.

Cürbəcür komissiyalar hər gün zala baxış keçirirdilər. Biri gedir, biri gəlir. Ayaq altda itmişdilər. Naməlum rəssamın çəkdiyi "Gənc qraf Kenterberiyski" rəsminin qiyməti kəllə-çarxa qalxmışdı. Onun satışından gələsi gəlir oğrunun və sifarişçinin yeddi arxadan dönəninə bəsdi. Əcəb bu mahir oğrunun sir-sifətini görmək ola. Əclaf gör necə plan qurub: əvvəl qiyməti artırmaq, sonra rəsmi oğurlamaq.

Müstəntiqlərdən biri portretdə təsvir olunan qrafın fiziki ölçülərini də protokola salmaq qərarına gəldi. Məsələn, boy-buxununu, burun-qulaqlarının uzunluğunu. Ehtiyat igidin yaraşığıdır, məhkəmədə hakim bu ölçüləri ondan soruşa bilərdi.

Onsuz lüzumsuz sayılası bu detallara görə niyə də danlaq yeyəsən! Amma görün, bürokratik yolla da cinayətlərin üstü açılar? Onu Drezden qalereyası zalına buraxdılar. Beşcə dəqiqə keçməmiş oradan ətürpədici qışqırtılar eşidildi.

Muzey işçiləri dörd bir yandan zala axışdı. Yerdə çabalayan müstəntiqin boynundan ətrafa qan fəvvarələri yüksəlir, tavan və divarlarda sürrealistlik xətlər cızılırdı. Ona yaxınlaşanın üz-gözü, pal-paltarı qana bələnirdi. Göydən yerə qan damcılayırdı.

"Vuran kimdi? - gələn-gələn də əyilib müstəntiqi istintaqa çəkir. - Tez de! Kimdi

o?" Bu saat informasiya müstəntiqin həyatından qiymətli idi. Müstəntiq onsuz da ölür, onun xilası indilikdə ancaq formal olaraq, nəzəri cəhətcə mümkündü.

- Qraf özü... Şpaqasıyla... - axır bu sözləri onun dilindən sanki kəlbətinlə qopardılar.
- Bu nə danışır?
- O danışmır, sayıqlayır.
Gənc qraf Kenterberiyski özünü təmizə çıxarmaq niyyətində deyildi.

16 yanvar - 29 oktyabr 2003-cü il

## “UCABOY LİLİPUT"

Xanbala alçaqca evinə "imarət" deyir. İki mərtəbənin ikisində də başı tavana dəyər. Bir dəfə hətta qəfildən ayağa duran arvadağanın başına yuxarıdan mismar batıbmış. Deyir, «imarət» onlara Rusyət yadigarıdır, ona bağ-bağatlı Ulyanovskini, bir vaxt orda ləzzətlə əllərini sıxdığı göygöz qızı xatırladır. Amma qar çox olan yerdə göz göy olurmuş. Hərdən də - "Cəmi bir sezon getdiyim alverdə Rusyətə bir imarət qədər ziyan vurmuşam", - deyir.

Düzdü, bu "ziyanxahlıq"da əsas "günah" atasınındı. Onda rəhmətlik onun indiki yaşında olub; həyatda da əzələ gücünə irəliləyirmiş. "Baş mənə çox da gərək olmur", "Azərbaycanda əzələ başdan faydalıdır", - indi deməsin, sən canın, onun dilə gətirdiyi sözlərə bax. Hə, güllə atmamaq şərti ilə, döyülməli insanları pota balası kimi döyüb, təpiklənməliləri -təpikləyib. Ömrü boyu da burdan ora, ordan bura ağır-ağır yüklər daşımışdı.

Hamı "daşınar" əmlakını ona daşıtdırar və əlbəttə, bunun iki-üç metr donluq parça,

ya mizüstü "kleyonka" hədiyyəsi oturduğu yerdəcə arvadına çatardı. Köçən qızların mebel-"stenka"larını maşınlara yükləmək də onun öhdəsindəydi. Bir sözlə, dünya üzündəki səliqə-sahmanda onun əməyi danılmazdı. Xanbala da seçdiyi fəhləliyi atasını yamsılamasına yozur, özünün ona sevgisi sayırdı. Hə, sözə bax, guya bir vaxt çalıb-çapıb gətirməsəymişlər, bu "imarət" Ulyanovskidə tikiləcəkmiş. İndi oralarda evi olmayan hər hansı bir nəfərin babalı bir tək onun boynunda qalıb (kişi tezkən ölüb aradan çıxmışdı). Hərdən də elə bilir "imarət"i məhz həmin göygöz qızdan oğurlamışdılar.

Gündüzü evdə olmaq, həyət-bacada görsənmək deyirdin Xanbalaya yasaqdı. Boraşımdı, xırda-para ev ustalıqlarıdı - bunları arvad edər, hər gün də ora-bura beş-on mismar vurardı. Beş-on mismar bu evin gündəlik norması idi. Kişi əllərinə oxşar əlləri ayda-ildə bir ərinin əllərinə toxunanda da ətrafa sanki mis səsi yayılardı.

Özünün, ya bəlkə ustanın da bacarmayacağı işləri şam vaxtı arvad onun yadına salır. Ancaq gərəkdi bunu bir il-il yarım sərasər deyə, hey deyə. Ənginin müçüyü çıxanacan. Quyularının dolmasını bir ildən çox qulaqlarına doldurmuşdu. Deyir, qulaqları dolmasaymış, quyuları eləcə dolu qalacaqmış.

Gün çıxanda günbatana gedir, gün batanda günçıxana qayıdır: evdən işə, işdən-evə. Yəni həmişə - dalı Günəşə; sanki Günəşdən gizlin, məxfi işlərlə məşğuldu. Gündüzü evdə tapmayanlar ona "gecəquşu" təxəllüsü verib. Hərçənd onu axtaranlar elə də çox deyil: ildə bir-iki nəfər ola, ya olmaya. Dəmiryolçudur. Di yaxşı, kimdə şəxsi dəmir yolu var ki - xarab ola da və onu təmirə çağıralar. Dəmir yolu mütəxəssisini kəndistan yerində kimdi itirib-axtaran.

"Zəhmətkeş uşaqdır", - amma onun haqqında xoş sözləri bir-iki dəfə öz qulağım

çalıb.
"Biz guya müftəxoruq".
"Səndən söhbət getmir. Ancaq hər adama da zəhmətkeş demirlər axı".
Zəhmətkeş yox, onda barı əməkçi de. Qəzetlərdə zəhmətkeş çoxdan əməkçi kimi gedir.
"Hamı onun kimi olsaydı, kommunizm çoxdan qurulmuşdu".

Hə, onun iş yeri ölkənin harası ola - relslərin arası... Stansiyadan "proyezd"əcən - dəhliz kimi uzun bir “kabinet”. Şpallar kabinet döşəmələrindəki parketi xatırladır. Hərdən dincini almaq üçün rels üstündə oturar. Rels də nə - bumbuz; sanki indicə buzxanadan çıxarılıb. Evini yıxan radikuliti də ondandı. Bu radikulit nokauta salırmış kimi hərdən onu tirşap yerə uzadır. Şalvarının dalında relslərdən qalma qaramtıl çarpaz xətlər görərsən. O yeriyəndə xətlər oynaqlaşır, kəsişib-ayrılırlar. Deyir, camaşırxana timsallı evində saf hava ceyran belinə minib; dəmir yolundasa dağ başındakı kimi havanın ən təmizi olur.

Küləklər burda maneəsiz əsir. Külək dolan ciyəri Xanbala yelkənə bənzədir. Küləklə şişən ciyərlərlə stratosferə də yüksəlmək mümkündü. Hə, Xanbala da bu cür-bu sayaq təşbehlər ölüsüdür. Bir vaxt sarımsaq tayları üstündə düz Həştərxanacan getdiyi maşının brezentli kuzovunu cəhənnəmə bənzətmişdi. Hələ indi də yadına düşəndə sarımsaq iysi beyninə qıyıq kimi sancılır. O, ağ göyərçinə elə belə "göyərçin" yox, "başımıza zıllayan sülh göyərçini" deyir. Gülə-gülə də, bir-iki qarış hündür olmasaymış, deyir, cırtdana oxşayacaqmış. Əsas da liliputa. O özlüyündə özünə "ucaboy liliput" adı qoyub. Bunu hələ bir kəs bilmir də. Onsuz kəndçiləri bir az kütdülər - bu cür bənzətmə yatıb yuxularına da girməz. Onun bənzətmələri çox lirikdilər. Lirikaya qapılmayanları "ikiayaqlı" adlandırır. Onsuz da anadangəlmə iki ayaqlı olan hər kəs bunu üstünə "eşşək" kimi götürür. Guya eşşək onlardan belə naqisdir? İnsafən, Xanbala eşşəyin təəssübünü hər yerdə və

həmişə çəkib. Döyülərsə - onun tərəfindədir. Vallah, eşşəklər öz iç dünyalarında lirikdilər.

Lirik şairlərdən də heç nə ilə fərqlənməzlər. Axtarsan, lirika onlarda daha dərin və daha səmimidir. İntəhası, eşşək lirikanı içəri vurur və çanaqda sirkə kimi orda saxlayır. Allah-taalanın işlərinə qarışmaq dürüst deyil, ancaq hərdən sözgəlişi soruşmaq istəyirsən, İlahi, axı, bu lirika eşşək qəlbində nələrə səbəb olur! Hansı təbəddülatlara? Əlbəttə, ağlamağa dəlalət edən hıçqırtıları, anqırarkən də səsindəki tenor çalarları, ola bilsin, ondandı.

Xanbala üçün dəmir yolunun o biri üzü bambaşqa bir dünya idi. İdarələr orda daş-qaş kimi bərq vururdular. Hə, yer altında kanalizasiyalarıyla qohum olan idarələrin qom toplaşdığı yerə "rayon mərkəzi" deyilir. Dəmir yolunun bu üzündə - əhali, o üzündə - rəhbərlərdi. Burda, məsələn, kartof-soğan, orda - möhür-ştamp...

İncidənlər o tayda, incidilənlər - bu. Əcəb atan əkə, anan doğa - dünyada həbəçidən savayı bir kəs səndən xəbər tutmaya. Arvad da alasan - dünyadan gizlin... Sakitcə gətirib basırsan altına, zəhmətsiz-filansız başlayır uşaqların olmağa. Allaha qurban olum, mat qalmalı işdi: sən gecələri özün üçün kef çəkirsən, bay, bir də görürsən bəbələr dal-dala düzüldü. Ya da əcəb sənin varlığından dəmir yolunun yalnız bu üzündə xəbər tutalar. Bu üzdə toy-yas, orda nigah-ölüm kağızları... Burda kişi sözü, orda - etibarnamə. Təbii şeylər burda, sünilər orda. Yəni təbiət burda, onun əksi orda...

Xanbala rels üstündə həmişə üzü kənd səmtinə oturar; istər-istəməz arxası "rayon"a düşər. O kimlərə-nələrəsə nifrətini də həmişə dal çevirməklə bildirir. Dal çevirmək, deyir, acıq verməyin qədim, həm də heç vaxt köhnəlməyən, sınanılmış dədə-baba üsuludur. Qaldı mənə - rels üstündə üzü ona oturarkən, arxam kəndə

düşər.

Lakin bu mənim kəndə hörmətsizliyim sayılmaz. Rayon mərkəzinin surəti gözlərimdə xoşagəlməz parıltılara səbəb olur. Yalnız onun gözlərinə görsənən bu parıltıdan Xanbala bəzən üşənir, bəzən qanı cuşa gəlir, damarlarında samovar kimi pıqqapıq qaynayır. "Gedə bilərsən!" - elə bil o həmişəki adam deyil - mənə göstəriş verir. Bir dəfə gözlərimdə həmin parıltı, güzgüyə bənzər relsdə üstdən aşağı telimi düzəldərkən, sanasan qısaqapanma oldu, relsin həndəsi ortasından burulğan kimi bir alov şədd eləyib göyə qalxdı. Xırçıltı və fışıltılardan ət ürpəşirdi. Dümdüz, həm də uzun və nazik alov rels üzərində irəli-geri xeyli gedib-gəldi. Sönməsi də qəfil oldu. Dedim bir ovcumla yoxlayım - rels qızmışdı.

Bığı-zadı çıxalı, ailənin təqaüd kağızlarına dair işləri ona həvalə eləmişdilər: oğlan həm də gedib rayon-şəhər görər. Kişiləşər. Bir tək şalvar geyməklə deyil ki - qoy idarələrdə kimlərləsə savaşsın da. Çənələşsin, didişsin. Bizdən olsa, deyirdilər, məhkəmələrə də düşsün. O, ilk çağlarda bu kağızları boynundan asılan daş yerində bilərdi. Lakin "sobes"dəki, onların kəndinə baxan incə-mincə, hərçənd getdikcə də kökələn qadına öyrəşdikcə, bu "daş"lar pambıq kimi yüngülləşdi. Axırda da pambığın bəlkə çəkisi olardı, onların yox. Qadın gül kimi ətir saçar, üstəlik, bu necə güldüsə, ətri hər gün dəyişilərdi. Bir dəfə "qurban olum" deməklə də onun evini tamam yıxdı. Elə ondaca Xanbalanın qəlbi bala tərlan kimi ovlandı.

Xanbala hər şeyin marağındadır, "sobes"dəkinin də qız yox, məhz qadın olmağını qaşlarının alınmasından bilir. Belə mübhəm şeyləri o, arvadından eşidib: sən demə, qız köçdümü - baldızları yerə yıxıb qaşlarını maqqaşla alır. Amma arvadıyla onun fərqi yerlə göy qədərdi. Arvadda dırnaqları daim torpaqla dolu görərsən. On ədəd qara ayparadı - beşi solda, beşi sağda. Sanki bədəni əllər və ayaqlarında qara halələrlə sonuclanırdı. Xanbala obrazlı şəkildə deyir ki, onun arvadı mötərizəyə

alınıb. Bundasa dırnaqlar sədəf kimiydilər.

Günlü günlərdə bu sədəflərdən "sobes" divarlarında on ədəd "zayçik" gəzər. Adam sevgi kitablarındakı kimi onun əllərini əlinə almaq, ömrü boyu barmaqlarını oynatmaq istəyir. Bu ətir fərqi, gözəllik kontrastı Xanbalanı arvadından soyutmuşdu. "Sobes"dən qayıdıb evə qədəm basanda, elə bilir gül bağçasından çıxıb tövləyə girir. Özü də bu gözəlçə nağdınnan boşanmışdı. Boşanmağını tez-tez onun üzünə gülümsəməsindən bilir. Ərli arvad gülməz. Gülə bilməz. Gülmək - namussuzluqdur.

Uzaqdan baxanda dəmiryolçular sanasan işləmir, özləri üçün düməlvalenirlər. Sarı kürkləri gündüz fənərləri kimi yanır. Araları yarım addımlıq şpallardan aşağı ayaq qoyanda da, deyirsən əlbət axsayırlar. Ya ayaqlarında "mozol"ları var. Xanbalanın adına nərdivan dediyi, relslərə perpendikulyar bərkidilən şpallar məni hər gün işə "qaldırır", sonra işdən evə "endirir". Daim gah öndə gördüyüm, gah arxada qalan həmin "sarı fənər"lər məni darıxmağa qoymur. Həmçinin onlar dünyanın ən təhlükəsiz insanlarıdır. Həm də yanlarında adam öldür - öldür, deməzlər.

- Əşi, salam! - Xanbala məni görcək kürəyi şpallar arasında yerə sancır. "Əşi" onun həddini aşmadığı zarafatlardandır.
- Necəsən, ay Xanbala?
- Sabah işdəyəm, şənbə-bazar istirahətimizdi...
- Guya bu hamıda belə deyil?
- Sonra da bayram gəlir.
- Nə bayram? Hansı?
- Düzü, adını bilmirəm.

- Neçə gündü?

- Bir.

- Amma qabaqlar bayram da qədim toylar kimi iki-üç gün çəkərdi ha. Yadındadı?

- Atana rəhmət, onda 1 May iki gündü.

- İndi 1 May heç bir gün də deyil.

- Anana da rəhmət.

Oğlan başdan sarki bir az qıvraqdısa da, bədəndən sazdı - hazır dördbucaqlı kərpicdi. Ona "buz baltası" da demək olardı. Əlbəttə, liliputluğunu heç də xəstəlik saymır. Deyir, necə xəstəlik saysın ki, işi-peşəsi altına arvad basmaqdı. Onun üçün xoruz kimi arvad altına basmaq bir sağlamlıq göstəricisidir. "Arvadım" da demir - "arvad". Bircə qarış boyu var, amma "motor"u saz işləyir, "vo belə" də uşaq istehsal edir. Uşaqların bir - birindən arası ildən artıq çəkməz. Di vəssalam, əsas iş də elə budur.

Onlarda hamı "qanuni surətdə" - qocalmaqla ölərdi. Ata da qocalıb ölmüşdü, ana da. Hər ikisində də Xanbalanı yaslardakı qazanc maraqlandırıb. Deyir, həyatda onun vur-tut ikicə dəfə kalan qazancı olub: bir atası öləndə, bir də anası. Barı "ata" və "ana" da demir, sanki ölüb getmələrinə zarafatla-"papa" və "mama". Atmacalı "papa-mama"sı ciddi vaxtlarında eləcə "ata-ana" olurdu. Amma atası anasından sərfəli çıxmışdı. Atanın anadan üstünlüyü yaslarından bilindi. Ata ölümünün dadı indiyəcən damağındadır. Hansı cibinə əl atırdısa, ordan pul çıxırdı. Əcəb adamın iki-üç atası ola, inan, qazanc başdan aşar, onu yığıb-yığışdırmaq olmaz. Amma Allah üzünə baxdı: yeganə atanın elə yerinə düşən ölümünə bir də yox, iki gədəsini "kəsdirdi". Sünnətləri yaman gecikirdi.

Oğlan xeylağı tezkən arvad istəyən şeydi - indi buyursunlar. O, bir ata kimi öz borcundan çıxmışdı. Qalan iş onlarındı. Gülməlidir, sünnət bıçaq itilənməsinə bənzəyir. Anadan yığılan pulla da atadan beş ay sonra dünyaya gəlmiş

oğulbalasının möhübünü düzdü. Qız əvəzinə vurub yenə oğlu olanda "əcəb işə düşdüm" demişdisə də, çıxış yolu öz-özünə tapıldı. Əvvəl eh, demişdi, bunun bığı çıxanacan ya xan ölər, ya eşşək. Ancaq sonra gördü yox - ana hökmən öləcək. Ta yüzü də vurub keçməyəcək ki. Elə bil Allah ağzından eşitdi - sünnətin şirin vaxtında başını rahatca qoydu yerə. Amma onun ölümü üçüncü oğulun kiçik toyunu ölüm-zülüm gördü. Əşi, hayıf deyildi ata! Hayıf, o bir də dirilib təzədən ölməz. Ana atanın dırnağına da dəyməz. Ana da yox, ümumən, arvad xeylağı nədir - bir heç.

Gözəlliyinə görə qızlıqda bir balaca yan-yörəsinə keçirlər, bağda ərik, sonra da salamməleyk qurtarandasa - dalına bir təpik. Özündən götürür. Hələ təzə-təzə arvadla şəkil çəkdirməyi özünə fəxr bilərdi. Bircə döldən sonra bədbəxt qızının burnu uzandı, qarnı torbalandı: ta şəkil-məkil nədi. Hətta onu tək bir göyçəkliyinə görə almasından utandı da. Göyçəklik - kişi işi deyilmiş. Lakin arvad da onun boş damarını tuta bilmişdi. Boyca döşlərindən olan Xanbala həftədə bir-iki dəfə məcbur qalıb "o məsələ"yə dair xıtılananda, bu, naz edərdi. Naz bunun üçün qara bir ölümdü. Xanbala nazı ən azı faciə kimi qavrayırdı. Hər nazında qorxardı da ki, çaşıb arvad boşanar. "Yox" onun üçün əbədi bir şeydi.

Hər dəfə uşaqları dərin yuxuya verən (xoruldaşmalar - dərin yuxu idi) Xanbala ona him-cimlə mətləb qandırardı. Sevgi sözlərinin biri bir qəpiyə düşürdü. Onunla yatmağa borclu olan halalca arvadın bu "atkaz"ını kənd eşitsə, biabır olmazmı? Zor-xoş məqsədinə çatandasa, sanki bayram olurdu - biabırçılıqdan qurtulmağın ləzzətini çəkərdi.

- Xanbala, əlavə qazancdan-zaddan yenə olurmu? - bir gün rastlaşanda onu sorğu-sınağa çəkdim. Dedim görüm nə deyəcək.

- Bə bilmədin? - o, üzümə təəccüblə baxdı. - Bizdə hamı ölüb getmədi bə?

- Rəhmətlikləri - hə, bilirəm.

- Doğrudan, özün yaslarımızda olmuşdun. Pul dəftərçələrini bərk-bərk saxlamışam, - sözündən bu çıxırdı ki, inşallah, sizinkilər də ölər, mən gələrəm. Yox, bunun başı da saz bədəni kimi yaxşı işləyirdi. Deyəsən, boyun gödəkliyi ağlın da gödəkliyinə dəlalət etmir.

Hər şey təvəllüdlə ölçülürsə, "qanun"la arvaddan əvvəl Xanbala özü ölməli idi. Lakin ürəyinə dammışdı: əvvəlcə arvad öləcək. Hə, öz dəfni üçün bir az ondan qırtar. Həm də kişi arvad dəfnini yola verə bilər, arvad kişininkini - yox. Arvadın ondan əvvəl ölməsi insaflı, həm də məntiqli çıxar, üstəlik, elədə öz dəfninin perspektivi asanca cızılmış olardı. Arvaddan xeyir yalnız bu yolla mümkündü.

O, dəmir yolunu çörək ağacı bilir. Həqiqətən də, relsləri şaquli qaldırsan, qoşa ağaca bənzəyəcəklər: yanlardan sallanası şpallar da - yoğun-yoğun budaqlara. Məvacib öz yerində; bayramlardı - ikiqat ödənirdi, üstəlik, ay budu gəldi 13-cü maaş (yeməsən, yüz il çatar; yemə, çatsın).

Ölkədə təqaüdlər başaldadıcı tərzdə daim artıb, Xanbala da həftə səkkiz, mən doqquz "sobes"ə baş vurmalı olub. Ədə, bu "sobes"dəki qadın, qadın yox, sehrli bir nağıl idi. Adıbilinməzin heç yaşı da bilinmirdi. Cavan deyildisə də, yeməli şeydi. Üzü - parlaq bir Günəş. Eləsini yuxuda da görməmişdi. Rahət-hülqumdu. Harda bəslənmişdisə, üzünə bir baxan, deyərdi bir də baxım. Ona iki-üç yox, bircə barmaq toxunduran elə bu dünyadaca birbaşa behiştə düşmüş olar. Behişt gözlə görünən uzaqlıqda imiş. Durub "dela"ları rəflərdə axtaranda, Xanbala onun qıçlarını görmüşdü. Dünyada heç nə istəmir - bircə o qıçları: qucaqla, yat. Ədə, qolları qıçlarından da şirin - elə də yumşaq və zərifdilər, elə bil üstlərinə tül çəkmisən. Monpası barmaqlarını tutub sorduqca sormaq istəyirsən.

Qohum-əqrəba da xam adam gəzir - bütün ölüvay təqaüdçülərini onun boynuna yükləmişdilər. "Rayonda sənin xüsusi hörmətin var,"- deyib qoltuğuna verirdilər. Yalansa da doğru ola. Ancaq neynək, onsuz indi hər şey yarı görməyə bəhanə idi.

- Onu görəndə şişirəm, - Xanbala hər sirrini mənə açır.
- Şişməli şeyə şişərlər.
- Görəsən bu şişmək də sevgidir?

Yarəb, görən, bu özünü avamlığa qoyub, yoxsa məni dolayır.

- Elə şeyi mən nə bilərəm, ay Xanbala.
- Niyə ki? Arvadlardan başın çıxmır?
- Çıxmağına çıxır.
- Ədəbiyyat kitablarında yazılmamış olmaz.
- Bəlkə də.

- Ay müəllim, indiyəcən gecə-gündüz oxuduğun ədəbiyyat dərslikləri, müntəxəbatlar olub. Öz sahənə dair şeyləri sən gərək əzbər biləsən.
- Yox, elə şişmək də sevgidir, - onun təzyiqləri altında təsdiqləyəsi oldum. - Məcburdu Məcnun kimi çöllərə düşəsən?
- Yox, məcbur deyil, - Xanbala can-başla razılaşdı.
- İndi kim öz arvadının məcnunudur? - Canımın dərdindən dedim.
- Heç kim.
- Həm də qızı verməzlər, sən də məcnun olarsan da-a. Çataçat verirlər, axı.

- Verməsələr - hə, atan rəhmət. Elə anan da.
- Elə bil hamı qızından bezib, ondan canını qurtarmağa çalışır.
- Qız qaldıqca xarab olan şeydir.
- Amma Məcnun Leyliyə evlənsəydi, min faiz uşağı olmayacaqdı.
- Niyə? Onda da radiasiya vardı?

- Leyli süddən yanıq, Məcnunun da bədənlə-zadla işi yox. bu cür necə olsun?

Sabahısı rastlaşanda, Xanbala qabaqkı sarsaq sözlərindən yenə üyüdüb-tökməyə başladı. İntəhası, qabaqlar gec-gec olan bu cür tutmaları indi tez-tezdi.
- Bu gün işdəyik. Sabah da. Sonra iki gün evdə.
- İki? - mən də naəlac qalıb, onun bu sözlərinə maraq göstərdim.
- Düz iki.
- Bizsə - bir.
- Müəllimlər yetim şeydi - hökumət onlara baxmır ki.

Bir gün eşidəm, Xanbala işə çıxmır. Niyə, balam? Olmayan iş, yoxsa naxoşlayıb?
- Qız götürüb qaçıb, - yoldaşları suallarımın hamısına "yox" dedilər. - Başı da - göbəyindən.
- Qız yox, arvad olar.
- Ura, "sobes"də bir ştat boşaldı!
- Qız bunun kvadrat bədənini yox ağlından üstün tutdu.
- Qız yox, arvad.
- Kvadrat yox, düzbucaqlı.

- Arvadlar toyuq kimi ağılsız olduqlarından, eləcə ağlı da seçmirlər.
Sonrakı günlərdə "hayl, Hitler" deyirmiş kimi hər dəfə onların yanından sağ əlimi alnıma aparmaqla ötürdüm. Xanbala yoxdusa, orda niyə dayanmalıyam? Bay, özü də, deyən, bu gicgicədən ötrü darıxmağa başlamışdım. Xanbala bəlkə artıq işə çıxmayacaqdı da. Onlarda aypara-qara və sədəf dırnaqlar hər gün toqquşduqca, cəng-cidal səsləri ərşə yüksələcəkdi. Xanbala müharibə görməmişdi, artıq indi görər.

20.XI.1998 - 9.III. 1999

## "ƏLVERİŞLİ İNTİHAR HÜNDÜRLÜKLƏRİ"

Gecəni diri açır. Gün çıxanacan da dörd divar arasında dəli kimi gəzəcək.
- Ay ata, şəhərdə də xoruz saxlayırlar ki! - bir səhər Solmaz İsrafilə sanki şad xəbər verdi. Elə bil ondan muştuluq istəyirdi.
- Ay bərəkallah! Bə indiyəcən bilmirdin?
- Mən Bakıda xoruzu ancaq dükanda görmüşdüm.
- Bu saat şəhər də kənd kimidir.

- Şəhər ən çox da gecələri kəndə oxşayır: itlər hürüşür, xoruzlar banlaşır.
- Sən xoruz banını vağzal səmtindən eşidibsən...
- Nə bildin? Niyə ancaq ordan?
- Çünki rayonlardan satmağa gətirirlər. Onlar da vağzalda banlaşır. Yəgin etiraz edirlər.

Solmaz qoyduğu şeyin yerini bilməz. Dünən günortayacan qayçını axtarıb, günortadan sonra yaşıl sapı. Özü də hər şeyi bir-bir axtaracaq. Qayçını tapmayınca, yaşıl sap gözünə girə, götürməz. Buna dəli deməyib, nə deyəsən? Dəlinin buynuzu olmur ki. Ancaq hayıf ondan. Əlbəttə, İsrafil nə yaxasını kənara çəkir, nə də bunda özünü günahsız sayır. Ona yaxşı ata olmadı.

Hə, burda bir şey qaranlıq qalır, görən, yaşıl sapı neyləyirdi? Şoğərib yaşıl sap düz yarımca gün onun probleminə çevrildi. Gün batana yaxın artıq sapdan ötrü qan-tər içində ora-bura yüyürürdü. Qürubun şüaları onun kölgəsini divarlarda oynadırdı. Axır tapmadı ki. Sap özü tapıldı.

İsrafili qorxudan əsas cəhət Solmazın dəqiqəbaşı eyvana çıxıb, yeddinci mərtəbədən aşağı boylanmağı idi. Buna saatları gedər, uf deməz. Allah göstərməsin, bəlkə elə gözəyarı hündürlüyü ölçür - hoppansa ölər, ya ölməz?

Ölməsə, fikirləşir, biabırçılıqdır. Ancaq gələcək intiharını indidən yeganə uğuru sayır. Plan qurub ölümə çatdınsa, demək, zəhmətin bəhrə verdi. Yeddinci mərtəbə onu peşman etməz, inşallah! Doqquzda olmuş olsaydılar, çoxdan yerə tullanmışdı, deyir. Can-başla, arxayınçılıqla. Bəla burasındadır ki, yeddidən atılıb diri qalmaq

da olar. Olsa-olsa sümükləri sınacaq, qabırğaları xıncımlanacaq. Sən demə, özünəqəsd elə də asan məsələ deyil. İntihar ən çətin bir peşədir. Onun çəmini-üsulunu tapmaq zülümdən də zülümdür. Həm də intihar kriminalistik hadisədir. Onu gizlin etməlisən. Dinc adam belə işi başarmaz. Hələlik həyata məhkumdu. Ancaq qabaqlar çox eşidib: ay kimsə beşdən yıxıldı, leş oldu, ay biri altıdan atılıb gəbərdi. Hətta dörddən də olub - ölüb.
Yox, yeddidən yıxılan ölə də, sağ qalmaz. Bir sözlə, get yeddidən mayallaq aş, o dünyaya yumbalan. Atası sağ olsun ki, işdən mənzil alanda, bu mərtəbəni seçib. Bu mərtəbə onun bəxtinə bəlkə də təsadüfən düşüb, ancaq yenə min sağ olsun. Yeddinci - əlverişli intihar hündürlüyü, ölümlər üçün məqbul mərtəbədir. Özü də hesablasan, ordan o dünyaya üç-beş dəqiqəlik yoldu. O dünya insanın qulağının dibində, ağzının içində imiş.

Yaxşı, razılaşdıq, ölüm imkanı var. Həm də bu onun əlində olan yeganə imkan idi. Düzdü, atası bu cür-bu sayaq imkanlara vız atmır da. Halbuki yeri gəlsə, mövcud intihar şəraiti mənzilin özündən də qiymətli sayıla bilər.

Əcəb intihar eşqinə düşənlərin yerini biləsən, hər dəfə bu mənzili beş-on dəqiqəliyə icarəyə verəsən. Eyvandan o dünyaya uzanan yol çörək ağacına çevrilər, var-dövlətləri başdan aşar. Arada onlara baxmaqla intiharın qaydalarını da öyrənərdilər.

Fikirdən İsrafilin baş-gözü ağarıb. Yeganə təskinliyi nədəndi: yaşıl sapı yarımca gün axtaran kəs özünə qəsd etməz. Əgər yaşıl sapı axtarıbsa, demək, gərək olub da-a. Belə çıxır, onun həyatla bağlı gələcək planları var.

Güman, öz paltarındakı sökükləri çitəyəcək. İsrafil ha fikirləşdi, yaşıl sapın gərək olacağı köynəyini-zadı yada sala bilmədi. Onun köynəklərinin hamısı ağdı. Yox, onun öz paltarıdısa, ura, deməli, hələ də xeyli geyəcəyini düşünür. Yaşıl sap onda közərən, ancaq həm də getdikcə öləziyən həyat eşqinin əlaməti, onun bir sübutu idi. Bə nə, geyənəcəkləri yalnız həyat naminə yamayar, ya tikərlər. Yaşıl sapı ölüm üçün axtarmazdılar ki.
Ura, onun pessimizmi intihara yetməyəcək!

İsrafil hər axşam bir sınaq qoyur: Solmazın gah çətiri, gah çantasını, hərdən də dəftər-qələmini gizlədir. Görsün, qızı əlimyandıda onları axtaracaq, ya yox? Axtaracaqsa, kəlləni balışa atıb rahatca yatmaq olar. Qızı ölməsə, özü də yaşayar. Həm də əşi, Solmaz hələ ölməyi bacarmaz. Bu barədə kaldır. İntiharlar haqda nə eşidib, nə də kitablarda rast gəlib. Onun hər işinə bələd ata kimi deyir: elə bir kitabı nəyinki oxumayıb, heç görməyib də.

Allaha şükür, Əlyazmalar İnstitutunda eləsi olmur. Qısası, intihar xüsusi savad

tələb edir. Yox, ölə də, ölməyəcək! Onu ölməyə qoyan kimdi?! Həm də ay balam, ölənlə birgə ölməzlər ki. Ana rəhmətə gedibsə, əksinə, yaşamalısan. Onun dalınca sən də ölsən, əksinə, ədəbsizlik çıxar. Ya da qarnının azarını de, biz də bilək: sən ananı xatırlamaq istəmirsən, ona görə də dünyadan köçürsən. Dərd çəkən yetimçə deyilsən. Özünü öldürməklə ananı xatırlamaq əzabından qurtulursan. Canını götürüb qaçırsan. İsrafil gələcək üçün beləcə təbliğat planları qurur. Ancaq qızı da az aşın duzu deyil, əks-arqumentlər gətirə bilər. Buna hazır olmalı. Belə çıxır ki, deyər, ana ölümü balada həyat eşiqini artırmalıdır? Düz də deyəcək.

Onda yuyulmamış qaşıq kimi tez də özünü ortalığa atar. Yoxsa ataya yazığın gəlmir? - soruşar. Bax, özün bil, sən ölsən, mən də öləcəyəm. Hələ basıb-bağlayacaq da: ay sən atanın qəsdinə durubsan, ay sən onun ölümünü arzulayırsan. Onun da sübut-dəlilləri göydə hazır: mən öləndə, sən də öləcəksənsə, ana ölübsə, bə mən niyə ölməməliyəm? “Ölüm sevgilərin məntiqi nəticəsidir”, - ona bu cür mədənicəsinə institut dilində də deyər. Onda ata başqa dəlillər ortaya qoyar: ata-ana ölümü ağlabatandır, balanınkısa yox. Qız: ata-anadan sonra özlərini öldürməyənlər ata-ananı sevməyənlərdir. Yenə o: məncə, yer üzündə heç kəs ata-anasını sevmir. Əslində elədir, vallah. Ata-analardan sonra övladların yaşaması böyük tərbiyəsizlikdir. Ata, ya ana soyuq və yaş, bərk torpaq altda yatacaq, sən də isti və yumşaq yorğan-döşəkdə fıs vuracaqsan? Canın gözündən çıxsın, ata-ananı yaxşı xatırlayan oğulsansa, zəhmət çək, hər gecə yorğan-döşəyinə bir vedrə su əndər, gir elə orda da yat.

İsrafil qızı çaşdırmaq, ölümdən yayındırmaq üçün bu yerdə yalandan gülə də bilər.
"Ata hələ sağ, sən artıq onu öldürdün".
"Məsələn deyirəm", - qız deyər.
"Hamı ata-anasının dalınca gedəcəksə, dünyada adam qalmaz ki".
"Qalmaz qalmasın, bu dünya boş olsa yaxşıdır".

Get-gedə İsrafil də qızına oxşayır: bütün günü lal oturur.

Solmazın əvvəldən bəxti qara yazıldı. Oxumaq onu min il dala atdı. Maral kimi qız - onu arxivlər yedi. Günəşsizlik və havasızlıqdan, rütubət və yeməməzlikdən topuğuna çatan uzun saçları çəngə-çəngə töküldü.

Şəkilləri durur: həvəsli döş-başı vardı. İndi hanı? Hələ ailə qurmayıb - döşləri göbəyinə sallanır. İsrafil yanıb-yaxılır: uşağı beş yaşından namusa sürüklədi. Qaraürəkliyi ucbatından, bədbəxtliyə qısnadı qızını. Elm adına arxivlərdə eşələnərsə, fikirləşdi, guya namuslu qalar. Ümumiyyətcə, tüpürəsən namusa. Namus xoşbəxtliyin qənimidir. Həm də onda məhəbbət-zad da namussuzluğa dəlalət edirmi? Kim Leyliyə namussuz, Məcnuna biqeyrət deyər? İsrafil tozlu və nəm arxivləri namus faktoru kimi qabartdı. Elə bildi onda elçi elçi üstündən

düşəcək. Ancaq elçi hardandı? Solmazı kitab qurdlarından savayı bir görən oldumu? Onu yalnız yumşaq dərisi üzərində gəzişən erkək kitab qurdları sevə bilərdi.

Allah eləməmiş, qızı intihar etsə, bu sədaqətli-mərd hərəkəti də gözü götürməyənlər tapılacaq. Ağzıgöyçəklər, ana bir bəhanədir, deyəcək. Burda nə var ki - ərə gedə bilmədi, onunçün də özünü öldürdü.
Yox, qızında yaşamaq həvəsi də yox deyil. Bu beş ayda özünü öldürəcəyinə söz verirsə də, hələlik sakitlikdi.

Xüsusən də onun yaşıl sapı axtarması İsrafili ümidləndirmişdi. Yaşıl sap həyata açılan yaşıl işıqdı. Ancaq yatıb-arxayınlaşmaq da yaramazdı. Kim demiş, fəaliyyət gərək. Bacardıqca onun başını qatmalı.
Nədən-nədən, bir gün Solmaza futboldan söhbət açdı. Qızı elə bil oğlandı. Guya dünya çempionatı vaxtı, necə güclü zərbə vurubmuşlarsa, top uça-uça gəlib ekrandan otağa sıçrayıbmış. Qarşıdakı divara da dəyib, gözünün qabağındaca təzədən ekrana girib. Ekrandan stadiona yumbalandığını öz gözləriylə görüb.

- Ay ata, ömründə elə şey ola bilməz!
- Olanda olur.
- Sən elə bil uşaq başı aldadırsan.
- And içim?

İsrafil qızının həyatı naminə yalandan and içməyə hazır idi. Solmaz bunu duyub, təkid eləmədi: kişi yalan and içər, başına bir iş gələr. Əlacsız qalıb inandı.

- Kaş elə məzəli hadisələrdən mən də görəydim...
- İstəsən, gələn çempionata birgə baxarıq. Bəlkə top yenə gəlib evimizə girəcək?
- Baxarıq, inşallah.
- İnan, vaxtında yana çəkilməsəydim, başım getmişdi.
- Gələn çempionat haçandı?
- Ona üç il qalır.
- Mərcləşərik də.

"Gərək vaxtı uzadaydım".
- Yox, beş il.
- Olsun.

"Ura, Solmaz çempionatı beş il gözləyəcək! İntihar getdi işinin dalınca!"
İsrafil düz bir həftə şad-xurrəm gəzib-dolandı. Kefindən üzünü də özü qırxmır, gedib dəlləyə taraş etdirir, hər gün də işdə bir başqa qalstukda görünürdü. "Təzəbəyə oxşayırsan", - işdə ona sataşırdılar. Namxuda, onların işində söz-söhbət

əsasən evlənib-boşanmaqdan, arvadlardan-zaddandı. Bay, deməzsən, ondakı bu hal qızında əks-effekt doğurdu. Solmaz bunları atanın arsızlığına yozdu. Arvadı ölüb, bir buna bax. İlahi, bəlkə də o, təzə eşqə düşüb.

Qızı axşamlar yenə anasının böyüdülmüş şəkli önündə oturur, gözünün müzüyünü axıdır.
Başqa bir əhvalat uydurmaq vacib oldu.
Guya bildir Yer şarı fırlanarkən Sakit okean gecənin bir aləmində sakitcənə qopub göyə uçub. İndi altdan yuxarı baxanda, Sakit okean göydə akvarium kimi görsənir. İçində də balinalar, balıqlar.

- Ay ata, elə şey olar? - qızı təəccübdən böyümüş yumru gözlərlə ona baxdı.
- Olanda olur.
- İndi Sakit okean göydədi?
- Bə harda olacaq?
- İnanan daşa dönsün.
- Mən sənə yalan deyirəm?
- Məncə, orda deyil.

- Beş yüz faiz ordadı.
- Mərc gələk?
- Xarici qəzetlər partapart yazır.
- Bu saat balinalar göydə uçur?
- Sakit okean ancaq beş-on ilə yerə enə, ya enməyə.
- Gözləyək, görək.

"Allaha şükür, ondan yenə beş-on il qopara bildim. Yaşamaq vədi alındı".
Hələ bu cür şişirtmə söhbətlərin biri də qalır; onu ehtiyata saxlayıb. Düzdü, bir az ayıb cəhətləri də var. Ancaq neynək. ...Bir gün balaca bir şəhərin işğalı ərəfəsində türmələrin ağzı açılır. Qısa məzmun ondan ibarətdir ki, Tahir adlı birisi heç uzağa qoymur: elə ordan çıxan günü qonşu evlərdəcə üç qızı zorlayır. Sonra şəhərə dönən yolda pusqu qurub onlarca düşməni leş eləyir. Qızları zorlayıbmış ki, ölərsə, bəlkə ondan övlad yadigarı qala.

Evlənməyə vaxt hardandı? Doğrudan da, ürəyinə gələn başına gəlir, Tahir döyüşdə ölür. Üç qızdan bircə oğul payı dünyaya göz açır. Uşaq böyüyür, atasına oxşayır. Sonrakı dövrün də qısa məzmunu ondan ibarətdir ki, oğlanı Tahir bilib tuturlar. Düşünmürlər də ki, "cinayət"dən iyirmi il keçəndən sonra caninin yaşı 20 ola bilməz.
Solmaz bu söhbəti eşitsə, başını yırğalayacaq, bərkdən gülməyi anasına görə ayıb bildiyindən, xısın-xısın güləcək. Əlbəttə, gop da olsa maraqlıdır. Ancaq bu söylənən əhvalatdan sonra əlverişli intihar hündürlükləri onun üçün cazibəsini

itirəcək də. Həyatı qoyub hara gedirsən? O dünyada nə var ki?

Bir gün də İsrafil qızına qəfildən deyəsi:
- Gedək İstisuya. Orda bir bulaq tapılıb, içində şırhaşır dirilik suyu çeşmələnir.
- Eh, mən neynirəm onu?
- O sudan içib yüz yaşamaq olar!
- Sən ölmək istəmirsən ki?
- Niyə də ölməliyəm?
- Bu dünyada qalıb neyləyəcəksən?

Vay, evin yıxılsın, fələk! Bu, özünəqəsdi artıq yəqin edib. Hayıf, zəhmətləri hədər getdi.
Doqquzmərtəbənin intihar hündürlükləri adamın üzünə gülür, onu istəyənlərə gəl-gəl deyirdi.
İsrafili birdən-birə kəsafət basdı. Artıq bədbin qızı onun yanında nikbin görsənirdi. İşdən də qaldı. Günlərcə məlul oturar: nə yeyər, nə içər. Axır Solmaz əlacsız qalıb üstünə həkim çağırdı. Sual-cavab zamanı onun saqqız kimi çeynədiyi boş sözlərə, pəncərə qabağındakı sərçələr kimi uçuşan fantaziyalarına düzəlişlər edilməsi üçün onu psixiatriya klinikasına apardılar. İsrafilin ümidi bir tək ona qaldı ki, qızı "xəstə" atasını qoyub intihar etməz, ona başı qarışar. Bilsə ona həqiqətən başı qarışacaq, ömrü boyu palatadan çölə ayaq qoymaz.

3 iyun 2002 - 5 dekabr 2003-cü il

## "GÜZGÜ"

Güzgü maddi dünyanın ən problematik cisimlərindəndir. Düzəliş edək: cisim də yox, əşya. Yaxud şey. İlhamlıdır, ancaq həm də yaddaşsız-unutqan. Düzdü, göyü göy yerində göstərəcək, Yeri – Yer. Uzağı – uzaq, yaxını – yaxın. Uzağı bir santimetr də əskiltməz. Yaxını bir barmaq da uzatmaz. Dərini dərin açıqlayar, dayazı – dayaz. Dəqiqlikdə dünyanın bütün motor-texnikası onun yanında yalandır. Hər şey qəflətən onun kimi ola, ümumbəşəri xoşbəxtlik çataçat baş verər.

Xoşbəxtlik insanların bir-birinə hansı məsafədə durmasından, dəqiq ünsiyyət ölçülərindən asılıdır.
Bir dəfə güzgüdə artezian quyusunu seyr etmək istədim. Üzünü aşağı tutan kimi

quyu düz xətt boyunca yuxarı getdi. Başdan-ayağa müəmma. Tükdən-dırnağacan sirri-xuda bir iş. Mən elə adamam - heç kosmik dombalaqaşmalara da təəccüblənmirəm. Desələr, bir adam Aydan kəllə-mayallaq Himalay dağlarının kəlləsinə düşüb, bununla belə sağ qalıb, deyərəm, hə, olar, olar. Bu inanmaqlığın müsbət-mənfi cəhətlərini qoyuram bir qırağa. Söhbət güzgüdən gedir.

Mən uşaqlıqdan üzü bəri güzgü aşiqiyəm və əl boyda güzgüyəcə mat qalanam. Onda Şeytan işartısı var. Bu qənaətdəyəm də ki, elm hələ güzgü adında qlobal tapmacanı ağıllı-başlı öyrənməyib. Ən işıqlı güzgü də hələ qaranlıqdır. Az-çox araşdırılıbsa da, bir nəticə hasil olmayıb. Dissertant fiziklərdən, rastıma düşən bilikli müəllimlərdən çox soruşmuşam. Onlar da, nədənsə, gülə-gülə, ən azı gülümsəyə-gülümsəyə güzgülərin əksetmə səbəblərini, bu asan mexanizmi guya mənə izah ediblər. Yox, izahlar ağlıma batmayıb. Yəqin daha batmaz da.

İlk heyranlıq predmetləri ilk məhəbbət kimi tədqiqata yatmır.

Məndə güzgülərə ilk heyranlıq ondan gözümə Günəş düşəndə başlayıb. Gördüyünüz kimi, mən həyatda sadəliyə daha çox təəccüblənirəm, nəinki mürəkkəbliyə. Təəccübüm sadəliyə də tərs mütənasibdir, mürəkkəbliyə də. Bir yandan da öz-özümə deyirəm: yox, burada tərs yox, əslində düz mütənasiblik var. Sadəliyin dərinliyinə ensən, mürəkkəblik onun yanında yalan olar. Sadəlik heç də primitivlik demək deyil və bəlkə də mürəkkəbliyin kvadratı, hətta kubudur. Gəlin, bunu düstur şəklinə salaq: sadəlik = mürəkkəblik, üstü n. Sadəlik mürəkkəblikdən sonra gəlir, yəni ondan sonrakı mərhələdir. Mürəkkəblik sadəlikdən sadədir.

Axı, bu güzgülərdə maqnetizm niyə belə güclüdür? Orda-burda hərlənib-fırlanır, hansı cəhənnəmdəsə veyillənir, yenə gəlib gözünü ona zilləyirsən.

Perpendikulyar isti baxışlarım güzgü səthindən həmişə soyuqluq duyub.
Hə, sən güzgüyə yox, onda özünə baxırsan. Özündəsə - gözəlliyə. Surətindəki kifirliyin içində də gözəllik hüceyrələri axtarırsan. İnsan güzgülərdə həmişə gözəlliyə can atır. Yarımçığı bütöv, azı çox etmək istəyir. Güzgü də az aşın duzu deyil, bir növ, insanı gözəlliyə təhrik edir. Güzgülər bu mənada dünyanı gözəlləşdirir. Hər halda, məram xoşdur. Əlbəttə ki, güzgü evdə anturaj elementi deyil. Onun gözəl bir funksiyası var: qüsuru-çirkini görünməz etməklik. Bəşəriyyət güzgülərdə və güzgülərlə göyçəkləşir. Güzgülər Yer səthində estetikliyi artırır. Əslində ailələr də onun sayəsində çoxalır, insanlıq törəyib-artır.

Gözəlliklər bəşəriyyətin həyatında fermentativ rol oynayır.

Davam edirik. Baxırsan, əlləşdirirsən - canlı deyil, lakin insanla rəftarında özünü canlı kimi aparır. Deyəsən ki, insanpərvərdir, adamın dili ağzında quruyar. Əksinə,

əksərən insanpərvər deyil. Yəni onun insanı gözəlliyə təhrik etməsi də humanistlikdən irəli gəlmir. Güzgü bəlkə də gözəllik xəttiylə insanı şərə sürükləyir. Gözəllikdən sonrakı etap şərdir. Gözəlliklər olmasa, insan şərin ağuşuna belə asanlıqla düşməz. Onda şər tez görükər, bəşər ondan çəkinər.

Açığı, gözəllik şəri görməyə qoymur. Bir sözlə, üzdə xoş məram göstərən güzgü altdan-altdan insana yamanlıq edir. Onun insana ən yüngül pisliyi – həyatda-məişətdə işlərin düz gətirməməyidir. İşə bax, güzgün sındısa, işin bitdi, qara gününü sal yada. Təcili tədbirlər görməsən, ya bir qəza baş verəcək, ya da getdiyin yerdə qol-qıçın sınacaq. Ola da bilər, başına daş düşsün. Bəd ağızların deməsinə görə, preventiv tədbirlərin çox da xeyri olmur. Olacaq - olur. Şəhərdə travmatizmlər sınmış güzgülərdən törəyir. Travmatologiya institutunda köklü araşdırmalar aparılsa, asanca görükər ki, hər sümüyü sınanın evində beş-üç gün əvvəl güzgü sınıb. Yəni sınan güzgülərin sayı sümük sınığı hadisələrinin sayına bərabərdir.

Bay, yadımdan çıxmışdı, qabaqlayıcı tədbir nə olmuş ola – güzgü qırıqlarını bir torbaya yığıb aparmaq, dörd yol ayrıcında qoymaq. Asanca bir iş. Deyim ki, bu inanc əsassız deyil, minillərin təcrübəsindən doğub. Düzdü, cəmiyyətin bəzi məkrli və hoqqabaz qrupları belə şeyləri rədd edir. Ancaq nahaq. Adama deyərlər: bəyəm danasan ki, obyektiv həqiqətləri danasan? Bu yasaqlarla insan təhqirə məruz qoyulur, onun düşüncələri etibarsız sayılır. Halbuki indi yasaq özü yasaqdır.

Güzgünü bu dünyaya İblis itələyib.

Gördünüz ki, bu hekayə “Güzgü” adlanır. Yazmağına mən onu çoxdan yazmışam, ancaq heç cür tamamlaya bilmirəm. Güzgünün öz iç səbəblərindəndi ki, prosesdə fasiləsiz surətdə fasilələr yaranır. Hekayənin bitməməsi də bir bədbəxtlik növüdür. 12. VIII. 1996 - düzəliş və əlavələri qurtarmasa, yazıldığı bu tarixdən etibarən də hekayənin adını qaralama olaraq saxlayacağam.

Tərs hekayənin cəzası onu qaralama adlandırmaqdır.
Kim də bu hekayəmi düzəlişsiz oxudusa, adım batdı.

Demək belə, hekayəmiz XX əsrdə yatıb, XXI-də oyanıb. Bəlkə elə adı “Güzgü” olduğundandı ki, avtomatik kilidlənib. Güzgü faş olunmağından qorxub. Elə yazının üstündəki ada görə mənim onu bitirməyimi istəməyib. O istəməyib, mən də istəməmişəm. Mənim istəməməyim onun istəməməyinin təzahürü şəklində ortaya çıxıb. Məndə hər hansı hekayə əsasən öz təşəbbüsüylə işıq üzü görür. Hekayələrim bir az şöhrətpərəst, ancaq insafən, həm də ictimaiyyətçidirlər. Onlarda sovetizm, kommunaçılıq cəhətləri də durur. Bir bu “Güzgü” istisnadır; yazılar-yazılmaz qapanıb. Özü də özü-özünü qapadı. Mənim sonrakı mərhələdə icraçı funksiyam

heçə endi. Yaxşı, tutalım, hekayəm özü tamamlanmaq istəməyib. Bə onda bu söz çeynəmələri - tryuizmlər nəyə lazım.
Eh-vay, yazılı hər şey şifahiyə çevrilməkdə, efirlərdə paymal olub getməkdə...

Bax, güzgü olmasa da, artıq "Güzgü" mənzilimdə bir bəzək elementidir. Niyəsi də odur ki, güzgüdən fərqli olaraq, funksional deyil. Güzgü dinamikdir, "Güzgü" - statik. Onu bir qıdıqlamaq, tərpəşdirmək gərək. Bu saat mən hekayəmi sanki masaj etməklə məşğulam. Onu hərəkətsizlikdən-parezdən qurtarmalıyam.

Vəssalam, qardaşlar!

"Güzgü" təxəyyülümdəki güzgüdən doğulub. Təxəyyülümdəki də - mənzilimdəki döyərölməz dördküncdən. Bu dördkünc - ana güzgüdür. Deyim ki, göyçək də bir anadır. (Adam balasını qoyub, anasını almaq istəyir). Tez-tez əlimi onun üzünə çəkərəm; fantaziyam güclənsin deyə. Canlı-real güzgüdən aldığım fantaziya meyvələrini cansız-irreal "Güzgü" hekayəsi üzərinə qoyaram, bu olar iş. Real güzgü bir yazıçı kimi məni təsdiqləyib; özümü özümə inandırıb. "Sağ ol, sən mənim barəmdə hekayə yazıbsan", tez-tez də deyir mənə.

"Güzgü" hekayəsi yazıçılıq qabiliyyətimi mənə təzədən sübut edən əsaslı sənəddir.

Masamın üstündəki güzgü hər ona baxanda məni həvəslə göstərir. Enli-açıq çöhrəsindəki təbəssümlə mənim tezitən-tezsilinən realistik portretimi yapır. Onun bu hərəkəti həm də məni tərifləməyə bənzəyir. "Bax, bu sənsən, alqış sənə!" Mən də dəfən-dəfən elə bilərəm ki, bəlkə də ölməzəm.

Sonradan bu bəy tərifləri mənə qorxunc görünməyə başladı. Canıma birdən-birə vicvicə düşdü. Güman ki, güzgü onun barəsində "Güzgü"dəki gəzişmələrim, ya gəvəzələmələrimdən xəbərdardı. Ay səni, key başım, boş qafam, onun məni öymələri əslində müdhiş bir şeymiş! Artıq ürəyimə səhihcə damıb: qarşıda məni fəlakətlər gözləyir. Uzağa getməyək, elə öz evimin içindəki güzgü "Güzgü" hekayəsinin intiqamını məndən alacaq. Qalıb bunun haçanlığı, necəliyi. Bu intiqamı mənim "Güzgü" hekayəsini heç vaxt bitirməməyim şəklində də gözləmək olardı. Mən buna beşəlli razılıq verərdim. Papağımı göyə atar, qol qaldırıb oynayardım. Olmasın bir hekayəm. Lap üçü olmasın. Beşi elə, yeddisi belə.

Həyatla müqayisədə əbədiyyətə gedəsi sənət əsərləri də mənasızdır.

Elə san, yazmamışam onu. Qaralamasını da tullayaram gedər. 1996-yacan "Güzgü" yoxdu, yaşamırdım? Xoruz yoxdu, səhər açılmırdı?
Axtarsan,"Güzgü"dən əvvəl mən daha yaxşı-rahat yaşamışam. Xoş və firavan.

Əksinə, indi narahatam - pərişan və nigaran. Obrazlı desək, nigaranlıq dənizində gəmi kimi üzməkdəyəm.

Güzgü kimi kəsici xarakterli bu "Güzgü"yə ürcah olandan işim ləng gedir dəə. Hər şeyi alayarımçıq yazıram. Ortada kəsirəm. Bir hekayə - beş-üç cümlə, odey, vızıldatdım zibil qutusuna. Xəstə kimi dad bilmirəm.

"Güzgü"nün özünüsə nə ata bilirəm, nə də əlavələrini edib - bitirə. Axırına nöqtə tapılmır qoyam. Qorxum əbədiyyətə qüsurlarla getməyimdəndir. Ya da bir hekayənin natamamlığıyla əbədiyyət əlimdən tamam çıxa bilər. Gör gəlib harda axşamladım. Yəqin "Güzgü" hərdən mənə qah-qah gülür də. Əlbəttə, onun istehzası anlaşılandı. Yəqin əmin-arxayındı ki, onsuz əbədiyyət mənim yox, qəşəngcə onun öz əlindədir. Əbədiyyət haqqında düşünən kəs yaratdığının əlindən heç cür qurtula bilməz. Yazıçı öz yaratdığının girovuna çevrilir. Amma əbədiyyəti düşünməsən, yaşamağa nə varmış. Əbədiyyətə inanmamaq inanmaqdan daha üstün və sərfəlidir. Rahatlıq baxımından. Gərək qulağında sırğa edəsən: əbədiyyət yoxdur. Varsa da, müvəqqətidir. Yəni yarımçıq. Sənətkarın əbədiyyəti imperativ ideologiyaların təzyiqinə tab gətirmir.

Hə, güzgü dolabın üstündə gah eləsinə durur, gah beləsinə. Sanki mənimlə siçan-pişik oyunu oynayır. Pişik mənəm, siçan o. Pişik də siçanı tutdusa, neyləyəcək – happ edəcək. Mən güzgünü yerə çaxıb sındırsam, dabanlarımla xıncımlasam belə, xeyri yoxdur. Güzgü qaş-göz oynada-oynada sanki hey mənə deyir: özün bilərsən, başqasını alacaqsan. Başqası da kimdir - yenə elə mən, deyir. Mahiyytcə bir olan şeylər asanlıqla əvəzlənə bilər. Forma məğzi dəyişməz. Forma bir aldanışdır.

Sınıq güzgü lupa kimi fəlakətləri böyüdür, onları gücləndirir, artırır.

Güzgülər mənim dazlaşmağımın müşahidəçiləridir.

...Amma mən də yaman tərsəm ha. Köhnəlmiş vərəqləri artıq çoxdan yumurta sarısına çalan və qar ağlığında təzə vərəqlər arasında keçmişlərin kollajını xatırladan hekayəmin ora-burasına əl gəzdirməkdən, üst-başını düzəldib irəli itələmək niyyətindən əl çəkmirəm. İnsafən, proteje lazımdır. Vallah, heç qorxudan da yox. Ev bir qədər yüngülləşsin deyə. Ağır kilid açılar, ailə ocağının tilsimi sınmış olar. Bununla da "Güzgü"yə qalib gələrəm. İndilikdə bu mənim vəzifəm, müqəddəs borcumdur.

Yaxşı, onda gəlin hekayəni açaq, içinə baxaq. Bu giriş-başlanğıc yaman uzun çəkdi. Dəli ağlıma da ağıllı bir fikir gəlib. Hekayəni təqdim etməkdənsə, gəlsənə, onun məzmununu danışım, bununla da qurtarsın getsin. Onsuz məzmun elə hekayənin özü demək olacaq. Nəinki hekayə, lap eşşək boyda roman ola – hər bir

əsər məzmundan ibarətdir. Məzmundan yana bütün sözlər əfsanədir. Boşboğazlıqdır. Həm də bir daş altda, bir daş üstdə - elə san, hekayə yazılmayıb da.

Çapa hazır "Güzgü" adında hekayənin düşər-düşməzi olar. Amma məzmunu danışmaqla bir gülləylə iki dovşan vuracağıq. Həm oxucu biləcək ki, guya belə bir hekayə var və əhvalat nədən ibarətdir, üstəlik də, biz onda güzgüləri aldatmış, azdırmış olarıq. Qoy onların xata-balası bizdən uzaq olsun. Axı, hər halda, hekayə güzgü barəsindədir. Mən gördüyünüz-oxuduğunuz bu abzasın başından üzü aşağı artıq bu gənaətdəyəm ki, elə güzgüdən də yan qaçmalısan, "Güzgü"dən də. İlanın ağına da lənət, qarasına da.

Hə, qoy bu yazdığım, sadəcə, bir ədəbiyyatşünaslıq əsəri olsun. Güzgüdən tamam kənar bir şey. Noolsun ki, ortada yazılmış, ya hələ tam yazılmamış, lakin konturları cızılmış, güzgü haqqında olan "Güzgü" hekayəsidir.

Bu hekayə güzgü haqqında olmaya, heç "Güzgü" adlanmaya da bilərdi. Güzgü-müzgü ədəbiyyatşünaslığın predmeti deyil; belə şeylər ədəbiyyatşünaslığın qulağına girməz. Bu əsər xoruz haqqında olar, "Xoruz" adlanardı, camış haqqında olardı - "Camış".

Bax, bu saat mənə ilişmək üçün heç bir əsas yoxdur. İnşallah, güzgü də, "Güzgü" də mənə sədəmə yetirməzlər. Haqqüçünə, mənim güzgülük bir işim də yox. Əl atmışam otaqlarda tığ vuran qaralamalarıma, neynim ki bu çıxıb. Bambaşqa bir mövzu, tamam özgə bir hekayə də ələ keçə bilərdi. Kim istər başına bəlalar açılsın.
Görən, bəla həvəskarları da olurmu?

Hələ mən güzgülərdən başıma gələn əvvəlki vaqiələri danışsam, tükləriniz biz-biz olar. Yoxsa bir-ikisini danışım? Danışdıım...

Bir gün məni Şeytan aldatdı: "Güzgü" hekayəsini əlyazma variantından kompüterə köçürmək istədim. Asta-asta işləyir, hər köhnə əlyazma cümləsindən sonra beş-on təzəsini fırıldadırdım gedirdi. On-on beş abzası keçmiş olardım. Durub gedib bir-iki qurtum su içib gələnəcən, ay dəcəl qızım, backspace düyməsini basasan - tapdığım təp-təzə sözlər uçub getdi havaya. Hayıf onlara. Bu indikilərsə tamam başqa sözlərdir. Adam fantaziyalarında ən müxtəlif səmtlərə gedib çıxır. Gedib ağlına gəlməyən cəngəlliklərə də girirsən.

Məndə bir hekayəni istənilən sayda təzə variantlarda yazmaq qabiliyyəti var. Söhbətdən belə çıxdı.
Bir dəfə də "Güzgü" üzərində işləyərkən şərlənib həbsə atıldım. Onsuz olan olub,

torba dolub. Allah haqqı, cinayət etməmişdim. Eləsəydim, mərd-mərdanə deyərdim eləmişəm. Bu saat hekayəmin içindəcə, bu xəlvət yerdə məni asıb-kəsən yoxdu ki. Biləsiniz, ədəbi əsərlərin içərisi dünyanın ən təhlükəsiz yerlərindəndir. Elan edirəm: haqsız təqib olunan insanlar üçün şer və hekayələrimin qapıları taybatay açıqdır. Bura əli tapançalı qoçu da girə bilməz. Oğru-quldur yalnız kənardan boylanar, axır rədd olub gedər.

Nəyə desəniz and içərəm ki, gələcəkdə cinayət eləmiş olsam, dərhal boynuma alacağam. Cinayətə uyğun cəzanın çəkilməsində bir özgə ləzzət var. Cinayət müəyyən mənada şərəfli işdir; bu şərtlə ki, motivində əxlaq dura. Qətllə qətldə, qatillə qatildə fərq böyükdür. Oğrudan oğruya, ekspropriatordan ekspropriatora halaldır. Sənin bir gözünü deşib yerindən çıxaranın sən də yalnız bir gözünü deşib çıxarsan, bu, cinayət sayılmayacaq. Sadəcə, ehtiyatlı ol ki, qaş düzəltdiyin yerdə vurub ikinci gözü çıxarmayasan. İkinciyə keçsən, deməki, artıq cinayət keçdi sən tərəfə. Onda gərək gözləyəsən ki, ədalətin bərpası naminə gəlib sənin də ikinci gözünü çıxarsınlar.

Güzgüylə bağlı işimdə ədalət qismən bərpa oldu. Amma ta ölüm-zülüm ha. Anadan əmdiyim süd burnumdan gəldi. Mən, hüquq sahəsində qeyri-peşəkar, yəni naşı bir insan, peşəkar, yəni nanaşı, həm də bir az nakişi hakimlərə haqqı güc-bəla sübut etdim. Məhkəmənin ortasındaca durub haqdan haqsız danışan hakimin qulağına mil kimi uzun bir söyüş soxasan, qala orda. Bax, bu özü olar haqq. Söyüşlər obyektiv zərurətdir, haqsızlığa tam adekvatdır. Bə xalqlar söyüşü nə üçün yaradır? Deyilməməyəmi?

Mətləbdən uzaqlaşmayaq. Sözü güzgüyə gətirirdim. Güzgü başıma bu cür oyunlar açıb. Ona görə də bu adda hekayəni acıqca başa çatdırmayacağam! Qoy elə alayarımçıq qalsın. Mağıl onda mənə vuracağı zərbə də güclü olmaz. Yəni məni qapsayası bədbəxtlik barı qoy alayarımçıq üzə çıxsın.

Yenə başdan başlayaq. Bu hekayə ilə məşğulluğumun Sizif əməyinə bənzəri var: tamamilə bihudəlik. Söhbət ondan gedir ki, əsərimin baş personajı olan Fərhad adında bığlı-saqqallı bir kişi uşaqlıqda anasını güzgülərdən qorxan görüb. Onda özü də bərk qorxub. Qorxu indiyəcən canından çıxmır. Güzgü artıq onun üçün qorxunc dünyanın rəmzinə çevrilmişdir. Tülküdənqorxanlıq əksərən ictimai xəstəlikdir; bircə onda güzgülər səbəbindən törənib. Rədd olsun insan surətini özündə əks etdirən əşyalar! Onların sırasında - tüfəng də, hətta AK da.

Qundaqları güzgüdən geri qalmaz. Əlində avtomat tutacaq deyə, müharibəyə-zada da getmədi. Xəstəlik sənədi düzəltdi. Vətənə biganəliyinin kökündə yenə güzgülər durur. Amma döyüşlərə getmiş olsaydı, “kalaşnikov”unun üstünə qara palçıq yaxacağını düşünmüşdü: qoy onda heç bir şey güzgüyə bənzəməsin.

Rəhmətlik anasının gəlinlik güzgüsü hələ də evin bəzəkli gözündə, miz üstə durur. Onu gəlin göstərməsi xatirinə, anası bədniyyətliyini güzgüyə bağışlamış, axıracan hörmətini tutmuş, onu əzizləmişdi. Başqa güzgülərə yenə etibarı yoxdu. Hamısı quru şərdi. İnsan güzgüyə baxmağa məcburdu, yoxsa ona vız atmaz da. Başqa nəyin gərəyidi ki.

Harda qaldıq?

Bu gəlinlik güzgüsündə otaq donuq tərzdə əks edir. Onun sayəsində bir bəzəkli göz iki bəzəkli gözə çevrilib. Əcəb addımlayıb bu ikinci gözə də keçmək ola. Qoy yeri gəlmişkən hamını müjdələyim ki, enli və uzun güzgülər vasitəsilə işğal torpaqlarını bir andaca vətənin içərilərinə çəkmək mümkündür. Sadəcə, onda işğal torpaqlarımız işğal olunmamış ərazilərə yüklənmiş olacaq. Torpaqlar hekayələrim kimi üst-üstə qalaqlanar. Başqa əlac yoxdusa, bunu da edək. Oturmuşuq: boş çanaqdı, vururuq dolu çanağa.

Fərhad öz surətiylə güzgüdə o qədər üz-üzə gəlib ki, artıq onunla dostlaşıb. Üz-üzə gələndə, bir-birinə gülümsəyirlər. Fərhad bir gün də görüşmək üçün ona əl uzatdı. Görüşdülər. Lakin bu görüşməklik barmaqucu alındı. Açığı, mehrini ancaq öz surətinə salıb. Həyatda dost tapmaq olur ki.

İnsan ekstremal vəziyyətlərdə bir tək vacib özünüqoruma instinktinə sadiq qalırsa, yoxdu dost.

Gəlinlik güzgüsü indiyədək sınmayıbsa, deməli, hələ də xoşbəxtdir. Ən azından bədbəxt deyil. Zindana-zada qatılırsan, ya səni qəbrə soxurlarsa da, bu hələ bədbəxtlik sayılmaz. Soruşula bilər: axı, qəbirdən də, həbsdən də o yanası var? Yox fikirləşənlərə var demək olar. Bax, sən hələ həbsdəykən, elə həbsin səbəbindən də, şöhrət zirvəsinə tullana bilərsən. “Bayıl” - şöhrət tramplinidir. Götürək qəbri. Bay, sən qəbirdə, heykəlin Bakıda – necədi səninçün? Burada xoşa gəlməyən yeganə cəhət nədir: səni uca Allah yaratmışdı, heykəlinisə dılğır bir heykəltaraş yapıb. Lakin guya sən qəbirdə daimi qalansan? Oradan cənnətə yollar uzanır. Cənnətə düşmək ehtimalısa hamıda hər zaman güclüdür. Hər kəs özünü cənnətə layiq bilir. Çünki ya bir vaxt qışda kiməsə qar verib, ya da yaralı barmağa siyiyib.

Güzgü hələ bütövdüsə, Fərhad indiyəcənki çətinliklərini bədbəxtlik saymağa əsas görmür. Deyən, əksinə, güzgü onun xoşbəxtliyinin təminatçısıdır. Kaş zəlzələ vaxtı alt küncünə o mənhus ellipsoid cızıq da düşməyəydi. Bir bu cızıq qanqaraldandı.

Artıq güzgü statistikasında gələcək bədbəxtliyinə dair qısa məlumat vardı.
Tək özündən ibarət ailədə güzgü stixiyası mövcuddu.

Qəzavü-qədər güzgülərdə sirr olaraq qalır. İnsan başını aşağı sallayıb boş işlər görməkdə. Bu dünya – fani.
İnsan boş iş yaradıcılığına məhkumdur.

Fərhadda fanilik duyğusu getdikcə güclənir, gücləndikcə də canı üzülür, başı qaçırdı. Bir gün yayın cırramasında iş-gücünü buraxıb Özbəkistana gedəsi. Arx qırağında uzanmış ətli-canlı bir əkə - "bu dünya fanidir, ondakı turist səfərləri də", ona deyəsi. "Sən turistsən?" – üstündən də gülə-gülə soruşdu. Fərhad dinmədi. Əslində o, turist olduğunu bilmirdi. "Turist" – bu söz bir az təntənəli səslənir. Fanilik duyğusu onun bu kasıb-ucuz ada layiqliyini də şübhə altına alırdı. O, turist deyildi, avara-sərgərdandı. Güzgülər onu səyahətin də sarsaq bir iş olduğu qənaətinə gətirmişdi.

Elə Daşkəndə çatan gündəcə geri qayıtdı. Onun gediş-gəlişi bir məkan informasiyası idi. Hamı öyrəndi-bildi ki, bəli, o, məkan yerdəyişməsi edib. Bu məkan yerdəyişməsində zaman faktoru vardısa da, zaman burada kiçicik və minimaldı, qabarıq deyildi. İnsanlar onun itirdiyi zamanı yox, məkandakı yerdəyişməsini görmüşdü. Amma nədənsə, o, bir tək zamanı qabartmaq istəyirdi. (Ölüm də zamanla gəlir). Onun üçün zaman əsasən keçmiş və gələcəkdən ibarətdi. İndi onun gözünə görünmür; çünki fanilikdə qarışıqdır. Əfsus, keçmiş də ona tarixlər şəklində - təhrif olunmaqla çatır. Gələcəksə - naməlum və qaranlıq. O artıq gələcəyi fərz edə bilmirdi. Gələcəyi idarəolunmaz durumdaydı; üstəlik də, ona əli çatmır. Düzdü, inersiya üzrə gələcək qabaqdan gəlir. Ancaq gəlib çatacaqsa, onu necə yaşamalı? Əcəb gələcəyi ixtisara salasan.

Gələcəkdə onun həyatı ilə bağlı maraqlı informasiya nəzərə çarpmırdı.

Fərhad güzgülərdən qaçdığı qədər də get-gedə onlar səmtə qaçır. Həmişə qorxduğu-çəkindiyi bu əşyanın indi hey təzələrini almaqdaydı. Demək olar - hər gün. Demir də onların sayı çoxaldıqca, hansınınsa sınma ehtimalı artır. Evdə fəlakət kabusu dolanırdı. Fərhad ona mane olmur da. Neynək. Fəlakətdi - qoy gəlsin, lazım olar. Barı qoy gələcəyin içindəsə bir şey olsun; gələcək boşa getməsin.

Ağlına batıb: evdə güzgülərin çoxalması gələcəyi məzmunlu edəcək.

Fəlakət məzmun gətirən şeydir.

Günlərin bir günü aldığı beş-altı güzgüdən girdə birisi sferik çıxdı. Bahalısı yerinə ucuzunu-qüsurlusunu soxuşdurmuşdular. Bu sferik güzgüyə baxar-baxmaz gözlər həm yaşarır, həm də ağrıyırdı. Hələ göz cəhənnəm - baş. Sferikdə üz necə dartılırsa, insan Şeytana bənzəyir. Özün özündən qorxub-hürkürsən. Sferik güzgü

insandakı bütün yaxşı keyfiyyətləri silir, yalnız şeytaniləri saxlayır. Yaxud bu güzgü insandakı şeytaniliyi faş edir. Şeytanlıq insanda daim var.

Əslində insan daha çox şeytanidir, Şeytan daha çox insani.

Heç bir güzgüyə toxunmamaq. Xoşbəxtliyin açarı tapılmışdı. Həyat prinsiplərini düzənləyib. Artıq mənzildə baleronlar kimi barmaqucu gəzişir. O, xoşbəxtlik səmtə yalnız baleron kimi gedə bilərdi.
Otaqlar və mətbəx, hətta tualet də, güzgülərdə bərq vurur. Çöldəki bütün işıqlar içəridəydi. Təkdisə də, mənzili adamla doluydu. Addımbaşı onlarla burun-buruna gəlir. Fərhad evin tən ortasındaca dayanıb qabağa-dala, gah sağa, gah sola devikir. Axır elə məqam yetişdi ki, o, yerindən tərpənməyə belə cürət eləmədi. Ac-susuz qalmağa razıydı, gələcəyinin çiliklənməyinə yox. Yox, ürəyinə damıb: gələcəyi qısalır.
Ehtimalları düz çıxdı.

...Düz üç həftədən sonra onun meyidini qonaq otağında tapdılar. (Orada üçü də çıxıb, yeddisi də). Hər güzgüdə də bir meyit radial istiqamətdə uzanmışdı. Döşəmədə - qurumuş sidik gölməçəsi mənzərəsi. Mənzərənin dəqiq təsvirinə çalışaq: bu gölməçədə konkrement adacıqları varmış.
Burnunuzu tutun ki, insan mənasız görünməsin.

12. VIII. 1996 – 13. II. 2008

## "ŞAHZADƏ DİPENDRANIN MƏHƏBBƏTİ"

Xəritədə Nepal Çindən aşağıda, Hindistandan yuxarıdadır. Oranın öyrənilməyə la-yiq flora-faunası fonunda məhəbbət fanatikcəsinə olurmuş. Hamı televiziyadan xə-bər tutdu: Nepal şahzadəsi Dipendra eşq yolunda qətllər yapıb, öz kral ailəsinicə qırıb-çatıb. Baho, özü də bu, qart kişi olanda sevib ki. Otuz - az yaş deyil. Burda bircə şey qaranlıq qalır: nə əcəb, indiyəcən sevgini-zadı dadmayıb.

Əlbəttə, müəmmalar sonrakı təhqiqatların mövzusudur. Allah bilir, bəlkə otuzuna-can min cür fırıldaqdan çıxıb. Bu eşq fırıldaqları əslində Nepal xalqının sirridir. Düzdü, nəzəri cəhətcə vəliəhdin adı fırıldaqlarda hallana bilməz. Ancaq biz - yer dibindən çıxanlar, dor dibindən qaçanlar, hallandırırıq. Bizə nə var! Araz aşığımız-dandır, Kür - topuğumuzdan. Hər şeyi öz arşınımızla ölçür, heç düşünmürük də ki,

otuz yaşındakı sevgi əvvəlki illərin fərz olunan bütün lotuluqlarını istisna edir. Sevgidən əvvəlki - yalnız təmizlik-paklıq dövrüdür. Fırıldaqlardan sonra sevgi - mümkünsüzdür. Fırıldaq sevgidən sonra bəlkə ola da bilər, ancaq əvvəl - qətiyyən.

Dipendranın ilk məhəbbəti, mənim fərziyyələrimə görə, 16-17 yaşlarına, bəlkə bir az da əvvələ, düşməli idi. Onda da sual doğur: məhəbbət olubsa, bə niyə səs-sorağı çıxmayıb? Axı, sevgililər qovuşmayıblarsa (otuzunacan subaylıq bunun sübutudur), ortada bir faciə baş verməli idi. Çünki söhbət elə-belə adamdan yox, şahzadədən gedir. Şahzadənin qovuşmayacağı sevgili təsəvvürə gəlmir. Ya da faciə olmağına olub, ancaq bunu çataçat ört-basdır ediblər. Kral ailəsinə faciə yaraşmaz deyə, informasiyanı saraydan dışarıya sızmağa qoymayıblar. Millət kral ailəsindəki faciələrdən xəbər tutmamalıdır.

Xəbər tutmadısa da, deməк, faciə yerli-dibli yoxdur. İnformasiyaya çevrilməyən hadisə yox hesab edilməlidir. Kim bilir, bəlkə də şahzadə Dipendranın 16-17 (ya 14-15) yaşlarından 30-na qədər sevdiyi gözəlləri, alimənsəb kral ailəsi üzvlərinin öz tapşırığıyla, xüsusi xidmət orqanları boğub öldürüb.

Ya Şərq üslubunda - zəhərləyiblər. Dipendra təmiz baladır, bəlkə sonra kimi görüb, yenə sevib də. Hər dəfə də oxu daşa dəyib: sevgililərini ona layiq bilməyiblər. Onları ləkələməyə ehtiyac duymayıblar da, sadəcə, qətlə yetiriblər, qurtarıb gedib. Şahzadə Dipendra bəlkə sonralar qəbirlərinin yerini bildiyi sevgililərini ziyarət edib də. Xarakteri lirik-emosional tərzdə formalaşıb. Dipendra otuz yaşınacan ölən (öldürülən) sevgililərinin xatirəsi ilə yaşayıb.

Bu xatirələr heç vaxt saralıb-solmayıb. Şahzadə könlü sevən gözəlləri qarışıq salmayıb. Əfsanələr yaranmayıbsa da, saray salnaməçiləri onlar haqqında hökmən xronikalar yazmış olar. Uzaq gələcəklərdə bu xronikalardan agah olan kimi xalq onları dərhal bədiiləşdirəcək. Katmandu arxivləri hələlik hamı üçün qapalıdır. Nepal xalqı öz kral ailə üzvlərindən bixəbərdir. Yoxsa onları ən azı kiçik nağıllara salardı.

Gələcək təhqiqatlar hər şeyi aşkarlayar, inşallah.

Şahzadə həyatının hələ başqa yozumları da mümkündü. Ola bilsin ki, xüsusi tapşırıq üzrə, mürəbbiyələri ona xala-bibiləri, cici-bacılarından savayı bir mələksima göstərməyiblər. O, gözəl-göyçək qızları yalnız fərz edə bilib. Ya onlarla kitablarda-romanlarda rastlaşıb. Yaxşıdı ki, xala-bibilərinə heyran olmayıb, onlara vurulmayıb. Hamısı da yeyib-yatmış, totuq-motuq, işarə qanan xanımlardı.

Odey, məmələri - şiş durub. Qocalmırlar da. Ola bilsin, şahzadə Dipendra onlardan bir-ikisiylə mazaqlaşıb da. Ayrı-ayrılıqda. Gizlində. Hərçənd tərbiyəli bir vəliəhdin

öz xala-bibilərinə tamah salmasını, onları qucaqlayıb altına basmasını xəyala gətirmək mümkün deyil. Ancaq bir iş var, iki əməl, dünyada olmayan şey yoxdur.

Düzdü, vəliəhdin min göz altında tərbiyəsindən yalnız sevgi doğula bilər. Olsa-olsa xala-bibilər özləri onu eşq oyunlarına sürükləyər, onu günaha batırardı. Biclik onlardan keçərdi. Bu gözəl balanın, igid uşağın sarayın hər hansı küncündə, kol dibindəki kimi, altına yıxılmağını onların hər biri özü üçün həyatın şirin neməti biləcəkdi. Bir sözlə, Nepalın kral sarayı sirlərlə dopdolu idi. Hə, ya da xala-bibilər hələlik özlərini qısar, ehtiraslarını cilovlayar, dombalan eşqlərinə kilid vurardılar.

Şahzadənin də ehtimal olunan istəklərinə yasaq qoyardılar. Hərə öz qızının dodaqları allanana, şamamaları çıxanacan. Onlardan hər biri şahzadəni böyük, ya kiçik - istənilən qızı üçün qapazlamağa hazırdı. Şahzadə evlənəndən sonra - hə, bu, başqa məsələ, arada hər şey gözlənilə bilər. Şahzadəyə hərəmxana nə lazım - xala-bibi və cici-bacı xanımlar ölüb bəyəm? Bəh, onda eyş-işrət xirtdəyə çıxacaq: inşallah, çimdikləşmədən tutmuş Dipendranı hər şeyə öyrədəcəklər. Gələcəkdə qurulası təzətər müqəddəs bir ailə naminə əxlaq hələlik vacibdən vacib olmuşdu. Guya gözlər toxdu.

Ancaq qızıyla ailə baş tutmayası ana vay-şivənə, fitnə-fəsada amadə durub. Saray saçyoldusuna hazırlaşırdı. Qırğın hələ qarşıdaydı.

Bu siçan-pişik oyunu vəliəhdin "yarı" yaşınacan çəkdi. Otuzunda Dipendranın gözü tamam yad bir qızı tutdu. Axı, bu onu haçan gördü? Haçan sevdi? Yox, nəzarət yarıtmaz olub. Onu yaxşı əyləndirməyiblər. Başını yaxşı qatmayıblar. Saray içrə başqasını şahzadəyə sevdirməklə "cinayət işlədənlər" var.

Onlar cəzalarına hökmən çatacaq. Sən təsadüfə bax: vəliəhd yad qızını xalalardan biri yatanda, ya bibi hamamda ikən görüb... Görüb və gözü tutub. Kombinasiyalar ən müxtəlif cürdü. Bu sevgi xala-bibilər üçün bir fəlakət kimi gəlmişdi. Qəzavüqədər onlarla aşıq-aşıq oynayırdı. Onsuz onlardan birinin qızı seçiləndən sonra da araları dəyəcək, pozuluşacaqdılar. Dipendranın toyundan sonra qapqara faciələr ehtimal olunurdu. Bütün hallarda Dipendranın xoşbəxtliyi şübhə altındaydı.

Vallah, Dipendra yaşın 17-də də sevib. Eynən mənim kimi. Ola bilməzdi ki sevməsin. Sadəcə, ilk gənclikdəki bu sevgisi faciəsiz ötüşüb. Onu ağrısız keçirib. Hər şeyi içində çəkib. Mən də Töhfəmi olmazın sevərdim. Amma nə olsun? Gözlərimin qabağındaca eşşəyin birinə getdi.

Faktiki olaraq, o, «eşşəy»i məndən üstün tutdu. Ancaq heç cınqırımı da çıxarmadım. Cınqırımı çıxarsaydım, artıq mənim yox, təzəbəyin namusu tapdanmış sayılacaqdı. Artıq mənim onu yox, onun məni öldürməsi borc olacaqdı. Əndrabadi bir situasiyaya düşmüşdüm. Deməliyəm ki, gənc insanda düz-əməlli namus-qeyrət olmur. Namus-qeyrət yaşnan gəlir, kimlərisə təqliddən doğur. Ya siftədən elə şey bir

balaca olursa da, ölüb-öldürməyə bəs eləmir. Onun "inkişaf"ınacan da lələ köçür, yurdu qalır.

Belə çıxırdı ki, Dipendra da 16-17 (ya 14-15) yaşlarındakı ayrılığa dözə bilib. Fakt göz qabağındaydı: dözüb ki, canı salamat qalıb da-a. Qaraçuxası üstündə, gözmuncuğu boynunda - gəzib-dolanıb, oxuyub-tərbiyə alıb. Vəliəhdin də tərbiyəsi, o, taxta çıxanacan çəkir.

Dipendranın ilk gənclikdəki nəzəri, fantaziya səciyyəli sevgisi mənim üçün bir təsəlliyə çevrildi. Yoxsa Töhfəyə sevgilərimin əlacsızlığına görə indiyə kimi özümü danlamış, indən belə də danlayacaqdım. Xəlvətdə özümə itin sözünü deyirdim. Acizliyimə yanırdım. Mənim Töhfəyə olan münasibətim zahirən Məcnunun Leyliyə məhəbbətinə bənzəmişdisə də, eşq başıma vurmamışdı. Ağlım-məntiqim yerindəydi. Məncə, Leyli də, Məcnun da təxəyyül obrazlarıdır. Uydurma və reallıqdan uzaq bir şey.

Kəllə suyu. Dipendra və mən - biz Məcnundan da bərk sevmişik. Ancaq dəli olmamışıq. Məcnun sənətkar təxəyyülündə dəli olub. Hətta sevgililərimiz ərə gedəndə də bizim ağlımız tərpənmədi, beynimiz yerindən oynamadı. İlk sevgisinə qovuşmağa heç kəsin yaşı çatmır. Yaşı da yox - təcrübəsi. "Təcrübəsi" deyəndə - taktiki gedişlər üçün müvafiq bacarıq və vərdişləri.

30-na qədər Dipendranın hər sonrakı sevgisi əvvəlkindən ağrılı olub. Yaş üstə yaş gəldikcə, sevgilərdəki dramatizm, şekspiranəlik artıb.

Mən Dipendra kimi olmadım; otuz yaşımda eşqdən-zaddan yan keçdim. Düzünü deyəcəyəm, başım kəsbkarlığa qarışdı. Eşq - vaxt tələb edir. Kral ailəsində doğulmadığımdan, ömrümün çoxu xırda-mırda işlərə gedib. İş-peşəm əngəlləri dəf etmək olub. İndi də eləyəm. Yox, əslində kral ailələri də əngəllərlə rastlaşır. Sadəcə, əngəllər keyfiyyəti və miqyasına görə fərqlənir. Üstəlik, bəlkə kral ailələrindəki əngəllərdən daha böyük dərdlər törənir. Yəqin kral ailələrindəki dərdlər ümumbəşəridir; onlar daha tez, özü də bütün dünyadan görünür. Belə baxanda, dünya çox kiçikdir; hamı kral ailəsinin dərdinə yaxındır.

Kasıb üçün əngəl məyusluqdan özgə bir şey verməz. Yaxud kasıbların münaqişələr zamanındakı şillə-qapazları kral ailəsindəki atəşlərə bərabər şeydir. Əlbəttə, mən atamı padşahdan-kraldan əskik tutan deyiləm (hamısı rədd olacaq). Sözümün canı ayrıdır: Dipendranın məhəbbətə gen-bol vaxtı olub, mənimsə yox. Həm də vətənində müharibə gedən bir insanın sevgi yadına düşməz. Az-buçuq qeyrəti olan kəs müharibədə sevgini ikinci plana keçirər, onun üçün belə şey gülünc görsənərdi. Hə, müharibədə sevgi - məsuliyyətsizlikdir. Ümumiyyətlə, sevgi bekarçılıq sənətidir. Ən çox da sülh dövrünə aid - planlaşdırılmamış bir şey.

Bəşəriyyət bekarçılıqdan doğub-törənir. İnsanı sevgisinə görə öyüb-şişirtməyə dəyməz. Üstəlik, axı, sevgi - hədsiz mübhəm işdir. Onun kollektivə, ya kollektivlərə nə dəxli. Sevgidə sosiolojilik, hətta patriotizm də, yox həddindədir. Mən ölkəmdəki müharibəni hər şeydən üstün tutmuşdum. Müharibəyə uyğun da qəlbimdə nifrətlər qaynayırdı. Müharibədə nifrətlər daha təbiidir, nəinki sevgilər. Nifrət müharibədə nə qədər realistikdisə, məhəbbət bir o qədər sürrealistcəsinədir. Sevgi sərt və acı həqiqətləri, eləcə qaranı da, çəhrayı göstərir. Çəhrayı - yanlışlıq rəngi, səhv yoldur.

Qoy ürəyimdə qalmasın, deyəcəyəm: müharibələrdə sevgilər bəlkə bir az da kəmağıllığa dəlalət edir. Mən müharibədə vaxtımı sevgilərdənsə nifrətlərə sərf edərəm! Sevgi - vaxt aparır, tüfeyli həyata sövq edir. Nifrətsə yaradıcı və konkretdir; onun ünvanı dəqiqdir, məram qətidir. Nifrətdə yenilməzlik var. Müharibədə tankı-topu olan yox, insanların vaxtını bir yerə cəm edən tərəf udur.

Güman, Nepalda müharibə-sülh problemləri Azərbaycandakından heç də az aktual deyil. Ancaq yəqin orda bütün bunlarla kral özü məşğuldur. Heç vaxt da şahzadə Dipendranın qulağı belə şeylərlə doldurulmayıb, ona müharibələrlə əziyyət verməyiblər. Ona müharibələrdən informasiyalar çatdırmaqla kifayətləniblər. Düzdü, bəlkə müharibə dərsləri keçilib də. Müharibə - vəliəhd üçün tədris fənnidir.

Hə, krallıq şahzadənin daha təbii-normal yaşamına şərait yaradıb. Müharibələr onun həyatını deformasiyaya uğradardı. Bir krallıqda barı təkcə şahzadənin həyatında harmoniyanın təminatı olduqca vacibdir. Birdən ölkəyə harmoniyanı görmüş insan gərək oldu. Harmoniya içərisində də - sevgilər... Hərçənd bu harmoniyanı da daxildən qurd yeyir: hər sonrakı sevgi əvvəlkindən faciənə olmaqla. İlk sevgilər olsa-olsa kimlərdənsə küskünlüklərlə müşayiət olunursa, sonrakılar - kəskin münaqişələrlə keçir. Faciələr mənhus təcrübələrin məcmusu və yekunudur.

Hə, atam hər hansı müharibəyə laydivar övladları, Nepal kralısa upuzun, məzmunu çətin anlaşılan fərman və sərəncamlarıyla kömək edib. Əslində mənim atam Nepal kralıyla müqayisədə daha böyük işlər görüb. Miqyas ölçüyə gəlmir. Övlad ölümü nəhəng humanitar qəza sayılardı. Atamın övladlarını həmişə şəhidlik gözləyib, kralınkılarısa - təmiz-tarıq bir həyat. Nepal kralı şəhidliyi öz ailə üzvlərinə rəva görməyib. Zira, ona həmişə elə gəlib ki, şəhid cənnətə-zada getmir; şəhidliyin əxlaqa zərrəcə dəxli yoxdur.

"Şəhidlik Comolunqma zirvəsidir", "şəhid ölmür" - bu cür-bu sayaq boş söyləmələr yalnız millətin saqqız kimi çeynəməsi üçündür; psixoloji treninqdən başqa bir şey deyil. Yoxsa kim göz-görəsi ölümə gedər! Kim canından bezib! Ölümə guya əbədiyyət eşqinə gedirlər. Amma, ala-ey! Halvadı əbədiyyət! Əslində atam da şəhidliyi yaşamaqdan üstün tutmurdu. Nağdı qoyub nisyənin quyruğuna niyə düşəsən: həyatın müvəqqəti olanı var ikən, "əbədi"sini neynirsən. Ancaq onun oğlanları "şəhidlik zirvəsi"nə məhkumdular; bundan qaça bilməzdilər də. Şəhidlikdən qaçan

- fəraridir, di qurtardı getdi. Artıq cinayət məcəlləsinin bir neçə maddəsi belindədir. Kral taxt-tacını itirərsə belə, bu, övlad itkisinə tay ola bilməz.

Zənnimcə, kral öz övladlarını nəinki müharibələrdən, hətta güclü sevgilərdən də qoruyurdu. Müharibə və sevgi - bunların hər ikisində od-alov və atəşlər var. Bəzən sevgi müharibədən dəhşətli olur. Şahzadə üçün sevgi əvvəlcədən qurulmuş plan çərçivəsində mümkündü. Kral ailələrində belə işlərin kökündə qeyri-insani, hətta şeytani məqsədlər durur. Burda irqi ayrı-seçkilik taparsan, hətta sinfilik də. Əslində sinfilik ictimai-siyasi formasiyaların hamısında var. Sinfilik - heç vaxt itmir.

Bayaq dedim, yenə deyirəm, mənim atam kraldan üstündür: ondan cəfakeşdir. Evlənmək işində də varlı-kasıblığa yox, mərifətə-əxlaqa qiymət qoyandır. İnsaniyyəti vacib sayır, adam insan olar, deyir. Düzdü, onun başqa "üstünlük"ləri də var: dövlətin bütün qanunları sanki onun adına yazılıb. Qanunlardan bir addım qırağa çıxarsa, adına cinayət işi açılar. Ona münasibətlər 180 dərəcə dəyişə bilirdi. Qanunlar içində öyülən atamı qanunlar dışında "söyər və döyər"dilər.

Qanunların dışında onu həbslər gözləyirdisə, qanunların "həbsində" - azaddı. Nepal kralı şahzadəni müharibəyə göndərə də bilər, göndərməyə də - külli-ixtiyar sahibidir. Göndərmir. Çünki kefi belə istəyir. Ancaq bax, elə burada da korlayır. Atamın qanunlardan çıxmağa, kralınsa qanunlara girməyə qüdrəti çatmır. Onlar bu qüdrətsizlikdə bir-birinə taydılar.

Heyhat, sevgi faciəsi mənə nəsib olmadı. Düzü, mənim Dipendraya paxıllığım tuturdu. O, bir tək atasının gicgahına güllə çaxsaydı belə, bu, dünyada böyük rezonans doğurar, hay-küy törədərdi. Bir adamla 11-n zurnası təxminən eyni cür çıxardı. Lakin o, aləmi qatdı bir-birinə, bir sürü adamı leş eləyib qoydu ora. Göz qızdısa, bə neyləməlisən. Din qaçdı, iman itdi.

Ya hirs gəldi, iman qaç. Kral, ya qeyri-kral - o, ailənin cəmi üzvlərini yerə sərmişdi. Qalın xalılar üzərində hamı biədəb tərzdə uzanmışdı. Ömrü boyu şahanə oturub-durmuş, qızılı libasları göz utandıran insanlar, üstəlik, əlahəzrət özü də - güllələnib hər cür etiketdən vaz keçmişdilər. Kübar rolu artıq vecsizdi; onlar aktyorluğu qəfildən yerə qoymuş, bir-birinin böyründə azad-asudə tirrənmişdilər. Qəti ayıbzad qanmırdılar. Xalı-xalçalardakı qırmızı ilmələr onların qanını olduğundan da parlaq göstərirdi. Kral uzun qıçını baldızının budu üzərinə rahatca aşırmışdı. Özü də - bir budunun.

Sanki ikincisinə - ədəb gözləmişdi. O, namus həddini haracan bilirdisə, oracan gedib dayanmışdı. Yaxud, bu ehtimal azdısa da, iki buda cürəti çatmamışdı. Qızların qırçınlı-qəşəng alt tumanları açıqca görsənirdi. Qana bulaşmasaydılar, xala-bibilərin qarabuğdayı, sürahi budlarını da aşkar görmək olacaqdı. Özü də baxan üçün artıq hansının xala, hansının bibi olmasının heç bir fərqi yoxdu. Bud buddu - onlar

dadlı və qəşəngdilərsə, ta ölən haqda digər məlumatlara nə hacət. Təptəzə mərhumələrin budlarında yuxarıya getdikcə azalan nöqtə-nöqtə incə tüklər nəzərə çarpırdı. Tüklü yerlərin öz erotik effekti vardı, tüksüz yerlərin də - öz. Ola bilsin ki, dünya hələ bu cür gözəl budlar görməmişdi; teleekranlardan görəsi oldu. Hamı gördü və qiyabi olaraq da onların ləzzətini duydu. Ekrandan fotolarını aldılar. Onanistlər çataçat öz işlərini gördülər.

...Kopoyoğlunun gülləsi kralın şirin canına adi adamlardakı sayaq girmişdi. Güllə üçün kastaların yuxarı-aşağılığının fərqi yox imiş. Hamı şoka eyni tərzdə düşürmüş. Dipendra atasını saxlayıb, təkcə anasını gəbərtsəydi belə, əfsanə üçün elə bu da kifayət edəcəkdi. Ata kimi ana da əfsanəlikdi. Düzdü, xala-bibilər əfsanələrə ayrı-ayrılıqda heç cür girə bilməzdilər.

Xalq onların zərif və yumşaq dərilərinəsə qiymət qoymaz, şahzadənin onları öldürməsi bəlkə adi cinayət də sayılmazdı. Kimdi onlara görə şahzadəyə cinayət işi açan. Kimin başı bədəninə ağırlıq edir! Kral ailəsində cinayət məcəlləsi işləmir. Ya tutaq ona iş kəsilərdisə də, uzaq başı növbəti milli bayramların birində əlbəəl əfv olunardı. Kral üçün əfv fərmanı nədir - bəzək-düzəkli oyuncaq bir kağız parçası. Bu fərman blankından atası Dipendraya uşaqlıqda gəmicik düzəltmişdi.

Nepalda "leyli-məcnun"ları çox-çox arxada buraxacaq təptəzə bir məhəbbət əfsanəsinin özülü artıq qoyulmuşdu. Kral ailəsi tam tərkibdə cəhənnəmə, ya ola bilsin, cənnətə vasil olmuşdu. İndi artıq bircəciyinin sağ qalması yeni tipli əfsanənin yaranışına xələl gətirə bilərdi.

Yox, kiminsə təsadüfən sağ qalması da yaramazdı. Yaralanıbsan, zəhmət çəkib ölməlisən. Kim ölməsə - işlər korlanacaq. Yaralıların böyük bir əfsanə xatirinə tezliklə ölməsi vacibdən vacibdi. Deyirəm, Allaha çox şükür, heç kəs sağ qalmadı. Şərqdə təzə və yanıqlı, daha təsirli məhəbbət əfsanəsi naminə bir kral ailəsinin qurban getməsi olduqca vacib imiş. Qəşəng bir əfsanə kral ailəsi həyatından qat-qat maraqlı və dəyərlidir. Yoxsa Şərq paslanmaqdaydı. Gec-tez oradakı yeknəsəqliyə son qoyulmalı idi. Qoyuldu da.

Mənim atam Allah rəhmətinə xəstəlikdən getdi. Çifayda, uzun ömründə mən ona bir çırtma da vurmadım. Düzdü, vursaydım da, kərəni kürə eləməyəcəkdim. Bircə çırtma nəmənə şeydi; əfsanəyə çevriləsi deyildi ki. Amma hər halda, cəmiyyətdə səs-səda doğurardı. Ən azı qəzetlər ağız-ağıza verəcəkdilər. İlahi, şöhrətin bu cürəsi də mənə qismət deyilmiş. Mən ümummilli ədəb qaydaları çərçivəsində özümü neytrallaşdırdım, məhvə uğratdım. Əlbəttə, atamla bağlı mən də bir iş görüb, əfsanəyə dönmək istəyərdim.

Əfsanə qəhrəmanı olmağı kim istəməz. Atamın qətli ən əvvəl onun özünə, sonra da

həm ailəmiz, həm də millətimizə gərəkdi. Neyləyim, əlim qalxmadı. Buna karlı səbəb görmədim. İş tutmayanda tutmur. Dipendra mənimlə müqayisədə dahi imiş. Yox, kişi oğlunun əfsanədə yaşamağa haqqı çatır. Dili də var, dilçəyi də, qoy getsin irəli. Xalq suyu mənim kimi üfürə-üfürə içənləri nağıla-dastana doldurası deyil ki. Düzdü, haçansa mənim də Dipendranınkına bənzər tərzi-hərəkətlərim olub. Bir dəfə atamı zəhərləməklə nələrəsə çatmaq istəmişəm. Qoy özümü tərifləyim, elə zəhərləmək də ataya münasibətdə fantastik addımdır.

Ata qatili - bu, bütün hallarda şöhrət gətirir. Sadəcə, məqsədə yetmək üçün heç vədə fövqəladə bir ideyam olmayıb. Niyyətlərim kiçikdən kiçik, cılızdan cılızdı: atanı öldürməyə bəs etməyən səviyyədə. Nə olsun, Dipendra da ömrü boyu atasına bir çırtma vurmayıb, bəlkə ona güldən ağır söz deməyib də. Lakin altdan-altdan yığırmış. Şahin kimi birdən üstünə şığıyıb. Öz aramızdı, çırtma nədir?

Ən əvvəl özün üçün təhqiramiz bir şey. Əfəllik və səfehlik. Güllələmədəsə ağayanalıq var. Əsilzadələr tarixlər boyu hər cür müşkül və tul işi atəşlərlə həll edib. Çırtmanı keçələ vurarlar. Həm də çırtmadansa, krala güllə yaraşar; kral keçəl olmuş olsa belə. Yaraşdı da. Nepal kralı çırtmayla təhqirdən yaxşı qurtuldu. Çırtma ehtimalı dərhal sıfıra endi. Gicgaha güllə - bu, fundamental bir əməldir.

Onunla cinayət məcəlləsinin uyğun maddəsinə birbaşa soxulur, orada çataçat öz yerini tutursan. Yeri gəlmişkən, Allah haqqı, mənim atamla rəftarımın ən qaba çağlarında da çırtma yadıma düşməyib. Zəhərlənənisə güllələməyə tay bilmişəm; elə bu da uca ölümlər sırasındadır. Atamın ölümü kralınkına oxşayacaqdı, bir az dəqiq desək, kralın ölümü - atamınkına. Axı, mən iyirmi il əvvəlin sözünü danışıram. Hə, atamın üstünə xoruzlanmalarım, mənim ona hərbə-zorbalarım hər hansı sevgiliyəzada görə deyildi.

Elə olsaydı, nə vardı ki. Üstündən illər keçib: indi onların səbəbini heç xatırlamıram da. Hər halda, bir vaxtlar "dolu" olmuş olsa da, indi "boş" görünürdü. Görün, qız üstündə də ataya əl qaldırarlar! Bu, azərbaycanlı üçün yuyulması müşkül ləkə olardı. Biz bu cür əfsanələrə qara qəpikcə qiymət qoymarıq. Bizlərdə milli əxlaqa zidd miflər yeriməz. Leyli-məcnunlarla fərhad və şirinlərə baxma, onlar ümumşərq həftəbecər şeylərdir. Durub onları da təmiz araşdırsan, bir heçə dönərlər.

Belə əfsanələr Qafqaz altına uzaq-uzaq məmləkətlərdən gətirilib. Görərsiniz, gələcəkdə Azərbaycana şahzadə Dipendra haqqında əfsanə də gəlib çıxacaq. Gəlib köhnələri sıxışdıracaq. Bə nə, dünya hərtərəfli təzələşir. Həmin əfsanə artıq Nepalda yaranma prosesindədir. Katmanduda məhəbbət Comolunqma zirvəsinə uyğun ucalıb. Deyəsən, Comolunqma nepallıları zirvələrə öyrədib. Hə, artıq əfsanə "istehsalat"ı işə düşüb. Bu, nepallıların pıç-pıçından, çömbələtmə ixtilatlarından törənir. Bu iş ölü nöqtədən

2001-ci ilin 1 iyununda çıxıb. Di gəl, indi mən burda sizə bir əfsanəyə gedəsi vaxtı

səhih hesablayıb deyə bilməyəcəyəm. Hər halda, yüzillərlə ölçüləndir. Mən bir neçə yüzildən sonrakı nəsillərə qibtə edirəm. Şahzadə Dipendra haqqında əfsanə dünyadakı oxşar əfsanələrə böyük bir əlavə olacaq: sanballı və gözəgəlimli. Hə, mən atamı vaxtında zəhərləsəydim, indi bəlkə biz də bir günə çıxar - əfsanələşərdik. İnan, əfsanələşməkdən ötrü ölürəm. Özüm türmədə oturacaqdımsa da, bayırdakı əfsanədə asudə dolaşacaqdım. Mən həmin əfsanənin içində türməyə - öz yanıma gələcəkdim.

Lakin Dipendradan fərqli, mən bu əfsanədə mənfi obraz sayılacaqdım. Nepalda ilahiləşdirilən ata qatili Azərbaycan şəraitində yamanlanasıdır; çox da bu qətl məhəbbət yolunda baş verib. Məhəbbət atadan üstün ola bilməz və olmamalıdır. Doğrudan da, bir mamlımatandan ötrü də atanı öldürərlərmi? Haşa və kəlla! Ata bir də ələ düşərmi? Dünya gözəlinin yüzü, hələ mən az deyirəm, atanın bir dırnağına qurban. Ata - öz varlığında yeganədir. Ata - bir fenomendir. Arvadları konveyer üsuluyla al da boşa, al, boşa. Bəyəm azalasıdır? Müsəlman dünyasında siğədən də asan nə var? Sən arvadı boy-buxununa, köklük-arıqlığına görə də seçə bilərsən. İxtiyar sahibisən.

İşdi-şayəd, bizdə "Dipendra əhvalatı" baş verərsə də, ata əfsanədə ancaq müsbət qələmdə gedəcək. Bax, mən buna beşəlli razıyam. Faciə qaçılmaz olacaqsa, barı qoy atam əfsanəyə müsbət obraz kimi düşsün. Dipendra haqqında əfsanədəsə ata (kral) idbar qəhrəman tipində görsənəcək. Kaftardan kaftar! Kral həyatda nə qədər humanistdisə də, artıq xeyri yoxdur, əfsanədə ifritəyə bənzəyəcək. Onun ömrü boyu etdiyi yaxşılıqlar yelə getdi. Hər şey kufənkuf oldu. Bizdəsə atam get-gedə ideallaşdırılar, hətta əfsanədə get-gedə göyçəkləşər, üzündəki gənclik çibanlarından qalma çapıq yerləri hamarlaşardı. Əfsanə kosmetoloji effektlidir.

O, əfsanədə şəkillərdəkindən hökmən göyçək alınacaq. Bəlkə onu heç tanımadım da. Kişi şəkillərdə həmişə eybəcər, bəzən hətta qorxunc düşərdi. Uşaqlıqda düşünərdim ki, anam bunu necə sevib. Sonra da öz-özümə deyirdim: mən necə sevirəmsə, o da elə sevib. Bir tərəfdən də yanıb-tökülürəm: hayıf, atamı öldürmədim. Məğıl kişi cəmi bir neçə yüzildən sonra təptəzə qiyafədə üzə çıxardı.

İlahi tərzdə. Artıq o, yaddaşların qızıl səkilərində gəzişəcəkdi, küçədə-bazarda yox. Bu fürsət əlimizdən çıxdı. Mən atama qıymadım; o bundan sonra cəmi 20 il yaşadı. Yedi-içdi, gəzdi-dolaşdı - sürdüyü bütün dəmlərdən sonra hamı kimi yatağa düşdü, dünyadan sakitcə köçdü. Yasında bir kəsin ağlamayacağını duyub, gələnləri ağı deyib zorla və zar-zar ağlatmaqdan ötrü məxsusi ləçər arvadlar tutmuşduq.

Onun ölməyi gözləniləndi, əbədiyyətə çatmağısa - yox. Onu əbədiyyətə mən göndərəcəkdim. Bu işi oğuldan başqa kim görər. Lakin alınmadı. Bacarmadım. Əlimdən gəlmədi. Çünki maymağam. Əbədiyyət mənim ona hədiyyəm olardı; oğulluq borcundan əməllicə çıxardım. Mənə verilən ucuz bir həyatın müqabilində - buyur, əbədiyyət! Bununla mən atamı şişirtmiş olacaqdım. Əbədiyyət mənim həyatımla

müqayisədə, həqiqətən, bahalı idi. Çifayda, o, 20 ilin badına getdi. Millət şanslı bir əfsanəni, atamsa təsadüfən ortaya çıxmış əfsanələşmək şansını itirdi. Eh, yazıq atamın qismətinə haçan yaxşı şey düşdü ki!

Bir xoş gün görmədi. Daim zillət içində yaşadı. Axı, mən əfsanədəki müsbət qəhrəman obrazına zəmanət verirdim. Bu elə-belə şey deyil. O, əbədiyyətdə seviləcəkdi. Quru canına dəymədim, nə oldu, indi onu beş-üç nəfərdən savayı hamı unudub. Bu, yaxşıdı bəyəm? Qalır anam... - onun əfsanələşmək şansı hələ durur. Bəlkə onusa əbədiyyətə çatdırdım. Ürəyim atlanırdı. Ancaq bu imkan da sonsuz deyil ha, beş-on illikdir. Lakin o, müqavimətsiz, incə və zərif bir məxluqdur. Dişləri - inci sırası; özüm düzəltdirmişəm. İndiyəcən də bir qarışqanı tapdamayıb. Onu lappadan necə öldürəsən.

Vallah, onun da qətlinə heç bir səbəb görmürdüm. Barı hərdən adamı cinləndirə! Amma yox, acı sözü bal dadır. Üstəlik, axı, dişlər də gərək bir az gedə... Xərc batmasın. "Can-bala" sözündən bezmişəmsə də, o da əbədiyyətdən qaldı. İndi mənim oğulluq borcum onun ömrünü bir balaca uzatmaq, quru-taxta canını indən belə beş-üç il də yaşatmaq olacaq. Mənim olsa-olsa buna gücüm çatar. Beş-üç də yox, tutaq lap 5-10, ya 10-15 il, di vəssalam. Ayrı neyləyə bilərəm: əbədiyyətə düşsün deyə, durduğu yerdə gözlərini deşməyəcəyəm ki. Yox, anam da əfsanəlik deyilmiş, mən bu halətlə barışmalıyam. ...Gözlərinə döndüyüm Dipendra anasını o dünyaya bir neçə göz qırpımında göndərdi. Heç "uf" da demədi. Heç mən buna cürət edərdim?

Ürəyim nazikdir. Ürək deyil ki - yuxadır, yuxa! Özü də Dipendranın anası mənimki kimi laqqa-taraqqa deyildi. Atmaralı bir şeydi. Yeriyəndə, ayağı altında yer titrəyirdi. Dalı şişək quyruğu kimi yırğalanır, sağa-sola yellənirdi. Sağlığında yanaqlarından qan damardısa, ölüm anlarında yırtıq kran kimi ora-burasından qan fışqırırdı. Ölüm qaşla göz arasında imiş. Oğlu ona onun oğluna sevgilərini dəlib keçən güllələr atdı. Güllə anaya onun xəfif təbəssümlərinəcə bulaşıb dəymişdi.

Güllələrin giriş yerlərində narıncı-işıqlı halələr yaranmışdı; deyilənlərə görə, bu, məhz təbəssümlərdən ola bilərdi. Bunun başqa yozumu yoxdu. Hə, ana bircə anda göylərə milləndi, quş kimi əfsanəyə səmt götürdü. Ata da, bacılar və qardaş, xala və bibilər də - bir-birinə qoşulub getdilər. Hamısı birdən. Göy üzündə elə bil boz bir durna qatarı süzürdü. Videokadrlara çəkilmədiyindən, hansının əvvəl, hansının bir az sonra güllələnməsi hələlik qaranlıqdı. Düzdü, gələcək əfsanə üçün belə şey sən deyən önəm kəsb etmir. Önəmlisi budu ki, hamısı leş olmuşdu. Özü də gör kimdən ötrü - bir nazənindən, bir canandan.

Bu qətllər nepallıları yeni əxlaq parametrlərinə çıxardı. Elə san, Nepalda humanitar bir inqilab baş verdi. Onlar cəhalətdən, ətalətdən qurtuldular. Nepal xalqı işıqlaşdı, gözəlləşdi. Şərq Qərbi ötüb keçdi. Nepal ən azı terror sarıdan Qərb ölkələrinə oxşadı. Qoy Qərb eşitsin və bilsin: qüvvətli insanlar hər yerdə var! Gücü və gözəlliyinə

görə, Qərbdə belə məhəbbət hadisəsi haçan görünmüşdü? Şahzadə Dipendra Nepalın tərəqqisi üçün qığılcım törətdi. O bir vəliəhd kimi gələcəkdə 30-40 il kral olacaqdısa da, bu bir neçə dəqiqədəki qədər böyük iş görməyəcəkdi. Fərman və sərəncamlar içində itib-batacaqdı. Hə, onun haqqında gələcək əfsanə "Şahzadə Dipendranın məhəbbəti" adlana bilər. Ad hökmən romantik olmalıdır.

Onsuz Dipendranın sonda özünə qıyması da bu romantikanı şərtləndirir, hətta onu gücləndirir də. Məhəbbət əfsanələri romantikasız mümkün deyil. Qəzetlərdə Dipendranın aşiq olduğu qız həqiqətən gözəldi; gələcəkdə kral xanımı olmağa layiqdi. Adam hərdən fikirləşir ki, kral xanımı hökmən gözəl olmalıdır. Niyə də yox? Dünyada gözəllər dura-dura yazıq kral gedib kifiri seçməyəcək ki! Kral xanımının gözəlliyi həm də dövlət atributu kimi bir şeydir. Hə, o, döşlü-başlı, bununla belə zərif və lətafətli bir məxluqdu.

Adam hələ onu ağ-qara qəzetlərdən happ eləyib udmaq istəyir, onda qalmış rəngli jurnallardan ola. Dipendrada nə günah. Happ eləyib uda bilmədiyimdən, mən də ona qəzetdən aşiq olmaq zorunda qalmışam. Görən, o, əfsanədə necə alınacaq. Elə şəkildəki kimi döşlü-başlımı? Hələ qəzet səhifəsindən də onun dodaqlarının balışəkəri üzə çıxırdı. Gəl gör mən onu həyatda görəm: ansızın şoka düşərdim. Heç mən ona barmaq toxundura bilərəm: dərhal ürəyim dayanar. Gözlərində hiylə yox, məkr yox... Dipendra o gözləri necə unudaydı!

O gözlər uğrunda külli-Nepalı qurban vermək də olar. Mistik planda nepallıların cümləsinin dəyəri bir məhəbbətcə deyil.

Bu saat mən sözləri yan-yana düzə-düzə Dipendra haqqında məhəbbət əfsanəsini qabaqlamaqdayam. Şəkk gətirməyin, indi bəlkə mən əfsanədən də qüdrətli bir şey yaratmaqdayam. Qoy 300-500 il müddətində əfsanəni də düzüb-qoşsunlar, onu mənim bu hekayətimlə tutuşdursunlar. Bəlkə də zaman mənim yazdığımı əfsanədən üstün tutacaq. Düzdü, mənim hekayətimdə sənədlilik güclü görsənəcək; bəlkə bu bir qədər nöqsana da bənzəyəcək. Hekayətim ona görə sənədlidir ki, özüm zamanca fakta yaxınam.

Faktı buraxıb uydurmalar yazmayacaqdım ki. Onsuz fantaziya həyat faktları mürəkkəbliyində şeyləri uydura bilmir. Əlimə halva bir material düşmüşdü. Həyat qatmaqarışıqlıqda qarabasmalardan da irəlidir. Bu hekayətimi indidən Nepalda dərc elətdirmiş olsam, əlbəttə, xalq əfsanəsi daha yetkin alınar. Filhəqiqə, xalq gördüyü faktlara sənədli hekayəti də əlavə etsə, onun əfsanə təcrübəsi fısqırıq gözəl olar. Xalqa bədii nümunə həmişə vacibdir, çünki o, əslində küt bir varlıqdır.

Onun qulaqları bədii informasiyalarla mütəmadi doldurulmalıdır. Hə, ya da bu hekayəti internetə saldırsam, kral ailəsi faciəsi faktına əlavə kimi nepallılara ərməğan edərdim. İnformasiya bolluğunda millət yaxşı düşünər. Düşünüb-daşınar. Öz həya-

tını bir daha götür-qoy edər. Qoy Dipendra haqqında əfsanə bu yazımdan "qidalanmaq"la, dünyanın şah əsərinə çevrilsin. İnsanlıq köhnə məhəbbət əfsanələrindən bezib, artıq onlardan çiyrinib. Hər halda, mənim bu bədii versiyamın heç kəsə ziyanı dəyməz. Axı, mən nə deyirəm ki. Bir kəsə dərd demirəm, çor demirəm. Hekayətim sayəsində gələcək əfsanə daha təsirli alınar, üstəlik, onun içində mənim də ruhum yaşayar.

Dipendranın sevgilisi qaçıb Hindistanda gizlənibsə də, onsuz əfsanədə onu hamı görəcək. Onun fotorobotu mənim hekayətimdə artıq görünməkdədir. Adı Devyani olan qız əfsanədə dünyanın hər yerindən Günəş kimi görsənəcək. Onu yalnız əfsanədən tutub cinayət məsuliyyətinə cəlb etmək mümkündü. Onun tutulmağına da minimum 300-500 il vaxt lazımdı. Gərək gözləyəsən ki, əfsanə tam yetişib üzə çıxa, ordakı obrazları fərqləndirmək ola. Əfsanə hekayə deyil ki - becid yazıla.

Əlbəttə, mən hekayəmə var gücümlə proteje eləyərəm. Kompüterçidən tutmuş qəzet-jurnal baş redaktorlarınacan - hamıya zor göstərəcək, bir növ, onları hər dəfə dümsükləyəcəyəm. Hər hansı millət özlüyündə bu sayaq əməlləri bacarmır. Onlarınkı qocafəndidi; əl-ayaqları tərpəşincə dağ-daş dilə gəlir. Xalqlar daim eyni üslubda - hadisəni dildən-dilə ötürməklə işləyir. Ancaq indi bu üslub bir qədər bəsit və primitiv görünürsə də, əsaslı şeydir. Mən buna primitivlik də yox, primitivizm deyərdim. Dastanlar-saqalar, ələlxüsus əfsanələr, primitivizm janrında yazılır. Əvət, mən hekayətimin arxasında durmuşam.

Onu tez də öz layiqli mərtəbəsinə ucaldacağam.

Hə, Dipendra haqqında əfsanə tədricən yaranacaq. Belə baxanda, əfsanə başsız-sahibsiz şeydir. Lakin yarandısa, artıq əbədidir. Mənim bu hekayətimi yəqin hamı müvəqqəti sayacaq, hərçənd məhəbbət mövzusunda əbədi də ola bilər. Sınaq - qabaqdadır. Əfsanə də əbədi, mənim hekayətim də - bu, xeyli gülməli çıxacaq. Onlar əbədiyyətdə yarışacaqlar. İlahi, görən, Nepal xalqının gələcək nəsilləri bunlardan hansına üstünlük verər! Hayana dönə, əfsanə də mənim hekayətim kimi faktologiya üzərində qurulacaq. Kim nə deyir desin, əfsanələr də sənədli əsərlər sırasındadır. Ədəbilik əbədiliyin təminatçısıdır.

Boynuma almalıyam ki, Dipendra məhəbbətdə məni yaman üstələyib. İndi onunla fərqimiz yerlə göy qədərdir. Bu saat o, göylərdə qanad çalır, mən isə, ay budu-ha, yerdəyəm və sanki dəftərxanaçılıqla məşğulam. Özü də özümdən hekayət quraşdırıram. Bu hətta bir mühasibat işi kimi nəzərə çarpır. Necə güclü hekayə yazmış olsam da, bu, məhəbbət uğrunda ölməyin yerini verməyəcək.

Dipendranın əhvalatı olub da, qurtarıb da, burda mənim rolum olanların burun-qulağını kəsib-düzəltmək, quraqları yamamaqdı. Elə san naşı bir kosmetoloqam; real və gözəl faciəni əslində deformasiyaya uğradır, birini deyib, birini deməməklə gə-

ləcək insanları indidən çaş-baş salıram. Elə xalq özü də daim özünü aldadır. Əfsanələr həmişə təhriflərlə başa varır. Bəyəm reallıq belə gözdən düşüb? Folklor reallığın dəyişdirilməsi, qol-qabırğasının sındırılmasıdır.

Dayan, deyən, mən burda ucunu tutub ucuzluğa gedirəm. Dipendra bir tək məni yox, Məcnunu da, Fərhadı da üstələyib. Fərhad onun yanında kimdi - qara bir fəhlə, Məcnunsa - bambılı bir şey: sərsəri, səfeh-sərgərdan. İndiyəcən Şərq leyli və məcnunlar, fərhad və şirinlərlə formalaşıb. Şərq elə ona görə Qərbdən geri qaldı da-a. Heç cür irəli getmir; elə bil kəl-arabası palçığa batıb.

Sız-sız sızıldamaqla hara uçmaq olar? Belədə yalnız kəllə-mayallaq aşağı gəlmək, gedib qəbrə girmək mümkündü. Şərqdə müharibələrin təkmilləşdirilməsi də bu sızıltılar ucundan müşkülə düşüb. Ağlayıb-sıtqamaq nə qədər olar! İncəvara, 2001-ci ilin 1 iyunundakı hadisə mənzərəni kökündən dəyişdi. Bu "cinayət" Şərqi xeyli irəli atdı. Bay, 11 adamın qətlinə çaşıb "cinayət" dedim. Vərdişdəndi: axı biz qətlə binayi-qədimdən "cinayət" demişik. On bir ölüm - bir sevgini əbədiləşdirmək üçündü. Bir məhəbbət kral ailəsini yastılatdısa da, Şərqin başını uca elədi. Bu məhəbbət Şərqə mədəniyyətlərin hıqqana-hıqqana yüzillər boyu verdiyindən çox şey verdi. Dillər əzbəri olan məhəbbət süjetləri ildırım sürətilə köhnəldi. Gələcək nəsillər daha gözəl bir məhəbbət əfsanəsinin fakturasını əldə etdi. Bu, bəşəriyyət üçün göydəndüşmə oldu. İndiyəcən o, ideoloji qətllərə ilişib qalmışdı, heç nə yaradıb-yapa bilmirdi. Faşizm və kommunizm dövrünün qurbanları havayıcana fələyin badına getdilər.

Onlardan romanlar-zadlar yazıldısa da, barı sonradan-sonraya dərin əfsanələrə keçilmədi. Dipendra faciəsinin yalnız faktoloji materialı bizim oldu. "Bizim" deyəndə - külli-insanlığın. Hə, görək fakturada nəyimiz var: 11 ölü, kral sarayının güllələnmiş divarları (dəlik-deşiklərin sayı dəqiqləşdirilir), Hindistana qaçan sevgili (Devyani adında), bir də qəfildən peyda olan, haradansa Nepala dönən dozanqurdu bir əmi. Beləliklə, hamı gördü ki, fakturadan ölülərlə yanaşı bir dənə də diri keçir. Bu yeganə diri tezliklə kral olası idi. Şahzadə Dipendra özü ənənə üzrə üç-dörd gün kral oldu: yəni ölənəcən, şok halında, "cani" durumunda. Devyani də hayana qaça, artıq xeyri yoxdur - gec-tez əfsanəyə məsrəf ediləsidir.

İndiki bəşəriyyətin bəxtinə sənədli material düşüb; əslində buna da şükür. Əfsanə isə gələcək nəsillərin qismətidir; bədii şey onlarındır. Hərçənd mən də "bədii şey" adına bu hekayətimi indiki bəşəriyyətə sırımaqdayam. Bir yandan da, axı, sənədli əsər bədiidən belə aşağıdır? Ondan belə hörmətsizdir? Ancaq yenə ürəyim dinc durmur, arxadan sinəmi döyəcləyib məni hey insafa çağırır. Əfsanə faktologiyadan həmişə üstün bilinib, indi də bilinir. Mən fikir vermişəm, hər hansı əfsanə illər keçdikcə daha da dərinləşir, onun məna qatları getdikcə çoxalır. Dipendra nəinki Nepalı, hətta bütün Şərqi yeni yaradıcılıq üfüqlərinə tulladı. Bir tək Şərqi yox, elə Qərbi də. Lakin Dipendra əhvalatının Qərb təcrübəsində necə üzə çıxacağını heç cür anışdıra bilmirəm. Hərçənd Qərb mühafizəkarlığı da Dipendranın faciəsinə göz

yuma bilməyəcək. Qərb gec-tez öz uydurma Romeo və Cülyettasından utanacaq, usanıb onlardan əl götürəcək. Onsuz artıq hamı bezikib.

"Dipendra və Devyani" "Romeo və Cülyetta"dakı saxtalıqları aləmə faş edəcək. Qərb öz yalançı eşq macəralarına nöqtə qoyacaq. Axı, hap-gop nə qədər olar! Mən gələcəyin gül kimi əfsanəsini indidən gün kimi aydın görürəmsə də, əfsus, özüm onun içində bulunmayacağam. Kimdi məni sayan, bəh-bəhlə ora salan. Mən gələcək əfsanədən bilmərrə əlimi üzmüşəm. Yazım səhv yazılıb. Ancaq bir tək mənim yox, elə hamının. Qismətimizə ölüvay insanların gülünc sevgi nağılları düşüb.

Başlarına qapaz vur, çörəklərini əllərindən al. Şərqdə qüvvətli insanların güclü məhəbbətləri olubsa da, indiyəcən dünyaya qapalı qalıb. Qüvvətli insanlar, sadəcə, evləniblər, bununla qurtarıb gedib. Durub arvaddan ötrü ağlamayacaqdılar ki. Gözlərinin müzüyünü axıdaydılar? Bir də kimin ağzı nəydi, deyiklilərini onlara yasaq buyuraydı! Ancaq budur, təsadüfən bəşəriyyətə qüvvətli insan haqqında qüvvətli də bir faciə nəsib olur. Ədə, sən bu qara-qura nepallıların qızıl bəxtinə bax da-a. Gələcək insanlar indikilərdən fərqlənəcək; təzə əfsanə sayəsində onlar daha gözəl və mənalı olacaqlar.

Mən hələ də gələcək şəxsi faciəm barəsində ümidliyəm. Qocalıqda yorğalıq edib coşğun bir sevgiyə düçar olmuş olsam, əngəlləri aşmaq üçün cinayətə də əl ataram. Niyə atmıram ki. Kimdən əksiyəm. Mənim cinayət yaşım bəlkə də qocalıqdadır. Ancaq görən, mən də 11, ya barı 7-8 adamı birdən qanına qəltan edə bilərəmmi? Vay-vay, hoqqa çıxdı ki:  ailəmizdə heç onun yarısı qədər adam yoxdur. Bə mən öldürməyə adamı hardan tapım! Üstəlik, indiki zəmanədə əfsanəyə silahsız girmək mümkünsüzdür.

Yox, yox, məndən əfsanə qəhrəmanı çıxmaz. İndidən özümə badalaq gəldim, prokurordan-müstəntiqdən qabaq görəcəyim işə özüm "cinayət" adı verdim. "Cinayət" sözünün bəri başdan işlədilməsi insanın əlini hər işdən soyudur. Həm də bu "cinayət"ə görə gec-tez tutula bilərdim; əfsanənin içində olsam belə. Əfsanənin "sərhəd"ləri şəffafdır. Hə, kimisə öldürməyə qəmədən-bıçaqdan savayı nə tapa bilərəm? Heç nəyə gümanım gəlmir.  Soyuq silahla uzağa getmək olmaz. Onların ən itisi də yarıtmaz sayılmalıdır.

Dipendranın silahlarısa növbənöv, hamısı da qəttəzə. Silahla oynamağı, onunla jonqlyorluğu da gözəl bacarırdı. Kral ailələrində ilk-öncə silahla davranmağı öyrənirlər; onların buna ixtiyarı çatır. Onlar üçün silah - həm humanitar, həm də dəqiq elmlər əvəzidir. Adam öldürmək aristokratların yaraşığı, onların başucalığıdır. Onlar adam öldürməsələr, yazıq görsənərlər. Dipendranın əsas üstünlüyü faciənin cəld icraatındaydı. Yəqin bunun üçün hökmən kral ailəsində doğulmalısan. Gərək lap siftədən silah sarıdan sıxıntı çəkməyəsən.

Hə, nepallılar əfsanəni yaratmağa başlayıblar; artıq start götürülüb. Bunun üçün də

nə ibtidai, ya orta məktəbə, nə də bir darülfününa ehtiyac duyurlar. Əksinə, hər hansı təhsil ocağı əfsanəni paymal edər, onu yaman günə qoyardı. Darülfünun uzaq başı filoloq buraxa bilər.

Hələ bəlkə Nepaldakı ingilislər ingiliscə, almanlarsa almanca da əfsanə yapdılar. Hərçənd əfsanə həm bunların, həm də ölkədəki bütün digər yabançı və azsaylıların dilində mükəmməl alınmaz. Yalnız yerli iri xalqların əfsanələri yetkin olur. Hər halda, bu ayrı-ayrı, bir-birinin tərcüməsi olmayan əfsanələr bəlkə özlüyündə maraqlı alınardı. Onlar tutuşdurula da bilər. Bu əfsanələr yalnız faktoloji material baxımından oxşar görünəsidir. Hər xalq məhəbbəti bir cür interpretasiya edir.

Almanlar məhəbbət əfsanəsini riyazi dəqiqliklə işləyərdi: sevginin müddəti, gücü, parlaqlığı və sair orada bittə-bittə əks edər, hər şey beynəlxalq ölçü vahidləriylə qiymətləndirilərdi.

Mən cəsarətdə Dipendraya çata bilmədimsə, barı Məcnun ola bilərdim. Onu da bacarmadım. Mən Məcnundan aşağıdakı, Dipendrasa ondan yuxarıdakı yarusları tuta bildik. Dipendranın Devyanisi də artıq gələcək əfsanənin içərilərinə inamla addımlayırdı. O artıq Hindistanda tropik bir xəstəlikdən ölsə də ölər; əfsanədəsə diriləcək. Mənim Töhfəm ondan geri qaldı; heç vaxt da diriləsi deyil.

Onun başdaşısı danılmaz həqiqətdir. Onu həyatda mən geri saldım: gözlərimin qabağındaca ərə getdi, ayıb-ayıb qarnı şişdi (bu cür şəkil də çəkdirib), sonra uşaq üstə öldü də. Bu prosesin bütün mərhələlərində mən seyrçi mövqe tutdum. Artıq Töhfəni min at gücüylə də çəkib, əfsanə içinə sala bilməzsən. Məndən başqa onu hamı unudub, hətta keçmiş əri də. Unutmamağım da maymaqlığımın nişanəsidir. Denən, olan olub, torba dolub - qız kimi xatirələrə dalmağın nədir! Sənə nə düşüb? Doğmaca əri arvadı çoxdan təzələyib; hələ beş-altı meymun balasını da yan-yana düzüb. Mənsə burda nalanam. O, Töhfəni xatırlamağa lüzüm görmür də.

Ta keçib, mən də qəbahətimi boynuma almalıyam: indinin indisinəcən Töhfəmin qəbrinə də baş çəkməmişəm. Günü günə satdım, getmədim. Həmişə də qəbir üstünə itirəcəyim vaxtı başqa işlərə sərf etdim. O mənim dilimdə barı yarımçıq bir söhbətəsə çevrilmədi. Bu söhbət əfsanənin analoqu olmuş olardı. Elə bu hekayətimdə də ona çox yer vermədim - burada onun rolu epizodikdir. Töhfə epizodikliyə məhkumdur.

Bax, bu saat mən Töhfə haqqında adicə bir qəzet müxbiri kimi yazıram. Gücüm hələlik ömrümə balaca bir məhəbbət xatirəsi yerləşdirməyə çatıb. Qəlbimdə məhəbbətə yer təkyə taxçası kimi kiçik imiş. Neyləyim, mən cana od salası məhəbbəti sağlamlıq üçün həmişə ziyanlı bilmişəm. Tərbiyəm belə olub.

Ey fələk, Dipendranın məhəbbəti haqqında hər hansı ilkin versiyaya haq-nahaq

mən də özümü dürtə bilsəydim... Ayıb da danışıram, mən özümü əbədiyyətə soxuşdurmaq niyyətindəyəm. Gələcəkdə mənim barəmdə niyə də bir şey bilməsinlər. Kim məndən artıqdır! Mən kimdən əksiyəm!

Axı, həm də bu, insafsızlıq olardı. Yox, "Şahzadə Dipendranın məhəbbəti"ndən tamam əl götürmüşəm. Bəlkə yalnız fikir çəkə-çəkə şirin cana qəsd etməkləsə, bu əfsanənin dalına düşə biləm. Hərçənd yenə gözüm su içmir. Əbədiyyət eşqinə intihar heç vaxt planlaşdırıla bilməz. İntihar yüz ölçülüb, bir biçildisə - tulla getsin. Onun kəfəni qabaqcadan hazırdır. Əfsanələrin bir qısa cümləsi, ya bircə sətri də planlı yazılmaz. Xalqın qəlbi planlı işlərə qapalıdır.

... Əlvida, əfsanə!

2.VII. - 7.X.2001

## "QATİLƏ DİDAKTİKA DƏRSLƏRİ"

Bizim doqquzmərtəbənin görüm dairəsində yastı-yapalaq gecəqondular var. Sahibləri özlərindən hündür bu gecəqonduların qabağında - kiçik süfrə kimi həyətləri. Hər həyətin də diz gözü bərabəri - şiferdən-taxtadan çəpərləri. Burdakı ailələr siyahıyaalmada barmaqsayı simvolik çəpərlərlə hesablana bilər.

Soldan dördüncü, sağdan beşinci gecəqondunun sakinləri səliqə-sahmanlıdır – evi əhatələyən al-əlvan güllər çəpərə paralel yarımçevrə yenilik şəklində nəzərə çarpır. Həyət - büsbütün çəmənlik; yaz ağzı novruzgülülərdən ona rəng qatılır. Gündüzləri kim ordan keçsə, yaşıl fonda hökmən 3 ağ qaz görəcək. Bağça uşaqları, hətta ibtidai sinif şagirdləri də, bu həyətdəki rənglərlə tutuşdurub, özlərinə karandaş seçə bilər. Qazlar çəmənlərdən hey qırpır, adam görəndə də qaqqıldaşırlar. Yad görməyə gözləri yoxdu.

Sağ-sol qonşu həyətlərsə elə bil kiçik miqyaslı Ərəbistan səhralarıdır. O həyətlərin bir-iki yerinə səsgücləndiricilər taxılsa, olduqca kiçik diapazonlu ilbiz-zəli səsləri uzaqdan da eşidilər. Qulaqlar yüksək tembrli ilan-çayan mələrtisini onsuz da asanlıqla tutur. Axtarsan, oralarda mikroskopik dəvələr taparsan.

Ultramikroskopdasa səhra quldurlarıyla rastlaşarsan.

Qazlar öz içlərində və həm ailədəki beş-üç adam arasında şöhrətlidir. Bəlkə arvad-uşağın hərdən onlara daş atdığı qonşu “səhra”larda da tanınırlar.

Güman, “çəmən”likdə yaşayan bu ailə elə də böyük deyil. İki, uzaq başı, üç baş ola-olmaya. Ər və arvad: bu elədi - iki. Üçüncüsü, kim olacaq – uşaq. Gözə dəyməməyindən də - bağçaya-məktəbə gedir. Ər-arvadın bir tayı işləyir, o birisə, deyim, gülün - dişləyir. “Dişləyir” deyəndə, görən, yazığın dişi varmı heç? Çünki bir gün mən ordan keçəli, “səhra” arvadları “çəmən” üzərindən qeybətləşirdilər. Biri: “Bu hanı?” O biri: “Diş həkimində.” Yenə biri: “Bəxtəvər canını qoruyur.” Yenə o biri: “Bə qorumasın?”

Haçan göz atmışam, “çəmən”də qazlardan savayı bir ins-cins gözə dəyməyib. Ancaq axı, evdə kimsə var ki, qazlar hindən buraxılıb, üstəlik, həyət bu cür şaqraqdır. Əlbəttə, mən fərziyyələrimi ortaya qoyuram. Ya bəlkə heç orda ər-arvad yoxdur; hansısa ölüb. Gəlib bu yerə çıxdıqsa, eşitdiyim o bircə qeybət ehtimal etməyə əsas verir ki, arvad durur, kişi yox. Qonşu arvadlar heç vədə kişidən qeybət qırmazdılar. Üstəlik, bu sanki artıq yazılmamış sosioloji qanundur: ailədə siftə-başdan kişi ölər. Arvadlar üzübərk və qırxqıynaq olur – onlar qırnan qiyamətə qalarlar da, əgər istəsələr. Kişi sağdısa da, eşşək kimi daim iş-gücdə - o, qaz saxlaya bilər?

Yaxşı, gəlin, maksimum hədd olan 3-də dayanaq: üç adam. Deməк, gördüyüm hər qaz özü çıxılmaqla maksimum beş canlı arasında məşhurdur: üçü adam, ikisi – qaz.

Bir gün qazları bərk dalaşan-didişən gördüm. İkisi birləşib üçüncüsünün başını deşməkdəydi. Bu üçüncünün başından pipik şəklində qan fışqırır, qaz al qan içərisində çırpınırdı. (Ağ fonda qırmızıya baxmaqla da karandaş seçilə bilər). Ola bilər, ölə bilərdi qaz. Artıq bir qıçı dizdən bükülmüşdü. İşə bax, başıdidilən məhz bu yox, bir başqası da ola bilərdi. Kombinasiya hər saat dəyişilər də, ancaq məna dəyişməz. Faktiki olaraq, qazlar bir-birinin yeminə həmişə şərikdi. Elə ona görə hərdən həmdəm kimi görsənirlərsə də, əksərən bir-birindən kəsirdilər.
Eynən insanlar sayaq: birgəyaşayışları vacib, mənafelərisə mütəmadi toqquşur.

Qazlar bir saplaq otdan ötrü bir-birinin boğazını elə saplaq kimi də üzər, biri o birinin qanını su yerinə içərdi.
Burda əsas hoqqa və qovğalar qazların bir-biri yanında məşhurluğundan doğurdu. Üç qaz arasında sərt-sərt dolaşan şöhrət birinin başının didilməyinə gətirib çıxarmışdı. Hələ “həyət” adlanan o kiçik təbiətə böyük ehtiramla yanaşan, üzünü görmədiyim ədəbli ailə də anqut kimi ağzını açıb gözləyir. Amadədilər: qazlar haçan ətə-cana gələcək. Onları kəsib yeyəcək, yeyib kökələcəklər.

Ağ-ağ qazlar anlamadıqları şöhrət ucbatından qara-qonur gübrələrə dönəcək, saprofitlər torpaqda onları mineral
maddələrə çevirəcək.

***

Yasımda kimlərin iştirakı qətlimin yaxın-uzaqlığından asılıdır. Tərkib ildən-ilə dəyişilə bilər. Qətl vəd edildiyi kimi yaxın həftə, ya aylarda baş verərsə, bu saat yas kontingentini özüm birbəbir sadalayaram. Açığı, çox, hətta az sonranı da, səciyyələndirmək çətindir. İndiki kontingentdən öləni, Rusiyaya-Türkiyəyə gedəni olacaq. Onların yerinə hardansa təzələr axışacaq. Yerin təkindən qalxırmışlar kimi, uşaqlar kəndi bürüyəcək, böyüdükcə də yasa gələcəklər. Hal-qəziyyə belə.

Mən heç bilmədim, bunları niyə deyirəm.

Qətlim dünya çapında elan olunub. Qətl tamaşasının rekvizitləri də hazır: qəzetlər, teleradio kamera və mikrofonları. Personajlar var, ancaq onlar sonra üzə çıxacaq. Gələcək dramaturq və teatr rejissorlarından təvəqqem budur ki, tamaşa qoyası olsalar, həyatı tam nəzərə alalar. İnciməsinlər, mən onların fantaziyasına bel bağlamıram - reallıq təhrif edilə bilər. Həm də sərt reallıqlar varsa, yumşaq fantaziyalar nəyə lazım. Onlar həyatdakı bu qanlı-canlı hadisəni eləcə yamsılasalar, yetərlidir. Təşvişə əsas yox: təqlid bu halda yerinə düşər.

Onda qətlin teatr versiyası da canlı-qanlı alınar. Yeganə fərq həyat və səhnədəki qanların təbii-süniliyində olacaq.
Mən əbədiyyət aşiqiyəm və teatr tamaşasında obraza çevrilmək də əbədiyyətə dəlalət edən hadisədir.
Qətllər şöhrətin Qafqaz dağ zirvələrində baş verir və bu anlamda Kodor dərəsi qətllərinin analogiyasıdır.

Mən öldürülsəm, şöhrətimin əyarı tam müəyyənləşəcək.

Ancaq denən, bu basabasda şöhrət sənə lazımdı? Şöhrətdən daha vacib işlər başdan aşır. Evə paltaryuyan, tozsoran almalıyam. Televizor, qapazlamasan, işləmir. ÇTZ traktorları soyuducumuzun yanında toyagetməlidir. Arvad xirtdəyimdən yapışıb. Kişi qızıdı, düz də eləyib. Budu, budu, budu - bax işinə, deyir, almasan, uşaqlar goruna söyəcək. Qarşıdakı qətlim elə bil ona əyandı. Hər şeyi bilir sanki. Halbuki bilirəm heç nə bilmir. Bilsə, ürəyi partlar. “Gor” onun dilində nədi gör – şərti ölümlərdən sonrakı dövr. “Gor” – bədii söz olmaqla, fanilik sonrası reallıqdır. Arvadağa, leksikonunda “şöhrət” sözü olmadığından, soyuducuya “ad-san” doldurmalı deyil, deyir. Şöhrət - ağlına batmır. Gah ona lağ edir, hərdən də deyinir: “ad-san” ümidinə qalsaq, acından qırılarıq.

Dünyanın maddi nemətlərini qamarlayıb, göz qabağındaca bu qeyri-maddini üstümə tullayıblar.

Qətlim yubanır. Sual doğur: axı, niyə? Nigarançılıqlar artıq təlaşa çevrilməkdədir. Gahdan məni kəsafət basır, gün axşamacan burnumu sallayıb otururam. Sən bu sifarişçilərdə məğmunluğa bax: yoxsa icraçı tapa bilmirlər? Bəlkə ciblərində siçanlar oynaşır? Əlbəttə, salavat gücə bağlıdır. Qatil Allah yolunda işləmir ki - əksinə, Allah yolundan çıxıb işləyir. O da insandır, onun da qarnı-mədəsi var. Üstəlik, arvadı + balaları, hərəsinin də öz qarnı-mədəsi. Sifarişçi qardaşların əlləri aşağıydı, qabaqcadan eyham vuraydılar. Him eləməyə nə varmış. Him də vəsait tələb etmir ki. Özüm hər işi düzüb-qoşar, bu lələşləri hələ ölməyib, ölməyim üçün var gücümlə onlara köməklik göstərərdim. Lazım gələrsə, müəyyən iri məbləğəcən atışardıq da. Mən Allahın köməkliyi ilə, avtokiller ola bilərəm. Onların xatirinə, babax, başa bir güllə - yıxıldı yetimin küməsi.

Mən qətl sifarişçilərində zərrəcə təşkilatçılıq qabiliyyəti görmürəm. Bir yandan da - dünyada kaş hamı onlar kimi “qabiliyyətsiz” ola, deyirsən. Hamı “qabiliyyətsiz” olsa, qətllərdən keçmiş zamanda danışar, onlar haqda ancaq kitablardan oxuyardıq. Vicdan haqqı, tərtəmiz insandılar, dallarında - qətl təcrübəsi yox. Sağolmuşların qız alıb-qız verməkdən, toyda-şənlikdə sağlıq deməkdən başları aynıyıb ki. Onlardan yaxşı tamada, ya deputat çıxardı.

Hərdən də qeyzlənirəm - bu kəlmeyi-şəhadət tutuquşuları eləcə ağızlarını ayırıb gəziblər. Qaranlıqda bığ-saqqallarını uşaq görsə, zəhri yarılar, di gəl, qətlin siftəsini indi edirlər. Hələ onu da bacarsalar… “Ayıb olsun” deyimmi? Arsız-arsız ölkəyə qabaqcadan car çəkiblər. İnandırım, mən olmasaydım, onlar ömrü boyu qətl barədə düşünməyəcək, Əzrayıl əməyindən sui-istifadə adlı bu alişan cinayətin dadını bilməyəcəkdilər.

Ölkənin güc strukturları hüquq-mühafizə motorunu işə salıb gözləyir. Qətl törədilməyincə, onların hərəkəti namümkündür. Kriminal hərəkətləri cani əvvəl etməlidir ki, hüquqi-prosessual hərəkətləri bunlar sonra etsin. Hər şeydə növbəlilik olmalıdır. Preventiv tədbirlər qarğa, məndə qoz var olardı. Dinamika sıfır həddindədir. Ay balam, sən bir ortaya meyit qoy, qoy cinayət baş vermiş sayılsın, biz də bunu lap terror adlandıraq. Statik ölüsüzlükdə kriminogen durum statistik sabitdir. Deməmişkən, diri ölüdən ölüvay, ölü diridən diribaşdır. Ölü - dialektika ünsürüdür və diridən daha çox tarixi hərəkətverici qüvvəyə malikdir. Adəmdən xatəmə vur-tut iki dünya müharibəsi olub ki, onun da biri – ölü səbəbindən. Kütlələr, ölünü görməklə, bir-biri üzərinə yeriyib. İnsanlar qətldən qızışıb, vurrey, bir-birinin üstünə şığıyıblar. Bəşər inkarı inkarla vəhşiləşib. Əksliklər əvvəl toqquşub, sonra vəhdətləşib. Ölülərlə dirilərin savaş qaynatma qabiliyyəti iki Dünya müharibəsi təcrübəsinə əsasən əlli əlliyə nisbətindədir. Bir dənə də Dünya

müharibəsi olsa, nisbət ölülərin xeyrinə dəyişəcək.

Qətlimin yubanma versiyalarından ümdəsi gələcək qatilin yarıtmazlığıdır. Bəlkə mən elə onun da siftəsiyəm. Əlbəttə, ucuz ətin şorbası olmaz. Yumurtadan yun qırxan sifarişçilər məni keçi qiymətinə satıblar. Özüm cəhənnəm, göz qamaşdıran şöhrətiməsə hörmət qoyaydılar. Görünür, şöhrət başları girən kol deyil. Gəlsənə, dil öyrənmək baxımından, həm də dilçiliyə töhfə olaraq, onlara yaraşası, bir silsilə sillə bənzərli "eşşək" misalı çəkim. Eşşək nə bilər zəfəran nədir? Eşşək cüməaxşamı qanmaz. Eşşəyin dal qıçı. Eşşək anqırıb tayını tapar.

Eşşəyə dedilər qanacaq göstər, ağnadı. Silsiləni uzatmaq da caizdir. Deyirəm, adam cındır olmaz: dünya boyda şöhrətin qabağına naşı killerlə çıxmazdılar. Yanıb-yaxılıram – qatil vaxtı düzgün bölüşdürməyisə bacarmır, məni təklikdə yaxalayammır.

Par-par yanan şöhrətə bol-bol hörmət qətl sifarişçilərinin müqəddəs borcu idi. Onlar mifoloji süjetləri yox, real dəyərləri müqəddəs bilsinlər. Nəhayət, qoy müqəddəsliklərin tərkibi və keyfiyyəti dəyişilsin.
Dünən yuxuda nə görsəm yaxşıdır: qatilim tıxaca düşüb. Ay bərəkallah!

***

Bir gün qazları 3 yox, 2 gördüm. Artıq birinin başı yeyilmişdi. Sözün düzü, belə bir gün gözləniləndi. Özü də kök və köklüyünə görə qəşəng görsənəni yoxa çıxmışdı. Bu qaza şöhrət köklükdən gəlibmiş. Lakin Allahın ona bəxş etdiyi inkişaf faciə ilə nəticələndi. Canda maddələr mübadiləsinin gur getməsi heç də yaxşı hal deyilmiş – deyildiyi kimi, bu, gözəlliyə gətirib çıxarır, gözəlliksə - həzmi-rabeyə aparır.
Gözəllik əslində rahət-hülqum növüdür.

***

Doşab almışam, bal çıxıb, şəhərdəki yol tıxacları mənə sərfəlidir – qatil vaxtında mənzilə yetişə bilmir. Ömrüm qatilin səhlənkarlığı üzündən uzanır. Qəribədir, insan özü istəmirsə belə, onun səhlənkarlığı humanizm törədir. Hər halda, işıqlı dünya qaranlıq dünyadan gümrahdır. Abajursuz olsa da, Günəş başımız üstə lampa kimi yanır.
Görən, cənnət-cəhənnəmdə də Günəş olurmu?

Fikir – insanı sökür. Ömrüm uzanmaqda, onun içindəki uzunsov həyat qısalmaqda. Dəqiq hesablamalarıma görə, üzümüzə gələn ay ömrümün içində həyat hüceyrələri qalmamalıdır. Onda diplomum da, pasportum da ölü adına saxta dirilik sənədlərinə

bənzəyəcək.

Axı, bu qatilbala işini niyə düz-əməlli qurmasın? Qətl gör haçandı elan olunub: niyə gəlmir bu? Harda veyillənir? Kal olma, çobanlığı yerə qoy, gendən-genə ona deyirəm. Yubanmaqla indidən özünə pis imic formalaşdırma. Özün öz çörəyinə şıllaq atma! Öz qatil gələcəyinə balta çalma. Balam, qudurubsan? Hərdən bir bədii əsər oxusana, hərdənbir Bethovenə-Vaqnerə qulaq asginən. Özünü qatil kimi cilalasana. Mahir qatil ədəbiyyatı da, incəsənəti-zadı da bilməlidir. Qatillik öküzlük-hozuluq deyil ki.

Yox, sən ağzını ha yor, ha özünü öldür, bu, zır fantaziyasız imiş. Fantaziyası-təxəyyülü olmayanısa belə ciddi işə qatmaq yolverilməzdir. Onun qatil olmağa haqqı yox, sadəcə, şansı var. Ona qalsa, bu işə hamı şanslı sayıla bilər.
Qatillik – haqq-hesabı Allah yanında çəkilən aliməqam bir əməldir. İnsandan hünər və nəciblik istəyir. Cılız-naçar adamların da yemi deyil. Fırıldaqları və həm qoyunluğu sevməz. Qoy deyim, ürəyim yandı: bu qoyun guya hey münasib məqam axtarır, key kimi də göydəndüşmə məqamları əldən buraxır.

Rusiya killerləri bizimkilərin yanında dahidir. Akademikdən çox akademik, kriminalistdən çox kriminalist, üstəlik də, lirik təbiətlidirlər. Adamın onlara qanı qaynayır. Özü də, nədənsə, Puşkindən çox, Yesenini sevərlər. Bay, gəlib elə yerə dirəndik ki, burda çaşıb qalmasaq yaxşıdır. Qətlin mükəmməlliyində poeziyanın rolu varmı? Əgər varsa, onda qatillər niyə Yesenini bəyənsin, Puşkini yox? Hə, mükəmməl qətl odur ki… Yox, məsələni başqa cür qoyaq: ideal qatil öz şikarını anestezioloji tədbirlər görəndən sonra güllələməlidir. Məntiq üzrə, poeziya qatili humanizmə sarı çəkməli, qətldən uzaqlaşdırmalıdır. Humanizm qətlləri istisna edir. Güman, Aleksandr Sergeyeviçin poeziyası da insanı qətlə yaxınlaşdırmır, əksinə, ondan uzaqlaşdırır. Bir növ, qatilin əlini işdən soyudur. Puşkin poeziyasından doğulan harmoniya qətlə mane olur. Seryojada, Yesenindəsə əhvalat bir özgə cürdür. Yesenin poeziyası qatilin içində harmoniyadan çox, lirika törədir. Bu lirika qatı qatili belə ana-bacısından, ya sevgilisindən ötrü ağlada bilər. Lakin qatı qatil qətli qəti rədd etməz. Lirika olsa-olsa harmoniyanın bir komponentidir, yəni az şeydir və qatili işindən avara qoymur.

Yesenin poeziyası kriminallığa biganə deyil.

Bizimkilərsə, bilmək olmur, hansı poeziyanın vurğunudur. Gələcək qatilimin meyxananı sevməsi güman edilə bilər. Əlağa Vahidi də. Gəlin, Səməd Vurğunu Puşkin taxçasına qoyaq. İnanmaram da qatilimin saz havacatı, ya aşıq poeziyası ilə arası ola. Saz havacatını sevən qatil çörəkdən qalar.

Allah qatillərin də ruzisini versin! Allah heç kəsi aclıqla imtahana çəkməsin,

inşallah!
Mənim iş-gücümə bax, gör nəylə məşğulam. Gələcək qatilimi tənqid atəşinə tutmuşam ki, bir iş bacarsın. Ay qurumsaq, ona deyirəm, tıxaca düşməmək üçün evdən bir az tez çıxsana! …Bir yandan qətldə əlinin gətirməsini istəyir, bir yandan da ölür gəlməyə. Can çəkir. Fıs vurub yatır. Axı, yatdın da – batdın. Bəyəm indi başı balışa atmaq zəmanəsidir?

Mahir qatillərin olması millətə başıucalıq gətirər, ondakı qabiliyyəti ortaya qoyar. İnan, içimizdən bacarıqlı bir qatil çıxsa, məndə Vətənin gələcəyinə inam oyanacaq.

Tez-tələsik bu hekayəni düzüb-qoşmaqda məqsədim də qatili tez tapdırıb, tələsik onun axırına çıxmaq deyil. Məqsəd hələ movcud olmayan ideal-milli bir qatili yetişdirib ortaya çıxarmaqdır. Qoy bu qiyabi-mücərrəd qatildən millət başıuca gəzsin. Məhz elə bunun üçün də onun islahı vacibdən vacibdir. Yox, yox qatil zor-xoş yatdığı içi sülh dolu fil qulağından bizim savaş burulğanlı canavar yuvamıza enməlidir. Onda islah, artıq bildiniz, "zona"lardakından fərqli, tərsinə gedəcək – gələcək-hipotetik qatillikdən çağdaş-real qatilliyə doğru.

Hekayədə qüsurlara baxmayın; bəzi yerləri uzun-güdə ola bilər. Burda əsas amil operativlikdir. Qatilim bu ekstremal-çevik hekayəni tez oxumalı, ondan tez də dərs götürməlidir. Göründüyü kimi, hekayədə tədris məramı, didaktik ton üstündür. Bu ton hələ bir qədər də qabardılacaq. Əlbəttə, ibtidai insanlara söz ilkin ədəbi janr və yönümlərdə çatdırılmalı, vaxt-bivaxt da söz tündləşdirilməlidir. Ədəbiyyatda postmodernin öz yeri, didaktikanın - öz. Hərdən həyatda eləsiylə qarşılaşırsan, əlin üzündə qalır: təkcə təmsildən söz qanacaq. Eləsi var - yalnız
Hafizdən qanır, eləsi - aforizmlərdən. Kimlərsə də qəzəlin dördbucaqlı qəfəsində bülbülə dönür. Kişilər tanıyıram ki, padşaha söylənən mədhiyyələrdən tərbiyələnib. Kişilər də tanıyıram, oliqarx dalındakı qara mağarada zahidə çevrilir. İmperativlik - yenə elə tərbiyədir. Ədəbiyyat heç cür tərbiyə fünksiyasından irəli gedə bilmir. İlham pərisi haralarda qıy vurur vursun, gec-tez qayıdıb yenə elə tərbiyə budağına qonur. Gəl, əyri oturub düz danışaq, axı, tərbiyədən kənar şeylər də nəyə lazım?

Qövsi-qüzehi əxlaq olan kosmosdan bir-iki addım aralıda xaos görərsən.

Gələcək qatilə nəsihətlərim: şalğam-çuğundur olub da, iş görmək əvəzinə, söz oynatmasın. Ya oxumaq əvəzinə, kişnəməsin. Boş-boş gəvəzələməsin. Əlverişli şöhrətə tərəddüdsüz şərik dursun. Qətiyyətlə tarixə düşmək barədə düşün, ona deyirəm, heçlikdən qurtulmağın yeganə yolu budur. Çalış, sənə bəslənən inam və ümidlər həmişə aktual qalsın.

Fikir verin, tutaq, hələ heç kəs qatilin sir-sifətini görməyib; elə san o, ot tayasına bir iynə kimi düşüb itib. Lakin artıq şöhrət üstündədir: onun sərrastlığı, işindəki

zərgər dəqiqliyi hamıya bəlli. Qatilin cəmdəyini prosesdən çıxarıb atsan da, ondakı bacarıq-qabiliyyət büsbütün millətə qalacaq. Əsl qatilin əməyi əslində yaradıcı əməkdir. Üstü açılmayan hər qətl özlüyündə milli sərvətdir. Qatil də millətdən sayıldığından, onun yaradıcılığı büsbütün millətə məxsus sayılır. Bunun əks yozumu da düzgündür: nadir qətllər millətdəki yaradıcı ruhun təzahürüdür. Oğulları nadir qətllər törədən millət ölməzdir.

Yaradıcı qətlləri olan millət ümumbəşəri xeyirxah işlərə qadirdir.

“Bacarıqlı qatillərin sayını milli keyfiyyət meyarı kimi götürək!”

“Baş üstə!”

Qatilimin tıxaclar əlində avara-giriftar qalması məndə peşimançılıq, məyusluq doğurur. Belə degenerat və infantillə hara getmək olar! Millət onun korafəhmliyini eşitsə, ruhdan düşəcək. Yox, mən qatilimi haq-nahaq ideallaşdırmalı, onu hamıdan, hər kəsdən üstün göstərməliyəm. Bunun üçün tıxacları əşəda xatırlatmamalı! Hər saat, hər an yaradıcı-ideal qatil yaratmaqla məşğul olmalı.

Yaradıcı yaradıcıya həmişə əl tutmalı, yaradıcılığını yaradıcılığa sərf etməlidir.

Ölmürəm bu ölmüşünüzü milli cizgiləri gözə girən bir qatil öldürsün!.. Xoy-xasiyyəti də – tamam milli tərzdə: ipək kimi. O, bədənimi aşsüzənə döndərməmək üçün, “makarov”dan tək bir dəfə atəş açacaq. Onda əzablarım nəzəri maksimumdan təcrübi minimuma enər. Qatil bıçaqla iş görəsi olarsa, məni dəlmə-deşik etməmək naminə, bu işi də ehmal görər. Bıçağı qarnıma bircə yol yortar. Görərsiniz, qatil meyidimi təpikləməyəcək. Qabaqcadan ona “sağ ol” deyirəm. Axtarsan, onun qəlbində insanlığa məhəbbət taparsan. Qatilliyi bütünlüklə ideoloji-siyasi, bəlkə də radikal dini, motivlərdən qaynaqlanır. Yəni bu motivlər özünün deyil, konteynerlərlə gətirilən qan kimi damarına yeridilib. Belə sarsaq şeylər yatıb onun yuxusuna da girməzdi. Mənim qatilimin qəlbində cinayət kodları fərz edilmir. Sağ qalsaydım, əcəb onunla dost olardım. Əfsus, mənə atəş açılmasa, qatilim mövcud olmayacaq. Mən ölməliyəm ki, o dirilsin. Yəni biri ölməsə, biri dirilməz. Mən getməliyəm ki, o gəlsin. İkimiz bir dünyaya sığışmazıq. Bu saat mən xəyalda qatilimi görürəmsə də (görürəm gəlir), reallıqda onu heç vaxt görməyəcəyəm. Sui-qəsd olmasa, min il qala, mən o nadir insanla rastlaşmaram. Onunla kontaktım yalnız odlu, ən aşağısı, soyuq silahla baş tutar. Qətldən sonra yenə bir-birimiz üçün itəsi insanlarıq: o tapılarsa da, artıq mən tapılmaram. İndilikdə mən tapılıram, o yox.

Uzun işdir.

Onun fotorobotunu tezbazar hazırlayıram: bəlkə kriminalistlərin işinə yaradı. Onlar mənim qətldən əvvəlki və öz sonrakı fotorobotlarını cinayət işinə tikər, versiyaları tutuşdurarlar. Kaş kriminalistlərin fotorobotu ilə mənimki bir almanın iki üzü kimi oxşar ola.

Yalan-doğru, qatili fotorobotda vəsf etmədəyəm. Haq-nahaq onu hey ucaldıram. Bəzi zahiri cizgilərini Koroğludan, bəzilərinisə Qaçaq Nəbidən əkişdirmişəm. Niyə də yox? Öz millətimin xan balalarından gözəl ştrixləri alıb, onun bəy balasına əta edirəm. Qoy bəy balamız xan balaya, bəybalamız xanbalaya çevrilsin. Qoy atəşli-qışqırtılı, gurultulu-guppultulu bir qətlin şöhrəti hər it-qurda yox, özümüzünkünə qismət olsun.
Qatili tarixə salacağıqsa, mən onu öz millətimdən seçirəm.

Mənimki fotorobot düzəltmək deyil, igid bir insan icadıdır. Budur, icadım da ortada. Qatilim hələlik fotorobotdan tanınır. Elə fotorobotundan da başını dışarılayıb, həyata adlayacaq. Həyatda, ya televiziyanın kriminformunda kim onu görsə, o saat fotorobotdakına oxşadacaq. Qoy onun həyata adlayacağı günü də açıqlayım: iki-üç həftədən sonra – ürəyim dayanan, beynim yatan gün. Zəhmət çəkib onu axtarmayasınız. Çünki qatil onsuz da hələ yoxdur, sadəcə, qatil olmağa namizədlər var.

Mən qatili bu cür şıdırğı bəzəməkdə - qorxasan, qətldən əvvəlin fotorobotu, sonrakına uyğun gəlməyə. Onda batdım ki. Əsas da – sonrakıdı, onlarınkı. Kriminalistlərə ideallaşdırmalar girmir. Onlar gözəllikdə cinayət işinə tikiləsi heç nə görmür. Kriminalist üçün həqiqət hər şeydən ucadır. Yeri gəlmişkən, onlar bu barədə məni üstələyir. Bəşəriyyət də həqiqətin tərəfində duranları gözəlliyin tərəfində duranlardan üstün tutur. Gözəllikdən çıxaraqdan, ya onlara istinadən görülən işlər heç vəchlə obyektiv sayılmaz. İnsafən də, həqiqət hara, gözəllik hara. Gözəlliklə gedib-gedib yolda qalarsan. Həqiqətlərləsə haracan desən yortmaq olar.

Həqiqətlər məntiqiliyi ehtiva edir.

Ancaq həqiqət tərəfində olsalar belə, kriminalistlər "həqiqət" termininə yiyə durmur, bu sözü işlətməyə utanırlar. Onlar "həqiqət"i "cinayətin açılması", "caninin tapılması" sözləriylə əvəzləyirlər.
Gözəllik cinayətlərin açılmasında zərrə qədər də rol oynamır. Gözəlliyin olsa-olsa cinayətlərin törədilməsində rolu var. Gözəlliklər – cinayət tərkiblidir.

Hə, kriminalist kimisə yüksəldib-yekəltməyi qarşısına məqsəd qoymur. Yox, belə bir iş yatıb yuxusuna da girməz. Cani göyçək, ya kifir olsun – fərq etməz, kriminalistin niyyəti onu yaxalamaq, tutub basmaqdır. Əksinə, kriminalist göyçək caniyə hələ bir az lağ da edir; bu göyçəkliyi hardasa "mavi"liyə yozur.

Gözəlliyin interpretasiyaları ən müxtəlif cürdür.

Qatilin gözəl məramı, ya mənim illüzor niyyətlərim müəyyən məqamacan əhəmiyyətli ola bilər. Kriminalistlər mənim kimilərin danışığını eşitmir, eşitmək belə istəmir. Gözəllikdən danışanla nə danışasan, onlar düşünür. Gözəllikdən danışan boşboğaz-səfeh qələmində gedir və kriminalist bəzən eləsinin ağzından vurur: mənə nağıl danışma. Sanki əminliyi var - nağılları boşboğazlar yaradır.

Yazıçı qatilləri gözəlləşdirməklə cinayətləri azaltmaq niyyəti güdürsə, kriminalist qatilləri azaltmaqla milləti saflaşdırmaq yolu tutur. Yazıçı - səhvdədir.

Mən fotorobot rəssamıyam. Tərtib etdiyim fotorobotda killer Apollon kimi gözəl bir oğlandır. Qoy elə də qalsın. Məqsədim adi, bununla belə, alidir – tarixi təhrif yoluyla olsa da, milləti ucaltmaq.

Əstəğfürullah, qatilimi qarabəniz yaradıb, ağzına da köhnə dəblə üç-dörd qızıl diş atmışam. Qızıl dişləri azacıq aralı qoyduğum dodaqları arasından görsənir. Ürəyitəmizlik əta edib, bunun da rəmzi olaraq, çöhrəsinə məsum və məsud bir təbəssüm taxdım. Hayıf, qaba müstəntiqlər bu təbəssümü maska bilib cıracaq. Onlara nə var, millətimi ucaltmaq məramımı onun simasını təhrif etməyim kimi də yozar, hətta özümə cinayət işi açarlar.

Mən ölü, siz diri, gələcəkdə qatilimi bir özünüz qıdıqlayb-güldürün: onu məsud və məsum görəcəksiniz.
Yaxşı, xarici görünüşdə milli keyfiyyət daha nələrdən ibarət ola bilər? Uşaqlıqda qardan adam hördüyümdü, indi imkan düşüb, cəmiyyət arasına çıxarmağa heçdən qatil yonuram. Həyata insan doğmaqdan gözəl şey yoxmuş. Mən gələcək qatilimi real mənfi xüsusiyyətlərdən sıyırıb çıxarmaqda, ona irreal müsbət keyfiyyətlər sırımaqdayam. İlkin variantda qarnını iri düşünmüşdüm. Ancaq həmin qarını xəyalımda çox saxlamadım. Yüz ölçüb-biçib, əlli də çək-çevir edib, atdım onu. Bir də onsuz özü ağırlayıb yerə düşməkdəydi.

Mən qatilimi ilk gənclik çağlarında, Olimpiya tipində götürürəm.

Ucunu tutub ucuzluğa getməyək. Məncə, bu yerdə zahiri milli keyfiyyətlərdən əl çəkməliyik. Barı sadalamağasa ara verək. Düzü, yoruldum, beynim şişdi. Bayaqdan yadıma düşmür də ki, qatil xüsusi qiyafədə və maskada iş görəcək. Milli keyfiyyətlər qətl anında görünməz olacaq. Bir yandan da fatal qlobalizm qatilimin fotorobotunda kosmopolitiklik törətməkdə. Hər halda, kriminalistlər mənim bəxş etdiyim ştrixləri nəzərə alar. Hərçənd tərs keçidilər, öz versiyalarını əsas tutacaq, maddi sübutlara, hal şahidlərinin ifadələrinə istinad edəcəklər.

Kriminalistlərin nəzərində, sənədlərə ləbələb dolduracaqları quru cümləlləri nağıllardan üstündür.

Gələcək qatilimin tez-tez tıxaca-zada düşməsi mənim uydurmamdı. Boğulan saman çöpündən yapışar. Onun öz millətimdən, özümüzünkü olması üçün hər üsula əl atır, hətta tənbəlliyini əldə dəstəvuz edirəm. Ürəyimə damıb ki, Azərbaycanda qatil bazarı da tutulub. Bazar iqtisadiyyatının qanunları bu qeyri-humanitar sahəyə də soxulub.

Dayan, deyən, vəsf üçün təzədən ilhamlanıram.

Davam edək: millətim sifarişli qətllər üçün humanistliyi səbəbindən yararsızdır. Biz hər sahədə nə qədər qabağa gedəcəyiksə, bu işdə həmişə dala qalacağıq. Yəni əslində dala qalmağımız qabağa getməklikdir. Bizdə qətl hadisələri əksər halda təsadüfən baş verir, təsadüfən də baş verəcək. Cinayətlərimiz əsasən əxlaqdan törəyir, törəyəcək də.

Kriminalistlərə tövsiyəm nədir: şübhəli şəxs sarıbaşdısa, dərhal onu qarabaşa çevirsinlər. Buyruq olmasın, sənədatda çalışıb onu namərd yox, mərd, ürəyidaş yox, ürəyimum, əlibərk-simic yox, əliaçıq-qallac kimi göstərsinlər. Yəni eşidib-bildiyimiz yerəcən insani cəhətlərini artıraq - bunlar millətə əlavə və düzəlişlər sayılar.

Qoy hər yerdə qatilim vicdanlı-namuslu şəxslər sırasında getsin. Hələ ola bilər, o, namus üstə yatıb da. Mən - öldürüləsi şəxs, müstəntiqlərə üz vurur, onlara mən ölüm deyirəm: öldürənə münasibətdə, beynəlxalq konvensiyalara əməl etsinlər. Ona narkoman ayaması yapışdırmaq, ya fiziki işgəncələr vermək yadlarına da düşməsin.

Qulağınıza bir şey pıçıldayım: gələcək qatilim öz balamız-öz tulamızdı. Blokumuzun ağzına gəlib çıxmamağı cəhənnəm, mən bilən, saatı da bilmir. İstərəm, onu nəinki qətlimdən əvvəl, heç sonra da yaxalamasınlar. Ya heç olmasa, gec tutsunlar ki, qazanacağı bu ilk böyük uğurdan az-buçuq xoşbəxt yaşasın. Balalarıyla oynaqlaşsın, arvadıyla çimdikləşsin. Məşuqələri varsa, onlarla doyunca mazaqlaşsın. Bə insan insana nə gündə kara gəlməlidir. Vətəndaş vətəndaşın əlindən tutmadısa, at getsin. Diriliyimdə bir kəsi muradına çatdırmadımsa, qoy bunu ölülüyümdəsə edim. Məhdud məsuliyyətli, kiçik miqyaslı xoşbəxtliyisə ona çox görməyək. Həm də lapdan-lapa respublikada niyə iki bədbəxt ailə ortaya çıxsın? Bir ailənin bədbəxtliyini ixtisara salmaq, üstəlik, onu xoşbəxt etmək şansı durursa, niyə oturub baxmalı, mal kimi gözümüzü döyməliyik? Vətəndə bir ailənin bədbəxtliyi qaçılmazdısa, barı onda qoy o birisi xoşbəxtliyə çatsın. Cinayət yoluyla olsa da, respublikada xoşbəxtlik və bədbəxtliyi balanslaşdırmaq mümkündür.

Ailələrdəki ucdantutma bədbəxtlik milli fəlakətlərə gətirib çıxara bilər. Cinayətlər ailələrimizin yuxarı-aşağı yarısınıca xoşbəxt etməyə zəmin yaradır. Onsuz başqa əlac yoxdur; milli varlıq naminə bunasa da gedək.

Sifarişçilər qətlimdən atılıb-düşəcək, papaqlarını göyə atacaqlar. Sevincdən qanadları göyərəcək. Çoxdan arvadıyla yatmayanlar həvəslənib yatacaq. Arvadları birbaşa süpürləyib altlarına basacaqlar. Onda təzə qarabalaların özülü qoyular və sanki bu işdə mənim də rolum olar. Çoxda gözüm yox, mənim sayəmdə dünyaya gələsi balalardan bir-ikisinə kaş mənim adımı qoyaydılar. Baxın, ata-analar gələcəkdə uşaqla bağlı məni, mənlə də bağlı öz uğurlarını xatırlayarlar. İlkin xoşbəxtlik bir ömür boyu davam edər. Ola bilsin, bu cür-bu sayaq mən də gələcək xoşbəxtlik təzahürlərində yaşayaram. Adım xoşbəxtliklərlə assosiasiya olunar.

Arvad ər cinayətlərindən xoşbəxtliyə tezçatan məxluqdur.

Şöhrətim artıqraq yox, qətlə çatacaq qədər olarsa, batdım. Belə çıxacaq, bu şöhrəti qətlim üçün özüm sifariş etmişəm. Şöhrət get-gedə artan və qətl ehtimallarını da artıran anormal-anomal bir hadisədir.
Şöhrətsiz insan şöhrətlini həmişə ironik baxışlarla süzür. Görübsünüz?
İnformasiya mənbəyi, adətən, arxada olar – yəni ehtimal edilən irreal hadisələr artıq keçmiş, olmuş, baş vermiş real hadisələrə çevrilib. Mənim nümunəmdəsə bu mənbə hələ qabaqdaydı, gələcəkdə. Yəni olmamış, olacağı hələ ləmbəlüm qalan və bəlkə heç olmayacaq hadisə. Ancaq olası hadisələr artıq olmuş kimi görsənməkdə. Hər şey paralel gedir. Gələcək qətlimdən mətbuat partapart yazır, radio-televiziyalar bar-bar bağırır. Neyləsinlər, irreallıqlar reallıqlara bənzər, gələcəklə keçmiş iç-içədir.

Planet qütblərinin dördündən də ucları əsəbi yellənən, mənə sarı gərilib-dartınan iti və burulğanlı göy-qara tüstülər qalxır.

***

Məni qonşuluqdakı üç qazın taleyi yaxalayıb. Ya kimsə deyə də bilər: qazları mənim taleyim yaxalayıbmış. Qazların başı dimdiklənirdi, mənim başım - didilməkdə.

***

Bu şöhrətdən necə qurtulmaq? Yoxsa artıq gecdi? Barı onda qatili görərkən - bağırmamaq! Vahimədən qışqırıb-bağırsam, üzqaraldan bir səhnə alınacaq. Qətlimdən sonra yaranası rəvayət-dastanlarda da qışqırıb-bağıracağam. Bu minvalla əbədiyyətə keyfiyyətsiz tərzdə, biədəb gedərəm.

Bu saat ürəyimi deşən dərd ölümümdən əvvəli də, sonranı da düşünməyimdi. Düşünməyə məcburam. Ölümümdən əvvəlki vaxt həftələr-aylarla ölçüləndisə, sonrakının ölçüsü əbədiyyətdir. Bunların nisbət rəqəmi əbədiyyətin iki-üç həftəyə bölünməsindən alınır. Ümumiyyətcə, əbədiyyəti vaxt adlandırmaq düzgündürmü? Axı, mən ixtiyarımdakı bu 3-4 həftə, ya uzağı, 1-2 ayda əbədiyyətə dair necə planlar qurum? Bu dar macalda əbədiyyət mövzusunda fundamental bir iş görməkmi olar? Belə getsə, əbədiyyəti başlı-başına buraxacağam.

Hələliksə canımı dişimə tutub, işləri yuvarlaqlaşdırmalı, yekunlaşdırmalıyam. Kimi gördümsə, onunla cəld öpüşüb-görüşməli (vaxt yoxdur).

***

Mən öz qatilimi gözləyənəcən, qazlardan birinın də başı üzüldü. Gözə dəymirsə, yüz faiz, baş gedib. “Qaz qatilləri” mənim qatilimdən zirək çıxdı. Qaz qatili də kim olacaq: ya ailənin başçısı (əgər kişi xeylağıdırsa), ya da qonşu kişilərdən biri.

Fərziyyəm öz təsdiqini tapdı: üç gün keçməmiş dönəcəkdəki çalada tanış qazın başını gördüm. Dimdiyi yerə batmış, gözləri bərələ qalmışdı. Qaz zorən məruz qaldığı, özü istəmədiyi və qəti anlamadığı, beş-üç canlı arasındakı şöhrətin qurbanı olmuşdu.

Şöhrətin nə böyüyü, nə kiçiyi.

Qaz başı yerə çökməkdə, çalanın dibində sanki özünə qəbir qazmaqdaydı.
İndi hər gün çəmənlikdə yek-bir qaz görürəm. Artıq onun yerini dar-daracıq eləyən yox. Yan basa-basa arxayınca gəzir, ucları açıq yaşıla çalan otları qırpmağa heç tələsmir də. Onsuz bütün otlar, bu çayır-çəmən onundu. Mən onun, içində xoşbəxtlik cilvələnən, bədbəxtliyini aydınca görürdüm. Sahibi onun axır gününü təqribən bilir. Bu axır - ətləşib-piyləşmə başa çatandadır.

Onu mənim qətliməcən də yox edə bilərdilər, sonra da. Hər halda, az vaxtın bitməyinə çox qalmayıb.

Ürəyim istədi, bir gün çəpərin qırağında dayanıb, o tək qaza baxmağa başladım. Qaz məni görüb təşvişə düşdü.

Boynunu uzadıb ora-bura devikir, nigaran-nigaran qaqqıldayırdı. Deməmişkən, məndən çəkinir, ehtiyatlanır. Mənim yaxınlıqda çarpan həyatım onun həyatı üçün təhlükə törədirmiş. Qaz ki qaz - qarşıdakı həqiqi təhlükəni yox, mövcud yanlış təhlükəni qavrayırdı.

Daş sənin boş başına!

Mən təhlükə törətməkdə mənim həyatıma təhlükə törədənlərə bənzəyirdim. Qaz bir də ucadan qaqqıldadı və bu qaqqıltı elə bil məni yuxudan ayıltdı. Ey dad-bidad, üstümə oğurluq yıxa bilərdilər. Tezcənə aradan cırdım. Onda qaz sakitləşdi. Uzaqdan qanrılıb baxanda, gördüm onun bədbəxtlik içərisindəki xoşbəxtliyi təzədən cilvələnir. Günəş bədənini səliqəylə örtmüş duru tüklərində bərq vururdu.

Kül sənin küt gözünə!

***

Qətl yasları təmtəraqlı keçir və hər bir insanda xoşbəxtliyə bənzər duyğular oyadır. Mənim yasımda da gələnlərin həyatından yeknəsəqlik götürüləcək. Bircəcik əsnəyən tapılmayacaq. Dəfn sırasının uzunluğu içi şeriyyətli kilometrlərlə ölçüləcək. Yaxşı bilirəm, üzümüzə gələn ayacan yas kontingenti bütünlüklə dost-tanışdan olacaq; mən parıltılı-partıltılı qətlimi onlara ərməğan edirəm.

17.II. - 29.III.2008

## "BEŞ ŞƏKİL"

Bu qəzet inişil açılıbsa da, onun kompüterində cəmi beş şəkil ehtiyatı var. Əlhəmdülillah, çatır. Ehtiyac ödənir.

Redaktor şadlığına şitlik edənlərdən deyil - "keçmişdə belə şey nə gəzirdi", deyir. O, keçmişdən bircə addım qabağa gedib dayanmışdı. Hər halda, tərəqqinin kompüter mərhələsi onu qane edirdi. Bu dızıldayan-cırıldayan şey dünya sivilizasiyası ilə səsləşirdi. Guya radiasiya yayır - nə olsun? Elə bu da sivilizasiya əlaməti deyilmi?

Redaktor sanki dağdan düzə təzəcə enib; sivilizasiya görməmişi üçün radiasiyaya qovuşmaq da xoşdu. Hərdən tozunu özü aldığı yeganə kompüter tərəqqi atributu kimi ona sakitlik gətirir.

Kollektiv də şikayətlənmir. Asketik həyat tərzini hamı müsbət dəyərləndirir. "Mənəvi təmizik", - zarafatla da özləri özünə tərif deyir. Cəmi-cümlətanı beş şəkilləri olmasını onlara oxucu yazmışdı. İşə bax, redaksiyada bunu bir kəs bilməyib. Oxucu eləməyib tənbəllik, sayıb. Yüksək satış göstəricisi qəzetin lirik-romantik ruhuna haqq qazandırır. Bu həm də kütlənin işıqlı-sentimental mənəvi durumundan xəbər verirdi. "Qara" epiteti kütləyə səhvən yapışdırılıb. Hərçənd sentimentallığını onun zəif cəhəti kimi də yozmaq olar.

Şəklin üçü qrafik üslubda rəsmdi, ikisi - bədii foto. İnsafən, beşi də sərgilikdi. Muzeylərdə - idillik bir şəraitdə göz oxşamaqdansa, gündəlik qəzetdə "fəhləlik" edirdilər. Müəllifləri də göstərilmir, eləcə təsvir adıyla harda gəldi işlədilir, çürük məqalələrə can verirdilər. Onlardakı bədiilik ümumən gözəlliyi rəmzləndirir və kütləyə təsir göstərir. Bədiilik təlqin vasitəsidir; elitar mədəniyyəti kütləviləşdirməyə qadirdir. Kütlə bədiiliyi sevir, ona son ümid yeri kimi baxır. Bədii material istənilən qəzetə əbədiyyət hüququ və şansı verir. Bu redaksiya əbədiyyətlə ünsiyyətə girə bilir, onunla əylənirdi. Əbədiyyət həvəskarları bədiiliyə meyllidir.

Bu rəsmlərdən bir-ikisinin müəllifi bəlkə də Pikasso idi. Üslub oxşayışı böyükdü. Ya Pikasso özü deyilsə də, ardıcıllarından biridir. Ardıcılları ondan seçilmir. Təqlidçilər insanı çaş-baş salır. Eh, bəlkə burda söhbətin valını dəyişək... Məndə sənətkarlıq söhbətlərinə həvəs qalmayıb. Hövsələm daraldı-daraldı, Qarabağ müharibəsində tamam söndü. Müharibə əksər maraqlarımın yanlışlığını üzə çıxardı. Sülh dövrünün maraqları indi mənə boş görünür. Mədəniyyət ekstremal vəziyyətlərdə dəyərsizləşir. Bəlkə də boş işlərin ləğvi naminə sülh yerli-dibli rədd edilməlidir. Həyat müharibə ritmləriylə tənzimlənməlidir. İnsan hər an ölümdən qorxaraq yaşamalıdır. Onda qısaca ömrün qədir-qiyməti bilinər, lüzumsuz sənətlərə vaxt itirilməz. Ancaq onu da deməliyəm ki, Pikassoya sönən həvəsimi intihara sarı atılan ilk addım da saymaq olar. Hərçənd intiharaqədərki məsafə dəqiq bilinmədiyindən, qeyri-iradi atılmış bu yeganə addım bəlkə də nəticəsiz qalacaqdı. Məndə həyat eşqi qaynamaqda.
Hərçənd artıq bir az ayıb görsənir. Həyat eşqi dəmşəklikdi. Dəmşəklik məndə ənənəyə çevrilib. Başlanğıcını da sülhdən götürüb.

Beş şəkildən biri "Günəş"di. Qalanlarsa antinomik mövzularda: müharibə və sülh, kədər və sevinc. Qəzet onlarla bəzəklənir, beləliklə də, həyat hərtərəfli əks etdirilmiş sayılırdı. Şəkillərin yerdəyişmələrində oyunbazlıq vardısa da, ümumi mənzərə statikdi. Ola bilsin, hərəkət müharibədən sülhə və əksinə, bir də kədər və sevincin növbələşməsində təzahür edirdi. Ən eşşək adam da müqayisədə o hərəkəti görərdi. Keçən sayda sülh, bu sayda müharibə şəkli gedibsə, burdan nə çıxır - dövlətlərin münasibəti korlanıb. Budur, qəzetdə gedən sülh şəklidir. Onda, Allaha şükür, siyasi danışıqlar baş tutub. Ya tutasıdır. Artıq informasiya bülleteninə nəzər

qılmamaq da olar. Hər hansı xəbər artıq bu şəkillə mənasızlaşıb.

Arifə işarə, kötüyə balta. Bu beşcə şəkillə Azərbaycanın dürlü problemlərinin hamısına toxunulurdu.

Ümumiləşmə və səciyyəvilik göz önündəydi. Ümumiləşmiş hər təsvirin yerində sonsuz sayda konkret şəkil-məkil vermək olardı da. Lakin tamda mənzərə aydındısa, bunu zərrədə də araşdırmağa ehtiyac vardımı?
O
xucuların Günəşə münasibəti heç də birmənalı deyil. Bu cür pak və aydın, parlaq bir şeyin də məna yozumları müxtəlif olarmış! İnsan beynindən süzülən ideya və düşüncələr xaotikdi. Hər kəsin sanki öz məntiqi vardısa da, axı, ümumi gedişat da hökmən üzə çıxmalı idi. Bu xaos Günəşə ciddi təsir göstərməzdisə də, onu gözdən salmağa qadirdi. Günəşə ləkə yaxa, ona şər ata bilərdilər. Beşi inanmasa, biri inanardı. Bəşəriyyətin beşdə-altıda biri sayca gör nə qədər eləyir! Onlar Günəşdən gizlənər, pessimizmə yuvarlanar, özlərinə qapanar, nəticədə dəhşətli fəlsəfi cərəyanlar ortaya çıxardı. Günəşsizlik antibəşəri neqativizm törədər. Qəzetdəki rəngli variantda Günəşin istiliyi əməllicə duyulurdu. "Günəş" təkcə təbiəti rəmzləndirmir. Onun sosioloji effekti də aşkardı.

Qaşqabaqlı havalarda qəzetdə Günəş bulud arxasından çıxmış kimidir. Günəş şəkli hətta iqtisadi baxımdan faydalı idi. Günəşin özü kimi şəklinin də kənd təsərrüfatıyla birbaşa bağlılığı var. Yayda Günəş insanları göydən, qışdasa qəzetdən ruhlandırır; onların əli iş-gücdən soyumur. Qəzetdə Günəş təbiətin imitasiyasıdır. Sənəti yox, təbiəti təqlid həmişə gərəklidir. Rəssamların "günəş"ləri də bir-birinə nə qədər çox oxşasa, bir o qədər yaxşıdır. Günəşin hoqqabaz variantları yersizdir. Sürrealistik Günəş rəsmini tulla zibil qutusuna. Qəzetdə realistik Günəş göydə real Günəş illüziyası doğurur. Qəzet Günəşi sanki güzgü kimi əks edir və deyilənə görə, bəzi evlərdə ondan qopan "zayçik"lər gəzişirdi. Hə, Günəş bulud arxasından qəzetə gizli yol tapıb. Hava bir az dönən kimi səhifədəcə peyda olur. Guya rəngli Günəşdən bəzən qəzeti alışan da görüblər. Bu məlumat oxuculardan alınıb.

Odur ki, hərdən təkliflər gəlir: respublika alışa bilər, Günəşin rəngi bir qədər azaldılsın. Ay balam, ta onda da bu, Günəş olmaz ki! Zəfəranlı kökə, pomidor çığırtması, ya bir tava əlvan qayğanaq olar. Yox, qoy kimlərinsə əlində qəzet Günəşdən yansın da, amma rəng həminki qalacaq! Al-qırmızı Günəş redaktorun humanizminin yeganə nişanəsi idi. Elə bilir, ondan dönsə, diriykən ölər. Günəş rəsmini redaktor özünün qaraçuxası sanır. Yayı-qışı onunladır. Evini satmalı olsa da, deyir, qəzeti rənglidən ağ-qaraya çevirməz. Səviyyəni endirməz. "Günəş"in uğuru həm də ondaydı ki, soyuqlarda kasıb onu peç yerində bilir. "Yığışın babam ocağına", deyib, ailə-uşağını divardakı bir səhifəlik "Günəş"in ətrafına yığar.

Onunla yaxşıca qızınmaq olurdu. Qoca birisi "Günəş"i divara yapışdırıb, altından "kamin" yazmışdı. Belini ona söykəyərdi. "Kamin" - cavanlığının Rusyətdə keçməsini göstərirdi. Böyrək daşı tutmalarını onunla yox edir, redaktora da duanı-dua üstündən yağdırır. Axır bu dualar müstəcab olar, inşallah! Ancaq duaların nədə effekt verəcəyi hələlik fərz elənmirdi. Barı yarıqaranlıq zirzəmidən işıqlı bir yerə köçələr. Axı, həyatda başqa cür böyüyüb nə ola bilərsən? Fil olmayacaqsan ki! Onsuz məmurluğu da istəmir. Əfsus, cəmiyyətdə artmaq yalnız məmurluq şəklində mümkündü. Perspektiv acınacaqlı idi. Hə, dualar onu humanizmdən yayındıra bilərdi. Onun humanizminin yeganə maddi təzahürü Günəş rəsmidir.

"Günəş"dən ayrılmaqla ucalmağı faciə sanırdı. İndidən qaramatını töküb, deyirdilər, bundan heç nə çıxmaz. Onun Günəşə məhəbbətini dəlilik sayanlar da vardı. Bir qızının adını Günəş, ikincisini Aygün, sonbeşiyinisə, tərsinə, Günay qoymuşdu. Allah da sərsəriliyinə müqabil ona hey qız verir. Hələ "Şəmsiyyə" adı dururdu.

Kədər şəklinin hələlik konkret adı-zadı yoxdu. Bir də axı ad nəyi həll edir? Onsuz hər şey gün kimi aydındır. Hər gözdən az qala gözün özü boyda yumru bir yaş sallanır. Lap sırğa kimi. Bu nə demək ola? Göz yaşı elə şeydi ki, üzr istəyirəm, onu eşşək də qanar. Şəkildə qadın sanki əbədi ağlayırdı. Kədər həyatda onun ölənəcənki, şəkildəsə əbədi halı idi. Həyatda bəlkə hərdən sevinirsə də, şəkildə həmişə kədərlidir. Şəkildə kədərə məhkumdur; bulanıq sular sanki heç vaxt durulmayacaq. Onun kədəri bəlkə heç sosial məzmunlu deyil də. Ancaq hayana dönə, gec-tez yenə sosiallıq üstünə gəlir, ona dirənirsən. Tanınıb-bilinən əsas səbəb bircə odur. İnsan sosiolojilikdən bir addım da uzağa getməyib. Bu kədərin sonunda bəlkə də inqilab dururdu. Əlbəttə, qadın öləndən sonra da (bəlkə artıq ölüb) öz kədəriylə insanları düşünməyə vadar edəcək. Bay, indi yadıma düşür: axı, bu şəkil foto deyil. Bu qadın ömürbillah dünyada olmayıb, "doğmayıb-doğulmayıb". Gopçu bir rəssamın fırçasından çıxandı. Sənətkarların dünyaya gətirdiyi insanlar əzab çəkmirlər. Onların kədəri qondarma və yalandır. Hər halda, ağlar qadın qaçqın və köçkünlərə itən torpaqlarımızı mütəmadi xatırladar, onları normativ qeyrət və şərəf çərçivəsində saxlayar. Bu qəzet ölkədə şərəf və qeyrət stabilliyinin təminatçısıdır. Ağlar üstəgəl qadın - bu bir namus mücəssəməsi idi.

Amma qrafika kədər üçün düzgün seçilməyib. Kədər belədə ruhsuz və cansızdır. Ağlar üz yağlı boyada daha cazibədar alınardı. Real və təbii. Qrafika hoqqabazlıq, kəndirbazlıqdır. Həqiqətən də, qrafika xətləri dolaşıq sirk ciyələrini xatırladır. Ah, kədərin rəngli təsviri "bomba" bir şey olacaqdı. Amma daha keçib. "Qrafik kədər"lər içərisində də bundan yaxşısını tapmazdın.

Üçüncü şəkil gülən bir uşaqdı. "Gülən"də yox, güləyən. Bu, tərtəmiz foto idi. İstər-istəməz də "Sevinc" adı xəyala gəlirdi. Uşağın dişlərindən üç-dördü düşmüşdü.

Deyən, yandan kimsə onu güldürür. Ancaq güldürən özü görsənmir. Arxa plandadır. Güman, yaşlıdır. Özü bəlkə daim ağlayırsa da, güldürməyi bacarır. Özü ağlayanlar, təcrübə belə göstərir, güldürmək ustası olur. Həm də axı, güldürən də şəklə düşsəydi, üzündəki kədər ümumi mənzərəni poza bilərdi. Baxan avara qalar: sevinsin, ya neyləsin? Güldürənin üzündəki kədər sevinci üstələyə bilərdi. İnsanlar da, tərs şeydilər, bu iki alternativdən kədəri tez tutacaqdı. Kədər qəlb mənzərələriylə həmahəngdir. Hə, uşaq nəyə görəsə, xoşbəxtdi. Ya ona "pıqq" eləmiş, ya da bir gülməcə göstərmişdilər.

Çöhrəsindəki avitaminozu qəzetdəncə bilinirdi. Sınıqlığından görsənirdi ki, canına tezliklə qocalıq sinəcək. Di gəl, hələlik Araz aşığından, Kür topuğundandır. Onun təsadüfi xoşbəxtliyi fotoda əbədiyyətə təsbit olunmuşdu.

Qəzet bu şəkillə qara kütlənin qəlbini ələ alırdı. Nədənsə, qara kütlənin məhəbbəti xoşagələn olur. Kütlə həm də folklor daşıyıcısıdır; aşıqlar da ondan çıxır. Milli əxlaqı da kütlə yaşadır. Vətənpərvər oğullar İranı-Turanı ha gəzələr, axır gəlib ordan qız seçirlər. Redaksiya bu şəkli bayramlarda verir. Atəşkəslər bu fotonun mövsümüdür. Ancaq şəkil müharibədə də tətbiqini gözləyir; bunun üçün şəhər və kəndlər bala-bala, bir-bir geri alınmalıdır.

Sülh şəkli. Elə bu da uşaq fotosu effektində idi. Rəsmin bir yerində göyərçin uçurdu. Tək elə bundan bilərdin ki, rəsm Pikassonun deyil. Təqliddi. Ancaq rəsm rəmz kimi anlaşılandı. Hərçənd göyərçin artıq effektini itirib, ya itirməkdədir. Göyərçin - müasir tamaşaçıya heç nə demir. Üstəlik, axı, niyə məhz göyərçin? Guya başqa quşlar sülhü rəmzləndirə bilməz? Elə məsum quşlar var ki, göyərçin onun yanında vəhşi təəssüratı oyadar. Elə bir tək dimdiyi dəhşət və vəhşət doğurur. Bircə dəfə toxunarsa, hər hansı göz tuluq kimi deşiləsidir. Sən bir diqqətlə bax, göyərçin qartala daha çox oxşayır. Götürək qaranquşu. Onun göyərçindən nəyi pisdir? Qaranquş göyərçindən daha zərifdir. Hələ ondan da həssas. Sadəcə, Pikasso onu görməyib. O, belə bir quşu təsəvvür etməyib də. Ola bilsin, Parisdə dərdə dərman bircə qaranquş da tapılmaz. Pikasso təkcə göyərçini irəli çıxarıb, bax, elə bununla da ədalətsizlik edib. Onun göyərçinə patronluğu Avropanın dünyaya diktəsi sayıla bilər. Hə, bu şəklin alt yarusunda güllər açıb. Göydə bir topa yüngül bulud gəzir. Bulud lap steril tibbi pambıq rəngindədir.

Bir sözlə, kasıbın olanından, rəssam sülhə dair kasad təfəkkür məhsullarını ortaya qoymuşdu. İnan, orda göyərçin olmasaydı, heç kopoyoğlu deyə bilməzdi də ki, şəklin sülhə bir aidiyyəti var. Pikasso və göyərçin - bunu hamı bilir nə olan şeydi. Redaksiya hardansa eşələyib tapdığı müəllifin əsərini Pikassonun xatirinə verirdi.

Baxma, göyərçin tutarlı arqumentdi; artıq XX əsrin də sülh tarixinə yazılıb. Amma başqa quşlar ədalətsizliyi sezsələr, balaca ürəkləri iynə kimi sancacaq. Di gəl,

başları oracan işləmir. Hər halda, yaxşı-pis, qəzet aktual müharibə-sülh problemləri içərisindəydi. Sülh rəsmi Azərbaycana sülh məramıyla gələn hər hansı qonağın gəlişinə uzlaşdırılıb verilərdi. Redaksiya bununla gələnləri sülhə səsləmiş olurdu. Qəzet millətin siması rolundaydı. Ancaq görən, "sülh" sözü danışıq aparanların qəlbini ehtizaza gətirirdimi? İnanan daşa dönsün. Onlar sülh mütəxəssisləridir və yəqin günün bir neçə saatını bu işə həsr edib, sonra da hər şeyi unudurlar. Yaddaş yüklənməməlidir. Onlar Azərbaycanın problemlərini hər dəfə qeyd dəftərçələrinə baxmaqla yada salır. Diplomatlar üçün sülh də müharibə kimi peşə çərçivəsində maraqlı idi. Müharibə və sülh - eyni təsirə malik predmetlərdi. Ehtizaz nədi? Müharibədə qırılanlar da yalnız statistik göstəricilərə daxil olmaqla onlara çatır.

Yoxsa vaxtları hardandı?

Beşinci - müharibə mövzusunda şəkildi. Düzdü, atəşkəs dövründə aktuallığını xeyli itirib. Həqiqətən də, camaat şənliyində-istirahətində, sən gedib-gəlib müharibəni onların gözünə soxur, qulaqlarına mil kimi yeridirsən. Bəyəm bu, düzgün işdi? Yox, əksinə, yersiz və hətta ayıbdı. Sülh dövründə müharibəyə çağırışlar tərbiyəsizlik növüdür. Lakin hərdən qəzetdə onu verməmək də yaxşı çıxmaz, abdallıq olardı. Atəşkəs müharibənin bitməsi demək deyil. Atəşkəs bəlkə hələ müharibənin ortasıdır. Qarşıda ölümlər durur. Ölənlər çataçat şəhid sayılacaq.

İnsanlar gənc yaşlarından heykəlləşib-büstləşəcək. Bütləşəcək. Yorğan-döşəkdə yox, gərək çöldə-düzdə, xəndəkdə-blindajda it kimi gəbərəsən ki, bir hörmət-izzətə də çatasan. Müharibə şəkli rəngliydi. "Kalaşnikov" boz, onun lüləsindəki atəş - qıpqırmızı. Bu çığırğan qırmızı rəssam uydurması deyil, həyat materialı idi. Heç bir rəssam rənglərlə bu cür sərrast işləyə bilməz. Bacarmaz. Rəssam həyatla müqayisədə acizdir.

***

Bir gün məhkəmə qəzetin qapanması qərarını çıxardı. Sülh içində müharibə şəkli çox getmiş, atəşkəs pozulmasa da, bir növ, korlanmışdı. "Bilməmişik, düşmənin xətrinə dəymişik!" - İlahi, sakit adamların özündən çıxmağı nə məzəli olurmuş! Ölkədə düşmənlə dostluq tendensiyası get-gedə güclənirdi. Arada bu redaksiyanı qapazaltı seçdilər. Ərk eləyirik, gəlib dedilər, bu şou qaçılmazdı. Qoy düşmənin ağzı yumulsun, qəzet yenə açılacaq.

Beş şəklin həyata çıxışları bağlanmışdı - redaktoru yandıran, cızdağını çıxaran əsas cəhət bu idi. Qəzet təzədən açılacaqdımı? Məmur sözü həmişə dəvənin boynu kimi düz olub. Qorxasan, hamı da hər şeyi unuda. Şəkillər lüzumsuz inventara çevrilə. Amma ümid hələ yanırdı: bəlkə də "Günəş" müvəqqəti sönüb.

25.05. - 27.06. 2002

## "ÖLMƏYƏ HAZIR DURUB"

Gəndalaşların acı qoxusu bəd xəbər vəd edir. Budaqlarda qurcuxan çəyirtkələrin qorxusu əvvəlki kimi div boyda sərçələrdəndi. Yolların "texnika"sız sükutu vahiməli idi.

***

Üstü uşaq boyu bərabərində cızıqlı "Şkoda" qatar kimi uzun bir maşındı. Təkərləri də naxışlı-labirintli - yağışlarda həndəsi fiqurlar şəklində göllənən dərin-dərin izlərilə yollara üfüqi bəzəklər vurar. Seyidağa bizi sivilizasiyaya onunla bağlayır. Arxa salonu qapalı stadion tipindədir: içində at min çap, hətta futbol vur. Onun qarajı-zadı da yox; dünyanın ən azad maşınıdır. Əlbəttə, "Şkoda" yaxın keçmişdəki elmi-texniki inqilablar balası idi. Düzü, hərdən öyünürəm də ki, onun gəlib-getdiyi bir yerdə doğulmuşam. Bə nə, "Şkoda" sayəsində kəndimiz beynəlxalq səciyyə daşıyırdı. Hələ uzaqdan səsi gələndə, başını balınca təzə atanlardan tutmuş fıs vurub çoxdan yatanlaracan - hamı yerindən ox kimi sıçrayır. Min ilin kəsafət basanları, burnunu yerə dikənləri də ruha gəlir.

Can üstə olanlar hələlik can vermək istəmir. Seyidağanın ucbatından Əzrayıl bir-iki dəfə xəstələrlə əlbəyaxaya çıxmışdı. Hə, bu maşın hər bir insan qarşısında təzə perspektivlər açırdı. "Ura! Seyid gəldi!" - eləcə mənim də uşaqlığım yadıma düşür, istəyirəm qışqıram. Öz aramızdı, "texnika" görmək az iş deyil. Həm də onun gözdə mənzərəsi - xeyirlidir.

Eni uzun bu maşın qabırğa naziklikdə yollara güclə sığır. Əlbəttə, buralar sənin üçün Çexoslovakiya deyil ki.

Çexoslovakiyada yolların qıraqlarını burdakı kimi gəmirtləmirlər. "Şkoda" uçurum bənzərli sağ-sol xəndəklər arası ilə elə gedər, deyərsən, qıl körpüdən keçir. Döngələr Seyidağa üçün riyazi bir problemdi; oralarda hər santimetrin öz hökmü var. Gedib ölümü görüb qayıtmaq, deyir, yolayrıcılarını keçməkdən asandır. Ağa hərdən gopologiyanın valını qoyur: guya çayı kəsən körpüdən, bir də onun aşağısındakı iki döngədən savayı dünyasında çətinlik görməyib. Cəddinə qurban olum, çətinlik barəsində gözünün içinəcən yalan deyir. Döngələri şişirdir.

Guya bilmirik ki, onun həyatının hər nöqtəsi zülümlə keçib. Həftənin yeddi gününü on yeddi kərə çaxırın küpünə girmək, araq gölündə üzməklə deyil ki. O özünü səhvən xoşbəxt sayır. Onun zahirdə xoşbəxtliyi batindəki bədbəxtliyinin təzahürü idi. Onun evini stansiya restoranı yıxdı. "Yaxşı oğlansan" deyə-deyə yanlayar, bir həftə-onca günə iliyini təmizcənə sorardılar. Adamyeyəndi bunlar. Kənddən, özü demiş, "sıfır" həddində çıxır. "Sıfır"ın da tərcüməsi "lüppüz"dü.

"Şkoda"sız hamı məyus gəzir. Deyirsən insanlar küsülüdür. Onsuz kəndin al-əlvan rəngləri itir, hətta qırmızı da qırmızı kimi görsənmir. Ancaq və ancaq boz qalır. Deyiləsi sözlər qurtarır. Sözlər uzaq başı Seyidağanın burdan çıxıb getməyi barəsində qalır. Elə bilərdin, o, Rusyət səfərinə yox, bir az ondan da o yana - ölüm-itimə gedir.

Sözsüz, ölüm-itimlər qəribliyin o tayındadır. Qardaş, Rusyət yolu qurd-quşla, onlardan da vəhşi bəni-insanla dolu: qaçaq-quldur bir-birinin belinə minib. İndinin keçmişdən fərqi cüzidir. Müharibələr indini keçmişə oxşadır. Bu, çox düz söhbətdi ki, seyidi cəddi saxlayar. Rus-çeçen müharibəsinin tən ortasından keçirsə də, ona gözün üstə qaşın var deyən yoxdu. Saathesabı, gedəndə 3-4, gələndə də bir elə müharibə görür. O, səfərlərdə gördüyü müharibələrlə təcrübələnib. Müharibənin başqa cürəsini görməyib. Hərdən gülə-gülə özü özünə "müharibə iştirakçısı" deyir. Quş dili bilən Süleyman kimi çeçenlərin dilindən xəbərdardır. Onların xasiyyətinə beş barmağı kimi bələddir. Çeçenlər nəinki ona çırtma vurmaz, hətta kişiylə dostdular da. Bir gün biri ona qonaq gələsi. Camaat qoşun-qoşun Ağagilə axışırdı: deyirdin əlbət kəndə imam yetişib. Yox, çeçen də, həqiqətən, qabiliyyətli insandı. Üzündən nur tökülürdü. Oturuşu-duruşu - hazır adam balası, müctəhid. Ha baxdım, onda barı ötərgi bir ayıblıq görəm, görmədim.

Ölmək Seyidağanın vecinə deyildi. Bəlkə öləcəyi başına girmirdi də. Dəli şeytan deyir, ona "küt" de. "Harda qırıldı, qırıldı", - sözü budur. Ölməyə hazır durmuşdu. Mən özüm turş alçaya bənzər bədənim üzərində yarpaq kimi əsərdim. Maşallah, bədən də nə bədən - yüngül mehdən nasazlayır. ...Oynaqlarımdakı şaqqaşaraqla səhər idmanından qalmaram. Hərçənd çalışaram da idmanı peşəkarlıq dərəcəsinə qaldırmayım. Hər şey vətər-damarların dartılıb-gərilə biləcəyi həcmdə qalsın. Məndə adətdi, payız girər-girməz
alt-üst qış paltarlarına keçirəm. Yun köynəklərin ikisini birdən taxıram. Payız nədir - qışın əmisi oğlu. Payızda soyuq adamı qışdan bərk qapar. Hə, qatbaqat paltarlarda yazacan hamı məni kökəlmiş sanır.

...Əlüzyuyandan isti suyum əskik olmaz - üşüyənciləm axı. Aftafam hələ soyuq su görməyib. Əlbəttə, mənimlə Seyidağanın fərqi yerlə göy qədərdi. Rusiyanın qarlı çölləri üzərinə sinəsini gərib gedər. Ancaq gözləri tuluqlanmaqda, böyrəkləri çürüməkdə - qarlar onu yenə bilərdi. Yerin-göyün küləyi-sazağı böyrəklərində yalqız cövlan edər. O, böyrəklərinin işini bilirsə də, buna fikir vermir. Böyrək elə

şeydi, deyir, bir ömrə çürüyə-çürüyə də çatar. Əşi, ömür uzun da olar, gödək də. Ətağa cəddi, məna birdi. Qırmızımtıl üzü get-gedə qırışlaşır və artıq qırışları özü qırxa bilmir. Baş kəsirmiş kimi ülgücü qırışa perpendikulyar çəkir. Hərçənd qocalığı boynuna almır, hələlik onu saya salmır. Üstəlik, vur-tut bir-iki söz bilir: "harda qırıldı, qırıldı". Axı dünya üzündə dəllək varsa, ta nə qəm. Dəlləkliyi minillərin qocalıq təcrübəsindən doğan şanlı bir peşə bilirdi. Onlar həm də sünnəti bacarır. Özü də dəllək necə təraş edirsə, üzü mum kimi yumşaq və qaralan tük diblərilə nöqtə-nöqtə bəzəkli olur. Seyidağanın hər kənd-qəsəbədə "pomazok"lu-ülgüclü, "troynoy" odekolonlu xüsusi bir dəlləyi oturub.

"Seyidağanın dəlləyi" - onların hamısının ləqəbi birdi. Onun bir tək dəlləklərə tökdüyü xərci mən heç əynimə-qarnıma çəkmirəm. Ancaq o, dəlləyə gözəllik-zad üçün yox ki - gedəcəyi məclisə hörmət naminə gedirdi. Onsuz gözəlliklə arası yoxdu. İnsanın hər bir hərəkəti, deyir, ədəb-ərkan naminə olmalıdı, di vəssalam. "Bə ədəb-ərkan da gözəllik deyilmi?" - ona ünvanlanan bu qınaq qulağına girməz. Gözəlliyi haçansa pozğunluqla əlaqələndirib, birdəfəlik qurtarıb gedib. O, böyük-kiçiklik ustasıdır. Qoca görəndə, az qalır ayaqlarına döşənə; birbəbir barmaqlarından öpər. Ana birçəyi onun üçün müqəddəs şeydi. Birçək söyülərsə, ölüm onun üçün bir "heç"ə dönər, tum çırtlamaq kimi asan iş olar. Bəziləri ona "qorxunc" deyir; bəlkə bu sözlərində haqlıdılar da. Kim ki gözü qızdı, ölümdən qorxmadı, gərəkdi ondan qorxasan. Şalvarı öndən nə qədər ütülü görsənə, yanı həmişə parıltılı-hamardı. Əlbəttə, bu, şoferliyinin vacib əlamətidir. Onun sənətinə tək elə şalvarla dəqiqcənə diaqnoz qoymaq mümkündü.

Seyidağa Rusyətə Vəli Axundovun vaxtından daş qoyub. İndiyəcənki Azərbaycan padşahlarından bircə onu gözü tutub. Rəhmətlik hakimliyinə uyğun humanist padşahdı. Elə həmin humanistliyindəndi ki, respublikalararası alış-verişə "polnı" icazə vermişdi. Hələ üstəlik oralarda evlənib bura gətirirdilər, buralarda evlənib ora aparırdılar. Azərbaycanda metislərin sayı "en" qədərdi. Xristian gəlib müsəlman olurdu, hərdən də müsəlman gedib - xristian. Alimentlərin arası kəsilməzdi. Seyid onda cavandı, bədəni də - daş-dəmir. Daş-dəmir də yox - tunc. Di gəl, "tunc"un qədrini bilmədi; onu Rusyət-Moskva yolunda paymal etdi. Onun gül kimi səhhətini, şipşirin canını pomidor-sarımsaq çeynəyib yedi. O, poetik qarpızlarla Moskvadan da uzaqlara getmişdi. Kilsə başlı Vladimirəcən, gəmili-qayıqlı Arxangelskə qədər. Norilsk - necədi sənin üçün. Moskva artıq ona evin içi kimi bir yerdi. Həmişə də gedib aləmi gəzib gələr, dibi lehməli, suilanlı-qurbağalı xəndəklərdən yüksələn gəndalaşlara ilişərdi. Hər gəndalaşın da bir yarpağını dartsan, göyə çəyirtkə topası millənər. Hava çəyirtkədən buludlanar. Kənd Ağanın yaralı yeridir. Bəzi yolları necə tutublarsa, üstündən adicə kök bir qoyun güclə keçə bilir. Keçirsə də, çəpərlərə sürtünə-sürtünə. Hər tel ucunda bir çəngə yun qalır. Oğraşlar torpağı dallarına sarıyıb aparacaq, gorlarına döşəyəcəklər. Düzdü, Seyid özü şikayətlənməz, bir kəsi söyməz. Çünki səfərlərdən hamı üçün darıxıb gəlir. Burda ona hər adam qiymətlidir. "Şkoda" batanda camaat özü dinib-söylənir: utanmazlar, qızarmazlar! Məəttəlik, deyirdilər, niyə Əli yoluna göz dikənlərin

gözləri çırtlayıb yerə tökülmür?!

Gah orda, gah burda gəndalaş budaqları sınıb sallanır: qurusu da var, yaşı-yaşılı da. Boynuma alıram, "Şkoda"nın kəndə qayıdışı mənim üçün əlamətdar hadisə idi. Hətta onun mıxlanıb yolda qalmaqlığı da. Maşının həndəvərində oğlan uşaqları boylarından uca təkərlərin mübahisəsini qılar. Onların fikrincə, heç bir mismar bu təkərləri deşməz. Güllə - hə, deşər. Qızlar "Şkoda"nın rəngini kəlağayılarının qırmızısıyla tutuşdurar.

İl boyu Seyidağanın paltarlarından benzin qoxusu gələr. Qəttəzə kostyumlarına benzin iyi bədənindən hopur. Biri bir dəfə deyəsi ki, Seyidağanın damarlarından qan yox, benzin axır. "Ola bilsin düzdür", - bunu Seyidin özü dedi. Orasını neynirsən, həyatda nə cür sıxıntı-çətinlik ola, Ağa ondan çıxmağın üsulunu bilir. Məncə, dünya üzündə elə fövqəladə hadisə ola bilməz ki, Seyidağa onun qarşısında aciz qalsın.

Seyid olmayanda, bizdəki canlanma ancaq ölümlərdəndi. Hər ölənlə kənddə hərəkət çoxalır. Hətta ora-bura qaçanlar gözə dəyir. Yollara kütləvi səhnələr çıxır. Ölü götürənlərdə sanki tətil-nümayiş qabiliyyəti var. Yaslara hamı təzə və təmiz kostyumlarda gedər. Yas təzə kostyumlarla rövnəqlənər. Elə bil sərgidir. Hərçənd döngəyə pərçimlənən "Şkoda"nın yanına da təzə geyimlərdə gəlirdilər. Paltar barəsində buraların toyu da, yası da birdi.
Hə, "Şkoda" kəndə bayram kimi girər. Bu bayram xoş bir zəlzələ bənzərlidir. Ay budu ha, bir də gördün, yer beşik kimi yırğalandı, qapı-pəncərələr, taxçada çinilər cingildəşdi. Armudu stəkanlar pürrəngi çayı üzünə şadyanalıq rəmzi kimi yaxır. Ancaq mən onda elə bilirəm kənd bu saatcana tabaq kimi çevriləcək.

Seyidağa məndən beş-üç il uşaqdısa da, tez ovraq olmuşdu. Sanki mənzilə yüyürək çatmaq, həyatı tezbazar yekunlaşdırmaq niyyətindəydi. Onunku zülümdü, maşının hər cəfasını özü çəkir: altına girir, üstünə çıxır. Hıqqanır, gücənir - yaxşıdı qasığı partlamır.

Mən yuxumu azacıq gecikdirəndə, gic kimi oluram. Sabahı dərsdə dimdiyimi sallayıb mürgü döyürəm. Sinifdəki hər çıqqıltı beynimə düşür. Yağış pəncərəni döyəcləyəndə də, elə bilirəm kimsə məni dolayır. Şuluq uşaqların peysərinə yapışdırdığım şillələrin də sonra hökmən səsi çıxır - valideynlər üstümə yürüş edir.
...Müəlliminki - rejimdi. Ömür saatlara bölünüb. İstəsən də, şaltay-baltaylığa imkan yoxdu. Həm də müəllim qaçaq-quldur deyil ki - gecəni gündüzə qata, sübhəcən oyaq qala. Üstəlik, yuxusuzluq nervlərə balta çalan şeydi - insan hətta sonra keçəlləşir də. Müəllim də keçəl oldu - at getsin. Heç uşağını eləsinə oxutdurmaq da istəməzsən. Keçəl müəllim - antiestetikdir.

Amma Seyidağa qar təpələri arasında sübhü diri açar. İş bilmişəm, sən yuxuna haram qat ki, çörək qazanıram. Öz aramızdı, yatıb yaşamaq yatmayıb yaşamaqdan

min pay yaxşıdır. Mənim gecələri yatmamağım yadıma gəlmir. Bircə kərə yoxlama dəftərlərini gecikdirmişdim: onda arvad gəldi-getdi, getdi-gəldi, "dur yat", dedi. Üstəlik, anası öyrətmişdi - qızım da. Amma gör ailəsində cürət edib bu cür şeyi Seyidağaya deyən olardımı? Basıb iki gözünü bir bəbəkdən çıxarardı.

Bizdə hamı mənim ölümümdən qorxur, üstümdə zağ-zağ əsir. Əlbəttə, hələ iqtisadi cəhətcə faydalıyam: qoy əssinlər.

Seyid Rusyətdən gəldimi - ev dəmbədəm dolub-boşalar. Qapı hər açılanda da içəridən bayıra təmiz buxar çıxar.

Mən kandardaca buxardan yağış sallandığını öz gözlərimlə görmüşəm. Ağa ona dəyməyə gələnlərlə gecə yarısınacan oturar. "Yorulmuşam - cəhənnəmə ki", deyər. Qanacaqsızlıq edib əsnəməz. Əsnəməyi özünə yasaq buyurub. Bu barədə dəmir hərb intizamı var. Arvad-uşaq da qonşu gözdə səksəkədədi. Səsdən-cingiltidən göydə tuturlar ki, kimin qənşərində stəkan boşdur. Burda siqaret siqaretə calanır, samovar - samovara. Onun hər səfəri, necə deyərlər, təzə nağıllar çələngidir. Hər nağıl da buruq-buruq tüstülərlə halələnir. Üzüm ayağınızın altına, vaxtında evlənsəydim, indiyə nəvəm olardı, ancaq mən də heyrətdən onun söhbətlərinə uşaq kimi ağzıaçıla qulaq kəsilirəm. Onunkuna bənzər çətin-romantik həyat görən mənə də niyə qismət olmadı? İndən belə yəqin olmaz da.
Mən bircə dəfə səfərə çıxsam, evə sink tabutda dönərəm. Bayaq dedim, meh əsdimi, burnum axır. Sərin dağ havasında sətəlcəmim hazırdı. Bunun dərdindən dağ mənə haramdır. Məclislərdə ən şirin söhbətim də əlifbadan uzağa getməz. "A" böyük, "a" balaca - əşi, ömür bitib-tükəndi, ta nə qədər olar! Hərfləri yuxuda da görürəm. Bir dəfə yuxuda qıçıəyri hərflərdən üstümə ləşkər yerimişdi. Tərif olmasın, dəryaca ağlım var, ancaq hərlənib-fırlanıb hər dəfə yenidən ibtidai şeylərə dirənirəm. Alnıma yazılıb: çörəyim ibtidailikdən çıxır.

Seyidağa Rusyəti fırlananacan, görürdün, qohum-əqrəbadan başını quzu kimi sakitcənə yerə qoyanı olurdu. Onda gəlib əvvəl öz süfrəsi başında kimin necə getdiyini ətraflı öyrənər, ağzına bir şey atıb, sırayla yas yerlərini gəzərdi. Onun başsağlıqları qəribə cürdü. Üzünü ehmalca hüzür sahibinin üzünə söykəyər, əlini iki-üç kərə yüngülcə kürəyinə vurar, di vəssalam. Dilindən "rəhmət" kəlməsi eşitməzsən. "Rəhmət"i saxtakarlıq sayır. Di gəl necə işdisə, camaat onu görəndə göz qabağındaca dirçəlir. Gözlər gülür. Elə bilirsən doğmaca qardaşları gəlib.

Ondan ötrü ölənlər vardı. Yasdan silkinər, ölüyə yanmağı yerə qoyardılar. Həm də Seyidağa heç vaxt bizim kimi eləməz; məzənnə-zad gözləmədən yas sahibinin cibinə bir qom pul basar. Bəlkə qədərini özü də bilməz. Mən - göydə bilmərəm. Hə, bircə sonradan həmin adam özü bilmiş olar. Biz ölü misallıyıq - yaslara məzənnədən artıq bir qəpik salmarıq. Biz ölünün dalına el qaydasınca dəyənlərik.

Seyidağa ölüm barəsində Allahın işlərinə qarışmağı düdüklük sayar. Özü oğul kimi

ölməyə hazır durub. Ya zəlzələdən, deyir, ya vəlvələdən: harda qırıldı, qırıldı. Harda başına daş düşdü, düşdü. Qətiyyən fikirləşməz də ki, birdən qarlı-qaranlıq yollarda qurd-quşa yem oldu. Dünya qulağına deyil. Dərd-qəm onun yan-yörəsindən vıyıltıyla ötür. Demir insanın motoru getdiyi yerdəcə sönə bilər. İnişil Moskvada - "motel"dəcə ürəyi tutubmuş. "İnfarktdı", deyiblər. Bu da "nə olsun?" - qayıdıb, "infarkt da insan üçündü, donuz üçün deyil ki. Əksinə, infarkt insanın bəzəyidi". "Xəstə görməmisiniz?" - başına toplaşanları bərk acılayıb. Seyid orda da ölməyə hazır imiş.

Ölüm ayağında da əvvəlki fikrindən dönməyib. Müalicəsinə kəndə gəlib çıxmaq xatirinə razılıq verib. Mitilini ordan bura sürümək el-obaya baha oturardı. Ölümündən özü də yox, həkimlər qorxub. O, həkimlərin qorxmaqlığında da saxtalıq tutmuşdu. Vallah, bu həkimlər səmimi deyil; yalandan qorxurdular. Onların "insanlığ"ı bürokratikdi. O, ölümdən qurtuluş yolunu heç vaxt aramayıb. Ölümdən qaçmaq əbləhlikdi, deyər. Haq şeydən qaçmazlar. Türmədən, bax, hə, qaçarlar. Türmə alçaq yerdi. İnşallah, hələ türməyəcən alçalmayıb, alçalmaz da. Hər şey bir yana, öz seyidliyinə hörmət qoyub cinayətə getməz. Cəddi ona nəzarətçidir.

Mən utanmazcasına cavan qalırdımsa da, gələcəkdə ölməmək üçün əlimin altında heç bir tədbir yoxdu. Məndə həyata qayıtmaq mexanizmi yox dərəcəsindəydi. Seyidağa istəsə, heç ölməz də. Lakin ölməməyi kefi çəkmir. Hə, ölməmək üçün... yüzlərcə dostu var. Dünyanın bütün yaxşı həkimlərini yığıb üstünə tökərdilər. Onun təkcə yarımhəkim dəlləkləri bir ordu qədərdi. Ancaq dediyim kimi ölməməyə çalışmır. Əksinə, bir yanını boş buraxıb. Həkimə-zada yalnız bir yeri "neştərlə deşiləndə" gedər. Əsasən də dişə görə. Ağrısı olmaya, Ətağa cəddi, ölümdən yaxşısı, ölməkdən asanı yoxdu. Ən çətin şey döngələri burulmaqdı.

Mən özüm can üstündə yarpaq kimi əsənlərdənəm. Yox, yağış-qar, payız-qış mənlik deyil. Məktəb şkafında hazırcana quru ayaqqabılarım durar. Köhnə dəbli iç-içə qaloşlar mənim əsl malımdı. Su verməyən çəkmələr mənim üçün "Volqa"dan-"Mersedes"dən üstündü. Şofer olam, vur öldür, Seyidağa kimi maşın altına yatmaram. Günümə bir ovuc onluq qızıl verələr, maşına altdan baxmaram. Seyid nə həyatı, nə ölümü vecinə alırdı. Elə bil xəstəliyi özü gəzir, ancaq tapmır. Əksər vaxt Moskvaya tək gedər. Yolu uzaq düşərsə də, gedən baş Qroznıdan keçər. Elə gələn baş da. Kişi çeçenlərin bərk dostudur. Hazırcana quş dili bilən Süleymandı. Onların müharibəsindən də xoşu gəlir. Bunun onlara, onların da buna sözü qanundur. Arada söhbət gəzir də ki, onu ora bağlayan tamam başqa şeydir - arvad. Dost-zad bəhanədi. Hərçənd bir tək arvad - ömründə ola bilməz: yollarda hamı onun başına and içir. O, kasıblar anasıdır. Get-gedə qocalmağına da baxmırlar; indinin özünəcən yol boyundakı kənd-qəsəbələrdə ona evlənmək təklif edirlər. Yerli polislər ona "çes" verir.

Mənim dirilər barəsində hiss-həyəcanım yeganə ondandı. Ölülərlə aram yoxdu.

Qırmızı "Şkoda"nın gəlişi mənim üçün hər şeydi. Nə gizlədim, həyatım onun gəliş-gedişlərilə mənalanırdı. Gəlişi sevinc, gedişi məyusluqdu. Mən bir çox hikmətləri də ondan əxz eləmişdim. Darıxmağım ancaq onun uzaq səfərləri vaxtı olur. Gəldi - ordakı, getdi - burdakı işlərindən danışaram. Ondan danışanda, dedi-qodudan uzaq olursan. Onun barəsindəki heç bir söhbətə qeybət deyə bilməzdin.

Mən ölməyin dərdindən rayonun "cız"ından qırağa çıxmıram. Hayıf deyil, öz xarabanda ayaqlarını uzadasan. Çataçat molla başının üstünü kəsdirə. Üstündə ağlayıb-üz cıralar. El də səni kaşan-kaşanla basdıra. Uzaq yerdə ölən üçün nə orda ağlayırlar, nə də hələlik burda. Nə şapda olur, nə şupda - ölü aradaca itir. Ya qismət, bəlkə burda 1-2 ay sonra sızıldaşıb-ağlayalar. Gərək bacardıqca hələ ölməyəsən. Bu müəllimliyin də "təkmilləşmə"si olmaya - Bakıda ölməkdən it kimi qorxurdum. Bura gətirməyin tənbəlliyindən, çaşıb orda - Abşeron daş-kəsəyinə quylayardılar. Basdırıldın da - batdın, heç hara tərpənə bilməzsən.

Amma Seyidağa ölməyə hazır durmuşdu. Ölüm barəsində fikir çəkməz, belə "boş şey"lərə vaxt itirməz. Mən bir müəllim kimi onun tərbiyəsinə mat qalmışdım. Pedaqogikada onunkuna bənzər tərbiyə barəsində yek kəlmə tapmazsan.

***

"Şkoda" çoxdan gözə dəymirdi. Gəlməyi gecikirdi. Kənd Seyidağasız darıxmışdı. Ondan ötrü burnumuzun ucu göynəyirdi. Ürəyimizə də min cür fikir gəlir. Ancaq ölməyə hazır durubsa da, təsəllimiz ölümdən xilas yollarını bilməsi idi. O, kəndə gəlməmiş qəti ölməz. Öz razılığı olmaya, ölüm onu heç cür apara bilməz. Yeri gəlsə, Əzrayılla çarpışar da. Üstəlik, çeçenlər onun dostudur - hara ölür? Ancaq yox, ümumi xof kənddən əskilmirdi. Qəribə işdi, onun öldüsündən xəbər yoxdusa da, qaldısından da - yoxdu. İndi nə biləsən, dünyanın harasındadı. Namxuda, Rusyət planetin yarısını tutub. Hərçənd gəlməyəcəyi təhlükəsi artırdısa da, hələ gələcəyinə güman da çoxdu.

Gəndalaşların sınıq budaqları təzə yaşıl budaqlardan görünməz olmuşdu. Hərdən yolların üstü çəyirtkə qanadlarıyla örtülür. İraq olsun, onda yol yas mağarına oxşayır.

27.X. - 13.XII.1999

## "İLK DÜŞMƏNİM"

Həsənağa 10 yaşında öldü. Öldü də yox, gəbərdi, gəbərdi də yox, xosunvay oldu. İndi mən öz həmyaşımdan, ilk düşmənimdən düz 45 il böyüyəm.

“O, rəhmətə getdi”, “o, haq dünyaya qovuşdu”, - onun barəsində bu cür-bu sayaq şirin-şəkər cümlələrə də dilim gəlmir.

Dəyməz. Üstəlik, onsuz elə yalançı-əttökən mədəni sözlərə məndə səbir-qərar qalmayıb.

“Mədəni” deyəndə - çürük və boş, bayağı-şit, süni-bürokratik sözlər.

Hə, yalançı-əttökən…

Oğlan ad günündən bircə həftə sonra suda batdı. Pudluq daş kimi çayın lilli-palçıqlı dibinəcə getdi. Qarnı başına bəla oldu, “çox yediyindən tez batıb”, dedilər. …Boğulanda, onu bir uşaq görübmüş.

Həmin uşaq indi durur və 50-sini hələ təzə haqlayırsa da, yüz ilin müsinn qocalarına oxşayır.

Əzrayıl canına dəyməsin, Həsənağanın ölüm anlarından bir tək “bul-bul” yadında qalıb. Deyir, “bul-bul” onun vəsiyyəti kimi bir şeydi.

Ölümü təntənəsiz baş verib. Ya dayan, batarkən çay səthinin lillənməsini təntənəyə bənzətmək olar. Sarı-bulanıq dairə narıncı xəttə çevrilərək çay aşağı axırmış. Güman, bu minvalla bəd xəbər gedib dənizə də çatıb.

Hər halda, Həsənağanın həlakı bu ötəri təbiət mənzərəsini uşağın yaddaşına həkk edə bilib.

Bu dünyanın ən ötəri mənzərəsi də əbədiyyətə qalandır.

İlk düşmənimdən yeddi gün kiçik olduğumdan, ölümü düz gəlib ad günümə düşdü. Göylərdən bir hədiyyə kimi. Tamamilə təsadüfən.

Bir zərurət kimi də o gün anam bayramlar yaraşığı zəfəranlı plov asmışdı.

Plov qıpqırmızı boranısıyla buludlu-yağışlı qara bir gündə Günəşi rəmzləndirirdi.

İlk düşmənim əcəb tez çıxdaş oldu; ölümüylə məndə gələcəyə böyük ümidlər doğurdu.

Yadımdadı ki, xəbəri eşidəndə, kürəyimdən enli-zolaq gizilti keçmiş, bədənimə xoş bir istilik yayılmışdı. İndən belə rahatca məktəbə gedib-gələr, hələ sonra instituta da girərdim.

Mən ilk xoşbəxtliyi düşmənin birdən-birə heçə-puça çıxmasından duymuşam. Elə bil Həsənağa düşmən deyilən kəsin kimlik və necəliyini mənə anlatmaq üçün həyata gəlibmiş.

Gəldi, anlatdı, getdi. İnsafən, o, həyata gəlməsəydi, gəlib də tezbazar getməsəydi, məndə "gələcəyə ümidlər" hardan doğacaqdı!

Onun köməkliyilə ümidin şəhdi-şəkərini çəkdim, həyatdan ləzzət tutdum.

Düşmən ölümü qələbə sayılırsa, bu qələbə mənə havayı-kalam nəsib olmuşdu.

Kimin yadında deyil: uşaqlıqda düşmən adama qorxunc görsənir. İlk düşmən bir-iki həftəyə mifolojiləşir. Tösbərəkdisə, caydaq olur, caydaqdısa – tösbərək. Gecələri saymazyana gəlib yuxuna girir, orda azad-asudə gəzir.

Yuxularda onun addımları cingiltili, əks-sədalı olur. Məncə, ilk düşmən insana ömürlük pusqu qurur. O istəsə, yuxularda qurduğu pusqudanca sənə xətər-xəsarət, bir sədəmə yetirə bilər.

Əfsus, ilk düşmənimin ölümündən gələn sevinc uzun sürmədi – vur-tut bir il çəkdi. Mağıl özüm üçün şellənə-şellənə gəzirdim. Həsənağanın mənə sataşmalarını yamsılayıb da, ona-buna sataşırdım.

Birinin qulağını çəkir, başqasının burnundan tutub dartırdım. Orasını deməzlər ki – qorxa-qorxa, yalandan. İçimi yeyərdim ki, indi-bu saat motalımı sərəcəklər yerə.

Hardasan-burdasan, Həsənağa sonrakı ad günümdə, keçəl başı da sanki yağlanıb, yumşaqca və səssiz gəlib, fikir-xəyalıma soxuldu. Bütün günü onunla səngsar oldum; əlində əsir-yesir qaldım.

Bəlkə də bildirki ad günümdə ölməklə, mənə yaxşılıq etdiyini anlayıb, indi əvəzini almağa gəlmişdi. Bu, açıq zorakılıq aktı, qəsbkarlıqdı. Bay, gələn il də belə, o birində də.

Həsənağanın zorakılıqları hər dəfə yeni halqada, təzə keyfiyyətdə üzə çıxırdı. Artıq 15 iyullar mənim ad ğünüm yox, bu yetimçənin xatirə günləri sayıla bilərdi.

Plov da hər il - həmişəki kimi qırmızı. Deyirdin, əlbət, keçən ilin bu ildə rəngli kserosurəti çıxarılıb.

Başağrısı olmasın, Həsənağa bu dünyadan 10 yaşında itmişdisə, artıq ad günlərimdə illik-ömürlük bitmişdi. O mənim hesabıma ildə bir gün həyata öz əlavəsini yaşamaqdaydı.

Dost-doğmaları unutmaqda, gözünün düşmənisə onu get-gedə daha parlaq xatırlamaqdaydı. Bu saat ən xarakterik cəhəti ölülük olan Həsənağa ad günlərimin güldəstəsiydi. İndən belə də otuz il yaşayam, otuz il ömr edəcək, əlli il - əlli.

Əl çəkənə də oxşamır. Sağlığında ad günlərimə vız atmazdı, öləndən sonra… - mazata minmişəm. O, o dünyadan qaça-qaça, dəvətsiz gəlir. Ölüb nəcibləşib. Ad günümə hədiyyəsi də nə ola - gətirib ürəyimə sancdığı uzun-uzun ağrılar.

Ox-ox, mil-mil, nizə-nizə.

Artıq ad günlərimi ancaq onunla keçirirəm. Kim demiş, tet-a-tet. Buna məcburam. Evdəkilər gözümdə - kölgə misallı.

Düşmən real, doğmalarım - irreal.

Doğrudan ha, Həsənağanı məndən başqa hamı unudub.

Hələ kəndçilər heç, evdəkiləri də. Durub soruşsan, bir cüt qara-qarğa bacısı, hətta qarnından çıxdığı anası da, onun doğulduğu və boğulduğu ayı-günü, barı ilisə, hətta üz-gözünü də dumanlı xatırlayar.

Mənsə unutmaq nədi, hər şeyi saatına-dəqiqəsinəcən deyə bilərəm. Sağlığında vaxt-bivaxt məni vəhşətlər qarşısında qoyub (elə indi də qoyur).

Burnumu sındırıb-ovub, beynimi didib-eşib.

Sinəmə hər çökəndə, elə bilmişəm işim bitdi - əlvida, həyat.

Düşmən dostdan unudulmazdır.

İllah da belə birisinin ölümü gəlib sənin ad gününə düşə…

Əcəb insan həyatında ilin bütün günləri ola, təkcə ad günündən savayı!

Pərvərdigara, mən ad günləri nevrozuna tutulmuşam! Ovuclayıb atdığım trankvilizatorlar da kar eləmir. Həsənağa qarabasmalarımın epik surətinə çevrilib. Dərman-zad onun da yanından yel olub ötəmmir.

Onu nəinki yatırtmır, heç mürgülətmir də. Amma istərəm barı ad günümdəsə o yata-ölə. Mənimlə birgə. Ad günümü heç də şad günüm kimi keçirmək istəməzdim. Mənim ad günümün onsuz çoxdan yalnız adı ad gündür.

Zəfəranlı-boranılı plov Günəşi rəmzləndirirsə də, şadlığı zərrəcə əks etdirmir.

Ad günlərimin bir günündə "Həsənağa"nı leş-bağırsaq edər, onu qətlə yetirərəm, inşallah! Bıçağı reallıqdan virtuallığa – birbaşa ürəyinin ortasına saplayacağam. O, 4-5 yaşlarından qudurğandı.

İndi baxar! Göz-başı civə kimi qaynayardı. İndi görər! Qızlara dəyməzdi, yox.

Oğlanlarasa göz verər, işıq verməzdi: ona-buna badalaq atar, kimisə itələyib xəndəyə yıxardı. Bay, görürdün yıxılan durub zır-zır, bəzən zar-zar, ağlamağa başladı və getdi ata-anasına şikayət eləməyə.

Həsənağa əsas da başıaşağı-əlaçı uşaqların qənimiydi.

O, kəndin qoç-qoyununu at kimi minib çapardı.

Bizləməyə hövsələsi çatmadığından, bir tək eşşəyə minməzdi. Eşşəklərə ölənəcən biganə qaldı. Onlar da – buna.

Gendən baxanda, Həsənağanın başı – hazır kub. Həvə dişləri üst dodağını önə itələyib; ağzı əksərən açıq. Üzdən ana söyüşü söyənə oxşayırdısa da, insafən, heç vaxt dilindən elə bir söz qaçırtmadı. Əksinə, ana söyüşü söyənləri bərk dınbızlayardı.

Hamının ondan it kimi qorxması mənə bir təsəlli idi. Qorxaqlıqda tək deyildim. Döymək Həsənağaya, döyülməksə ayıb-ayıb bizə xasdı.

Son nəfəsinəcən də mən onun, bit düşməmək üçün, anasının yay-qış daz qırxdırdığı, başına elgözünə bir çırtmasa vurmadım. Əksinə, özüm onun yumruq-təpiklərini, şillə-qapazlarını "iştahla" yedim.

Barmağının tiniylə təpəmi döyəcləyəndə, az qalıb beynim göyə fontan vura.

Şalvarım təpik yerlərindən alabəzəkdi. Ayaqqabılarının altı dalımda möhür izləri buraxardı. Bir dəfə də təpiklərindən sonra qayışımın arxasından quş lələyi sallanırmış.

Hamı ağzını ayırıb qaqqanaq çəkir, “buna bax, lələkləyib,”- deyirdi.

Hüquq qanmayan uşaqlarda hər şey vəhşi təbiətlə həmahəngdir.

Hər bir insanda döyüləni döymək instinkti var.

…Həmişə də evə şalvar-köynəyimi çırpıb-təmizləyəndən sonra qayıdardım. Qorxurdum ata-anam onun danışığı dava olan anasıyla (deyirdilər, atası evdən qaçıb, ruslaşıb) dilləşər. Həsənağanın beş parça kənddə yeganə arvad mürdəşiri olan anası onlara cırmaq ata bilərdi.

Təhqirlərə dözməklə dünya müharibələrinin də qarşısını almaq mümkündür.

Əcəb Həsənağa xortdayıb gələ, bir onu salam təpiyimin altına. Dəli mal kimi ayaqlaram onu. Qabırğalarını xıncımlamaqla dərsini verərəm. Qoy elə məni qınasınlar: bığ-saqqallı, qıllı-əjdaha bir kişi sarıqılçıq bir başıkubun üstünə düşüb.

Nə onun dişlərini qırıb qarnına tökərdim! Boynuma alıram: vücudumda at gücüylə hesablanası qüvvətlər yatır. Ə, mən onu ovuclarımda atıb-tutub oynadaram-e! İstəsəm, üzü yuxarı da elə tullayaram, qarnı gedib göy qübbəsinə yapışar.

Bir yandan da - xofu hələ canımda. Qorxurdum hər şey tərsinə alına: gədə uşaqlığı-ölülüyüynən diriliyim-böyüklüyümlə arxamı yerə vura.

Hər ad günümdə mən Həsənağanı bir başqa cür xatırlamışam. 30-35 yaşlarım onunla haqq-hesabı çürütmək üçün ən münasib vaxtdı. Onda qayışbaldır kişiydim. Bilmədim niyə, xəstəliklər məni tez haqladı, dalınca da - qocalıq. Güc-müc getdi işinin dalınca. Havaya uçdu elə bil.

Onunku əcəl yox, əcəl-mayallaq oldu. Adam da 10 yaşında ölərmi? O, böyüyərdisə, bir vaxtların ona-buna xox gəlməkliyi öz-özünə keçib gedəcəkdi. Uşaqlıqda ağzı gen yerdəydi, quyruğu bircə yol qapı arasında qalardısa, boynunu qısacaqdı.

Həyat kopoyoğlu şeydi, sıxıb suyunu çıxaracaq, onu muma döndərəcəkdi. Vallah, Həsənağanın ondakı qoçaqlığı anlamazlıqdandı. Başı daşdan daşa dəyəndə, qorxağın-tülkünün yekəsi olacaqmış.

Qara kənd işlərində beli əyilər, donqarları köynəyini yırtar, uşaqlıqda döydüklərinə irişə-irişə salam verəndə, iki əli, bir başı olardı. Nədənsə, mən onun yaşlı çağlarını məğmun təsəvvür edirəm. Əsas sosial problemləri də nə olacaqmış – qida çatışmazlığı, avitaminoz.

Vərəm dispanserinin pasiyenti olub da, nəfəsindən saçılan tubazid qoxusuyla rayonu-Bakını gəzəcəkdi.

Təzəlikcə mən onu özümə dost seçmişəm (ölümündən sonra). Yəqin artıq qəbri itib, ya durursa da, üstünü ot-ələf basıb.

Qəbri üstündə güllü qanqallar - qərənfillər əvəzi…

Binəva nə yatdı ki, nə də yuxu görə. Gözlərini dünyaya açıb, divarları göbələkli, uçuq-nəmişkən evlərini gördü. Əyləncəsi bir yanı salxaq, bir yanı qalxaq, cırıltılı eyvanda sürüşmək, əfəl uşaqlara söz atmaq, ekskursiyaları, barı Lənkərana-Masallıya da yox, qonşu kəndə oldu: xalasıgilə.

Hə, bir də kiçik qardaşı doğulanda, həmin göyçək xalasıyla Prişib bazarına, beşik almağa getmişdilər.

Heyranlığı böyük təbiətin ancaq öz sovetliyimizə düşən parçasına oldu.

Onun həyatda gördüyü ən ekzotik şey “Bakı-Astara” qatarı sayıla bilərdi.

Mən artıq Həsənağanın hər yamanlığına “neynək” deyirəm. Oldu, keçdi. Torpaq altda sümükləri iynə-iynə düzülü bir cinbalayla kin-küdurət saxlamaq adıma yaraşmaz. Məni eşşək kimi çırpmaqda pislik güdməyib ki.

Eləcə məzələnirmiş. Təbiət qanunları, qanda cilvələnən güc insanda məzələnməyi də ehtiva edir. Bu qanuna əsasən güclü gücsüzü əzişdirməli, yumruqla burnunu qulağına yapışdırmalıdır, di qurtardı getdi.

Nə olsun, mən də pişikləri döyərdim; çünki gücüm bir tək onlara çatırdı. Heç nə onun özündən asılı olmayıb. Bəli, mənə əl bulaşdırmağı qəbahət-zad yox, təbiətə uyğun gözəllik hadisəsi imiş.

Böyüdükcə də, ondakı bu gözəllik tədricən itəcək, tərzi-hərəkətləri sosiallığa köklənəcək, belə deyək, ayı boyda bir kişi siçanbəyi birisinin qabağında quzuya dönəcəkmiş.

Ancaq hərdən yenə beynimin qurdu tərpənir, “elə yaxşıdı, vaxtında gorbagor

olub", deyirdim. Yoxsa killerdən-reketdən olar, ziyanxah bir varlığa çevrilərdi. Bəşəriyyət gələcək mümkün diktatorun 10 yaşında ölməsiylə irəli düşüb. Mən heç fərz edə bilmirəm də ki, o, sağ qalsaydı, indi ölkəm hansı tarixi bataqlıqlarda eşələnirdi.

***

Bir gün qızım, hardan yadına düşdüsə, "Gündəliy"ini mənə oxumağa verdi. Orda dörd gözlə öz ad günlərimi aradım.

1-ci 15 iyul:

Bu ğün atamın ad günüdür. Biz bu ad gününü yubiley adlandırdıqsa da, atam buna sevinmədi. Nədənsə, o, nigarandı. Gözləri yol çəkirdi. Yəqin bu həm də ona görəydi ki, 50 illiyi maraqsız keçdi. Bir qazan plovla yubiley olmaz.

Mən atamda yubileylərə biganəlik kəşf etdim.

2-ci 15 iyul:

Atam həmişə özü deyər ki, plov bayramlar çırağıdır. Neçə-neçə illər fikir verib nə gördüm: həqiqətən də, plovun boranılısı qırmızı, boranısızı ağ lampaya bənzəyir. Amma işə bax, bu əziz gündə atam iştahsızdır, "qırmızı lampa"ya gözucu da baxmır. "Elə bil dipdiri bir cöngəni yeyib durmuşam", deyir.

Yox, bu dəfə də plov evimizə bayram gətirmədi.

3-cü 15 iyul:

Bu gün o, sübhün gözü açılandan özünü sevincək göstərirdi ki, biz də ona baxıb sevinək. Atam sevinəndə, biz həmişə atılıb-düşürük. Hətta anam da. Gülməlidir, anam atılanda, döşləri az qalır gedib burnuna dəyə.

Bir sözlə, atamın dodağı qaçdımı, evimizdə toy-bayramdır. Hamımız qanad taxıb uçmağa qalırıq. Qaş qaralıb, evlərdə işıqlar yananda, yanan pəncərələr kəndi təzəcə yaraşığa mindirəndə, onun sevinci söndü.

Atam yaxşıca maska taxıbmış; mən ondan belə şey gözləməzdim.

4-cü 15 iyul:

Atam öz ad günündə ağladı. Bəhanəsi də nə ola: mahnıdan təsirlənib. Axı, hanı

mahnı? Hansı mahnıdan? Biz kar deyilik - elə bir şey eşitmirdik. Birdən dalağım sancdı ki, mahnını ürəyində oxuyurmuş.

Qəribə işdi, atam başqa günlərdə şad, ad günlərindəsə qəmgin olur. Bu hoqqalar nəyə gərək.

5-ci 15 iyul:

Atamız ad günlərində dişlərini xırçıldadır. Görən, niyə? Uşaq da deyil ki, deyəm qurdu var. Sual: ay camaat, böyüklərdə də qurd olurmu?

***

Burda yorulub dayandım. Ad günlərim Həsənağanın sağ günləri idi. Görürdüm də ki, o, qızımın "Gündəliy"ində açıqca öz təsbitini tapıb: kədər şəklində. Ancaq qızım hər ilin məhz bu əlamətdar günündə ovqatıma soğan doğranmasının motivini tuta bilməmişdi.

Tuta bilməzdi də. Həsənağa çayda batandan düz 30 il sonra dünyaya gəlmiş, atasının bu biabırçı tarixçəsindən xəbərsiz qızcığaz bunu hardan biləydi.

Həsənağa boğulan gün selləmə yağış yağır, sarayımız damır və orada musiqiyə oxşar boğunuq, bir az da qorxunc səslər yaranırdı. Inəyin belinə düşən damcılar çiliklənib ətrafa səpələnirdi. …

Kəndin aşağı başında nagahan şivən qopdu. Ağızların hansı səmtə düşməsindən asılı olaraq da, səslər artıb-azalırdı. Üstəlik, ağlaşma damcılarda əks-səda verir, qənşər evlərə dalğa-dalğa səpələnirdi.

Əcəb oldu ona. Xam tapmışdı məni! Əclafın yumruğu elə də ağırdı.

Daşdı elə bil. Bir yol sol qulağımın dibini necə alışdırdısa, eləcə üstdən aşağı – ürəyiməcə ağrılar doldu. Düz üç ay ürək tərəfdəki həmin qulağımdan cin-şəyatin səsləri əskik olmadı.

İndi mənim Həsənağa boyda nəvəm var. Allah sizinkiləri də saxlasın, nəvə deyil bu, təmiz cingənədi. Hərdən elə də zirəkləşir, məni yumruqlayır. Döymür ki…, elə-belə… məzələnir. Mən nə döyüldümsə, elə uşaqlıqda döyüldüm.

Daha döyülmək vaxtım ötüb. Qurana əl basaram ki, bu saat quldurbaşılar dövrəyə ala, mənə çırtma da vurmazlar. Bunu ayıb bilər, "ə, ağsaqqala dəyməyin", - bir-birinə təpinərlər.

Təsadüfən üst-üstə qalaqlanmış illər məni xilas edir, hər cür travmatizmdən uzaqlaşdırır. Mənə əl qaldıran oğlan tapılarsa, dərhal qınaqlara tuş gələcək.

Qocalığımın qalan hissəsi də əmin-amanlıqda keçər, inşallah! İlin təkcə bir günü – mənim ad günlərimdə sag qalan, elə həmin günlərdə də o dünyadan başını qovzayıb gözlərimin düz içinə baxan

Həsənağanın varlığı da artıq məni qorxutmur.

İldə bir gün sağdısa, deməк, hələ qarşıda Həsənağanın bir ölümü də durur. Ancaq tərslikdən, o heç vaxt xəstələnmir ki, axır ölə də. Onu nə qınayasan: axı, nə vaxt xəstələnsin? Onun xəstələnmək imkanı məhduddur: hər il bir dəfə, bircə gün – mənim ad günümdə.

Xəstəliyi ölümə gətirib çıxaranacan onun sağlıq müddəti qurtarar. Belə getsə, mən özüm ölənəcən o, sağ qalacaq. İstədi-istəmədi də, onu yalnız mənimlə bir qəbrə quylayacaqlar.

Güman var, mənim üstümdə ayda-ildə bir yol ağlayalar, onunkunda – əsla. Mən indidən qəbrim üstə töküləcək göz yaşlarından ona beş-on damcı ərməğan edirəm. Bəlkə ölməzdi o: mənim badıma gedəcək.

Hayıf.

**20.06.2005 – 13.10.2006**
**(yenidən işlənib: 2008, oktyabr)**

## "UCA DAĞLAR PROTOTİPİ"

Rol bitdi.
Ya da hələ yox. Ağamusa Cabir bu rolun yalnız epizodik dirilik, süjetli-satirik hissəsini başa vurdu. Rolun davamiyyət müddəti bilinməyən süjetsiz-facianə, əbədi ölülük hissəsi büsbütün qabaqdadır.
Ölülük əbədiyyətin vacib komponentlərindəndir.

Bakıdan gələn “yas truppası” uzun illərin kədər məşq-təcrübələrində qazandığı vərdişləri bu dəfndə də uğurla göstərə bildi. Heç kəs kədəri hönkürmə dərəcəsinə, ya hətta mərasimdə iştirakını kədər səviyyəsinə çatdırmadısa da, hamı bir nəfər kimi burnunu çəkdi.

Burun çəkmək təsirli əyani görüntü, kədərin hərəki təzahürüdür.
Gətirdiyimiz bu yetkin təcrübə rayon yerinin hüzür məclisində xüsusi təntənəyə səbəb oldu. İşıqları kökdən sönmüş, otaqları qaranlıq saçan evdə hüzn elə bil rövnəqləndi. Ağamusadan ötrü saçlarını yolub, üzlərini cıran arvadlar tələm-tələsik təsəlli tapdı. Bayaqdan havada uçan çəngə-çəngə ağarmış, ya hənalı, bəzən zil qara saçlar ağaca-eyvana, çər-çəpərə qondu.

Ölən ölməsin, toya gəlirmişlər kimi geyinib-kecinmiş kişilər ikibir, üçbir gəlib ədəb-ərkanla özünü göstərir, salaməleyk-xudahafiz, çıxıb gedirdi. “Molla, bir fatihə de,” - axır biz də öz təşəbbüsümüzlə - əl qaldırıb uzaqdakı mollanı çağırmaqla, bir fatihə dedizdirib, yaallah, durduq ayağa.

Maşınımız evdən aralanan kimi, qırxlotu maqnitofonu qoşdu. Bir Şirvan aşığı “ölürəm-ölürəm”in bismillahını eləyəndə, “vaxsey, öləndən ayıbdı,” - ürəyimdə fikirləşirdim. Sonra gördüm, ə, rəhmətliyin nəvəsi, burda kim kimədi, nə “ayıb”? Ayıb - bədəndə bir-iki yer var, oralardı. Bir də noolsun havacat şəndi, axı, orda “ölürəm” sözü var və bu “ölürəm” ölənin ölməsiylə həmahəngdi. Kişnəyirsə də, aşıq demir ki - “ölmürəm”, binəva “ölürəm”, deyir.

Bakı səmtində, sağ əldə, kölgəsi uzanıb az qala qəsəbəyə çatan bir təpə gözümə dəydi. “Yas truppası”nın sezmədiyi, ya bəlkə görüb vız atmadığı bu təpə, üstünə brezent çəkilibmiş kimi, boz görsənirdi. Yəqin üzərindəki seyrək yaşıl örtüyə yıxılmış-çürümüş ağaclar boz çalar qatırdı. Desəm, güləcəksiniz, mənə elə gəldi ki, bu təpənin başını ülgücləyiblər.

Respublikada dağ-təpə dəlləkləri də olmuş olar. Olmamış olmaz.
Ağamusa Cabirin şeirlərində rastlaşdığım dağ, güman, elə bu təpədir. Dayan, deyən, onun dağ kodlu heca şeirlərindəki yalan-palanı tutmuşam. Yox, səmimi deyilmiş o; təpəni dağ adına saxtalaşdırıb. Di yaxşı, göstərin, hanı dağ? Burda dağ var? Bəlkə heç o özü də ömrü boyu dağ görməyib.

Təpə barəsində mən onun bala mismar uzunluqdasa bircəcik misrasını xatırlamıram.
“Vətən hər yerdə şişirtmə janrında özündəşeydir”, Ağamusa təqlidi fəlsəfə üslubunda deyərmiş. Vətən - bir təşbeh növüdür. Onsuz təpələr də ilkinində dağ kimi nəzərdə tutulur, sadəcə, tektonik aktivliyin zəifliyi bu imkanları daraldır. İlahi məram - dağdır. Hər kiçik təpənin məğzində bir böyük dağ durur.

Dağda böyüklük - zərurət, təpədə kiçiklik təsadüfidir.

Belədə təpəni bəyənmirlər, amma dağ kimi onun da hər qarışı Vətəndir. Düşmənlə kəllələşəndə, təpədən də bir addım geri çəkilmək istəmirsən, dağdan da. İkisinin də namusa eyni cür dəxli var. Ekstremal vəziyyətlərdə dağ zirvəsində də quylanmaq xoşdur, təpə belində də.
Bekarçılıqdısa, gəlin, bir az geniş laf edək.

Məncə, dağ törənişində tələfat daha çox olur, nəinki təpə göbələkləməsində. Təpələrdə ölü ruhları dağlardakından seyrəkdir. Özü də dağlarda ölü ruhları dirilərin ayağından tutub daim harasa çəkir. Dağla təmas elə ona görə vəhşət doğurur. Beşdə-üçdə hey eşidərsən: ay kimsə qayadan uçdu, vay, turistlər-əsgərlər qar uçqununa düşdü.

Dağlar qarlar və qaranlıqlar, dəli-qudurmuşlar, qaçaq-quldur məkanıdır.
Şiş dağlar terroristlər yuvasıdır.
T
əpələrdəsə sanki həmişə əmin-amanlıq, günəşlikdir. Üstündə durduğun istənilən təpədən qulağına musiqi sədaları çatacaq. Təpə insana dağdan simsardır. Üstəlik, təpə hərb səhnəsində "yüksəklik" şərti kod adı daşıyaraq, strateji əhəmiyyət kəsb edir və müharibələrdə dağdan faydalıdır. Təpələr uğrunda dağlardan daha çox başlar gedir. Dağ əslində dələngavaz-köntöy yerdir. Ordan ha boylan, düşmən-zad görə bilməzsən. Bədəbəddə dağ düşmənə satılar da, təpələrsə - əsla. Dağda yalnız tülkü kimi gizlənmək olar, o da müvəqqəti. Onsuz təpəgöz helikopterlər gec-tez səni tapacaq.

Təpələrdə öldü var-döndü yoxdu: qələbəyə məhkumsan.
Düşmən dağ alanda, təpə aldığı qədər sevinməz. Təpələri tərk edəndə də, onları tırtıllı tankların, iri çalovlu ekskavatorların ağzına verib, özlərini quma-toza, yerlərinisə səhraya-düzə çevirər. Bu həm də gələcək mümkün müharibələrə əl-qap hazırlıq tədbiri sayılır. Onsuz indiki müharibələrdə keçmişdəkilər kimi məğlubiyyət tanınmır. Uduzan da "qalibəm" deyir, udan da.

El içində təpələr dağlardan çox əzizlənər. Vətəndaş müharibəsində "Mancuriya təpələri"ni ruslar dağlardan üstün tutub.
Yüzillərcə təpə başlarına nə qədər bayraq sancılıbsa, hamısı uzaqdan, budu ey, açıqca görsənib. Gəl görək, kim dağ başına bayraq sanca bilər? Heç kim. Sancsalar belə, bayraq ağaclar arasında itib, onlardan biri sayılacaq. Hətta bayraq orda ağac kimi göyərər də.

Təpələrdə qələbəni lupa kimi böyütmək qabiliyyəti var.
Tarixçilər dünyada elə təpələr tanıyır ki, üstündən Makedoniyalı İsgəndər,

Teymurləng qoşunları keçib. Lakin elə həmin qoşunlar rastlaşdığı dağları yandan ötəsi olub. Dağlar maneə kimi fatehləri hirsləndirib.
Tək bircə təpəylə bütöv bir millətin tarixini çözmək mümkündür. Hər təpə bir Herodot kitabıdır. Şairlər təpələri "dağ" deyib də şişirtməkdə yanlış yapır; dağı "təpə" adıyla ucaltmaq daha məntiqli olardı. Müharibədə dağ manevrlərə-zada da əngəl törədir. Axı, nədi dağ - daş-torpaq qalağı, lüzumsuz torpaq yığnağı. Ona yalnız kütlə ağırlığından sanbal gəlir. Təpə, yeri gəlsə, irəliləyər də, amma dağ - öldür, yerindən tərpənməz. Özü də təpə dağdan istiqanlıdır; qəlblərə yaxınlığı var. Poeziyada dağ elə təbiətdəki dağ olaraq qalır da; bəzən hətta, bu saat mənim etdiyim kimi, onu alçaldırlar. Təpələrisə əbədən yüksəldir, ən azı yüksəltməyə can atırlar.

Təbiət hiperbolaya ehtiyac duymur və təpəni elə təpə kimi saxlayırsa da, bəşəriyyət onu hökmən dağ şəklinə salır. Təpə bəşəriyyətin sevdiciyidir. Bədiiyyat da təpələrdən ötrü çəkişmələri "dağlar uğrunda döyüş" kimi şəkilləyir. Halbuki heç bir tarixi məxəzdə dağ uğrunda döyüşə rast gəlməzsən. Müharibədə dağ vəzncə ağır, qiymətcə yüngül bir əşyaya çevrildiyindən, üstəlik, izafi zəhmət və xərc tələb edər deyə, onu qaçatbasdı tutmağa çalışmırlar da. Müharibələr dağ ətrafında olsa-olsa çarx kimi fırlana bilər.

Dağ siftədən kimindisə, axıracan də onun olur. Dağların işğalı nadir hadisədir və bu, həmişə təsadüfən baş verir. Dövlət başçısı gərək nə qədər eşşək ola ki, ölkəsindəki dağı əldən verə. Bir ölkənin ki dağı alındı, elə san onun başına dəyirman daşı düşdü. Şairləri nə qınayasan, onlar dağı təhtəlşüur səviyyəsində iri bilir, elə ona görə də təpələrə təşbeh qılırlar. Kiçik şey böyüyə bənzədilər; məntiq bundan ibarətdir.
"Dağ" təşbeh olaraq əbədi-əzəli klassik tapıntıdır.

Əllərim yuxarı, mən tabe, indiyəcən Ağamusa Cabir poeziyasına soyuq olmuşam. Onun kitablarını oxumağa bu top heykəlinə bənzər təpə məni vadar etdi.

Təpə - perimetri boyunca qövs cızıb keçdiyimiz bu adıbilinməz qəsəbə personajı, bir poeziya ünsürü olaraq, məni, ilişib qaldığım urbanistik mövzulardan, infarktlı-allergiyalı bir dünyadan qoparıb, təbiətə qaytara bildi. İndi yasdan sıyrılıb ölümlər istehsal edilən o urbanistik məkana cismən qayıdırdıqsa da, xəyalən artıq təbiətdə qərar tutmuşdum. Baş-bədənim Bakıya gedir, ruhum isə kompas əqrəbi kimi hey təpə səmtinə dönür.

Maşınımızdan - hərəkət edən bu həndəsi nöqtədən Bakı səmtinə və təpə istiqamətinə çəkilən iki xəyali düz xətt arasında əvvəl böyüməkdə olan iti bucaq, sonra bir anlığa 90° alınmışdısa, indi artıq böyüməkdə olan açıq bucaq yaranmaqdaydı.

Göydəndüşmə əyani vəsait olan bu təpə ilə Ağamusa Cabir poeziyasını yaxşıca manipulyasiya edəcəkdim. Get-gedə də təsəvvürümdəki Azərbaycan landşaftında bu naməlum təpənin əskikliyi duyulurdu. Barı poeziyadasa onu öyrənməklə coğrafi biliklərim tamamlanar. Onu mənəviyyatıma da möhkəmcə oturda bilsəm, elə bilərəm həyatım 180° dəyişdi. İçim təzələnər, tənzimlənər. Təpə trankvilizator kimi əsəblərimi sakitləşdirər, daha hər naqolay sözə tapança kimi açılmaram.

Düzü, əyani görüntülərsiz əksər poetik predmetlər anlaşılmır. Bütün məqamlarda üst-üstə düşməyəcəklərsə də, poetik həqiqətlər həyat reallıqlarıyla az-çox uzlaşmalıdır. Gec oldu, güc oldu, budur, bəxtım açılıb, təpə mənim üçün bir okul qlobusuna çevrilib. Bu təpə ilə bizim rəhmətliyin “dağlar”ı arasında bağlar tapacağıma ümidliyəm. Şəxsi araşdırmalarım həmin “dağ”ların bu təpədən doğulduğunu təsdiqləyər, inşallah. Şair dağları zər kimi hey atıb-tutmaqda - insanların məhəbbətini qazanmaq istəyib. Dağ ona virtual proteje edəcəkmiş. Həm də Ağamusada yüngülündən astma vardı və o, faktiki gedə bilmədiyi dağları oksigen balonları kimi şeirlərinə doldururmuş ki, tutmalar vaxtı işlətsin.

Təzə bir tədqiqat mövzusu: dünyadakı astmalı şairlərin yaradıcılığında dağ obrazı.
…Astmalı şairlərdə dağ obrazı yaşamaq instinktinin təzahürüdür.
Vaxt varsa, keçək başqa mətləblərə.

Dağın tektonik qabarmadan savayı bir şey olmadığını düşünən yox. Dağ hər kəsə yeddi arxadan dönənini xatırladır; hamıya da kişilik və vüqar aşılayır.

Dağsız ölkələr insanlarındakı qeyrət qüsurları səbəbindən işğal olunur.
Ağamusa təpəsindəki bir tala yerdə dazdı. Özü ağbəniz, dazı - qarabuğdayı. Onda poeziya kompensator funksiya daşıyırdı. Zahirindən fərqli olaraq da, poeziyasında çılxa romantikdi. Ona həmişə elə gəldi ki, romantikadan uzaqlaşsa, bir şair kimi məhv olar. Di gəl, qocala-qocala məhz elə romantika içində məhv olurdusa da, bunu elə saymırdı.

Qabaran hər şeyi ölənəcən totemləşdirdi. Denən, nə yaxşı, fallokultizmə yuvarlanmayıb.
Hə, bəli, yumruca keçəli Azərbaycan kimi bir yerdə günəşli vahə təəssüratı oyadırdı. Şüalar düz düşəndə, bu parıltılı vahədə əks edib, çevrə boyunca ətrafa səpələnər, çəpəki düşəndəsə, səkərək yan keçərdi. Bir yas məclisində Ağamusa boynunu əyib başını tərpətdikcə, keçəlindən gözümə “zayçik”lər düşməsi heç yadımdan çıxmaz.

O, həyatının ən şeriyyətli anlarında, nədənsə, mənə bambılı kimi görsənib. Bir tək o yox, istənilən şair coşanda, ətim tökülür.

Ümumən, vəcd və vəhy insanı axmaq göstərir.

Qismətinə sısqa şair düşən təpənin poetik taleyi artıq məni Ağamusanın taleyindən çox çəkir. Ağamusayla ta nə maraqlanasan - onu yer yedi, torpaq uddu, gözləri ilanlar süfrəsinə bəzək oldu.
Göyəzən təpəsini Səməd Vurğun dağ eləmədimi?
Təpə poeziyada birbaşa əbədiyyətə getmədisə, heç nə.

Ancaq Şeytana və yoxa lənət! Ağamusaya da şükür. Adsız təpəni günü bu gün göydəndüşmə təliqə əsasında dərin bir dərəyə yumbaladarlarsa da, onun Ağamusa Cabir poeziyasında pis-yaxşı surəti qalacaq.
Təpə bu məkanda uşaqlara sevinc bəxş edən yeganə yerdi. Qarlarda üstündən sürüşənlərin yüzillər boyu nə qədəri şair olubsa da, zaman hamısını bir nəfər kimi yaddaşlardan silib. Növbə Ağamusanındı. Onun unudulmuş şairlərdən yeganə fərqi və üstünlüyü təzəcə ölməsi idi.

Zaman təzə ölənlərə güzəşt edir.
Unudulma mexanizmi hamıda eynidir. Şair dəfndən sonra poetik aləmdə bir müddət sirinsiyə-sirinsiyə, canbəst qalır, can-ciyərləri, ya butulka dostları onu buruntaqlayıb çəkə-çəkə, ya cin-şəyatin kimi qaynaşaraq dalından basa-basa əbədiyyət səmtinə bir balaca apara bilirlərsə də, axır yorulub əldən düşür, az qala özlərinin də unutmaqda olduğu, getdikcə xeyir əvəzinə ziyan gətirən bu lüzumsuz ölünü başlı-başına buraxırlar.
Əbədiyyətə əli çatmayan, poeziyada şişirdilib dağ şəklinə salınan təpələr müəllifdən sonra makulatura içərisində yandırılar, onun göy-qırmızı tüstüsü buludların altını qaraldar.

Ölkədəki altı hisli buludlar ölmüş şairlərin yanmış təpələrindəndir.
Ağamusa Cabir bu təpəni dağ kimi kodlaşdırıb. Ancaq camaat da çörəyi burnuna yemir, onun yalanını çoxdan tutub. …Bir gün qulaqlarıma inanmadım: iki kişi ədəbiyyatdan-əbədiyyətdən gap edə-edə yol gedirdi, birdən biri belə bir söz işlədəsi: poeziya gopologiyadı. O biri: görün, bənzətmələrlə də həyat qurular? Bu biri: onlar "bənzətmə" yox, təşbeh-istiarə deyir. O biri: nəymiş bunun mənası? Bu biri: qanmaram.
Poeziyada təpəni dağa çevirməklə Vətəni hündürləşdirmək, Xəzəri, tünd göy göstərib də, okeanlaşdırmaq qolay bir iş. Bəlkə Vətənə vulkanlar da əlavə edək…

Ağamusa Cabir poeziyasında seysmoloji aktivlik təbiətdəkindən yüksək imiş. O, qədim zəlzələləri poetik təkanlarla gücləndirib və nəticədə təpə əvəzinə dağ yaranıb. İndi Azərbaycan bir mənbədən iki həqiqətin şahididir: təbiətdə təpə, poeziyada - dağ.

Bu bir psixoloji qanundu ki, insan öz ərazisində, gözü baxa-baxa, dağ törənişini arzulamaz. Hamı öz dövründə zəlzələləri kiçik, qədimdəkiləri böyük istər. Elə poeziya da zəlzələləri həmişə geri atır. Onsuz daha keçmişin adamları 9 yox, lap 12 bal gücündə zəlzələyə də tab gətirər; niyəsi məlum - artıq həyatda yoxdular. Onların travması-ağrısı poeziyada duyulmaz. Ağamusa bu məkanda kiçicik bir zəlzələni böyütməklə, yalnız keçmişdəkiləri məhvə uğradıb. Özü də bunu hüquqi-kriminalistik arxayınçılıqla edib. Rəhmətlik qədim insanların leş-leşə qalanmasını fəlakət-zad sanmayıb.

Qədim insan nə sevilər, nə öyülər, o yalnız, bir əhəmiyyət kəsb edirmiş kimi, tarixi-statistik sənədlərdə qorunar.
İşin kökünə varsaq, Ağamusa təpəni dağ eləməklə bəşəriyyətə qarşı cinayət törədib. Məhkəmə-hüquq sisteminin yeni aspektlərində elə oğlanlar ortaya çıxa bilər ki, onun cənazəsini qəbirdən çıxartdırar da, meyidinə ittiham oxutdurub, iş də kəsdirər.

Eşidib-bildiyimcə, “tarix nədir - yalanlar toplusu”, o deyərmiş. İşlədiyi elmi-tədqiqat institutunda da millətə verəcəyi töhfəni haq-nahaq onun tarixini qədimləşdirməkdə görüb. “Yalanı elmiləşdirdinsə, həqiqət olur”. Elmi rəhbəri “qədimləşdirmə”ni beyninə qalın bir mıx kimi çaxmışdı.
Heç bir həqiqət millətin gözəlləşdirilməsi amalından yüksək ola bilməz. Vacibliyinə görə gözəllik həqiqətdən irəlidir.

Dissertasiyasında tarixin, poeziyadasa təbiətin parlaq təqdimi onun vətənpərvərliyi idi. Bizdəki doqquz iqlim qurşağı onun qürur mənbəyi olub. O, Vətənin gölməçəsini “göl”, nə bilim, iki cüt bir tək ağacını “meşə”, qarğasını “bülbül” adlandırmaqdan fəxr duyub. Təpəsini də - dağ.

Təzəlikcə bir xasiyyət tapmışam: bala-bulanı hansı bədheybət rayonumuza aparıram-aparım, qayıdıb oralara dair bayatı-qoşmalar axtaracağam. Qoy uşaqlarım gördüklərini unudub, oxuduqlarını yadda saxlasınlar. Vətəni irreal tanısınlar, real yox. Reallıq nədir - materializm və perspektivsizlik. Tapdığım poetik məmulatı gözlərinə yedirdir, başlarına yeridir, hərdən də az qala bozbaşlarına qatıb ağızlarına dürtürəm.

Kim nə deyir desin, Vətən bir illüziya törəməsidir. Balaca Vətəndə böyük səhraları unutdurmaq gərək. Səhra nə demək ola - bulaqsız-çaysız, aqrar etibarlılığı olmayan quru hektarlar. Yubanmadan poeziyada bunları ixtisara salmalı. Onsuz Azərbaycanda səhra sevilməz. Poeziyamızda da səhra təsviri təcrübəsi yox. Bəlkə bir tək Əjdər Olda elənçi misralara rast gələsən. Əjdər Muğan çöllərini Azərbaycana olduğu kimi, bəzək-düzəksiz əlavə edir.
Hər şüa yağ damcısı,

Hara düşsə yandırır.
Ya:
Məni çölün düzündə qoruyur günvurmadan,
Bapbalaca sərçənin bapbalaca kölgəsi.

Mən üstündə dördnala atlar çapan, üfüq arakəsməli qazax çöllərini Oljas Süleymenovun nərdivan bənzərli misralarında, qırğız takırlarını Çingiz Aytmatovda, saksaullu türkmən bozqırlarınısa, işə bax, rus yazıçısı Yuri Trifonovda görmüşəm.

Bizimkilər Vətən yaşıllıqlarını can rahatlığına görə uca tutur. Həyatda yox, poeziyada bağbanlığımız əntiqəfürüşdu. Əfəlliyimizdən ilan-çayan mələşən səhraları təbiətdə çoxaldırıqsa, zirəkliyimizdən poeziyada onları azaldırıq. Əringəclikdən reallıqda torpağa bir ting sancmasaq da, “bicok”luğumuzdan poemalarda fantastik xiyabanlar salanlarıq. Poeziyamızda gül gülü, bülbül bülbülü çağırır. Sən 3-ə qədər sayınca biz yarınləblərini qızılgül ləçəklərinə bənzədərik. Qəzəllərimiz - almalı-heyvalı, içində şux məməli gözəllər gəzən bağ-bağatdır. Ordakı gülüstani-irəmlərimiz göylərdə bərq vurur. Poeziyada qol-budaqlı, sıx yarpaqlı bağları, adam deməyə də utanır, sevişmək imkanına görə artırırıq.

İdefiksimiz - leyliməcnunluqdur.

Ağaclarından turnikdə sallanırmış kimi görsənən narıncı qurdlar keçəl İsmayıllı meşələrini vəsf edən Musa Yaqubun yalanını çıxarır. Ya əksinə, qırılıb-çatılan, satılıb-sovulan Lənkəran-Masallı meşələrini gəzib-görən hər kəs dərhal Şəkər Aslanla Azad Talışoğlunun, Məmməd Kazımla Kazım Aslanlının şeirlərini tapıb gözünə təpməlidir ki, ürəyi partlamasın.

Ürək şar kimi tezpartlayandır.

Neyləyək, Azərbaycanı gözümüzdə saxlayan, təbiətə düzəlişlər edib, onu tənzimləməklə psixoloji müvazinət yaradan az-çox yenə poeziyamızdır. Gələcək səttarbəhlulzadələrlə toğrulnərimanbəyovlar gərək mənzərə naturalarını təbiətdən yox, poeziyadan götürələr. Qoy elə meşəsalanlar da poeziya kitablarını özlərinə dərslik seçsin, təbiəti ordakı ağaclarla sıralasınlar. Düzdü, bəzən şairlər qaş düzəltdikləri yerdə vurub göz çıxardır: onlarda Vətən həqiqətdəkindən naqis alınır. Ə, bu odurmu - qalın bir şeir kitabını oxuyub da anaca Vətəni tanımırsan. Ələlxüsus təqlidçi-epiqon şairlərin əsərlərində. Olub ki, mən Azərbaycanımızı Amerika ştatlarına, İspaniyanın Andalusiyasına bənzətmişəm. Postmodern mətnlərimizdəsə siçanları-bayquşları Vətən üzərinə yürüyən görərsən.

Milli poeziyada Vətən ideal-məqbul variantdır.

***

Ağamusa Cabir - ismin kökünü söz şəkilçiləriylə ölüm-zülüm qafiyələndirən, hıqqana-hıqqana bənzətmələr tapan birisi. Ömrü boyu da misralarını əyri-üyrü mismarlar kimi düzəldib. Şairlik onun üçün dəmirçilik sənəti olub. Ya dülgərlik kimi bir şey. Görənlər gülə-gülə deyir ki, bətnindən gücənərək çıxardığı ilk təşbehdəcə üzü pörtür, əzələləri gərilir, hərdən də… daldan buraxırmış.

Dağ dünyanın hər yerində vacib poeziya ünsürüdür.

Ağamusa nəzmlə yazdığı vəsiyyətində qəbri üstə mavzoley istəyib, başdaşı kimi də - büst. Oğul-uşaq ağlaşa-ağlaşa söz verib: acından mələsələr belə, bunu edəcəklər. Hər biri ayrı-ayrılıqda sinəsinə döyürmüş: heç kəs qarışmasın, bu iş mənlikdi. Ara sakitləşib, başlar soyuyandasa, atışmaq qərarına gəliblər. “Evdə xəstə uşağım var”, - hətta biri yaxasını kənara çəkib. Qalanlar atışmaya qatmaq üçün yeznələri xatırlayıb. Söz yeznələrə çatanda, onlar hə deməyiblərsə, haqqüçünə, yox da deməyiblər və öz növbəsində Rusyətdəki ortancıl yeznəni xatırlayıblar. Allah eləyə, tez gəlib çıxa, onda bizim kimi lütüşlərə ehtiyac qalmaz. Qızılçıxan yerdə işləyir, maşallah, pulunu balta kəsmir; odur ki, xətri də hamıdan əziz. Uşaq-böyük onun yanında əlini cibinə sala bilməz.
İçimizdə ən kişi yeznə odur, onlar deyib.

Hə, maddiyyatla bağlı bu əbədiləşdirmə işini bir o layiqli görə bilərdi. Bir-iki əsrdi əbədiyyəti kapital təyin edir.
Dağlar ilkin material kimi təfəkkürə uşaqlıq-yeniyetməlik çağlarında həkk olur, yalnız sonradan poeziya hadisəsinə çevrilir. Bu nümunədə həm maddənin itməməsi qanunu, həm də böyük cisimlərin kiçik cisimlərdə inikası nəzəriyyəsi bir daha təsdiqlənir, işlək hala düşür. Burada böyük cisim dağdır, balaca - insan başı. İkisi də - yumrutəhər, yumurtavari. Dağ başın böyüdülmüş forması kimi də qavranıla bilər. Görün nə deyirəm, dağ başa təsir göstərdiyi kimi, baş da dağa təsir göstərir, lakin bu təsir elə cüzi olur ki, üzdən heç nə sezilmir. Dağ başa hər şey edə bilər, baş dağa - heç nə. Misallar sonsuzdur. Şeir kitablarımızda irili-xırdalı Azərbaycan dağlarının hamısını tapa bilərsən. Hətta sonradan ovxarlanıb, yel sovurub aparmışları da. Dağlardasa Fərhadın Bisütun həkkaklığından savayı insana dair heç nə yox.

Poeziya əbədiyyət tərkibli zənn edilir. Hamı əlləşib özünü ora salmağa çalışır ki, ordan da rahatca əbədiyyətə gedə bilsin. Hətta o dünyada cənnət vəd olunanlar belə, cənnətdənsə əbədiyyətə üstünlük verir. Qorxurlar cənnət gop ola.

Əbədiyyət - əlçatandır.

Azərbaycanımızın hər evində saçısünbül, ya kəkilli, hərdən qalınqaş, bəzən keçəl, bir şair oturub, bu, millətdə həyat eşqinin, onun ölümdən qaçmaq ehtirasının təzahürüdür. Biz torpağa biganə ola bilərik, poeziyaya yox. Misralarımızda dağlarımız bilyard daşları kimi diyirlənməkdə. Xəritədə tapılmayası elə dağlarımız var ki, qoşma-gəraylılarımızda düzüm-düzümdür. Bu silsilə dağlarda bulaqlar çağlar. Poeziyamızdakı şır-şır bulaqların dişgöynədən suları təbiətdəkindən müalicəvidir.

Azərbaycanın təbii-gerçək landşaftı poeziyamızda xəyali-mifik xarakter alır və bir tək dağlarıyla qorxunc görsənir. Poeziyamızda Vətən - dağlıq bir ölkə, millətim - tanınmaz dağ camaatı…

***

Sabahı Ağamusa Cabir yaradıcılığına baş vurmağa tələsdim. Onun xatirəsinə ən yaxşı töhfəm kitablarını axıradək oxumağım olacaq. Qırxına qədər kitabları qurtarsam, onu arxayınca unuda da bilərəm. Qırxda qəbri üstə hökmən iclasa bənzər yığıncaq tutuşduracaqlar - bu imtahana hazırlaşmağım gərək. Ölüsü, bir şeirini əzbərləməliyəm. Xəfdən şeir de, desələr və mən deməsəm, onda qəbrin böyründəcə ölüb yerə girməyim yey. Kasıblığını neynirsən, artıq qarın bağlamış qardaşı, Ağamusa Cabir şöhrətinin qurucusu kimi, gələnlərdən bir-bir söz aldırıb, bütün çıxışları videokasetlərə saldıracaq. Bu, ucdantutma həbsə bənzəyəcəksə də, 40-da dediklərimiz tarix sayılacaq.

Adsız təpə Ağamusa Cabir poeziyasında uca dağlar prototipidir.

Nədənsə, birdən mən də o təpəni poeziyada dağ kimi görmək istədim. Millət dağı təpədən üstün tutursa, mən niyə elə etməməliyəm? Durub özümü dartım? Heç elə şey olar?

Vətən bəlkə də dağlar haqda mifik təəssüratlar sayəsində mövcuddur.

Hayana dönə, yenə dağ başı. Təpələrdən, uzağı, yaxın kənd evlərini, “göynən uçan beş durnalar”ı, dağ başındansa, geniş üfüqlər çərçivəsində - qərbdən üzü şərqə nə var, hər şeyi, hətta gözləini qıyıb da, Xəzəri görərsən. Dağ başında, ətəkdə-düzdə qarışqalar təki gəzişən, insanlar haqda fəlsəfi düşüncələrə dalarsan: sənə elə gələr, aşağıda onların iş-peşəsi ancaq ölməkdir.

Ölüm də yada düşdü, keç ibadətə.

Keçi kimi dağ başına dırmaşanlar gec-tez ibadət əhli olur.

Dağlar, zirvəsindən dombalaq aşanların çataçat ölüm qucağına düşmələriylə, möhtəşəmdir.

…Çağdaş insan istənilən millətdən iti düşünür…

Bayaqkı söhbətə qayıdaq: coğrafi həqiqətlər naminə mən öz millətimin sözünü qəribçiliyə sala bilmərəm.

Millətim haq-nahaq təpəni dağ adlandırırsa, qurtardı getdi, mən də elə adlandırıram. Millətin istənilən qərarı coğrafi həqiqətlərdən üstündür. Hər şey bir yana, lap elə dar gün üçün ölkəni dağlarla örtməyimiz məsləhətdi: torbayla daşıyası olsalar, qoy torpağımız gec qurtarsın. İşdi-şayəd, "Vətəni xilas etmək lazım gələrsə" də, poeziyamızdakı dağlardan düşmənə həmlələr edərik.

***

Özümü saldım Milli Kitabxanaya. İncəvara, kataloqlarda Ağamusa Cabir yaradıcılığı dolğun əks olunmuşdu. Kartotekanın tərtibindəki səliqə-sahmanda özünə büst vəsiyyət etmiş Ağamusanın səyləri nəzərə çarpırdı. Gəlib bura, kitablarını bağışlayıb, hələ kitabxanaşünaslara dəyərli məsləhətlər də verib. Lap tutalım, hər şeyi öz şöhrəti naminə edib, amma göründüyü kimi, bunlar ümumi işə də xeyirsiz ötməyib.

Düzgün tərtib olunmuş kartoteka şairi əbədiyyətə təsbit edən amillərdəndir.

Rəhmətlik əbədiyyətdə sağ olsun!

Kataloqda cəmi üç kitabı varmış. Ömrü boyu yaz-poz, poz-yaz - bə hanı, elə bu? Azdı, çox az. Eləsindən aşağı-yuxarı 15-20 kitab gözləniləndi. Kitab sayında da əbədiyyət ehtimalı gizlənir. Ağamusa belə şeyi bilməmiş olmazdı. Yəqin bilib də. Çatdırmayıb.

Nəşr ili ardıcıllığıyla, biri digərindən ədədi silsilə tipində uzun və ağır kitablarını alıb qarşıma düzdüm. Bu kitabları təpəni dağ görmək həvəsinə oxuyacaqdım. Metodoloji cəhətcə düzgün deyildisə də, Ağamusa şeirlərini həm gələcək oxucunu nəzərə alaraq, həm də əbədiyyətə öz gedişini asanlaşdırmaq üçün, yazılma tarixlərinə uyğun xronolojiliklə yerləşdirmişdi. Budur, gül-bülbül şeiri. Ardından sülh və müharibə mövzusu gəldi. Sevgini lapdan nifrət əvəzləyir. Faciə komediyaya keçir, barmaqlarını yaşlayıb vərəqi çevirən kimi də, komediya - faciəyə. 2 şər-şəbədə şeiri, dalısınca 1 - xeyir-bərəkət, ya tərsinə. Bir-iki səhifə də adlayırsan - ölkədə rüşvəti və rüşvətxorluğu neştərləyən nəzm nümunələri pırtlayıb üzə çıxır. Əlbəttə, bu həftəbecər tərtibatda qanunauyğunluq da vardı:

yaradıcılığında tək bir mövzunu araşdırası tədqiqatçı məcburdu onu bütünlüklə oxusun.

Gələcək tədqiqatçılar Ağamusa Cabirin tilovuna kütüm balıqları kimi düşəcək.

Rəhmətliyin fantaziyası anlaşılmaz mexanizmlə işləyirmiş: bu gün onu, arvadağanın böyründəcə, hicran yandırıb-yaxıbsa, sabah, öz ata-baba yurdunda, stulda otura-otura - Vətən həsrəti alovlandırıb. İçində siyasət qıvrılırmış. Hesabını da düz götürüb - mən onun gələcəyə tuşlanmış fırıldağının ilk qurbanına çevrildim. Artıq təpəni araşdırmaq üçün onun kitablarını sətirbəsətir oxumalı idim.

1-ci kitabı, məsafə baxımından, Ağamusanın keçmişinə, 3-cü - gələcəyinə yaxındı. O, 1-də idealistdi, 3-də - materialist. 2-cidə nə ondandı, nə bundan. Ortayacan miyanə romantik, ortadan sonra - dişsiz realist. Yox, 2-ci kitabı onun poeziyasını dəyərləndirmək üçün əsas götürülə bilməz. Üzümü indiki və hələ doğulmamış gələcək tədqiqatçılara tutub deyirəm: e-he-hey, 2-yə məbada vaxt itirəsiniz!

Tədqiqatçıların vaxtına nə qədər qənaət edilsə, gələcəyimiz bir o qədər parlaq olar. Kim də onun gəncliyini araşdıracaqsa, əl atsın 1-ci kitabına. 3 - gəncliyi üçün xas deyil. Düzdü, əksinə, o, 3-də məhəbbət şeirlərini artırıb, lakin mən o şeirlərdə məhəbbəti siyasiləşən gördüm.

Siyasiləşməsi - məhəbbətin qocalığıdır.

Ağamusa Cabir 3-cü kitabında nə qədər vəzifəlini şahlar məskəni poeziyaya gətiribsə də, Allah insafını kəsmişlərin bircəciyi, ya onların adından bir nümayəndəsə, dəfndə gözə dəymədi. Eşşək nə bilər zəfəran nədi. Dəfni, Ağamusanın yarımca kupleti belə qıydığı, qara-qura yerliləri yola verdi. Denən, qansızlar onun varlığından xəbər tutmuşdularmı ki, hələ bir yoxluğundan da xəbər tutaydılar? Ölümün bilinməsi üçün öncə olumun bilinməsi vacib.

Nə gizlədim, məni də Ağamusanın dəfninə yolda darıxmamaq üçün aparmışdılar - mırt vurmağa.
Onun yaradıcılığında dağlar qoyun sürüsü kimi ancaq 1-ci kitabda burunlarını yerə dikib.

Məni qoca çağlarım
Asimandan düşürdü.
Düşən kimi dağların
Kölgəsində üşüdüm.

“Dağlar”, yəni prototip.

Yamaclara aşanda,
Zirvədən dağ kəlləri.
Mən onları daşlara
Təşbeh qıldım əlbəəl.

İndi də - 3:

Hər dağ çayı – “dəli Kür”.
Dağ boydadır ad-sanı.
O, zirvələrdən görür
Bütün Azərbaycanı.
“O” - yəni O.

Yenə 1:

Zirvələrdə at belində uzandım,
Buludlardı, axıb getdi gözümdə.
Otardığım qoyunları sel aldı,
Qoyunlarla yumbalandım özüm də.
Şeirin dodaqqaçdı növüdü bu.

Şair qoyunlara, qoyunlar da şairə dəyə-dəyə - ətəyəcən sağ-salamat yumbalanıblar. Təsəvvür edirsiniz?
Onun bədii faktları inandırıcı deyil. Eləsi toyuğu qartal kimi də təsvir edər. Ya qartalı - arvadların dən səpəcəyi toyuqlar kimi. …Zirvədə, at belində uzanasan, özü də üzü yuxarı - yalnız ağlı topuğunda olanlar belə edər. Üstəlik də, görən, dağ başında hansı yeməli otlar olur ki, bu, qoyunları oraya dırmaşdırıb? Bəyəm qoyunları ətəklərdə otarmırlar? Bax, Ağamusanın qoyunları dartıb zirvəyə çıxarmağındanca bilmək olar ki, onun “uca dağ” adlandırdığı yer əslində alçaqca bir təpədir. Örüşdən qayıdan sürüdə bir-iki şıltaq toğlunun şıllaq ata-ata təpə başına çıxması anlaşılandı. Bu şeirdə dağ xaraktercə təpədir.

Bir az boşsunuzsa, Ağamusa Cabirin mövzuyla səsləşən başqa kupletlərinə də göz ataq.

1.

Vətənimin hər bucağı mənimdir,
Soruşmayın haralıyam, haralı!
Qərbi qərbim, şərqi şərqim, ölməyə,
Şimalı da, cənubu da yararlı…

2.

Onun Şərqi
Nəğməm, şərqim.
Onun qərbi
Mənim qəbrim.
“
Haralı” və “yararlı”, “şərq” və “qəbir” - insafən, bunlar qulağı didməyən qəşəng qafiyələrdir.

***

Bir gün yuxuda Ağamusanın doğulmamış, ata-ana öldüyündən, doğulmayacaq da bacısı onun bir şeirini mənə uzatdı.

Bizim dağlar

Dərin uçurumlar deşib torpağı,
Az qalır quşun da gözü qaralsın.
Dərələr dağ boyda çöküb aşağı,
Çöküb ki, qayalar, dağlar ucalsın.

Təpələr uşaq tək boynunu burub,
Dərələr torpağın qırışlarıdır.
Sükutun bağrına sancılıb durub –
Dağlar babaların başdaşlarıdır.

Burda aynası var hər bir qayanın,
Bulaqlar hardansa qopub, sürüşüb.
Sanki qaranəfəs olmuş ceyranın,
Gözləri daşların içinə düşüb.

Yorğun yolçular tək verib diz-dizə,
Buludlar dağların dərdi, qəmidir.
Kollar da su içir, düşüb həvəsə,
Bulaqlar su dolu sərnic kimidir.

Çaylar tər içində cumur qabağa,
Köpüklər elə bil quzey qarıdır.
Necə də çırpılır, dəyir torpağa,
Daşlar dağ çayının yumruqlarıdır.

Dağların başında nədir ağaran?
Soyuq fikirmidir, Günəş əridir?
Hər qaya altında yatan mağara,
Dağların havalı ciyərləridir.

Təpələr uşaq tək boynunu burub,
Dərələr torpağın qırışlarıdır.
Sükutun bağrına sancılıb durub –
Dağlar babaların başdaşlarıdır.

Şairin sağlığında yazmadığı bu şeir, yuxunu obaşdan gördüyümdən, nöqtə-vergülünəcən yadımda qalmışdı. Özüm şeir yazırcasına, oturub bəndləri kağıza köçürdüm. Nə yaxşı, saatı əvvələ qurmamışam: Ağamusa Cabirin bu laübalı misraları əldən çıxacaqdı.

Onun doğulmamış-doğulmayacaq bacısının gətirdiyi yazılmamış-yazılmayacaq bu şeir maddi dünyanın obyektiv qanunlarına zidd olaraq yaranmış, göyün uca qatlarından məhz Ağamusanın adına göndərilmişdi.

Ağamusa Cabirin yaradıcılığı bəlkə hələ indi başlayırdı. Bundan sonra mənə göylərin şeir poçtalyonunu sübh yuxularında gözləmək qalır.

2008, aprel - dekabr